**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**TARİX FAKÜLTƏSİ**

№2(8) 2023

ISSN: 2708-3934 (Print)
ISSN: 2708-3942 (Online)

# “Türk dünyası gənc tədqiqatçılar dərnəyi”nin Araşdırmaları

## Studies of the Turkic World Young Researchers Association

***Türkiyə Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunur***

# 2(8)

**Bakı - 2023**

№2(8) 2023


<u>*Baş redaktor:*</u> Sevinc Ruintən / Sevinj Ruintan
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

<u>*Redaktor müavini:*</u> Səidə Quliyeva / Saida Quliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

<u>*Redaksiya heyəti:*</u>

Arzu Məmmədova /Arzu Mammadova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Cavid Əlisgəndərli / Javid Alisgandarli
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
Elvira Lətifova / Elvira Latifova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
İqbal Ağayev / Igbal Agayev
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kader Özlem / Kader Ozlem
*Uludağ Universiteti, Bursa, Türkiyə / Uludag University, Bursa, Turkey*
Kəmalə Nəcəfova / Kamala Najafova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kərəm Məmmədov / Karam Mammadov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Qismət Davudov / Qismat Davudov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Lalə Əliyeva / Lala Aliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Murat Jane / Murat Jane
*İstanbul Aydın Universiteti, Türkiyə / İstanbul Aydın University, Turkey*
Rövşən Hətəmov / Rovshan Hatamov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Sevinc Qasımova / Sevinj Qasımova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Talqat Moldabay / Talqat Moldabay
*L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstan / L.N.Gumilyov Eurasian National University, Kazakhstan*
Vladimir Redçenko / Vladimir Redchenko
*N.Q.Çernışevski adına Saratov Dövlət Universiteti, Rusiya / Saratov State University, Russia*
Zərifə Nəzirli / Zarifa Nazirli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*


Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları, 2017
Bakı Dövlət Universiteti, Azərbaycan

# Redaksiyadan

Bakı Dövlət Universiteti "Türk xalqları tarixi" kafedrasının 25 illik yubileyi münasibətilə 2017-ci ildən nəşrinə başlanmış "Araşdırmalar" kafedranın nəzdində fəaliyyət göstərən "Türk dünyası gənc tədqiqatçılar" dərnəyinin jurnalı olaraq təsis edilmişdir.Türk xalqları tarixi kafedrasının və Tarix fakültəsi Elmi Şurasının qərarları ilə nəşr edilən jurnala yalnız tələbələr məqalə təqdim edə bilərlər. Məqalələr 4 dildə qəbul edilir: Azərbaycan, türk, rus və ingilis dillərində. Jurnalda Türk dünyası gənc tədqiqatçılarının tarix üzrə araşdırmaları ilə bərabər, həm də ümumilikdə gənc tarixçi tələbələrin Türk dünyası ilə bağlı araşdırmaları dərc edilir.

Jurnalın hazırki sayı Türkiyə Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunur.

*Redaksiya ilə əlaqə:* txt_kaf@bsu.edu.az
*Jurnalın web-səhifəsi:*http://history.mamedov.co/turk-dunyasi-genc-tedqiqatcilar-derneyi-nin-arasdirmalari

## MÜNDƏRİCAT / CONTENTS

*Türkiyə elmi ədəbiyyatlarında "Kamalizm" anlayışı*
Ayşən Hacıyeva (Qərbi Kaspi Universiteti),
Nuranə Quliyeva (Azərbaycan Universiteti) ........................ 6
*Köləlikdən sultanlığa - Sultan Baybars*
Azər Həndəmov (Bakı Dövlət Universiteti) ......................... 16
*Bayandurlu Osman bəyin "Yülük" və "İlig" ünvanları (Türkiyə müəlliflərinin araşdırmaları əsasında)*
Bəyim Haxverdiyeva (Azərbaycan Universiteti) ................. 28
*Cəfər Cabbarlının "Od gəlini" pyesində obrazlar və onların tarixi reallığı*
Cavid Nəbiyev (Azərbaycan Universiteti) ........................... 36
*Halil İnalçık və Osmanlı tarixi məsələləri*
Elşad Quliyev (Bakı Dövlət Universiteti) ............................ 43
*Müasir dövrdə ABŞ-da arxiv sənədlərinin komplektləşdirilməsi, dəyərinin ekspertizası, mühafizəsi və əlçatanlığın təşkili məsələlərinə dair*
Gözəl Həbibullayeva (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti)......................................................... 61
*Çinin Yaxın Şərq siyasətində Səudiyyə Ərəbistanı istiqaməti*
Həmidə İsgəndərova (Bakı Dövlət Universiteti) .................. 80
*Теоретический подход к проблемам этнического сепаратизма*
Ниджат Мамедзаде (Бакинский Государственный Университет) ………………………………..…………… 92
*Şərqi Avropada yaşayan türk tayfa birləşmələri. Qıpçaqlar*
Nurlana Məmmədova (Bakı Dövlət Universiteti) ................ 103
*"Kitabi-Dədə Qorqud" dastanının Günbət nüsxəsində mövcud olan mifoloji ünsürlər*
Samirə Rzayeva (Azərbaycan Universiteti) ......................... 115

*Azərbaycanda Rusiyanın təcavüzkar siyasətinə qarşı Osmanlı imperiyasının mübarizəsi*
Səriyyə Sadıqova (Azərbaycan Universiteti) ........................ 121
*Türkiyə: İmperiyadan Cümhuriyyətə aparan yol*
Şəhla Məhyəddinli (Bakı Dövlət Universiteti) ..................... 129
*Hindistanda Qaraqoyunlu dövlətçiliyi – Qütbşahlar*
Tural Qaffarov (Bakı Dövlət Universiteti) ........................... 148
*The policy of using the double-standards approach of major powers (as an example of Armenia's aggression against Azerbaijan)*
Ülfər Məmmədli (Bakı Dövlət Universiteti) ……………… 162
*Bayandurlu - Məmlük və Bayandurlu - Osmanlı münasibətlərində Sara Xatunun rolu*
Zeynəb Alışova (Azərbaycan Universiteti) ……………….. 173

№2(8) 2023

**UOT 94**

**AYŞƏN HACIYEVA**
*Qərbi Kaspi Universitetinin*
*"Tarix müəllimliyi" ixtisası üzrə IV tələbəsi*
**ayiwhaciyeva@gmail.com**

**NURANƏ QULİYEVA**
*Azərbaycan Universitetinin*
*İqtisadiyyat ixtisası üzrı IV kurs tələbəsi*
**nurane2391@mail.ru**

# TÜRKİYƏ ELMİ ƏDƏBİYYATLARINDA "KAMALİZM" ANLAYIŞI

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Hazırki məqalədə Türkiyədə Cümhuriyyət quruculuğunun ilk dövrlərində kamalizm ideologiyasının meydana çıxması, formalaşması, onun formalaşmasına təsir edən düşüncə və fəlsəfi cərəyanlar, ümumilikdə "kamalizm" anlayışının mahiyyəti kimi məsələlər araşdırılmışdır. Həmçinin, quruluşunun ilk illərində dünyəviliyə keçidi təmin etməli olan təşkilatların qurulması, onların fəaliyyətini tənzimləyəcək qanunların qəbul olunması nəzərdən keçirilir. Tarixi məlumatlar əsas istinad mənbəyi götürülməklə bərabər, Mustafa Kamal və onun silahdaşlarının çıxış və bəyanatları, fikirləri də diqqətdən kənarda qoyulmayıb. Və bütün bu məsələlərə, Türkiyə tədqiqatçılarının əsərləri əsasında aydınlıq gətirilməsinə cəhd edilib.*

*Açar sözlər*: Milli Mübarizə, Türkiyə Cümhuriyyəti, Kamalizm, Türkiyə elmi ədəbiyyatı.

***Giriş***. Cümhuriyyət quruluşunun 100-cü ildönümünü qeyd etdiyimiz Türkiyə cəmiyyətinə münasibətin birmənalı olmadığı sirr deyil. Bir sıra araşdırmalarda və bəyanatlarda Türkiyənin "ən böyük problemlərindən birinin" demoktarik dəyərlərin pozulması olduğu qeyd edilir. Türkiyə Cümhuriyyətinin quruculuq fəlsəfəsinə kamalizmin təsirlərinin yüksək olduğu baxımından, cəmiyyətin bugünki problemlərini anlamaq üçün kamalist ideologiyanın mahiyyətini bir daha nəzər-

dən keçirilməsinin zəruriliyi qaçınılmazdır. Bu mənada, hazırki məqalədə Türkiyə müəlliflərinin əsərləri əsas götürərək (əsasən də, Prof. Dr. Abdurahman Çayçı, Prof.Dr. Fatma Yurttaş, Prof.Dr. Fahir Armaoğlu, Prof.Dr. Cemal Fedayi, Prof.Dr. Mardin Şerif və b.), ilk növbədə kamalizm anlayışına aydınlıq gətiriləcəkdir.

***Kamalizm anlayışı və mahiyyəti***. Bir sıra elmi tarixi ədəbiyyatlarda "Kamalçılar"/"Atatürkçülər" anlayışının ilk dəfə 1920-ci ildə İstanbulda İngiltərə Ali Komissarı olmuş Admiral Ser Con de Robekin (Sir Jhon De Robeck) hesabatlarında işlədildiyi haqda məlumatlara rast gəlmək mümkündür [1, s.72; 2; 3; 4]. Digər bir fikrə görə, "kamalizm" anlayışı ilk dəfə fransız müəllif Mişel Paillersin (Michel Paillares) 1922-ci ildə Parisdə nəşr edilmiş "Müttəfiqlərin gözündə kamalizm: kamalizmin meydana çıxması, Sevr müqaviləsi, Ankara müqaviləsi, Şərqdə sülhə dögru" ("Lé Kémalisme devant les Alliés; l'entrée en scéne du Kémalisme, le traité de Sévres, I'accord d'Angora, Vers la paix d'Orient". Paris, Edition, du "Bosphore", 1922) adlı kitabında işlədilmişdir [5, s.310]. Buradan belə qənaətə gəlmək olar ki, "kamalizm" anlayışı ilk dəfə Türkiyədə baş verənləri anlamağa çalışan xarici müəlliflər tərəfindən işlədilmişdir.

Lakin günümüzdə kamalizmin fərqli tərifləri də mövcuddur. Belə ki, elmi ədəbiyyatlarda kamalist ideologiyanın fərqli şəkildə xarakterizə edildiyini, həmçinin "Atatürkçülük", "Atatürkçü düşüncə sistemi" kimi anlayışlardan da istifadə edildiyini görmək mümkündür. Məsələn, araşdırmalarında "kamalizm" anlayışından istifadə edən Türkiyəli sosioloq, siyasi elmlər araşdırmaçısı Şerif Mardin yazır ki, kamalizm Cümhuriyyət Türkiyəsində Osmanlı İmperiyasından bəzi əsas struktur elementləri dəyişdirmək və onların yerinə yeni dünya sivilizasiyasına doğru ilk addım sayılan Qərb sivilizasiyasından ilham almış bir toplumla əvəz etmək məqsədi daşıyan bir baxışdır. Onun fikrincə, bu dünyagörüşünü bir neçə mərkəzdə toplayıb dövlət siyasətinə çevirən Mustafa Kamal Atatürk olduğundan yanaşma onun adını daşıyır [3, s.181].

Digər fikirləri nəzərdən keçirərsək,

- Salahi Sonyel, Bilal Şumşir və b. görə, "Atatürkçülük" adını Birinci Dünya Müharibəsinin sonunda Anadolunun işğalına qarşı milli müqavimətin lideri Mustafa Kamalın adından almışdır. Bu müqaviməti qırmağa çalışan imperialist güclər və onların işbirlikçisi Damat Fərid hökumətləri bir qədər aşağılayıcı yanaşma ilə bu müqavimət hərəkatı iştirakçılarını "kamalist" və ya "kamalilər" adlandırdılar [4; 5, s.309];
- Şərafəttin Turana görə, ölkə daxilində imperializmin əlaltıları olan qüvvələr, sadəcə Mustafa Kamal və onun tərəfdarlarını deyil, eyni zamanda bütünlükdə Kuva-yi Milliyyə hərəkatını Osmanlında Cəlali üsyanları ilə eyniləşdirərək, hərəkat üzvlərinə "kemaliler" deyirdilər [5, s.309];
- Yuxarıda deyilənlərə münasibət bildirən Mustafa Albayrak adlarını qeyd etdiyimiz müəlliflərlə razılaşaraq qeyd edir ki, əslində bu yanaşmalar doğru olmayıb. Belə ki, kamalçılar sadəcə Anadoluda deyil, getdikcə Şərqin bütün müsəlman torpaqlarında artan nüfuz qazanmış, nəticə etibarı ilə bu müqavimətə maddi və mənəvi dəstək verən cəmiyyətlər bu müqaviməti Kamalçı (Atatürkçü) Zəfər olaraq xarakterizə etmişlər: "və beləliklə, Kamalist Zəfər (və ya, Atatürkçü qələbə) yalnız türk millətinin deyil, Şərqin müstəmləkə cəmiyyətlərinin də qürur və ümid işığı kimi parlamağa başladı" [5, s.309-310];
- Atatürkün mənəvi qızı, tarixçi və sosioloq, professor Afət İnana görə, Türkiyə Cümhuriyyətinin qurulmasından sonra qərb dövlətləri Türk milli dirənişinin zəfərini qəbul etmək məcburiyyətində qaldılar və qərb alimləri, o illərdə gündəmdə olan kommuniz və faşizm kimi ideologiyalardan fərqli xüsusiyyətlərə malik olan Türk milli ideologiyasını qurucusunun adına uyğun olaraq, kamalizm adlandırdılar [5, s.310].

Digər bir fikrə görə, kamalizmin rəsmi ideologiya olaraq formalaşması CHP-nin 10-17 may 1931-ci ildə keçirilmiş III qurultayı ilə bağldır. Belə ki, 1930-cu illərdə dünyada sürətlə bir partiyalı totalitar rejimlər qurulurdu (İtaliyada faşizm, Almaniyada nasional-sosializm, SSRİ-də kommunizm). Atatürkçü ideologiyanın yaradılmasının əsasında ya bu rejimləri örnək götürmək, ya da öz ideologiyasını yaratmaq fikrinin dayandığı bildirilir. Nəticədə, Türkiyə Cümhuriyyəti öz

ideologiyasını formalaşdırmağa üstünlük verdi. Bununla belə, Mustafa Kamalın ideologiyalara və doktrinalara qarşı olduğu da məlumdur. Ədəbiyyatçı və diplomat, "sol atatürkçü" Yakup Kadri Karaosmanoğlu Atatürkün məsələyə münasibətini belə izah edir: "Bir gün (*Atatürk*) Cümhuriyyət Xalq Partiyasının prinsiplərini nəzərdən keçirirdi. Mən o vaxt təkəbbürlə dedim: Paşam, bu, hər baxımdan inqilab partiyasıdır. İnqilab Partiyası isə bir ideologiyaya, doktrinaya arxalanmadan fəaliyyət göstərə bilməz. Bir məsumun üzünə baxan kimi mənə baxdı və gülümsəyərək dedi: Onda donarıq" [6]. Yalnız Atatürkün ölümündən sonra "Atatürk mərkəzli", dünyaya, dəyişikliyə və hər cür tənqidə qapalı elitar, "doqmatik kamalizm" ortaya çıxdı. Xüsusilə, 1946-cı ildə demokratiya ilə üzləşmək məcburiyyətində qalan CHP kamalizm vurğusunu artırdı [7, s.37].

1930-cu ildə, CHP-nin III qurultayında partiyanın 8 bölümdən ibarət proqram qəbul edildi. İlk bölümlərdə partiya proqramının əsasları göstərilirdi: Cümhuriyyətçilik, Milliyyətçilik, Xalqçılıq, Dövlətçilik, Dünyəvilik və İnqilabçılıq. CHP-nin 6 ox olaraq şəkilləndirdiyi, bir-birini tamamlayan, Kamalizm olaraq təqdim edilən bu prinsiplər, günümüzdə Atatürkçülük olaraq da adlandırılmaqdadır [8, s.214]. Əslində bu prinsiplər TBBM-nin açılışından 1931-ci ilə qədər olan dövrdə məlum idilər, sadəcə 1929-1930-cu illərdə yaşanmış iqtisadi böhran dövlətçilik prinsipinin də onların sırasına əlavə olunması ilə nəticələndi. Daha sonra, 5 fevral 1937-ci ildə Konstitusiya dəyişikliyi ilə dövlətin təməl prinsiplərinə çevrildilər və, o zamanki deyimi ilə kamalizmin, bu günki deyimi ilə Atatürkçülüyün əsasını təşkil etdilər [yenə orada]. Kamalizmin artıq beynəlxalq dilə daxil olduğunu qeyd edən türkiyəli politoloq, siyasətçi Ahmet Taner Kışlalı kamalizm mütərəqqi bir ideologiya olduğunu da qeyd edir [9].

Kamalizmdən sərt bir ideologiya kimi siyasi qütbləşmədə istifadə edilməsi 1960-cı ildən sonrakı dövrə aiddir. Bu dövrdə kamalizm / atatürkçülük müzakirələrinin artdığı görünməkdədir. Bu gərgin müzakirə mühitində təbii olaraq kamalizmin bir yox, birdən çox təfsiri işlənib hazırlanmış oldu [10, s.88]. "Bu gün ölkəmizdə Atatürkçülük yox-

dur, kamalizm var" deyən siyasətçi, professor Hikmət Özdəmirin fikrincə, hər kəsin kamalizmi özünəməxsusdur və tək bir səliqəli doktrinadan danışmaq mümkün deyil [11, s.246].

Bu kontekstdə "Kamalizm necə bir ideologiyadır?" sualı ağıla gələ bilər. Bu suala Şərif Mardinin "sərt" və "yumşaq" ideologiyalar ayırmasından istifadə etməklə cavab vermək olar. Məlum olduğu kimi, Mardin sərt ideologiyaları "sistemli şəkildə işlənmiş, təməl nəzəri əsərlərə əsaslanan, elitanın mədəniyyəti ilə məhdudlaşan güclü məzmunlu bir quruluş", yumşaq ideologiyaları isə kütlələrin "çox daha amorf inanc və informasiya sistemləri" olaraq təyin edir". Nəticədə kamalizm cümhuriyyətçilik, millətçilik, xalqçılıq, etatizm, dünyəvilik və inqilabçılıq kimi əsas prinsiplər ətrafında ideologiyalaşdırılıb. Halbuki kamalizm də marksizm kimi bütün həyatı izah etmək iddiasında deyil. *Kamalizm digərlərindən daha yerli və tarixi, daha orijinal siyasi düşüncə sistemidir*. Şərif Mardinə görə, bu səbəbdən kamalizmin çevikliyi ehtiva edən yumşaq ideologiyalar kateqoriyasına aid olduğunu söyləmək olar [12].

Kamalizmin Türkiyədə sağ-sol ayrılığının və ya hər hansı digər ideoloji qütbləşmənin qarşısını alan hakim bir ideologiya olduğunu da söyləmək olar. Amma kamalizmin özünün də "sağ" və "sol" şərhləri var. Sol kamalizmin başlanğıcı olaraq "Kadro hərəkatı"nı qeyd etmək mümkündür. "Kadro hərəkatı" 1932-ci ildə "Kadro Magazine" ətrafında formalaşmışdı. Jurnal Yakup Kadri Karaosmanoğlu, xüsusilə Türkiyə Kommunist Partiyasının keçmiş rəhbərləri Şevket Süreyya Aydemir, Vedat Nedim Kör, İsmayıl Hüsrev Tökin və Burhan Asəf kimi sosialistlər tərəfindən nəşr olunan bu jurnal, "kamalizm prinsiplərini yanlış yorumladığı" səbəbindən 1935-ci ildə bağlandı. "Sol kamalizm"in ikinci şərhi 1961-ci ilin sonunda bir qrup kamalist solçu ziyalının (xüsusilə Doğan Avcıoğlu və İlhan Selçuk, həmçinin Mümtaz Soysal, Camal Reşit Eyüboğlu və Hamdi Avcıoğlu) bir araya gələrək "Yön" jurnalını nəşr etməyə başlaması ilə ortaya çıxdı. 12 martdan sonra sol kamalizm daha çox "Cümhuriyyət" qəzetində köşə yazarı olaraq çalışan və ya məqalələri bu qəzetdə dərc olunan ayrı-ayrı ziyalıların müdafiə etdiyi bir ideologiyaya çevrildi. Bir qədər sonra, sol

hərəkatda özünü göstərən bölünmə səbəbindən oxucu sayının da azalması nəticəsində, 1967-ci ildə bağlandı [13, s.477-479; 14].

"Sağ kamalistlər"in 1946-1960-cı illər arasında Demokrat Partiyası ilə meydana çıxdığı hesab oluna bilər. Başda Cəlal Bayar olmaqla, Demokrat Partiyasının yüksək səviyyəli rəhbərləri kamalizmi "tamamlanmamış bir sivilizasiya layihəsi" olaraq görüb, onu yenidən şərh etməyə çalışıdılar. Hətta kamalizmin təməl prinsiplərinin Vahid Partiya özbaşınalığı ilə pozulduğunu iddia edərək, kamalizmi bərpa etmək ideyası ilə yola çıxdılar. 1980-ci ildən sonra sağ kamalizmin "Türk-İslam Sintezi" ideyası ətrafında yenidən formalaşdığını söyləmək olar [15].

***Kamalizm və demokratiya arasındakı problemli münasibət***. Demək olar ki, kamalizmin təməl prinsipləri Azad Cümhuriyyət Partiyasının (AKC) sayəsində ortaya çıxdı. Çünki SCF Proqramı 12 maddədən ibarət olsa da, ən azı aydın idi və CHF-nin Doqquz Ümdesi (prinsipləri) olsa da, o, həqiqətən bir proqram kimi uyğun gələ bilməzdi. Kamalizmin təməl prinsipləri sayılan Cümhuriyyətçilik, Millətçilik, Dövlətçilik, Populizm, Sekulyarizm və İnqilabçılıq daha sonra Cümhuriyyət Xalq Partiyasının (CHF) proqramını formalaşdırdı [8, s.214].

Atatürkçü ideologiyanın əsas məqsədi dünyəvi, müasir və qərbli bir cəmiyyət yaratmağa çalışmaq, türk millətini homojen və ahəngdar bir cəmiyyətə çevirmək kimi ifadə edilə bilər. Mustafa Kamal Atatürk tərəfindən qurulan (Cümhuriyyət) Xalq Partiyası, yeni bir cəmiyyət yaratmaq ideyası üçün bir vasitə olaraq hazırlanmışdır. Yarandıqdan sonrakı illərdə partiya tədricən siyasi praktikanın mərkəzinə çevrildi. Partiyanın varlığından və fəaliyyətindən asılı olmayaraq heç bir siyasi fəaliyyət düşünmək mümkün deyildi. Bunun əsas səbəbi partiyanın millətlə, millətin dövlətlə, dolayısıyla partiyanın eyni zamanda dövlətlə eyniliyi hesab edilməsidir. Partiya-dövlət kimliyinə görə partiyanın proqramları konstitusiyalara bərabər olan təsis mətnləri kimi qəbul edilirdi [16].

Kamalist millətçilik anlayışı populizm anlayışı kimi yekcins (homojen) bir cəmiyyət yaratmağı hədəfləyir. Bu cəmiyyətdə fərqliliklərin mövcudluğuna və ifadə olunmasına icazə verilmir. Bu səbəbdən kamalizmin demokratiyadan çox milli birlik və bütövlük üçün səy

göstərdiyini söyləmək olar. Kamalizmin özünü müasirləşmiş rasional dünyəvi siyasi birlik yaratmaq üçün bir vasitə kimi təqdim etməsi və özünü ona həsr etməsi millət olmanın, bu mənada millətçi olmağın isə vətəndaş olmağın ilkin şərtinə çevrilir. Bu kimlik zənciri özü ilə legitimlik problemini də gətirir. Çünki ənənəyə məhəl qoymamaq tez və dərin münaqişələrə səbəb olur. Bu səbəbdən modernləşmə layihəsinin legitimliyinin təmin edilməsi problemi kamalistləri tarixə və etnik mənşəyə qayıtmağa məcbur etdi. Bu çərçivədə dövlət qurumlarında türk millətinin tarixi və etnik mənşəyi ilə bağlı araşdırmalara başlanıldı [17, s.84-85].

***Nəticə.*** Kamalizmin demokratiyanı ehtiva edib-etməməsi günümüzün mühüm müzakirələrindən biridir. Qəyyumluq (qorumaçılıq) anlayışı çərçivəsində kamalizm və demokratiya münasibətlərini araşdıran fikirlərə görə, kamalizm əslində bir qəyyumluq ideologiyasıdır və demokratiyaya keçidin ilkin şərtlərini hazırlamışdır. Burada qəyyumluq anlayışı rejimin, partiyanın və ideologiyanın daimi və daimi avtoritarizmə can atmadığı, əksinə, cəmiyyəti modernləşmə nəzəriyyəsində başa düşülən (Qərb tipi) demokratiyaya hazırlamaq məqsədi daşıdığı fikrini ehtiva edir.

Çoxpartiyalı siyasi həyata yumşaq keçid təkpartiyalılıq dövrünün bu qəyyumluq xarakteri ilə izah olunur. Bu fikirdə olanlar təkpartiyalı rejimin əslində məhdud da olsa plüralizmə malik olduğunu, CHP-nin yuxarıdan-aşağıya doğru yanaşmalı elitist bir partiya kimi qələmə verilsə də, cəmiyyətin heç bir hissəsini istisna etmədiyini, kamalizmi vurğulayırlar, təkpartiyalı rejimi müdafiə etmir və onu ideologiyaya çevirmir. Lakin çoxpartiyalı siyasi həyata keçid heç də göründüyü kimi "yumşaq" olmayıb. Dövrün daxili və xarici şərtləri, demokratiyanın ən mühüm elementlərindən biri olan "çoxpartiyalı rəqabət sistemi" məcburedici oldu. Türkiyədə demokratiyanın vaxtaşırı hərbi müdaxilələrlə kəsilməsi və buna görə də demokratik institutlaşmanın əldə olunmaması da keçidin asan olmadığının göstəricisidir.

Demək olar ki, kamalizmin altı prinsipi arasında demokratiyanın olmaması təsadüfi deyil. Çünki başda deyildiyi kimi, kamalizm Gənc Türklərin Əhməd Rıza qanadı olaraq təyin olunan və İttihat və Tərəqqi

Komitəsi çərçivəsində formalaşan ideologiyanın davamıdır və pozitivist keyfiyyətlərini də daşıyır. Məsələn, populizm siyasi təmsilçilik, xalqın hakimiyyətdə iştirakı və öz müqəddəratını təyinetmə mənasında demokratik prinsipdir. Halbuki kamalizmdə populizm, xüsusən 1930-cu illərdən sonra "xalqa rəğmən xalq üçün" düsturu ilə ifadə edilmiş və xalqın demokratik iştirakını və təmsilçiliyini reallaşdırmaqdan daha çox dövlət və dövlət hakimiyyətini konsolidasiya etmək məqsədi güdürdü. Bundan əlavə, kamalizmin xalqçılıq və dövlətçilik prinsiplərinin iqtisadi inkişafa, milli-mərkəzi dövlətin güclənməsinə üstünlük verdiyi nəzərə alındıqda, "demokratikləşmə" və "fərdi azadlıq" ideallarının arxa planda qaldığı görünür. Bu mənada, "kamalizm iki ifrat (*iki uç*) arasında birdən çox ehtimalı əhatə edən bir ideologiyadır" deyən araşdırmaçıların [bax: 5, s.186] fikirləri müəyyən qədər başadüşüləndir. Lakin unutmamaq lazımdır ki, Atatürk prinsipləri ehkam və ya doktrina deyil, Milli mübarizənin başlandığı gündən yaşanan hadisələrin qarşısını almaq üçün həyata keçirilən tədbirlərdir.

## ƏDƏBİYYAT

1. Fatma Yurttaş. Kemalizm və Demokrasi Üzerine Bir Değerlendirme // Bilgi (17), 2008/2, s.70-83. - https://dergipark.org.tr/tr/download/article-file/301201 [30.04.2023].
2. İrem Köker. Mustafa Kemal İngiliz istihbarat raporlarında: Tehlikeli biri ve zıtları desteklenmeli, rakipleri bir araya getirilmeli / BBC Türkçe, 10 Kasım 2019. - https://www.bbc.com/turkce/haberler-turkiye-50348221 [30.04.2023].
3. Mardin Şerif. Atatürkçülüğün Kökenleri ["Türkiye'de Toplum ve Siyaset" (Makaleler I). Der.: Mümtaz'er Türköne ve Tuncay Önder. İstanbul, İletişim Yayınları, 1995], s.181-188. - https://docs.google.com/viewer?a=v&pid=sites&srcid=ZGVmYXVsdGRvbWFpbnxhdGlrYXNsYW4xfGd4OjM1NTc4ZTk4YzIyNzhlMjc [30.04.2023].
4. Salahi R. Sonyel. Ingılız Yüksek Komıserı Sir Horace Rumbold'un Türk Ulusal Akımına Karşı Tutumu (1920-1923) // Belleten, C.LVIII,

11, s.159-184. -https://dergipark.org.tr/en/download/article-file/1714559 [30.04.2023].
5. Mustafa Albayrak. Kemalizmin Düşünsel Temelleri ve Tarihsel Oluşumu // Atatürk Araştırma Merkezi Dergisi, Temmuz 2010, Cilt XXVI, Sayı 77, s.307-344. - https://atamdergi.gov.tr/tam-metin-pdf/209/tur [30.04.2023].
6. Yakup Kadri Karaosmanoğlu. Atatürk'ün İdeolojisi [Modern Türkiye'de Siyasi Düşünce: Kemalizm (İkinci Cilt), İstanbul, İletişim Yayınları, 2004], s.671-673.
7. Ömer Çaha. Sivil Toplum, Aydınlar ve Demokrasi. İstanbul, İz Yayıncılık, 1999, 238 s.
8. Abdurrahman Çayçı. Gazi Mustafa Kemal Atatürk. Milli Bağımsızlık ve Çağdaşlaşma Önderi (Hayatı ve Eseri). Ankara, Atatürk Araştırma Merkezi, 2002, 288 s. - https://atam.gov.tr/wp-content/uploads/T%C3%BCm-Eser1.pdf [30.04.2023].
9. Ahmet Taner Kışlalı. Kemalizm, Laiklik ve Demokrasi. Ankara, İmge Kitabevi Yayınları, 1994, 360 s.
10. Cemal Fedayi. CHP'nin Sosyal Demokratlaşması Sürecinde Kemalizm Tartışmaları: 1961-80 // Liberal Düşünce, Sayı 36, güz 2004: CHP ve Kemalizm, s.87-108. - http://www.libertedownload.com/LD/arsiv/36/07-cemal-fedayi-chp'nin-sosyal-demokratlasmasi-surecinde-kemalizm-tartismalari.pdf [30.04.2023].
11. Hikmet Özdemir. Tarih ve Politika. İstanbul, İz Yayıncılık, 1995, 384 s.
12. Şerif Mardin. Din ve İdeoloji. Ankara: Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Yayınları, 1969, 183 s.
13. Faruk Alpkaya. Bir 20. Yüzyıl Akımı: Sol Kemalizm [Modern Türkiye'de Siyasi Düşünce: Kemalizm. İkinci Cilt. İstanbul, İletişim Yayınları, 2004], s.477-500.
14. Alparslan Nas. Kadro ve Kadrocular: Marksizmden Kemalizme / Birikim, 21 Temmuz 2008. - https://birikimdergisi.com/guncel/237/kadro-ve-kadrocular-marksizmden-kemalizme [30.04.2023].

15. Tanıl Bora, Yüksel Taşkın. Sağ Kemalizm [Modern Türkiye'de Siyasi Düşünce: Kemalizm (İkinci Cilt) İstanbul: İletişim, 2004], s.529-545.
16. Levent Köker. Modernleşme, Kemalizm ve Demokrasi, İstanbul, İletişim Yayınları Sekizinci Baskı. 2004, 252 s.
17. Nur Betül Çelik. Kemalizm: Hegemonik Bir Söylem [Modern Türkiye'de Siyasi Düşünce: Kemalizm. İkinci Cilt. İstanbul, İletişim, 2004], s.75-91.

**AYSHAN HAJIYEVA**
*IV student of Western Caspian University majoring in "History teaching"*

**GULIYEVA NURANA**
*IV year student of Azerbaijan University majoring in Economics*

## THE CONCEPT OF "KAMALISM" IN TURKISH SCIENTIFIC LITERATURE

In the current article, issues such as the emergence and formation of Kemalism ideology, the thought and philosophical currents that influenced its formation, and the concept of "kemalism" in general are investigated in the early days of the establishment of the Republic in Turkey. Also, the establishment of organizations that should ensure the transition to secularism in the first years of their establishment, and the adoption of laws that will regulate their activities are considered. While historical information is taken as the main source of reference, speeches, statements and opinions of Mustafa Kemal and his comrades-in-arms have not been ignored. And all these issues were tried to be clarified based on the works of Turkish researchers.

*Keywords*: National Struggle, Turkish Republic, Kemalism, Turkish scientific literature.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 94**

**AZƏR HƏNDƏMOV**
*Bakı Dövlət Universiteti SABAH Qrupları*
*Tarix müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi*
**ahendemov@gmail.com**

# KÖLƏLIKDƏN SULTANLIĞA - SULTAN BAYBARS

*Elmi rəhbər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Rüknəddin Baybars (1260-1277) təkcə Məmlüklərin deyil, bütün Orta əsr Yaxın Şərqinin şahidi olduğu islahatçı və yenilikçi kimi təsvir edilə bilən azsaylı hökmdarlardan biridir. O, dövlət təşkilatının müxtəlif sahələrində bəzi tənzimləmələri ilə, bəzi xələfləri tərəfindən davam etdiriləcək bir pioner sultan kimi bir xüsusiyyətə malikdir. Baybars xaçlılara, monqollara və daxili üsyançılara qarşı mübarizədən əlavə dövlət siyasətinin və inzibati idarəetmənin bir çox sahələrini idarə etmək bacarığını sübut etdi. P.Thorau Baybarsı böyük fateh və İslam və Xristian dünyasını monqollardan xilas etmək üçün dünya tarixində əsas şəxsiyyət kimi görür. O, Misir və Şamdakı səlibçilərin məhvedicisi və Məmlük Sultanlığının qurucusu hesab olunur. Digər tarixçilər də Baybarsın Suriyada və onun hüdudlarından kənarda müxtəlif frank hökmdarlarından və padşahlarından xərac və məcburi hədiyyələr alan uzun bir müddətdən sonra 1264-cü ildə Nizari İsmayılı ona itaət etməyə gətirən ilk İslam hökmdarı hesab edilir.*

*Açar sözlər:* Baybars, Kutuz, Ayn Cəlut, Bizans, Xaçlılar, Hülaki xan.

***Giriş.*** Məmlük sözü ərəb dilindən götürülmüş, “sahibinin mülkiyyətində olan əsir” mənasında işlənmişdir. Yəni, müharibələrdə əsir edilən qullar bazarda pulla alınır, xüsusi mərhələlərdən keçirilərək, əvvəla onlara oxuma-yazma və Quran öyrədirdilər və ayrıca dini təhsil verirdilər. Hərbi təhsilləri ilə xüsusi ciddi şəkildə məşğul olunurdu. Orta dövr İslam tarixinə nəzər saldıqda böyük sultanların, xəlifələrin öz mövqelərini gücləndirmək və nüfuz sahibi olmaq üçün Məmlük əsgərlərinə sahib olmaq istədiklərini görə bilərik (8). Bu Məmlüklər Əyubiləri süquta uğradaraq öz dövlətlərini qurmaqla, eləcə də Monqol

və Xaçlılarla apardıqları mübarizədə qalib gəlməklə, demək olar ki, bütün dünyada adlarından söz etdirmişlər. Bir qul olaraq çoxlu mübarizələrdən sonra öz bacarığını ortaya qoyan Baybarsın taxta çıxması ilə Məmlük tarixində yeni bir dövr başlayır. On yeddi il davam edən səltənəti dövründə Misir və Suriyada Məmlük dövlətinin əsl qurucusu oldu. O, hakimiyyətə gələn kimi xaricdə monqol və xaçlı təhlükəsinə müqavimət göstərərək nüfuzunu Nube və Ərəbistan yarımadasına yayacaq bir siyasət yürütdü. Daxildə üsyanları yatırır, təhlükəsizliyi və asayişi təmin edirdi. Misir və Suriyada da ondan sonra uzun müddət davam edəcək inzibati tənzimləmələr etdi. Baybars düşmənlə mübarizə üçün Elxanlılara qarşı Qızıl Orda xanlığı ilə, Suriyada isə səlibçilərə qarşı Bizansla müqavilə bağlamaqdan çəkinməmiş, eyni zamanda Misirdə yenidən Bağdad Abbasi xilafətini qurmuşdur.

***Həyatı və hakimiyyətə gəlişi.*** Məmlük dövlətinin dördüncü sultanı - Rukn əd-din Baybars - Əl-Mənsuri Əl-Misrinin taleyi çox maraqlı və mübahisəlidir. 620-ci ildə (1223) Qıpçaq ölkəsində anadan olmuşdur. Baybarsın atası Jamak, anası Ainekdir. Qıpçaq tayfalarından Borçoğlu və ya Borlu tayfasının üzvüdür. Onun zadəgan nəslindən olması tarixçilər tərəfindən sübuta yetirilib. 1242-ci ildə monqolların ölkələrinə hücumundan sonra Baybars qul kimi satılan bir sıra Qıpçaq türklərindən biri idi. Onun köləliyə necə düşməsi ilə bağlı iki versiya var. Birinciyə görə, hərbi yürüşlər nəticəsində, ikinciyə görə, atasının düşmənlərinin hərəkətləri nəticəsində köləliyə satılıb. Əvvəlcə Sivasa, sonra Hələb və Şama əsir götürüldü. Orada bir zərgərə satıldıqdan sonra Həmada həbsdə olan əmir Əlaəddin Aytəkin əl-Bundukdari tərəfindən alınıb və onunla birlikdə Qahirəyə getdi (6, s.221). Əksər İslam dövlətlərinin hərbi dayağına çevrilmiş türkdilli qullar çox yüksək qiymətləndirildi və nəticədə Baybars Sultan əl-Salih Nəcməddin Əyyubun ixtiyarına keçdi. Sultanın bütün yeni əldə etdiyi qulları kimi Nildəki bir adaya hərbi təlim keçmək üçün göndərilən Baybars da üstün hərbi qabiliyyət nümayiş etdirdi. Məktəbi bitirib azad olunduqdan sonra sultanın cangüdənlərindən bir dəstəsinə komandir təyin edildi. Bu şəhərdə əl-Məliküs-Salehin yaratdığı Bəhriyyə Məmlüklərinə qatıldı. Qısa müddətdə özünü göstərmiş və Bəhriyyə Məmlüklərinin qabaqcıl

başçılarından biri olmuşdur. Çox ağıllı, istedadlı və cəsur bir gənc olan Baybars tezliklə İmperator Dəniz Əsgərlərinin donanma sinfinə daxil olur və qısa müddətdə orada yüksəlməyə başlayır (2). 1249-cu ildə Fransa kralı IX Lüdovikin başçılıq etdiyi səlibçi ordusu Misirin Dumiyat (Damietta) şəhərinin sahillərinə gəldi. İyun ayında şəhər süqut etdi və noyabrda səlibçilər Sultan Saleh Əyyubun ölüm xəbəri ilə eyni vaxtda Qahirəyə qarşı hücuma keçdilər. Lakin onların qismətinə Misiri fəth etmək deyildi, 1250-ci ilin fevralında Əl Mənsur döyüşündə məğlub oldular. Döyüşdə Məmlük Sultanı Əyyubun qoşunlarının sərkərdələrindən biri də Baybars idi və bu, onun bir sərkərdə kimi ilk böyük qələbəsi idi (8). Saleh Əyyub Əyyubilər sülaləsinin sonuncu güclü sultanı oldu. Ondan sonra Turan şah taxta çıxdı, lakin o, cəmi 40 gün hökmranlıq etdi və ortaq dil tapa bilmədiyi məmlüklər tərəfindən öldürüldü. Nəhayət, Məmlüklər hakimiyyəti öz əllərinə aldı və İzzəddin Aybək ilk Məmlük sultanı oldu (10). Turan şahdan sonra taxta çıxan İzzəddin Aybək Bəhriyyə Məmlüklərinin mühüm liderlərindən olan Aktayı öldürdüyü zaman Baybars və dostları oxşar aqibətdən qorxduqları üçün Suriyaya qaçdılar. Onlar Dəməşq və Kərəkin Əyyubi əmiri olan Nasir Yusifə sığındılar. Suriyanın Əyyubi hökmdarı Nəsir Yusifin yaxınlaşan monqol təhlükəsi qarşısında müharibə mövzusunda qeyri-adekvat və qətiyyətsiz olduğunu gördükdə Məmlük sultanı Seyfəddin Kutuzun yanına elçilər göndərərək bağışlanmalarını istədiklərini bildirdilər. Onların xahişi qəbul olunduqdan sonra Misirə qayıtdılar və Kutuzun xidmətinə girdilər. Burada onun ilk yüksəlişi monqollara qarşı 3 sentyabr 1260-cı ildə baş verən əfsanəvi Ayn Calut döyüşüdür.

Ayn Calut indiki Fələstinin sərhədləri daxilində Beysan və Nablus arasında yerləşən kiçik bir yerdir və şayiələrə görə Hz.Davud tərəfindən döyüşdə öldürülən Calutun (Goliathın) şərəfinə adlandırıldı. Bu döyüşdə Məmlüklər qələbə qazandılar (7, s.43-52). Buradakı uğurlarına görə Kutuzdan Hələb naibi təyin olunmasını istəsə də, bu tələb qəbul olunmadı. Bu tələbi qəbul etmədiyi və Bəhriyyə Məmlüklərinin başçısı Aktayın öldürülməsində iştirak etdiyi üçün Kutuza qarşı kin bəsləyən Baybars, onu yox etmək üçün bir sui-qəsd planı hazırladı.

Suriyadan keçərək evə gedərkən Baybars Kutuza yaxınlaşaraq ondan əsir bir monqol qızının hədiyyəsini istədi. Sultan razılaşdı və Baybars onun əlindən öpdü. Əvvəlcədən hazırlanmış bu işarə ilə Məmlüklər Kutuzun üstünə düşdülər, Baybars isə onun boynuna qılınc vurdu. Nəhayət, qərargahdan uzaqda ova gedən Kutuzu dostlarının köməyi ilə öldürdü (23 oktyabr 1260). Kutuzun öldürülməsindən sonra Salihiyədəki sultanlığa toplaşan Bəhriyyə Məmlüklərinin görkəmli şəxsləri Baybarsı sultan elan etdilər. Baybars Qahirəyə girərək 26 oktyabr 1260-cı ildə əl-Melikü'z-Zahir rütbəsi ilə "Kalatülcebel'e" yüksəldi (1; 6, s.221).

Baybars hündürboylu, mavi gözlü və gözəl görünüşlü olmaqla yanaşı, ağlı və istedadı ilə diqqət çəkən bir şəxs kimi tanınır. Döyüşçü olduğu kimi idmançı olan Baybars ovçuluğa, poloya, ox atmağa həvəs göstərirdi. Baybars Çingiz xanın nəvəsi Bərkənın kürəkəni idi.Onun üç oğlu olmaqla, 10 övladı olmuşdur (2). Güclü Məmlük hökmdarı 1277-ci ildə Dəməşqdə vəfat etdi. Bəzi mənbələrə görə, Baybarsın ölümünə gülünc bir səhv səbəb olub - o, başqası üçün hazırlanmış zəhəri içib. Bəzi mənbələrə görə isə Baybars öz vəziri Qıpçaq Kalayun tərəfindən zəhərləndi. Sultan Baybars Dəməşqdə, kitabxana, mədrəsə və məqbərənin yer aldığı Zahiriyyə kompleksində Bab əl-Bərid qəbiristanlığında dəfn edildi. Onun məzarının bərpası bir vaxtlar Nursultan Nazarbayevin təşəbbüsü ilə Qazaxıstanın vəsaiti hesabına həyata keçirilib, çünki qazaxlar Baybarsı öz həmvətənləri hesab edirlər (9).

***Daxili siyasəti.*** Rüknəddin Baybars (1260-1277) təkcə Məmlüklərin deyil, bütün Orta əsr Yaxın Şərqinin şahidi olduğu islahatçı və yenilikçi kimi təsvir edilə bilən azsaylı hökmdarlardan biridir. Dövlət idarəçiliyinə və qurduğu qurumlara gətirdiyi yeniliklərlə yanaşı həm də Baybars Çingiz xanın qanun və adətlərini də tətbiq edirdi. O, dövlətə mərkəzləşdirilmiş bir quruluş verməyə çalışdı və bütün ölkəni yol şəbəkəsi ilə Qahirəyə birləşdirdi. O, əla poçt təşkilatı yaratdı, ordusunu yeni silahlarla təchiz etdi, İsgəndəriyyə, Qahirə və Damietta tərsanələrini genişləndirdi. Xristian və müşrik monqollara qarşı qazandığı qələbələrə görə "Hadimü'l-Haremeyn" ləqəbini işlədən və əvvəlki "Rüknəddin" ünvanını "Seyfəddin" olaraq dəyişən Baybars türkmən-

ləri də Suriyanın müxtəlif bölgələrinə yerləşdirdi və onların sayını artırdı. Onun türk-monqol adət-ənənələrinə dəyər verdiyi atdığı addımlarda anlaşılır. Onlardan Berke Hanın qızı ilə evlənməsi, varisi elan etdiyi oğluna türk adını qoymasını qeyd etmək olar (6, s.222). Qahirədə böyük məscid və onun adını daşıyan məktəb tikdirdi. 1271-ci ildə şərabdan istifadəni qadağan etdi (4). Sultan Baybars sərkərdəliyi ilə yanaşı ədalətli hökmdar idi, hakimiyyəti ələ keçirdikdən sonra xalqın üzərinə qoyulan bütün ağır vergiləri ləğv etdi və dinindən asılı olmayaraq xalqını ədalətlə idarə etdi. Baybars dövründə türklərin hökmranlığına görə dövlətin adı "Dövləti-Türkiyə" adlandırılmışdır. Baybars saraya gələndə hər şəhəri möhkəmləndirdi, hər şəhərdə daimi qoşun saxladı. Dövlətdə qanunun aliliyini gücləndirdi. O, sarayda baş verən vətəndaş qarşıdurmasına birdəfəlik son qoydu. Kanalizasiya sistemi çəkdirdi. Bütün çaylar üzərində körpülər, hər şəhərdə məscidlər tikdirdi. Onun önəmli islahatları içərisində hüquq, din və məhkəmə islahatını qeyd etməliyik (2).

***Hüquq və din islahatı.*** Əyyubilər sülaləsinin qurucu sultanı Səlahəddin, Fatimi hakimiyyətinin sona çatması ilə (1171) Misirdə şiəliyin təsirini qırmaq üçün kampaniyaya başlayacaqdı. Bu məzhəbin təlimlərinə uyğun olaraq təsadüfi alqı-satqıların icrasına mane olmaq məqsədi ilə şiə qazilərinin işdən çıxarılması onların hüquq sahəsində apardıqları mübarizənin bariz təzahürü idi. Səlahəddinin bu istiqamətdəki səyləri şafiizmin yüksəlişini simvolizə etməklə yanaşı, bölgənin yenidən sünniləşmə mərhələsinə keçməsindən xəbər verirdi. Çünki o, şiə hakimlərinin aradan götürülməsi ilə yaranan boşluğu şafiiləri təyin etməklə doldurdu. Lakin məzhəbin digərləri üzərindəki imtiyazını daha da qabarıq göstərən məqam tək bir fəqihin təmsil etdiyi "qədilqüdət" vəzifəsinin yalnız şafiiliyi qəbul edənlərə verilməsi idi. Sultanın əmri ilə Bintü'l-A'azzın köməkçiləri olacaq naiblər, baş kadı[1] statusu olmasa da, qismən səlahiyyətlərini bölüşə biləcəklər. Beləliklə, başqa

[1] *Kadı - İslam ölkələrində insanlar arasında hüquqi mübahisələri həll etmək, qanunsuz hərəkətlərə görə cəzalar vermək, onların hökmlərini və cəzalarını icra etmək üçün dövlətin səlahiyyətli qurumları tərəfindən təyin olunan şəxsdir* – müəllif.

məzhəblər adından ən azı təmsilçilik hüququ yarandı. Dövrün müəllifləri Hənəfi, Hənbəli və Malikilərdən bir naibin təyin edilməsinin zəruriliyi və səbəbi haqqında çox aydın deyillər. Lakin planlı olub-olmamasından asılı olmayaraq, istənilən halda mərhələli şəkildə dördtərəfli sistemə keçidin həyata keçirildiyi şübhəsizdir (3).

***Məhkəmə islahatı.*** Mənbələrə görə, 1265-ci ildə dörd sünni məzhəbi (Şafii, Hənəfi, Maliki və Hənbəli) üçün başçılığın yaradılmasını ehtiva edən məhkəmə islahatı o dövrə kimi aparılmış ardıcıl islahatların nəticəsidir. Hətta araşdırmalar göstərir ki, Baybars ilk dəfə planlı şəkildə sünni məzhəblərinə görə qurulan və formalaşdırılan dördlü başqalıq sistemini tətbiq etdi. Baybarsa qədər Abbasilər dövründə də oxşar təcrübə olaraq, xalqın məzhəb üstünlükləri əsasında idarənin tabeliyində olan bölgəyə dörd sünni məzhəbindən hakimlər təyin edilirdi. Lakin bu hal məmlüklərin timsalında olduğu kimi sistemləşdirilmiş dördlüyün təyin olunduğunu göstərmirdi. Yenə Misirin keçmiş hökmdarları olan Fatimilərin vəziri Baybarsdan (1130/1) təxminən 135 il əvvəl Əbu Əli İbnü'l-Efdal dördtərəfli kadı modelini bu şiə dövlətinin məhkəmə təşkilatına uyğunlaşdırmağa çalışmışdır. Halbuki yuxarıda adı çəkilən vəzirin quruluşu iyerarxik olaraq İsmailiyyə məzhəbinin başçısından aşağı yerləşdirilməli idi. Bura ikisi sünni (biri Şafii və digəri Maliki) və ikisi şiə (biri ismailiyyə və digəri imamiyyə) olmaqla dörd kadının təyin edilməsi də daxil idi. Nəticə etibarı ilə, təqdim edilən nümunələr əvvəlki dövrlərdə də oxşar islahatların aparıldığını xatırlatsa da, bunların Baybarsın "dörd sünni məzhəbindən başqa şəxsləri təyin edən ilk sultan" olma xüsusiyyətinə kölgə sala bilməyəcəyi anlaşılır (5).

***Xarici siyasəti.*** Sultan Baybarsın xarici siyasətinin əsas istiqaməti Monqol və Xaçlı (Səlibçi) qüvvələrə qarşı mübarizə aparmaq olmuşdur. O, hakimiyyətinin 17 ili ərzində fars monqolları ilə (Elxanilər nəzərdə tutulur – *A.H.*) doqquz döyüşdə iştirak etdi. Suriya daxilində fanatik İslam təriqəti olan İsmaililəri 1271-1273-cü illərdə bir neçə dəfə məğlub edib, qalalarını dağıtdı (6, s.222).

Ayn Calut döyüşündə aldıqları məğlubiyyətin əvəzini almağa çalışan monqollar, dövrün sultanının (Kutuz nəzərdə tutulur - *A.H.*)

ölümündən sonra məmlük əmirləri arasında yaranan fikir ayrılıqlarının çaşqınlığından istifadə edərək Misir Məmlüklərinə hücuma başladılar. Monqol (Elxani) hökmdarı olan Hülakinin qisas almaq üçün göndərdiyi ordu Harran və Cəzirə bölgələrində toplandı. Əvvəlcə Birecik, sonra Hələb və Həmanı mühasirəyə aldındı. Monqol hücumlarından qaçan bu şəhərlərin əmirləri Homsda birləşərək mühüm hərbi qüvvə yaratdılar. Burada onlar monqollara qarşı vuruşaraq onları məğlub etdilər (dekabr 1260). Bu qələbə müsəlmanların əhval-ruhiyyəsini yüksəltdi. Bu sırada monqol işğalı altında olan Hələbi azad etmək üçün Sultan Baybarsın hazırladığı ordu yola düşdü, gələn qüvvələrin xəbərini eşidən monqollar şəhəri boşaltmalı oldular. Bundan sonra Bağdadı monqol istilasından xilas etmək üçün yola çıxan xəlifə Müstənsir (dekabr 1261) Hit yaxınlığında monqollara məğlub oldu.

Digər tərəfdən, monqolların 9 ay mühasirədə saxladıqları Mosula girməsi və əhalisinin qırğına məruz qalması ətrafda yaşayan insanlarda böyük narahatlığa səbəb olmuş, 1262-ci ilin avqustunda monqollardan qaçan Şam və ətrafının əhalisinin Misirə böyük köçü başlanmışdı. Baybars da xristianlara qarşı hücuma keçdi. Ermənilər (monqolların müttəfiqi idilər) torpaqlarını viran qoydular, böyük şəhərlərini talan etdilər (7, s.43-52). Elxanlıların 1265-ci ildə Fərat sahilindəki Birecik qalasına hücumu Baybarsı şəxsən səfərə çıxmağa məcbur etdi. Onun hərəkətindən sonra Elxanilər mühasirəni qaldırıb geri çəkildilər. Həmin il Hülakinin ölümündən sonra Elxanlı taxtına oturan Abaqa səliblərlə anlaşaraq 1269-cu ildə Hələb yaxınlığındakı Sakura qədər irəlilədi. Baybars buraya ordu göndərdiyi kimi, özü də Suriyaya yürüş etdi. Elə Şama çatan kimi Elxanilərin məğlub olub geri çəkildiyi xəbərini aldı. Lakin Abaqa bu uğursuzluqdan çəkinmədi. 1271-ci ildə Antep və Hərimə hücum etdi, lakin Baybarsın qüvvələri Elxanlıları Harranda məğlub etdi və müttəfiqləri olan xaçlıları məğlub etdi. Bunun üzərinə Abaqa sülh istəməli oldu, lakin digər tərəfdən 1272-ci ildə hərbi əməliyyatını davam etdirdi. O, Bireciki yenidən mühasirəyə aldı, lakin Baybarsın gəldiyini eşidib mühasirəni qaldırdı. Səlcuqluların xahişi ilə 1277-ci ilin aprelində Elbistanda Elxaniləri məğlub etdi (1; 6, s.222).

Baybars xaçlılara qarşı da monqollara qarşı uğurunu göstərdi. O, hakimiyyətə gələn kimi səlibçilərə hücum etməyə başladı. 1261-ci ildə VI Bohemonun Elxanlılarla razılaşması ilə Antakyaya hücum etdi və bu hücumu 1262-ci ildə təkrarladı. Baybarsın məqsədi səlibçilərə qarşı hərtərəfli mübarizə aparmaq və onları Yaxın Şərqdən qovmaq idi. Əslində 1265-ci il fevralın əvvəllərində hərəkətə keçərək Kaysariyyə, Yaffa, Əslis və Ərsuf şəhərlərini ələ keçirdi. O, Suriyada məmlüklərin hərbi mövqeyini gücləndirdi, 1265-1271-ci illərdə onun qoşunları bir-birinin ardınca səlibçilərin qalalarını, o cümlədən onların ən güclüsü “Krak des Chevaliersi” ələ keçirdi. 1266-cı ildə şərqdə Akkaya hücum etdi. Lakin buranın çox möhkəm olduğunu görüb Səfedə tərəf üz tutdu və həmin ilin yayında Remləni aldı. Həmçinin erməni padşahı I Hetum monqollarla əməkdaşlıq etdiyinə görə Kalavunun komandanlığı ilə ona qarşı böyük qoşun göndərdi. 1266-cı il avqustun 24-də I Hetumun qüvvələrinə böyük zərbə vuruldu. Məmlük ordusu Adana, Misis, Tarsus, Duman kimi şəhərləri talan etdi. 1267-ci ildə Baybars Taberiye və Akka bölgələrini vurdu. Nəhayət, 1268-ci ilin aprel ayının əvvəllərində Antakyaya hücum etdi və qısa mühasirədən sonra şəhəri ələ keçirdi. Bu fəth səlibçilərin şərqdə qurduğu ikinci knyazlığın dağıdılması demək idi (4).

1271-ci ildə, daha sonra İngiltərə taxtına oturacaq olan Şahzadə Edvardın komandanlığı altında kiçik bir səlibçi qüvvəsi Akkaya gəldi. 1275-ci ildə yenidən Anadolu səfərinə çıxan Baybars Adana, Sis, Tarsus və Ayası talan etdi. Sultan Baybarsın Antakya şahzadəsinə yazdığı məktub və bundan əvvəlki hadisə Baybarsın ağıllı olduğu qədər də cəsur olduğunu göstərir (Baybars 1268-ci ildə Antakyanı mühasirəyə aldı və müharibənin sonunda şəhər təslim oldu, lakin Antakya şahzadəsi Beomonda o zaman Antakyada deyildi. Bunun üzərinə Baybars şəhərin necə alındığını şahzadəyə yazmışdı və bu məktubda yazmışdı: “Orada olub, nə etdiyimi görsəydin, “kaş anan səni dünyaya gətirməsəydi» deyərdin”) (1).

Baybars təkcə görkəmli sərkərdə deyil, həm də diplomat idi. Məsələn, Bizans İmperiyası ilə sıx əlaqələr qurmağa nail olmuş, Rum

Sultanlığı və Gürcüstan krallıqları ilə əlaqələr qurmuşdur. Baybars Bizans imperatorluğu ilə yaxşı diplomatik əlaqələr qurmaq üçün elçilərini ora göndərdi. Bundan sonra Bizans hökmdarı Mixail VIII Paleoloq Konstantinopolda qədim məscidin bərpasını əmr etdi və Misir tacirlərinə və səfirlərinə Hellespont və Bosfor boğazlarından keçməyə icazə verdi . Baybarsın hakimiyyəti dövründə əsas məqsədlərindən biri Məmlük ordusunda istifadə ediləcək daha çox türk qulları əldə etmək idi, digəri isə Cənubi Rusiyada Qızıl Orda monqolları ilə Fars monqollarına qarşı ittifaq bağlamaq idi (4). Bundan əlavə, onun dövründə İspaniyanın Araqon, Leon və Kastiliya krallıqları ilə ticarət müqavilələri imzalandı. 1261-ci ildə Baybars Siciliya kralı Manfredin yanına elçi göndərdi. İtaliyadakı digər səfirliklər də ardınca gəldi və 1264-cü ildə daha sonra Neapol və Siciliya kralı olan Anjou Çarlzı Qahirəyə məktublar və hədiyyələrlə səfirlik göndərdi. Baybars həmçinin Araqonlu I Yaqub və Leon və Kastiliya kralı Alfonso kimi uzaq hökmdarlarla ticarət müqavilələri bağlaya bildi. O, ən dəyərli müttəfiqini Qızıl Orda xanı Bərkənin simasında tapdı. O, sultan olanda Qıpçaq torpaqları o zaman Monqol xanı Berk-Kulaqunun idarə etdiyi Qızıl Ordaya məxsus idi. Baybars ilk növbədə ona dostluq niyyətini bildirən məktub göndərdi. 1262-ci ildə Sultan iki ölkə arasında dostluq əlaqələri yaratmaq üçün öz səfirini oraya göndərdi. 1262-ci ildə Baybars Berkeyə İslamı qəbul etmək təklifi ilə məktub göndərdi. Bundan sonra hərbi, ticarət, dini, mədəni əlaqələr yarandı. Baybars Şərqin bütün ərəb mülklərinin hökmdarı oldu. Orta Asiyada səlcuqlar, kiçik ermənistan, bərbərlər tamamilə tabe oldular. Frankların kafedral qalaları bir-birinin ardınca dağıdıldı. Bütün qonşular Məmlüklərin dövləti ilə hesablaşırdılar (10).

***Nəticə.*** Məmlük dövlətinin dördüncü sultanı - Rukn əd-din Baybars - Əl-Mənsuri Əl-Misrinin köləlikdən – sultanlığa və sultanlıq dönəmindən ölümünə kimi necə bir əzmkar mübarizə aparmasının, hakimiyyətə gələn kimi dövlətin idarə olunması üçün reformlar keçirməsi onun necə güclü bir xarizmatik lider olmasının göstəricisidir. O, İslamı xarici düşmənlərdən və daxili ziddiyyətlərdən qorumaq üçün hərəkətə

keçdi, bu da ona siyasi və hərbi məsələlərdə Məmlük liderlərinə əsaslanan və məhkəmə islahatları və dini və mülki işlərin idarə edilməsində dəstək verən üləmanın köməyi ilə yeni İslam rəhbərliyi modelinin formalaşmasına kömək etdi. Bununla yanaşı, İslami müqəddəs məkanlarda təhlükəsizliyin, əmin-amanlığın və azad ibadətlərin təmin edilməsi Baybarsa iki Müqəddəs Məscidin hamisi Hami əl-Hərəmeyn əş - Şərifeyn statusu və titulu verilməsinə gətirib çıxardı. Xarici siyasətində Şərqin ozamankı bəlasına çevrilmiş Monqol və Xaçlı qoşunlarına divan tutdu, bundan əlavə olaraq həmin dönəmin ən təhlükəli sui-qəsdçi təşkilatı olan Xaşxaşilərin (İsmaililər) son dayaq nöqtələrini də məhv etdi. Xarici siyasətdə sadəcə müharibələr aparmır, öz diplomatik fəaliyyətini də işə salaraq Bizansla, Elxanilərlə və Piriney krallıqları ilə əməkdaşılıq üçün çalışmışdır. Düşməni üçün hazırlanmış zəhərdən yanlışlıqla içərək vəfat edən, tarixi ədəbiyyatlarda “Zəfərlər sultanı” adlandırılan türk oğlu Baybars Zahiriyyə kompleksi Bab əl-Bərid qəbiristanlığında əbədi yuxuya qərq olmuşdur.

## ƏDƏBİYYAT

1. Baybars I kimdir?” / Sabah, sözlük. - https://www.sabah.com.tr/sozluk/biyografi/baybars-i-kimdir [19.04.2023].
2. Fatih Mehmet Yiğit. Qul kimi satıldı, hökmdar kimi Devleti’t Turkiyyəni qurdu - Sultan Baybars / Fədai qəzeti, 02.07.2022. - https://fedai.az/?p=74979 [19.04.2023].
3. Gökhan İlyas, Ömer Faruk Çakır. Sultan ve Başkadı: Baybars’ın Hukuk Reformu // Tarihçi 1, no. 1(Ocak 2021), s.153-165.- https://www.academia.edu/44961779/Sultan_ve_Ba%C5%9Fkad%C4%B1_Baybars%C4%B1n_Hukuk_Reformu_The_Sultan_and_Chief_Judge_Baybars_s_Law_Reform_ [19.04.2023].
4. Hassanein Muhammad Rabie. Baybars I Mamlūk sultan of Egypt and Syria / Encyclopaedia Britannica. - https://www.britannica.com/biography/Baybars-I [19.04.2023].

5. Hatim Muhammad Mahamid. Mamluk leadership between religious and political arrangements under Sultan Baybar's rule // Cogent Arts & Humanities, Vol.10 2023, Issue 1, 13 p. - https://www.tandfonline.com/doi/full/10.1080/23311983.2023.2188779 [19.04.2023].
6. Kazım Yaşar Kopraman. Baybars I. el-Melikü'z-Zâhir Rüknüddîn es-Sâlihî el-Bundukdârî - Mısır Bahriyye Memlükleri sultanı (1260-1277) / İslam Ansiklopedisi, V Cilt. İstanbul, TDV, s.221-223. - https://cdn2.islamansiklopedisi.org.tr/dosya/5/C05001904.pdf [19.04.2023].
7. Prof. Dr. Mahmut Ak. Memlükler Tarihi. İstanbul Üniversitesi Eğitim Fakültesinde okutulmak için ders notu. 247 s. + VIII. - http://auzefkitap.istanbul.edu.tr/kitap/tarih_ao/memluklulertarihi.pdf [19.04.2023].
8. Ülfər Məmmədli. Məmlük dövləti. - https://kafkazh.com/memluk-dovleti/ [19.04.2023].
9. Бейбарс – султан Египта с невольничьего рынка / Исламосфера, 26.05.2021. - https://islamosfera.ru/bejbars-sultan-egipta-s-nevolnichego-rynka/ [19.04.2023].
10. Сергазин Б.Г. Султан Бейбарс (1223–1277 гг.). - https://kopilkaurokov.ru/istoriya/uroki/cultan_bieibars_1223_1277_ghgh [19.04.2023].

**AZER HANDAMOV**
*Baku State University SABAH Groups*
*4th year student of the speciality of History teacher*

## FROM SLAVERY TO SULTANITY - SULTAN BAYBARS

Ruknuddin Baybars (1260-1277) is one of the few rulers who can be described as a reformer and innovator not only the Mamluks, but the entire Medieval Middle East witnessed. He has the distinction of being a pioneer sultan, to being continuoed by some of his successors, with some adjustments in various areas of state organization.

Baybars proved capable of handling many areas of public policy and administrative management, in addition to fighting crusaders, Mongols, and internal rebels. P.Thorau sees Baybars as a great conqueror and a key figure in world history to save Islam and Christendom from the Mongols. He is considered to be the destroyer of the Crusaders in Egypt and Damascus and the founder of the Mamluk Sultanate. Other historians also consider Baybars as the first Islamic ruler to bring Nizari Ismail to submission in 1264 after a long period of receiving tribute and forced gifts from various Frankish rulers and kings in Syria and beyond.

*Keywords:* Baybars, Kutuz, Ain Jalut, Byzantium, Crusaders, Hulaki Khan.

*Daxil olma tarixi*: 19.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 94**

**BƏYİM HAXVERDİYEVA**
*Azərbaycan Universitetinin magistrantı*
**haqverdiyevabyim@gmail.com**

# BAYANDURLU OSMAN BƏYİN "YÜLÜK" VƏ "İLİG" ÜNVANLARI (Türkiyə müəlliflərinin araşdırmaları əsasında)

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Nüşabə Quliyeva

*Türk tarixində araşdırılması aktuallığını hələ də saxlamaqda olan bir çox məsələlərin olduğu şübhəsizdir. Türk xalqlarının dövlətçilik tarixi və idarəçilik ənənələri, türk hökmdarlarının ünvanları kimi məsələlər də bu baxımdan həllini gözləyən məsələlərdən hesab olunur. Hazırki məqalədə haqqında bəhs etdiyimiz mövzunun bir hissəsi olaraq, Bayandurlu Osman bəyin "Qara", "Yülük" və "İlig" ünvanları haqqında məsələyə Türkiyə araşdırmaçılarının tədqiqatları əsasında aydınlıq gətirilməsinə cəhd ediləcəkdir. Bunun üçün "Yülük" və "İlig" ünvanlarının ümumilikdə türklərdə hansı mənalarda işlənilməsi, etimologiyası və tarixi haqqında məlumat veriləcəkdir.*

*Açar sözlər*: Qara, Yülüq, İlig, Qara Yülüq Osman bəy.

***Giriş***. Hazırki mövzu Türkiyəli müəlliflərin əsərləri əsasında araşdırılmışdır. Bu əsərlər arasında İzmir Katib Çələbi Universitetinin professoru Fatma Akkuş Yiğitin tədqiqatları üstünlük edir ki, bunun da səbəbi onunla bağlıdır ki, onun araşdırmalarında orta əsrlər türk müsəlman dövlətləri, onlar arasında münasibətlər, dövlət idarəçilik məsələləri, vərasət sistemi kimi məsələlərə toxunulur. Bu araşdırmalardan ikisi - "Ak Koyunlu-Memlük Münasebetleri" [6] və "Ak Koyunlu Beyi Osman Bey'in Ünvanı: Yülük mü İlig mi?" [5] hazırki məqalənin yazılmasında əsas olaraq götürülmüşdür ki, aşağıda onlar haqqında ətraflı məlumat veriləcəkdir.

***Bayandurlu dövlətinin yarandığı tarixi şərait***. XV əsrdən etibarən milli dövlətçilik tarixinin yenidən dirçəlməsi üçün şərait yaranmışdı. Yadelli əsarətindən azad olmaq meyilləri güclənmiş, ölkənin bir

sıra şəhərlərində üsyanlar başlamışdı. Nəhayət, XV əsrin əvvəllərində Baharlı və Bayandurlu sülaləsi ilə dövlətçilik tarixində yeni dövr başladı. İmperiya statusu daşıyan bu sülalələrin Azərbaycanın türkləşməsində mühüm rolu olmuşdur. XIV əsrin sonlarından başlayaraq bütövlükdə Avrasiya regionu mühüm ictimai siyasi hadisələrin baş verməsi ilə səciyyələnir. Bəhs edilən dövrdə Avropa, eləcə də, Yaxın və Orta Şərqdə yeni dövlətlər meydana gəlir və bu dövlətlər arasındakı siyasi hadisələr beynəlxalq münasibətlər sistemini formalaşdırırdı.

Yaxın Şərqdə Elxani dövlətinin parçalanması ilə əlaqədar pərakəndəlik hökm sürürdü. Bölgədə daxili vəziyyətin və xarici münasibətlərin qeyri-sabit olması Əmir Teymurun yürüşlərinə imkan yaradırdı. Siyasi və dini-deoloji mübarizənin mərkəzi sayılan Azərbaycan da, Teymuri və Qızıl Orda dövlətinin hərbi hücümlarına məruz qalırdı. Ölkənin şimalında Şirvanşahlar dövləti öz siyasi nüfüzunu itirməmiş, müstəqilliyini qoruyub saxlaya bilmişdi. Cəlairlərin hakimiyyəti altında qalan Kürdən cənubdakı torpaqlar isə daha çox dağıntılara məruz qalmışdı. Beləliklə, Teymur və Qızıl Orda dövlətlərinin hərb meydanına çevrilən Azərbaycan yeni inkişaf mərhələsinə keçid alırdı. Hadisələr iki istiqamatdə cərəyan edirdi. Bir tərəfdə teymuri yürüşünə qarşı mübarizə, digər tərəfdən isə hakimiyyət uğrunda siyasi mübarizə ilə xarakterizə olunurdu [2, s.74-80].

***Bayandurlu dövlətinin yaranması.*** Əmir Teymurun ölümündən sonra varisləri arasında gedən çəkişmələr imperiyanın siyasi qüdrətini sarsıtmış və beynəlxalq nüfüzuna ciddi xələl gətirmişdi. Bundan istifadə edən digər siyasi qüvvələr müstəqillik və hakimiyyət uğrunda mübarizəyə başlamış oldular. XV əsrdə Bayandurlu dövlətinin yaranması ilə türkmənlər siyasi baxımdan üstünlük əldə etdilər. Dərbənddən Ərzincana qədər uzanan ərazilər onların nəzarəti altına aldı [1; 2].

Uzun muddət Qərb tarixşünaslığında Bayandurlu dövrü Monqol və Səfəvi dövlətləri arasında keçid dövrü kimi xarakterizə olunurdu. Bu baxımdan XV əsr hadisələrini düzgün təhlil etmək mümkün olmurdu. Getdikcə yeni mənbələrin araşdırılıb təhlil edilməsi ilə Bayandurlu dövlətinin tarixini yenidən nəzərdən keçirmək ehtiyacı yaranır.

Türkiyə tarixşünaslığında Bayandurluların siyasi hakimiyyətinə qədərki dövrü geniş tədqiq olunmuşdur. 1435-ci ildə Qara Yuluq Osmanın ölümündən sonra varisləri arasında başlanan daxili çəkişmələr, 1453-cü ildə Həsən bəyin qələbəsi ilə başa çatdı [4; 6]. Həsən bəy daxili ziddiyyətləri aradan qaldırmaq və dövləti genişləndirmək məqsədilə tədbirlər gördü və Baharlı ilə mübarizəyə başladı. Geniş səlahiyyətlər verərək əyanları mərkəzi hakimiyyətə tabe etdi. 1457-ci il qalibiyyətindən sonra onun nüfuzu daha da artdı və Faruk Sümerin qeyd etdiyi kimi bu qələbə onu qüdrətli hökmdarlar sırasına daxil etdi [7].

***Osman bəyin ünvanları haqqında.*** Bayandurlu dövlətində əsas qurucu Qara Yülüq Osman bəydir. 1353-cü ildə Qutlu bəyin ən kiçik oğlu olaraq dünyaya gəlir. Siyasi fəaliyyəti 1402-1403-cü illəri əhatə edir. Qısa vaxtda hərbi gücü və siyasi məharəti ilə dağınıq halda olan tayfaları birləştirərək, Bayandurlu bəyliyinin əsasını qoyur.

Hər şeydən öncə onu qeyd edək ki, Bayandurlu dövlətinin əsas qurucusu olan Qara Yuluq Osmanın siyasi fəaliyyəti təəsüf ki, yetərincə işiqlandırılmayıb. Atası Qutlu bəy, anası isə Trabzon-Rum imperatorunun qızı Dəspinə xatun idi. Babası Tur Əli nüfüzlu şəxs idi və dəfələrlə Rum imperatorluğuna hücüm etmiş, nəticədə nigah diplomatiyası ilə münasibətlər nizama salınmışdı. Bacarıq və şücaəti ilə seçilən Osman, 1385-ci il Qaraqoyunluya qarşı mübarizə aparması ilə nüfuzunu artırmış oldu. XIV əsrin ikinci yarısından etibarən Qara Yuluq Osman bəy qonşuluqdakı bəyliklərlə dostluq münasibətləri qurmağa çalışmış, bu mümkün olmadıqda isə onlarla mübarizə aparmışdır. Burada "Qara və Yuluq" sözlərinin etimalogiyasına və Osmanın nəyə görə belə tanınmasına nəzər salmaq yerinə düşərdi. Bildiyimiz kimi, Türklərdə qara kəliməsinin müxtəlif mənaları var və daha çox ünvan kimi işlədilirdi."Şiddətli, güclü, sərt, qüdrətli" kimi bilinib daha çox güclü xarakterə malik hökmdarlar üçün ünvanlanırdı. Digər mənada isə qara, matəm mənasında işlədilib uğursuz sayılırdı və günümüzdə də qara bəxt, qara torpaq kimi ifadələr işlənməkdədir. Hərb sənətini yaxşı bilən Osman üçün bu adın müsbət mənada işlənməsi şübhəsizdir. Onu da qeyd edək ki, "Kitab-i Diyərbəkiriyyə" də təkcə "Osman

Bəy", Teymuri mənbələrində isə "Qara Osman", "Qara Osman Bayandurlu kimi keçir. Məmlük tarixində isə "Əmir-Osman, Əmir Qara Osman [6; 7]. Şübhəsiz Osman hərbi qüdrətinə görə qonşu dövlətlər tərəfindən "Qara", yəni cəsur hökmdar kimi tanınmışdır.

Yülüq/İlig ünvanına gəldikdə isə ilig mənasında hökmdar, yülüg kimi isə "yolunmuş, təraş edilmiş" mənalarında işlədilirdi. Ümumən Bayandurlu hökmdarlarının fiziki xüsusiyyətlərinə görə müxtəlif ləqəblərlə adlanması bizə məlumdur və çox ehtimal ki, Yülüq Osmanın xarici görünüşünə görə verilən bir ünvan olmuşdur. Mənbələrdə "ilik", "ilak", "elik" kimi keçən bu söz bəzi tarixçilər (F.Grenard, W.Radloff) tərəfindən "birinci" mənasını verən "ilk" kəliməsindən yarandığını irəli sürülmüşdür. Lakin Osman Turan kimi tarixçilər bu mülahizəni yanlış hesab etmiş və təhlilin yetərli olmadığını bildirmişlər. Türklər "il" kəliməsini "millət" mənasında işlətmiş daha sonrakı zamanlarda millətin yaşadığı məkana da aid etmişlər. Sonradan "vətən yurd, ölkə" statusu qazanaraq siyasi təşkilat kimi "dövlət" mənasında işlənməyə başlanıldı. Dövlətə şamil edilən bu ünvan eyni zamanda hökmdara da aid edilirdi. Tarixi köklərinə baxsaq İlig, Uyğur, Qaraxanlı, Səlcuqlu hökmdarları və şahzadələrə verilən yüksək rütbəli ünvan olmuşdur [5; 6, s.972]. Mənşəcə Atillanın oğlu olan Ellak və ya İllak ilə eyni olması barəsində fikirlər mövcuddur. Orxon abidələrinə əsasən Göytürklərdən fərqli olaraq, Uyğurlarda bu söz ünvan kimi işlənmişdir [6, s.972]. Uyğurlardan Qaraxanlılara keçən bu ünvanla əlaqədar Qaraxanlı dövləti mənbələrdə İligxanlılar olaraq da bilinmişdir. Məlumdur ki, Satuk xan, Qara, Bugra, xan ilə yanaşı İlig ünvanını da istifadə etmişdir. Daha sonra Xəzərlərdə və onların təsirilə Macarlarda da bu söz işlənmişdir [5, 6].

Qara Yuluk Osmana ünvanlanan Qara, Yuluq/İlig kəlimələrinin etimologiyası, mənası, tarixi kökləri haqqında gəlinən nəticə odur ki, doğurdan da Türklərdə Qara və İlig, qüdrətli hökmdarlara aid edilən ünvan idi. Əsas mənbə olan "Kitab-ı Diyərbəkiriyyə" də və digər Farsdilli qaynaqlarda, Osman üçün bu ləqəb qeyd olunmamış, yalnız Məmlük və Osmanlı qaynaqlarında bu ünvan işlədilməkdədir. Hər halda gücü şücaəti ilə şöhrət qazanan Osmanın bu ünvanlarla adlanması olduqca təbii olmalıdır. Bəzi Türkiyə tarixçiləri Yaşar Yücel,Yılmaz

Öztuna tərəfindən Osmanlı ilə düşmənçiliyin də məhz onun dövründə başlanıldığı bildirilir. Məlumdur ki, İldırım Bəyazid Anadoluda siyasi gücü əlində saxlamaq üçün itaətsizlik göstərən bəyliklərə qarşı mübarizə aparırdı. Hətta onun 1389-cu ildə Anadoluya səfər edərək Alaşəhəri, ardınca Aydın, Saruxan, Məntəşə və s. kimi Anadolu bəyliklərini Osmanlı idarəsinə alması haqqında məlumat verilir. Bəhs edilən dövrdə Anadoluda Osmanlı üçün təhlükə törədəcək əsas qüvvələr Qaramanoğulları və Qazi Bürhanəddin idi. Osmanlının öz ərazilərini Qərbi Anadoluya doğru gətirmişdi. Tarixçi Yaşar Yücel bu mübarizəni ətraflı şəkildə şərh edərək, Səlcuq Rum imperatorluğunun dağılmasından sonra Anadolu torpaqlarını yenidən mərləzləşdirmək uğrunda mübarizə olduğunu vurğulamışdır.

Səlcuqların məğlubiyyətindən sonra mənşəcə Azərbaycan türkü olan Qazi Bürhanəddin, 1335-1381-ci illərdə Eretna bəyliyində bir neçə mühüm vəzifədə çalışmış, daha sonra isə bəyliyin zəifləməsindən istifadə edərək Qazi Bürhanəddin Əhməd bəyliyi dövlətini yaratmışdır (1381-1396). Hər hansı bir sülalə üzvü olmasada onun yeganə dəstəyi xalqın ona olan sevgisi və hörməti idi. Həm Azərbaycan, həm də Osmanlı ədəbiyyatında dərin iz qoymuşdur. Mənbələrdə keyfiyyətli insan kimi xarakterizə olunan Qazi Bürhanəddinin mövqeyinin Osmanlının Anadoluya nüfüz etməsindən sonra dəyişməsi və bir sıra bəyliklərlə birlikdə Osmanlıya qarşı ittifaqa qoşulması haqqında söhbət açılır. Beləliklə siyasi nüfüz uğrunda iki dövlətin qarşılaşması qaçınılmaz idi. Qazi Bürhannəddin 1392-ci ildə Çorum adlanan yerdə Osmanlıları məğlub edir, İldirim Bəyazidin oğlu Ərtoğrulu öldürülür [9].

Bəhs edilən dövrdə tayfa ittifaqı başçısı olmuş Qara Yuluq Osman ətrafdakı bəyliklərlə dostluq münasibəti qurmuş, bu mümkün olmadıqda isə onlarla mübarizə aparmışdır. Məhz siyasi nüfuzunun artmasına şərait yaradan hadisə də onun on bir il Sivas-Kayseri dövlət xadimi Qazi Bürhanəddinin yanında fəaliyyət göstərməsi, lakin aralarında sonradan yaranan ixtilafa görə Qazi Bürhanəddini öldürməsi olur (1399). Bu hadisə Anadoluda cərəyan edən hadisələrə təsirsiz

ötüşmür. Belə ki, Osmanlı və Məmlük dövləti üçün çətin düşmən aradan qaldırılmışdı. Məhz, İldırım Bəyazidin də, Ərzincanadək uzanan hücumu bundan sonra baş tutmuşdu [9].

Qara Osmanın otuz illik idarəçilik dövrü dövlətin tarixində mühüm əhəmiyyətə malikdir. Bayandurlular artıq, Herat, Qahirə, Bursaya qədər öz siyasi nüfüzlarını duyurmuşdular. Digər tərəfdən Qazi Bürhanəddin üzərindəki qalibiyyəti qonşu dövlətlər arasında da şöhrət qazanmasına səbəb olmuşdu. Təbii ki, Anadoluda fəthlərə davam edən Osmanlı üçün regionda başqa bir siyasi qüvvənin olması heç də ürək açan vəziyyət deyildi və maraqlarına uyğun gəlmirdi. Vəziyyəti düzgün qiymətləndirən Qara Yuluq Osman bəy Teymurilərlə birgə hərəkət etməyi zəruri hesab edir. Mənbələr göstərir ki, 1402-ci ildə baş vermiş Ankara döyüşündə Qara Osman da onun dəstələri genişlətməsi, onu Qazi Bürhanəddinlə qarşı-qarşıya gətirmişdi. Tarixçi Yaşar Yücel bu mübarizəni ətraflı şəkildə şərh edərək, Səlcuq Rum imperatorluğunun dağılmasından sonra Anadolu torpaqlarını yenidən mərləzləşdirmək uğrunda mübarizə olduğunu vurğulamışdır [4, 9].

Qara Osmanın otuz illik idarəçilik dövrü dövlətin tarixində mühüm əhəmiyyətə malikdir. Bayandurlular artıq Herat, Qahirə, Bursaya qədər öz siyasi nüfüzlarını duyurmuşdular. Digər tərəfdən Qazi Bürhanəddin üzərindəki qalibiyyəti qonşu dövlətlər arasında da şöhrət qazanmasına səbəb olmuşdu. Təbii ki, Anadoluda fəthlərə davam edən Osmanlı üçün regionda başqa bir siyasi qüvvənin olması heç də ürək açan vəziyyət deyildi və maraqlarına uyğun gəlmirdi. Vəziyyəti düzgün qiymətləndirən Qara Yuluq Osman bəy Teymurilərlə birgə hərəkət etməyi zəruri hesab edir. Mənbələr göstərir ki, 1402-ci ildə baş vermiş Ankara döyüşündə Qara Osman da onun dəstələri arasında idi. Teymur isə buna qarşılıq olaraq Diyərbəkri ona verdi. Beləliklə, Bayandurlu dövlətinin əsası qoyulurdu. Onu da qeyd edək ki, Osmanın Teymurilərlə müttəfiq münasibəti ölümünə qədər davam etmişdi. Digər tərəfdən Bayandurlu-Teymuri yaxınlaşması Qara Yusiflə gərginliyi daha da artırdı. Qeyd edək ki, Qara Osmanın Şahruxa göndərdiyi məktubun Qara Yusifin adamları tərəfindən ələ keçiirilərək Herat əvə-

zinə Bursaya göndərilməsi, hec şübhəsiz, sözü gedən dövlətlər arasındakı münasibətlərə təsirsiz ötüşmədi. Məktubun ünvana çatmadığını duyan Qara Osman bundan təşvişə düşərək sultana məktub göndərir. Məktubda bildirilir ki, əslində, məktubun məzmunu Qara Yusif tərəfindən dəyişdirilərək aradakı dostluğa xələl gətirməyə çalışılmışdır. Qara Yusif və övladları "düşmən", adlandırlmış və sultandan təvəqqə edilmişdir ki, onların nifaq yaradan sözlərinə inanmasın [8, s.21].

***Nəticə.*** Bayandurlu tarixinin əsas qaynağı sayılan "Kitab-i Diyarbəkriyyə"də Osman bəy üçün Qara Yuluq ləqəbi işlənməmişdir. Bu ləqəbə Məmlük və Osmanlı qaynaqlarında rast gəlinir. Ərəb dilində verilən bu söz zaman-zaman fərqli mənalarda işlənmişdir və ərəb dilinin çətinliyini nəzərə alaraq qəti fikir bildirmək mümkün olmur. Amma bütün bunlara baxmayaraq, Osman bəyin hərbi şücaətini nəzərə alsaq, onun üçün "qara" ləqəbinin işlənməsi təbii haldır. Digər tərəfdən nəzərə alsaq ki, "Yülük" kəlməsi digər Bayandurlu hökmdarları üçün işlənmədiyinə görə, bu ləqəbin Osmana fiziki xüsusiyyətlərinə görə verilməsi həqiqəti əks etdirir [4, 5].

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi (ən qədim zamandan XX əsrədək). C.I. Z.M.Bünyadovun və Y.B. Yusifovun redaktəsi ilə. Bakı: Azərnəşr, 1994, 687 s.
2. Azərbaycan tarixi: 7 cilddə, III c.: XIII-XVIII əsrlər. Məsul redaktor: Oqtay Əfəndiyev. Bakı: Elm, 1999, 534 s.
3.Ahmet Taşagil. İlig/İslam Ansiklopedesi, 22 Cilt. İstanbul, TDV, 2000, s.108. - https://edn2.islamensiklopedesi.org.tr/dosya/22/C22007287.pdf [30.04.2023].
4.Aka İsmail. Timurlular. Ankara, Diyanet Vakfı Yayınları, 1993, 258 s.
5.Akkuş Fatma Yigit. Ak Koyunlu Beyi Osman Bey'in Ünvanı: Yülük mü İlig mi? // Dil Araştırmaları Dergisi, sayı: 16, Bahar 2015, s.191-198. - https://dergipark.org.tr/en/download/articlefile/54889 [30.04.2023].

6. Akkuş Fatma. Ak Koyunlu-Memlük Münasebetleri. YLT. Gazi Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Tarih ABD. Ankara, 2005, 171 s.
7.Bayraktar Nesrin. Kara ve Siyah Renk Adlarının Türkçedeki Kavram ve Anlam Boyutu Üzerine // Tömer Dil Dergisi, Yıl: 2004, Sayı 126, s.56-77.
8.Sümer Faruk. Karakoyunlular / İslam Ansiklopedisi, C.XXIV, İstanbul, TDV, 2001, s.434-438.
9.Woods John. Akkoyunlular. Çev. Sibel Özbudun. İstanbul, Milliyet Yayınları, 1993, 412 s.

**BEYİM KHAKVERDİYEVA**
*Graduate student of Azerbaijan University*

## BAYANDURLU OSMAN'S NİCKNAMES "YÜLUK" AND "ILİG"

There is no doubt that there are many issues that are still relevant to be investigated in Turkish history. İssues such as the statehood history and administrative traditions of the Turkish peoples and the addresses of the Turkish rulers are considered pending issues in this regard. As part of the topic we are talking about in this article the attempts has been made to clarify the issue of "Yülük " and " İlig "addresses of Osman bey based on the research of Turkish researchers. Among these works, the researchers of Fatma Akkush Yigit, professor of Izmir Katib Chelebi University among the Turkish researchers, prevail. Based on the research of Turkish researchers, the article provides information about the addresses of the founder of the Bayandurlu state Osman Bey as well as the meaning, etymology and history of these addresses in general in Turkish.

*Keywords*: Kara, Yülük, İlig, Kara Yülük Othman Beg.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 94(479.24)**

**CAVİD NƏBİYEV**
*Azərbaycan Universiteti*
*"Azərbaycan qədim və orta əsrlər tarixi" üzrə I kurs magistrantı*
**javid.nabiyev@student.au.edu.az**

# CƏFƏR CABBARLININ "OD GƏLİNİ" PYESİNDƏ OBRAZLAR VƏ ONLARIN TARİXİ REALLIĞI

*Elmi rəhbər*:
tarix elmləri doktoru Anar İsgəndərov

*Azərbaycan tarixsünaslığında ən çox maraq doğuran və ziddiyyətli problemləri özündə birləşdirərək hər zaman gündəmdə olan problemlərdən biri Babək və ümumilikdə Xürrəmikər hərəkatıdır. Zaman-zaman istər Azərbaycan ədəbiyyatında, istərsə də xarici ədəbiyyatlarda bu mövzuya yer verilmişdir. Belə əsərlərdən buri Cəfər Cabbarlının "Od gəlini" pyesidir. Bu məqalədə əsərdəki obrazlardan 2 əsas obraz olan Elxan və Afşinin əslində tarixi reallığı və fəaliyyətləri araşdırılmışdır. Elxan tarixi Babəkin əsərdəki adıdır. Məqalədə bu obrazlar arasında fərqli və oxşar xüsusiyyətlər göstərilmiş, müqayisə olunmuşdur. Ərəb xilafətində ordu başçılarından olan türk Afşin Kavusla əsərdəki obrazın adının eyni olması, onların eyniyyət təşkil etməsinin göstəricisidir. Məqalədə ümumiyyətlə xürrəmilərin məişət və dini inancları pyeslə müqayisəli işıqlandırılmışdır.*

*Açar sözlər*: Cəfər Cabbarlı, pyes, Elxan obrazı, Ərəb işğalları, Babək, Aqşin.

***Giriş.*** Azərbaycanın yeraltı və yerüstü sərvətlərlə zəngin olması tarixən onun leyhinə olmamışdır. Belə ki, bu sərvətlər zaman-zaman onu mənimsəməyə çalışan yadelli işğallarına, basqınlarına səbəb olmuşdur. Roma, Alan, Sasanilərdən sonra növbəti güclü işğalçı qüvvə ərəblər olmuşdur. İslamın təməlində olan müqəddəs, insanpərvər qanun və hökmlər zamanla xəlifələrin şəxsi mənafelərinə uyğunlaşdırılmağa başladı. Bu da nəticədə əhali üzərinə sərt qanunlar, əlavə vergilər qoyulmasına səbəb oldu. Xilafətə yiyələnməyə görə ərəb tayfaları ara-

sında mübarizə xilafəti zəiflətmişdi. Bundan istifadə edən yerlərdə üsyan hərəkatları başlamışdı. Belə hərəkatlardan biri də Xürrəmilər hərəkatıdır. Babəkin başçılığında bu hərəkat özünün zirvəsinə çatdı. Babək şəxsiyyəti Azərbaycan tarixi səhifələrinə qızıl hərflərlə yazıldı. Onun haqqında sonralar bur çox əsərlər yazıldı. Belə əsərlərdən biri də Cəfər Cabbarlının 1927-ci ildə yazdığı "Od gəlini" pyesidir.

Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, bir çox tədqiqatçının fikrincə, bu əsər "ərəb işğalları" adı altında əslində Sovet imperiyasınım ümumiləşmiş inikasıdır.

Əsərdə Elxan personajının prototipi Babək Xürrəmidir. Lakin əsərin baş qəhrəmanı Elxanla tarixin xalq qəhrəmanı Babəkin arasında ərəblərə qarşı mübarizədə eynilik olsa da, ideoloji cəhətdən fərqlər mövcuddur. Belə ki, öz qardaşı Aqşindən illərdir ayrı düşən Elxan onu tapdıqdan sonra, Aqşinin İslama iman gətirməsinə etiraz edərək deyir: "Get, məni asacaq din naşirlərinə söylə ki, mən deyirəm: yoxdur Allah, yoxdur Allah! Bu dinlərin hamısı güclülərin mızrağını daldalamaq, bu Allahü əkbərlər, bu gurultulu canlar gücsüzlərin iniltilərini, fəryadlarını örtmək, boğmaq, susdurmaq üçündür. Məndən başqa mənim xaricimdə özgə bir Allah yoxdur. Mənəm yer üzündəki həyat və səadətin yaradıcısı, mənəm göylərin mənəvi varlığındakı qüvvət və iqtidarın məna və mahiyyəti. Mənəm Allah, Allah mənim özümdədir. Qadınları cansız şeylərə çevirən, qul alverini, insan ticarətini doğruldan məhəmmədlərə, gücsüzlərin taleyini güclülərin mərhəmətinə tapşıran isalara, yüz iyirmi dörd min Allah tacirinə, mətalarını mızraq gücilə satan Allah dəllallarına mən inanmıram. Onların satdıqları uydurma, süni Allahlara mən inanmıram, inanmıram!" [2, s.55]. Lakin tarixə baxdıqda, Babəkin əslində müsəlman olduğunu, İslamın klassik Şiə təriqətindən olduğunu görə bilərik. Coğrafiyaşünas Əbu Duləf yazdığı "İkinci Risalə" əsərində qeyd edir: "Bəzzeyndə sahəsi 3 cəribə bərabər olan yer vardır. Burada Xürrəmilər adı ilə məşhur olan qırmızı geyinmiş adamlar bayraq qaldırdılar. Babək burada çıxış etmişdi. Onlar Mehdinin zühurunu gözləyənlərdir" [1, s.134].

Babəkin Şiə təriqətəndən olması, 12-ci imam hesab olunan İmam Mehdinin zühurunu gözləyənlərdən olması faktı digər mənbələrlə də

sabitdir. “Orada Hürrəmiyyə adı ilə məşhur olan Mühəmmirə firqəsi meydana çıxdı. Babək də o yerdən idi. Onlar imam Mehdinin zühurunu gözləyirdilər” [3, 4]. Ona görə Babəkin ərəb müstəmləkəçiliyinə qarşı mübarizəsini İslam əleyhinə mübarizə kimi qiymətləndirmək doğru olmaz. Bildiyimiz kimi, Babəkin əsl adı Həsən olmuşdur. Bu adı da tarixdə İmam Əli ilk dəfə öz oğluna vermişdir. Buradan da aydın görünür ki, Babəkin əsl əqidəsi Sovet dövrünün təbliğ etdiyi kimi ateizm yox, məhz Şiə İslamı idi. Babəkin qaldırdığı qırmızı bayrağın bu gün də İmam Hüseyn məqbərəsinin günbəzində dalğalanan qırmızı bayraqla eyniləşdirmək heç də səhv olmazdı.

“Od gəlini” pyesinin on dördüncü pərdəsində Elxan xalq qarşısında çıxışında deyir: “Biz də bu yola doğru gedirik. Biz hələlik yurdumuzun yüksək dağlarına çəkiləcək, orada bütün bəşəriyyət üçün örnək ola biləcək bir ölkə düzəldəcəyik. Orada tənasül heç bir qanun altında gizli olmayacaq, əsas: azad könüllərin uyuşması və usanması olacaqdır. İstəyənlər ər-arvad, istəməyənlər bacı-qardaş olacaqlar. Varlı, yoxsul, güclü, gücsüz olmayacaqdır. Bütün ölkə qardaşcasına çalışan, qazanan və bölüşən bir ailə olacaqdır. Orada süni hökumətlər, qanunlar olmayacaqdır. Orada zərərsiz azad istəklər, azad hərəkətlər, həyatın müqəddəs qanunu hökm sürəcəkdır. Orada uydurma dinlər, allahlar olmayacaqdır. Azad vicdanlar, azad sevgilər hər kəsin böyük tanrısı olacaqdır. Məqsəd həyata qovuşacaq, yaşayış ancaq vasitələrlə məşğul olacaqdır. Orada qışın kəskin soyuqları hamını bərabər üşüdəcək, günəşin altun telləri hamını bərabər isidəcəkdir [2, s.70]. Elxanın bu fikirləri əsərin yazıldığı illərdə tüğyan edən sosializm ideologiyasına tam uyğundur. Başqa bir yerdə deyir: “Yalnız mən demirəm. Yalnız mən, bir günəşin telləri, bir vicdanın çarpması, bir mənanın görsənişləri olan bəşəriyyətin bu qardaşlıq və azadlıq bayrağı altında tək qalıb, son nəfəsimdə də La ilahə illəllah deməyib, sizə və bütün insan qəssablarına qarşı ucadan deyirəm: yoxdur Allah, yoxdur Allah! Yalnız mən son nəfəsimdə də insan qanı içən hökumətlərə, insan sümükləri gəmirən ordulara qarşı tək durub deyirəm: yoxdur Allah, yoxdur Allah. Yalnız mən son nəfəsimdə də insan həyatını zəhərləyən, insan diləyini zorlayan süni qanunlara, təriqətlərə, dinlərə, müxtəlif biçimli uydurma

allahlara, yüz iyirmi dörd min Allah tacirinin, yüz iyirmi dörd min vicdan bayquşunun yaratdığı süni, yaramaz, əski qullar dünyasına qarşı üz-üzə durub, ucadan deyirəm: yoxdur Allah, yoxdur Allah. Mənəm göylərin dərinliyində, varlığın gözəlliyində gülümsəyən mövcudatı təcəssüm etdirən, mənəm Allah, Allah mənim özümdədir" [2, s.127].

Göründüyü kimi, Elxan heç bir ilahi və milli qanunları olmayan bir cəmiyyət arzusundadır. Lakin, Ziya Bünyadovun tərcüməsində bu qeydlərə rast gəlirik: "Onlar dağda müsəlmanlar üçün onları namaza çağıran məscid tikmişlər. Onlar öz uşaqlarına Quran oxumağı öyrədirlər, lakin gizlicə namaz qılmır, ramazan ayında oruc tutmur və kafirlərə qarşı cihadı məcburi hesab etmirlər" [5].

Əsərdə digər diqqəti cəlb edən obraz Aqşin obrazıdır. Aqşin Elxanın itkin düşmüş qardaşıdır. Qardaşlar illər sonra bir-birini tanıyırlar, Lakin Aqşinin İslam dininə iman gətirməsi Elxanda ona qarşı ümidsizlik yaradır. Tarixdə göründüyü kimi, Babək Xilafətin bir çox ordusunu darmadağın etdikdən sonra qoşunun başına Afşin ibn Heydər Kabus gətirilir. Afşin milliyət etibarilə Türkdür. 835-ci il 3 iyunda Mötəsim Heydər ibn Kavusu Cibal əyalətinə hakim təyin etdi və Xilafət qoşunlarının baş komandanlığını ona tapşırıb Babəkə qarşı müharibəyə göndərdi Aqşin Elxanın müsəlman olmasını, ən azından canını qurtarması üçün ona İslam dinini qəbul etməyi təklif edir. Bu mübarizədə Elxanın heç bir gücünün olmayacağını zatən məğlub olacağını bildirir: "Elxan, əziz qardaşım, təslim ol! Sizin üzərinizə yalnız Ərəbistanın ərəbləri deyil, başlıca olaraq, ana Türküstanın göy monqolları yürüyürlər. Bütün silahdaşların təslim oldu. Sənin qüvvətindən istifadə ilə baş qaldırmış Şirvan şəhriyarlığı da, artıq xəlifənin hakimiyyətini təsdig edib, boyun əydi. Bax, iyirmi ildən bəri dinsizlik yuvası olan üsyan mərkəzi Xürrəm amansız odların bağrında quru çubuqlar kimi yanır. Sənin ayaqlar altında tapdanmış, qırılmış bayrağın, budur, mənim əlimdədir. Artıq hər şey bitmişdir. Yetər, qardaşım, əl çək dinsizlikdən. Dünyanı qanunsuzlugla idarə etmək olmaz. Gəl, bir olan Allahın doğru yoluna, deyinən La ilaha illəllah! Sən amandasan!" [2, s.122-123]. Lakin illərdir qardaşını görmək istəyən Elxan onun təklifi-

ni qəbul etməyir. “Yalnız mən demirəm. Yalnız mən, bir günəşin telləri, bir vicdanın çarpması, bir mənanın görsənişləri olan bəşəriyyətin bu qardaşlıq və azadlıq bayrağı altında tək qalıb, son nəfəsimdə də "La ilahə illəllah deməyib", sizə və bütün insan qəssablarına qarşı ucadan deyirəm: yoxdur Allah, yoxdur Allah. Yalnız mən son nəfəsimdə də insan qanı içən hökumətlərə, insan sümükləri gəmirən ordulara qarşı tək durub deyirəm: yoxdur Allah, yoxdur Allah” [2, s.127].

Əsərdə Aqşinin bu təklifi tarixi mənbələrdə də eyniylə qeyd olunmuşdu. O, zahirdə xəlifəyə inam və sədaqətlə qulluq edərək, Ərəb xilafətinə qarşı yönəldilən çox böyük xalq hərəkatını yatırırdı, xüsusilə Azərbaycanda Babək hərəkatını darmadağın etdi, gizlində isə Usruşanada üsyan hazırlayaraq, öz əcdadının taxtını özünə qaytarmaq niyyətində idi. Lakin Afşin heç də Babəkin tez darmadağın edilməsini istəmirdi, bütün müharibə ərzində bir neçə dəfə onunla görüşmüşdü və bu görüşlərdə Xilafəti özü ilə Babək və Məzyər arasında bolüşdürməyi Babəklə razılaşdırmağa cəhd edirdi, bu şərtlə ki, xəlifə ordularını darmadağın etmək onlara müyəssər olsun. Lakin onlar razılaşa bilmədikdə, Afşin digər sərkərdələrin təzyiqi altında, Babəkə qarşı onsuz da çox uzanan müharibəni qurtarmağa məcbur oldu.

***Nəticə.*** Qeyd etdiyimiz kimi, real tarixi mənbələrlə pyesin müqayisəsi zamanı bir çox oxşarlıq və fərqliliklərin olduğu məlum oldu. Pyesdə Xürrəmilərin qadın və mülkiyyət ümumiliyinin olması xüsusi vurğulanır. Tarixi reallıqda isə mənbələr Babəkin evliliyi zamanı xüsusi məclisin təşkil edildiyini, evləndiyi xanıma reyhan verməsini qeyd edir. Buradan görünür ki, Xürrəmilərdə qadın ümumiliyi məsələsi ümumiyyətlə olmamış və zina, günah hesab olunub. Babəkin özü böyük mülkü olmuş fedodal idi. Əsərin Sovet dövrünün “qılıncının hər iki tərəfinin kəsdiyi” dövrdə yazılması Cəfər Cabbarlını əsəri sovet ideologiyasına uyğun yazmağa məcbur edirdi. Əsərdə mövcud olan reallıqla ziddiyyətlər buradan qaynaqlanmaqdadır. Ümumiyyətlə deyə bilərik ki, türk-müsəlman olan xürrəmilərin yadelli imperiyaya qarşı vuruşmasını təsvir edən C.Cabbarlı sovet imperiyasına qarşı əks-inqilabi maarifləndirmə aparırdı.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi üzrə qaynaqlar (tərtibçi və redaktor Süleyman Əliyarlı). Bakı, "Çıraq", 2007, 400 s.
2. Cəfər Cabbarlı. Od gəlini. Bakı, "Qanun", 2020, 128 s.
3. Səid Nəfisi. Azərbaycan qəhrəmanı Babək Xürrəmdin. Bakı, "Örnək", 1990, 128 s.
4. Səid Nəfisi. Babək. Bakı, "Xatun plyus", 2010, 185 s.
5. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Şərq-Qərb", 2007, 424 s.

**JAVID NABIYEV**
*First year graduate student of Azerbaijan University*

## CHARACTERS AND THEIR HISTORICAL REALITY IN THE PLAY "THE BRIDE OF FIRE" BY JAFAR JABBARLY

At the end of the 30s of the 20th century, World War II began. The USSR was already preparing for war. The fact that Azerbaijan was part of the USSR at the same time showed that it would not be left out of the war. At that time, the Soviet ruling circles and ideologues were already thinking about preparing the countries that were part of the Soviet empire for war. Nations had to be psychologically prepared for war in order to win the war. In such circumstances, it was imperative to instill a sense of unity, equality, and patriotism among the nations within the empire. Therefore, many works have been written on this topic. This article is about one such work, the play “Bride of Fire”. The article begins with the Introduction. The date and historical period in which the work was written are described. Later, the image of Elkhan and Babek were compared. The image of Aghshin was compared with the history of Afshin. At the end, the author’s conclusion is shown.

When writing the article, the rules for gathering materials, studying and analyzing them, making generalizations, and obtaining

results were expected. The article was freed from factors such as ideological influence and was conducted according to the research of the sources.

*Keywords*: Jafar Jabbarly, Play (theatre), image of Elkhan, Arab invasions, Babek, Akshin.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 94** **ELŞAD QULİYEV**
*Bakı Dövlət Universiteti, Türk dünyası tarixi üzrə magistrant*
**elsadquliyev105@gmail.com**

# XƏLİL İNALCIK VƏ OSMANLI TARİXİ MƏSƏLƏLƏRİ

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən

*Osmanlı dövr tarixinin öyrənilməsi Türkiyə üçün hər zaman ən aktual problemlərdən biri olaraq qalmaqdadır. Xəlil İnalcık Osmanlı tarixi üzrə ən böyük araşdırmaçılardan biridir. Onun Osmanlı tarixinin müxtəlif dövrlərinə həsr olunmuş yüzlərlə tarixi əsəri mövcuddur. Müasir dünyada Osmanlı tarixi deyiləndə ilk ağla gələn alim Xəlil İnalcıkdır. Onun yazdığı əsərlərdə birbaşa ilkin mənbələrə istinad edilərək, ortaya yeni yanaşmalar qoyulur. O, ilk dəfə olaraq Osmanlı sosial-iqtisadi tarixini yeni aspektdə öyrənmiş, vergi sisteminin xüsusiyyətlərini dərindən araşdırmışdır. Xəlil İnalcıkın araşdırmalarına qədərki dövrdə Osmanlı tarixi daha çox Avropalı tarixçilərin əsərlərindən öyrənilirdi, bu əsərlərdə Osmanlı dövlətinin tarixinə yanlış yanaşmalar mövcud idi. Belə ki, Osmanlı dövlət idarəçiliyi, sosial-iqtisadi sistemi, mədəniyyətinin formalaşmasında Avropanın rolu vurğulanır, amma bunun əksinə olan proseslərin üstündən sakitcə keçilirdi. Məqalədə X.İnalcıkın təhsili, əsərləri, metodologiyası, əsərlərinin təsnifatı, yeniliklərinin öyrənilməsinə cəhd edilmişdir.*

*Açar sözlər*: Xəlil İnalcık, Osmanlı tarixi, Osmanlı tarixinin tarixşünaslığı.

*"Halil İnalcık - bütün zamanların böyük alimi ...".*
Professor Bernard Levis

***Giriş***. Dünyanın tarixini yazan və yaradanlar insanlardır. Bu insanların həyatı, fəaliyyəti, məqsəd və məramları çox maraqlı, qeyri-adiliklə zəngin olduğu üçün onlar haqqında daha çox öyrənmək, daha çox düşünmək, bəzən də bu şəxsiyyətləri bir-biri ilə müqayisə edib fərqləndirmək lazımdır. Tarixi yaradanlar olmasaydı, onu yazanlar da olmazdı qənaəti məhz bundan yaranır. Tarixi yazmaq onu yaratmaq qədər çətindir, çünki tarix bir dəfə yaradılır, amma bir neçə dəfə, həm

də fərqli yazılır. Buna görə də, tarixin obyektiv şəkildə yazılması vacibdir. Osmanlı kimi nəhəng bir dövlətin tarixinin yazılması, bu dövlətin yaranması qədər çətin bir proses olmuşdur. Bu prosesdə görkəmli Türkiyə tarixçisi Xəlil İnalcıkın böyük rolu olmuşdur. O, bütün ömrünü Osmanlı tarixinin öyrənilməsinə, dünyada tanıdılmasına həsr etmişdir. Xəlil İnalcık qeyd edirdi ki: "*Həyatda insanı yaşadan bir hədəf, məqsəd olmalıdır, mənim hədəfim bu idi: türklərin tarixini bir yabançının deyil, bir türkün gözü ilə yazmaq*" [15].

***Xəlil İnalcıkın təhsili***. Xəlil bəy 26 may 1916-cı ildə Osmanlı imperatorluğunun İstanbul şəhərində (Kadıköy) anadan olub. Əslən krım tatarıdır. Xəlil İnalcık Osmanlı-Türk tarixini obyektiv, doğru və tərəfsiz şəkildə yazaraq, bu böyük tarixin həqiqətlərini dünyada tanıtmağı bacaran bir tarixçi idi. Xəlil İnalcık 1932-də Balıkəsir Necatibəy Müəllimlər Məktəbində Nüsrət Kürkçüoğlu və Abdülbaki Gölpinar kimi müəllimlərdən dərs almış, 1935-ci ildə Ankara Universitetinin Dil və Coğrafiya fakültəsinə daxil olmuşdur. Burada dövrünün qabaqcıl ziyalılarından Fuad Köprülü, Şəmsəddin Günaltay, Müzəffər Gökər, Yusif Hikmət Bayur və başqalarının mühazirələrini dinləmişdir. Onların arasında Xəlil İnalcıka daha çox təsir edən və sonralar özünə ustad və nümunə saydığı müəllimi Fuad Köprülünün adını xüsusi qeyd etmək lazımdır. 1940-cı ildə Dil-Coğrafiya fakültəsini bitirən İnalcık həmin ilin aprelində Dil və Tarix, Coğrafiya fakültəsinə elmi yardımçı təyin edilmişdi. 1942-ci ildə "Tənzimat və Bolqar məsələsi" adlı dissertasiya müdafiə etmiş, 1943-cü ildə "Vyanadan Böyük Ricəti Osmanlı İmperatorluğu və Krım xanlığı" adlı əsərinə görə dosentlik adını almışdır. 1947-ci ildə Türk Tarix Qurumuna üzv qəbul olunmuş Xəlil İnalcık 1949-cu ildə Ankara universiteti tərəfindən İngiltərəyə ezam edilmişdir. O, 1951-ci il fevralın 1-də İngiltərədən Türkiyəyə dönmüş və Bursa Şəriə Sicilləri üzərində çalışmalarını davam etdirmişdi. X.İnalcığın 1952-ci il iyunun 2-də "Vyana Bozqun illərində Osmanlı-Krım xanlığı işbirliyi" adlı kitabı nəşr olunmuş və bu əsərə görə professor adını almışdır. O, 1953-54-cü illərdə Kolumbiya Universitetinə professor kimi işə qəbul olunmuşdur [14].

X.İnalcık 1977-ci ildə "Türkiyənin Sosial və İqtisadi Tarixi Beynəlxalq Assosasiyasını" yaratdı. Bu beynəlxalq elmi cəmiyyət 2005-ci ilə qədər sonuncusu Venesiyada olmaqla 10 beynəlxalq konfrans təşkil etmişdir. 1960-cı ildə İsrail Abraham Universitetinə qəbul edilmişdir. 1966-cı ildə Beynəlxalq Cənub-Şərqi Avropa Araşdırmaları Qurumuna üzv seçilmiş və 1971-1974-ci illərdə bu Quruma rəhbərlik etmişdir.

1972-ci ildə 30 ilə yaxın çalışdığı Ankara Universitetinin Dil və Tarix, Coğrafiya fakültəsindən təqaüdə çıxdıqdan sonra görkəmli alim Çikaqo Universitetinin dəvəti ilə həmin universitetin tarix fakültəsində professor vəzifəsində çalışmağa başlayır. 1973-cü ildə Londonda "Osmanlı imperiyası: Klassik çağ, 1300-1600" əsərini ingilis dilində nəşr etdirir. Bu əsər 8 dilə tərcümə edilir. O, 1983-cü ildə Amerikanın Elm və Sənət Akademiyasına, Türk Araşdırmalar İnstitutunun İdarə Heyətinə üzv seçililir. X.İnalcık 1986-cı ildə 15 ildən artıq çalışdığı Çikaqo Universitetindən təqaüdə çıxır. Həmin ildə Boğaziçi Universiteti Xəlil İnalcıka fəxri doktor adı vermişdir. 1990-92-ci illərdə Harvard və Prinsenton universitetlərində mühazirələr oxumuşdur. 1993-cü ildə İngiltərə Akademiyasına üzv seçilmişdir. X.İnalcık 1993-ci ildə Bilkent Universitetinə dəvət olunmuş və burada tarix bölümünü qurmuşdur. Alim 1994-cü ildə "Osmanlı imperiyasının sosial və iqtisadi tarixi" əsərini nəşr etdirdi. Dörd mütəxəssislə birlikdə hazırladığı əsəri bu gün dünya universitetlərində stolüstü kitaba çevrilmişdir. X.İnalcık bu əsərlə Osmanlı Türkiyəsi tarixinin gerçəklərini bütün dünyaya tanıtmaqla fəxr edirdi. 1996-cı ildə iki cilddə çap olunan bu əsərin birinci cildi məhz X.İnalcık tərəfindən yazılmışdır. 2001-ci ildə bu əsər türk, yunan və ərəb dillərinə tərcümə olunmuşdur. 2006-cı ildə onun "Şəriə Sicillərinə görə İstanbul tarixi" lahiyəsi üzrə "İstanbul məhkəməsi 121 saylı Şəriə Sicili" adlı əsəri çap olundu. 2011-də ildə X.İnalcığın "Seçilmiş əsərləri"nin 3 cildi, 2013-də "Osmanlı və Modern Türkiyə", 2014-də "Devlet-i 'Aliyye: Tagayyür ve Fesad, Osmanlı İmparatorluğu Üzerine Araştırmalar II" çapdan çıxmışdır. Ümumilikdə dünya şöhrətli alimin 72 kitabı, 500-dən çox elmi məqaləsi vardır [2, s.56].

Xəlil İnalcığın yüksək səviyyəli bir tarixçi olmasının səbəblərindən biri də onun ingilis, fransız, alman dillərini gözəl bilməsi, ərəb və fars dilindən də istifadə edə bilməsi, italyan dilini isə lüğət vasitəsilə başa düşməsi və hər zaman elmi araşdırmaya önəm verməsi olmuşdur. O, gətirdikləri yeniliklərlə türk tarixçiliyinə istiqamət vermiş iki böyük ustadın adını çəkirdi: Fuad Köprülü və Ömər Lütfi Barkan. X.İnalcığın fikrincə, bu günkü tarixi onların yolu ilə gedərək yaxşı araşdıra bilmək üçün Osmanlıya hakim olmaq və bunun yanında da qərb tarixini izləmək lazımdır. Bütün gücünü Türk tarix elminin modern bir elm səviyyəsinə qaldırılmasına sərf edən. X.İnalcik tarix anlayışını belə izah etmişdi: "*Mənim tarix anlayışım dövlətlərin tarixini ortaya çıxarmaqdan daha çox xalqın tarixini, xalqın keçmişdə neçə yaşadığını və bunlara səbəb olan şərtləri ortaya çıxarmaqdır*" [16, s.523]. Dünya elmi ictimaiyyəti görkəmli alimin əməyini yüksək qiymətləndirərək ona bir çox ali mükafatlar təqdim etmişdir.

***Xəlil İnalcıkın əsərlərinin metodologiyası***. Şübhəsiz ki, bu kiçik məqalədə 72 kitabın, 500 məqalənin müəllifi olan Xəlil İnalcığın tarix metodologiyasını bütün yönləri ilə qiymətləndirmək mümkün deyil. Burada onun tarixi metodologiyası haqqında yalnız ümumi çərçivədə məlumat təqdim edilməsinə çalışılacaqdır. İnalcığın əsərlərinə nəzər saldıqda onun Osmanlı siyasi tarixi ilə bağlı geniş araşdırmalar aparmasına baxmayaraq, əsas marağının sosial və iqtisadi problemlərə yönəldiyi görünür. 1950-ci illərdə Fuad Köprülü və Ömər Lütfi Barkan kimi mühüm türk tarixçiləri, fransız tarixçisi F.Braudel[1] İnalcıkın sosial və iqtisadi problemlərin həllinə əsaslanan tarix metodologiyasına əhəmiyyətli təsir göstərmişlər. İnalcık Fuad Köprülü və Bərkanın öz üzərindəki təsirlərini bu sözlərlə ifadə edir: *"Köprülü və Bərkan yazıları bizim üçün ilham mənbəyi idi. Şübhəsiz ki, mənim tarixi şəxsiyyətimə bu iki müəllifin böyük təsiri olub"* [17, s.93]. Əvvəla, bütün araşdırmalarında arxiv materiallarına və sənədlərə əsaslanan İnalcıka

---

[1] *Fernand Braudel fransız tarixçisi və Annallar məktəbinin rəhbəri idi. Braudel tarixin yaranmasında və yazılmasında genişmiqyaslı sosial-iqtisadi amillərin rolunu vurğulayırdı. O, həm də dünya sistemləri nəzəriyyəsinin öncüllərindən biri sayıla bilər.*

F.Braudel və Annallar məktəbinin nəzəriyyə, yanaşma və təhlil baxımından təsiri 1950-ci illərdə Parisdə başlamışdır. İnalcığa görə, Braudel Şərqi Aralıq dənizində hökmranlıq edən Osmanlı imperatorluğunun sosial, iqtisadi və demoqrafik xüsusiyyətlərinin qərbdəkilərlə paralel olduğunu, bu iki dünyanın sıx təmas və qarşılıqlı əlaqədə olduğunu və bu iki dünyanın bir-birindən ayrı təhlil edilə bilməyəcəyini göstərmişdir. Avropadan kənarda anormal inkişaf və Avropaya düşmən kimi qələmə vermək ənənəsini tərk edərək, iki fərqli mədəniyyətə bağlı olan bu iki dünyanın əslində bir-birini tamamladığını əsl tarixçi baxışı ilə ortaya qoymuşdur.

Annallar məktəbi tarixşünaslığın mahiyyətini dəyişdirən "sosial tarix" adlı yeni bir yanaşma gətirmişdir. X.İnalcık Lucien Febvre və Mark Bloch tərəfindən qurulan Annallar tarix məktəbi tarixin öyrənilməsinin təkcə sərkərdələr və hakim siniflər deyil, tarixdəki bütün insanlar haqqında olması fikrini irəli sürmüşdür [12].

Ümumi tarixi Aralıq dənizi cəmiyyətlərinə və bu arada Osmanlı cəmiyyətinə tətbiq etməyə çalışan, lakin Osmanlı imperiyasını "qorxulu qeyri-müəyyənlik zonası" olaraq qiymətləndirən Braudel, öz suallarına cavab verən çox az araşdırma tapa bildi. Bununla bərabər bu dövrə qədər Osmanlı tarixi ilə bağlı yazılan məqalələr də onu tez-tez yanlış mühakimələrə sürükləyirdi. Lakin bu böyük tarixçi öz parlaq üslubu ilə Osmanlı tarixinin əsas məsələlərinə dair aydın və mənalı suallar vermiş, bu sualların hər biri Osmanlı tarixçiləri üçün araşdırma yolu açmışdır. İnalcık iddia edirdi ki, Annallar məktəbi metodoloji olaraq "bütöv tarix" və "uzun müddətli tarix" anlayışlarını qəbul etsə də, onların Osmanlı tarixinə sağlam şəkildə tətbiqi yalnız təcrübi məlumatlara əsaslanan izahatlarla əldə edilə bilərdi. Bu kontekstdə o, müxtəlif izahat modellərinə əsaslanan ümumiləşdirmələrdən qaçıb, ümumi izahlara ehtiyatla yanaşıb. İnalcık Osmanlı tarixi araşdırmaları baxımından ümumiləşdirmələrin nöqsanlarını bu sözlərlə ifadə edir: *"Marksist və ya Veber sosiologiyalarının ortaya qoyduğu modelləri Osmanlı tarixinə tətbiq etmək səyləri, şübhəsiz ki, bu tarixi araşdırmalara yeni maraqlı istiqamətlər və mövzular gətirmişdir. Amma di-*

*gər tərəfdən ümumiləşdirmələr də bizi yanlış istiqamətlərə aparır. Osmanlı tarixinin sosial və iqtisadi problemləri ilə bağlı indiyədək heç bir əsaslı araşdırma aparılmadığından, bu ümumiləşdirmələrin əksəriyyəti heç bir tarixi əsası olmayan xəyali nəzəriyyələr olaraq qalır. Digər tərəfdən, sosioloji anlayışlar və ümumiləşdirmələr bizə tarixi problemləri müəyyən düsturlarla həll etdiyimiz hissini verir. Osmanlı tarixinin böyük problemlərinin həlli mümkün olmayan bəzi sosioloji ümumiləşdirmələrlə son vaxtlar dəb halını alıb. Bizim intizamımız zamansız və yersiz ümumiləşdirmələr etmək deyil, hadisələri zaman və məkanda araşdırmaqdır"* [7, s.90].

İnalcık tarix metodologiyası, tarixşünaslıq, mənbələri qiymətləndirmə üsulları, Annallar məktəbi, bu məktəbin Osmanlı tarixşünaslığına təsiri və töhfələrini aşağıdakı məqalələrdə təhlil etmişdir: "The Rise of Ottoman Historiography", Historians of the Middle East; "Impact of the Annales School on Ottoman Studies and New Findings"; "On the Social Structure of Ottoman Empire: Paradigms and Research", From Empire to Republic; "Türkiye'de Modern Tarihçiliğin Kurucuları"; "Hermenötik, Oryantalizm, Türkoloji" [18, s.10].

Tanınmış amerikalı alim İmmanuel Uollerşteyn İnalcık haqqında bu sətirləri qeyd edir: *"Halil İnalcık bu gün dünya universitetlərində oxunur və tədris olunur. Onu dar mənada "tarixçi" hesab etmək olmaz. Tarix intizamını özü formalaşdıran, öz metodologiyasını və biliyini tarixşünaslıq peşəsinə gətirən bir şəxs kimi İnalcık elmi ictimaiyyətin razılaşdığı görkəmli bir addır. İnalcık məktəbinə mənsub yüzlərlə şagird ondan təkcə ilkin mənbələrdən istifadə etmək, sənəd və arxivləri araşdırmaq bacarığını deyil, həm də tarixə müasir mənada bir çox sosial-iqtisadi və mədəni aspektlərdən baxmağı öyrənib. Yeni nəsil tarixçilər ona Aralıq dənizi, Osmanlı və Balkan tarixindəki bir çox səhvləri düzəltməyə borcludurlar. Onun kitabları, saysız-hesabsız məqalələri sosial elm adamları üçün göz qamaşdıran xəzinədir. Halil İnalcık bu sahənin ən görkəmli alimlərindən biridir. Onun dünya elminə verdiyi töhfələr danılmazdır. Onun qələminin hədəfinə çevrilmiş mövzu üzərində biz yalnız mütaliə edə bilərik"* [18, s.6].

***Əsərlərinin mövzusu.*** Xəlil İnalcığın əsərləri bütövlükdə nəzərdən keçirildikdə onun Osmanlı tarixinin demək olar ki, bütün dövrləri ilə bağlı araşdırmalar apardığı və bu araşdırmalarda çox müxtəlif mövzuların olduğu görünür. İnalcığın əsərləri əsasən:

I. Siyasi tarix;

II. İctimai və iqtisadi tarix (qurumlar tarixi, dövlət quruluşu və fəlsəfə, hüquq, ticarət, sosial təbəqələr, istehsal, vergi, bürokratiya, demoqrafik quruluş, şəhər tarixi və s.) və

III. Sintez əsərlərdir. III qrup əsərləri əsasən Osmanlı ictimai və iqtisadi tarixini işıqlandırmaq məqsədi daşıyan araşdırmaları əhatə edir.

***Siyasi tarix üzrə əsərləri.*** İnalcığın Osmanlı siyasi tarixi ilə bağlı araşdırmalarının əhəmiyyətli bir hissəsinin quruluş dövrü və XV əsrin əsas problemlərinə aid olduğu, lakin onun Krım tarixi və Osmanlı-Avropa əlaqələri ilə bağlı da mühüm araşdırmalar apardığı görünür. İnalcık bu araşdırmaları ilə sözü gedən dövrlərin siyasi tarixinə həm xronologiya və yer təyini, həm də hadisələrin altında yatan dinamikləri anlamaq baxımından əhəmiyyətli fikirlər gətirmişdir. İnalcık Osmanlı imperatorluğunun mənşəyi ilə bağlı iki əsas yanaşmadan başqa (söhbətlərin heç bir tarixi əsası olmayan nağıllardan ibarət olması və onları bir kənara qoymağın zəruriliyi) fərqli bir yol tutmuşdur. O, göstərdi ki, quruluş dövrü və xüsusilə də Osman Qazi rəvayətləri iki ünsürdən ibarətdir: XIV əsr Osmanlı epik tarixşünaslığının çatdırdığı faktiki materiallar sülalənin ideallaşdırılması ilə bağlıdır. O, Şahzadəlik dövrünün epik tarixşünaslığının verdiyi materialı arxiv sənədlərində üzə çıxan qeydlər (xüsusən də, Osman dövrünə aid əsaslar) işığında dəyərləndirmişdir. İnalcığın yerli səyahətləri və bu istiqamətdə apardığı araşdırmalar göstərdi ki, köhnə Osmanlı şayiələrini "nağıl" kimi rədd etməkdənsə, diqqətli bir tənqidlə araşdırılarsa, çox mühüm tarixi faktlara çatmaq olar. Bundan əlavə, XV əsrin sonlarında tərtib edilmiş məcmuələrdə (Aşık Paşa-zadə, Neşri və İdris-i Bitlisinin tarixləri) görünən qanunilik məqsədilə edilən bəzi ideoloji əlavələrin tarixi mənalar daşıdığını və bu əlavələrin Osmanlı tarixinin müxtəlif yerlərində

tarixi məna daşıdığını, yaşadığı dövrdə üzləşdiyi təhlükələrə və Osmanlı siyasi iddialarını əks etdiriyini sübut etdi (məsələn, Osmanı Oğuz xana bağlamaq iddiası, Kayı, sikkə və xütbələrə sahib olmaq və s.). Digər tərəfdən, II Murad və Fateh dövrlərində baş verən siyasi prosesləri, daxili siyasi böhranları və bu böhranların Osmanlı xarici siyasətinə necə təsir etdiyini dərindən öyrənmişdir. O, bu mövzularda yazılan əsərləri tənqid süzgəcindən keçirərək, qərbdəki araşdırmaları izləyərək bir çox naməlum siyasi məsələləri işıqlandırmış, yanlış məlumatları islah etmişdir. Bu qrup əsərlərə aşağıdakılar daxildir: "Fatih Devri Üzerinde Tetkikler ve Vesikalar"; "Mehmed the Conqueror and His Time"; "The Emergence of the Ottomans", The Cambridge History of Islam"; "The Rise of the Ottoman Empire", "The Conquest of Edirne (1361)"; "Tursun Beg, Historian of Mehmed the Conqueror's Time"; "Osman Gazi's Siege of Nicea and the Battle of Bapheus", The Ottoman Empire (1300-1389); "Periods in Ottoman History"; "Essays in Ottoman History" [18, s.9].

Osmanlı-Avropa münasibətləri ilə bağlı siyasi tarix araşdırmalarında isə bütünlüklə müasir Avropanın formalaşmasında Osmanlı imperiyasının rolunu və Osmanlının Avropa dövlətləri ilə qarşılıqlı əlaqədə olduğunu ortaya qoyur. Xəlil İnalcıkın araşdırmalarına qədərki dövrdə Avropa tarixçiləri bu prosesi görməzdən gələrək, Osmanlının Avropaya təsiri haqqında yazmırdılar. Xəlil İnalcık tarix boyu Osmanlının Avropaya həm mədəni, həm də siyasi baxımdan təsirləri ilə bağlı aşağıdakı əsərləri yazmışdır: "Müasir Avropanın inkişafına türk təsiri", "Türkiyə və Avropa: tarixi perspektiv", "Avropa və Osmanlılar arasında qarşılıqlı siyasi və mədəni təsirlər", "Tarixdə Türkiyə və Avropa".

*Xəlil İnalcıkın əsərlərində Osmanlı-Krım məsələsi*. Xəlil İnalcıkın atası Krım türkü Seyit Osman Nuri bəy olmuşdur. Buna görə də alimin Krım tarixinə xüsusi marağı var idi, bu sahədə ilk araşdırmasını Krım xanlığının Osmanlı tabeliyinə verilməsi ilə bağlı etmişdi. Bu əsər "Yeni sənədlərə əsasən, Krım Xanlığının Osmanlı imperatorluğuna tabe olması və Ahidnâme məsələsi" [8, s.185] adlanırdı. Sonrakı dövrlərdə Krımın tarixi ilə bağlı araşdırmalarını davam etdirdi. İslam Ensiklopediyasının birinci və ikinci nəşrləri, Türkiyə Diyanət Vəqfi

İslam Ensiklopediyası (TDV İA) üçün Krım xanlarının tərcümeyi-halı, istifadə etdikləri titullar və Krım xanlığının tarixini yazmışdır. Krımın Osmanlı imperiyası tərkibindəki vəziyyəti, Rusiya çarlığı ilə əlaqələri kimi mövzuları əhatə edən mühüm əsərlər nəşr etdirmişdir. Onun Krım haqqında ensiklopediyalara yazdığı məqalələrdən başqa, aşağıdakı əsərləri də qeyd etmək olar: "Xan və qəbilə aristokratiyası: I Sahib Girey dövründə Krım xanlığı (1532-1551)", "Rusiya, Osmanlı imperiyası və Krım xanlığı arasındakı hakimiyyət münasibətləri", "Krım xanlığı, Osmanlılar və Rusiya imperatorluğunun yüksəlişi" [1, s.535]. Bu əsərlərdə Krım xanlığının soykökünə diqqət çəkən Xəlil İnalcık, xanlığın türk tarixində rolu, dövlət, quruluşu və xarici siyasət məsələlərini ətraflı şəkildə şərh edir.

Halil İnalcık Krım türklərinə tatar deyilməsinin əleyhinə olmuşdur. Rusiya imperatorluğunun tarixin müxtəlif dövrlərində Osmanlı nəzarətindəki Krım türklərini işğal və ilhaq etmək cəhdlərini vurğulayan İnalcık, Krımda türklər üçün tatar ifadəsinin işlədilməsi "səhvini düzəltmək istəyirəm" deyərək yazırdı: *"Tatar adı monqolcadır. 1240-cı illərdə Şərqi Avropaya gələn monqol ordularında tatarlar var idi. Osmanlılar burada Krım xanlığını aldıqdan sonra digər bölgələr Qızıl Orda Monqol xanlığına tabe idi. Monqol dövlətinin təbəələri olaraq, onlara tatar deyirdilər. Tatar yanlış termindir, əsas deyilməli olan Qıpçaq türküdür. Qıpçaq türkünün lüğəti çıxıb, qıpçaq ləhcəsi var. Tatarlığı iddia etmək monqolizm iddiasıdır. Rusiya bunu bildiyi üçün, nüfuzunu yaratmaq istədiyi bütün türk vilayətlərində tatar titulu istifadə edir. Bu gün hətta azərbaycanlılara da tatar deyirlər, azərbaycanlılar isə Anadolu türkləridir".*

Son Moskva knyazı və ilk rus çarı "qorxunc" ləqəbli IV İvanın Kazanı və bugünkü Polşanın bir hissəsini alaraq Şərqi Avropaya hakim olduğunu ifadə edən İnalcık, *"Rusiya imperatorluğunun bundan sonra yeganə məqsədi, Krım xanlığı və Qara dənizə daxil olmaqdır. Krım xanlığı Osmanlı imperiyasını Moskva imperiyasının güclənməsinə qarşı qoruyan bir sədd idi. Digər tərəfdən, Rus çarlığı isə Həştərxan kazaklarından, Don kazaklarından, Terek kazaklarından, Qafqazdan, Terek çayı, ön qoşunlarında və rus çarlığı öz cəbhə qüvvələrini*

*istifadə edərək, nüfuz etdiyi bölgələrə qarşı ekspedisiyalara başladı. Türkiyə ilə Rusiya arasında Krım mübarizəsi belə başladı"* – deyə yazır. İnalcık, 1774-cü ildə sona çatan Osmanlı-Rus müharibəsindən sonra rusların təkrar basqınlarla Krımı işğal etməyə cəhd etdiklərini və nəhayət, 1783-cü ildə ilhaq etməyi bacardğını bildirir. Krım Qıpçaq türklərindən ibarət idi.

Krımın Rusiya üçün Anadolu, boğazlar və İstanbulu təhdid etmək vasitəsi olduğunu ifadə edən İnalcık bildirirdi ki, Türkiyə bu vəziyyətin qarşısını almaq üçün Qərb ölkələri və üzv olduğu NATO kimi təşkilatlarla əməkdaşlığını davam etdirməlidir. Krımın ümumi əhalisinin təxminən yüzdə 60-nı rusların təşkil etdiyinə diqqət çəkən İnalcık deyirdi ki, *"Krımı Türkiyəni təhdid etmək üçün ruslaşdırıblar. Bu həqiqəti bilməliyik. Sürgündən qaçan yazıq Krım türklərinin vəziyyəti çox aşağıdır. Vətənimizi əlimizdən zorla alaraq Krımı Türkiyəni təhdid etmək üçün ruslaşdırıb. Bu həqiqəti biz bilməliyik. Putin bu gün əsgərlərini Krıma gətirir və deyir ki, Krım rusdur, bizim mövzumuzdur. Bütün hekayə budur"* [13].

***İctimai və iqtisadi tarix üzrə əsərləri.*** Xəlil İnalcıkın əsas maraq dairəsi Osmanlı imperatorluğunun sosial və iqtisadi tarixidir. Bu çərçivədə xüsusilə torpaq məsələsi, hüquq, şəhər həyatı, ticarət, qurumların tarixi, bürokratiya, dövlət quruluşu və fəlsəfəsi, Osmanlı cəmiyyətində aşağı təbəqələrin vəziyyəti, təbəqələr arasında sosial-iqtisadi gərginlik və qarşıdurmaların mənşəyi, demoqrafik quruluş, sosial dəyişikliklər və transformasiyalar və s. kimi mövzuları ilkin mənbələr əsasında dərindən araşdırmış və Osmanlı tarixşünaslığında inqilab sayıla biləcək nəticələr ortaya qoymuşdur. İnalcıkın ictimai və iqtisadi tarixlə bağlı araşdırmalarını:

a) Osmanlı torpaq rejimi və Timar sistemi;

b) Osmanlı qanunları;

c) Osmanlı şəhər tarixi;

d) Osmanlı ticarət tarixi;

e) Dağılma dövrlərindəki sosial və iqtisadi dəyişikliklər və çevrilmələr kimi başlıqlar altında qruplaşdırmaq olar [10, s.10-15].

*Torpaq rejimi.* 1942-ci ildə müdafiə etdiyi “Tənzimat və Bolqar məsələsi” adlı doktorluq dissertasiyasında II Əbdülhəmidin Bolqar məsələsi ilə bağlı toplatdığı sənədlərin (1840-41-ci illər Vidin üsyanı ilə bağlı sənədlər) külliyyatını tapan İnalcık, Vidin valisi və müfəttişlərinin göndərdiyi hesabatlardan üsyanın səbəblərinin iki ölkə arasında torpaq məsələləri olduğunu müəyyən etdi. Yenə bunun torpaq məsələlərindən qaynaqlandığından yola çıxaraq, Osmanlı tarixinin əsas probleminin torpaq məsələsi və bununla bağlı problemlər olduğunu ortaya qoydu. Akademik həyatının ilk dövrlərində Osmanlı torpaq rejiminin və timar sisteminin dağılmasının yaratdığı problemlərlə maraqlanan İnalcık, daha sonra bu rejimin necə qurulduğunu, hansı ənənələrdən təsirləndiyini daha dərindən araşdırmağa başladı. Bu kontekstdə tədqiqatlarını xüsusilə “Tahrir dəftərləri” və “Qanunnamə”lər üzərində cəmləmişdir. Baş nazirlik arxivlərində Fateh dövrünə aid kadastr qeydlərində etdiyi araşdırmalar zamanı İnalcık, II Murad dövrünə aid 1432-ci il tarixli Arnavudluq sancağının timar dəftərini tapdı. Bu dəftərin çap olunmasında ciddi çətinliklər olsa da, nəhayət geniş bir müqəddimə ilə “Hicri 835 Tarihli Suret-i Defter-i Sancak-ı Arvanid” adı ilə nəşr olundu. Bu sahədə ilk əsər olmaqla tarixə düşmüşdür. Bir araşdırma olması baxımından da əhəmiyyətli olan “Arnavud dəftəri”nin nəşri ilə Osmanlı torpaq rejimi və timar kimi mövzularda əhəmiyyətli bir araşdırma sahəsi meydana gəldi. Osmanlının Balkanlarda məskunlaşmasının keyfiyyəti və yerli xristian feodal ailələrinin Osmanlı timar-ərlərinə (timar-er) çevrilməsi haqqında nəşrlər davam etdirildi [18, s.13].

İnalcık həm XV əsr təhrir dəftərləri, həm də Osmanlı hüququnun müxtəlif mənbələri üzərində apardığı araşdırmalarla doktorluq dissertasiyası çərçivəsində müəyyən etdiyi torpaq məsələlərinin və bununla bağlı vergi sisteminin mənşəyinə dair əsərlər yazmışdır. Beləliklə, İnalcık Osmanlı əkinçilik rejimi üçün çox vacib bir məsələ olan rəiyyət rusumunun mənşəyi və mahiyyəti haqqında çox yeni fikirlər irəli sürdü. İkiqat rüsum (Çift resmi) və digər əlaqədar vergilərin kəndli sinfinin statusunu təyin edən bir sistem olduğunu ortaya qoyan İnalcık, bu mövzuda fikirlərini “Osmanlılarda rəiyyət rüsumu” [11] məqaləsində geniş şəkildə açıqlamışdır.

Ailəsini dolandıra biləcək torpağı (50-150 sot) olan ər-arvad ikiqat vergi (Çift resmi) verir, bu torpağın yarısı qədər olanlar ikinci sinfi təşkil edir. Bu torpağın yarısından az torpağı olan, təsərrüfatı və torpağı olmayan subay kəndlilər bu sistemdə kəndli sinfinin aşağı səviyyələrini təşkil edir. Xəlil İnalcık rəiyyətin bu əsasda qruplara bölündüyünü və vergilərin də buna uyğun müəyyən edildiyini, ailənin isə torpaqla birlikdə bu sistemdə birləşmiş istehsal sistemi (ikili ev təsərrüfatı) olduğunu yazmışdır [11, s.576].

*Osmanlı hüquq sisteminin tarixi.* Halil İnalcık Osmanlının ictimai və iqtisadi problemlərinin heç birinin hüquqi əsaslarından ayrı öyrənilə bilməyəcəyini nəzərə alaraq, akademik həyatının ilk illərindən Osmanlı hüququ ilə bağlı araşdırmalar aparmışdır. Burada hüquq tarixçisi Prof. Sadri Maksudi Arsalın təsirini də qeyd etmək lazımdır, çünki İnalcık orta məktəb illərindən Sadri Maksudi Arsalın əsərlərini oxumuşdu. Hüquq sahəsində ilk böyük işi Dr. Robert Anhegger ilə birlikdə nəşr etdirdiyi "Kanunname-i Sultani ber Muceb-i Örf-i Osmani: II Mehmed və II Bəyazid çağlarına aid yasaknamələr və qanunnamələr" olmuşdur [11, s.577].

II Bəyazid dövrünə aid qanunlar (adətlər, vergi yığımı, şəriətdən başqa məsələlərdə Sultana xas məsələlərə aid qanunlar) yer alan bu nəşr, xüsusilə klassik dövr Osmanlı hüquq sistemini araşdıranlar üçün vacib bir mənbədir. Osmanlı hüququ ilə bağlı digər mühüm əsər onun "Qanuni Süleyman və Osmanlı Qanunu" adlı məqaləsidir [9, s.106]. İnalcık hüquq ideyasına və onun türk dövlət ənənəsində əks olunmasına diqqət yetirmiş, sonra Sultan Süleyman qanunlarını üç kateqoriyada (hər sancaq üçün çıxarılan qanunlar, konkret mövzuları ehtiva edən müddəalar və ümumi qanunlar) təhlil etmişdir. O, Süleyman qanunlarını Fateh qanunları ilə müqayisə etmiş, onların oxşar və fərqli cəhətlərini göstərmişdir. O, XVI əsrdə Osmanlı hüquq sisteminin təkamülünün ümumi çərçivəsini də tərtib etmişdir.

*Osmanlı şəhər tarixi.* Xəlil İnalcıkın Osmanlı imperatorluğunun ictimai və iqtisadi tarixi kontekstində araşdırma apardığı bir başqa sahə də Osmanlı şəhər tarixidir. Xüsusilə 1950-ci illərdə Bursa dəftərləri ilə bağlı araşdırması (Bursa dəftərxanalarına aid 300-dən çox

sənəd nəşr etdirdi) İnalcığı Osmanlı şəhəri ilə yanaşı, Osmanlı ticarəti və sənayesinin vəziyyəti kimi mövzuları da araşdırmalağa sövq etdi. O, araşdırmaları ilə şəhərlərin inkişafı, onların təsisatları, fiziki quruluşunun hakim elementləri, vətəndaşların həyat tərzi, rayonlaşdırma fəaliyyəti, fondlar, mülkiyyət sahibləri, əhalinin strukturu, mədəniyyəti kimi çoxşaxəli məsələlərə aydınlıq gətirir.

İnalcıkın Osmanlı şəhər tarixinə dair əsas araşdırmaları bunlardır: "Bursa and the Commerce of Levant"; "The Re-building of Istanbul by Sultan Mehmed the Conqueror"; "The Policy of Mehmed II toward the Greek Population of Istanbul and Byzantine Buildings of the City"; "The Foundations of the Ottoman Economic-Social System in Cities"; "Ottoman Galata 1453-1553"; "Istanbul: An Islamic City"; "Erzurum"; "Bursa"; "İstanbul"; "The Survey of Istanbul 1455" [18, s.15].

*Osmanlı ticarət tarixi*. İnalcıkın ictimai və iqtisadi tarix çərçivəsində dərin araşdırmalar apardığı bir başqa sahə də Osmanlı ticarət tarixidir. "Osmanlı iqtisadi ağlı və Osmanlı iqtisadiyyatının aspektləri" [7] və "Osmanlı imperatorluğunda kapitalın formalaşması" [5] kimi əsərlərində Osmanlı cəmiyyətində ticarət anlayışı və ticarət düşüncəsi üzərində dayanmışdır. O, Osmanlı ticarətinin ölçülərini, iri tacir kimi xarakterizə edilə bilən tacir qruplarının hüquqi vəziyyətini, ticarət kapitalının strukturunu araşdırmış və bu inkişafları dünya ticarət tarixi baxımından Qərb cəmiyyətlərindəki inkişaflarla müqayisə etmişdir.

***Sintez əsərləri***. Halil İnalcık, zaman-zaman toxunduğu "uzun müddət" (uzun dönem) prizmasından hadisələri araşdıran məqalələri ilə yanaşı, siyasi, sosial, iqtisadi, mədəni və bütövlükdə Osmanlı tarixinin bütün sahələrini əhatə edən əsərlərin də müəllifidir. Bunlardan birincisi, hazırda dünya universitetlərində əsas istinad kitabı kimi qəbul edilən "Osmanlı İmperiyası: Klassik Çağ, 1300-1600" əsəridir [4]. İnalcık, bu əsərində klassik dövr adlandırdığı 1300-1600-cü illərin siyasi tarixini geniş rakursdan verdikdən sonra dövlət anlayışını, saray təşkilatını, hüquqi quruluşunu, mərkəzi və dövlət anlayışının keyfiyyətini açıq şəkildə izah etmişdir. Osmanlı imperatorluğunda əyalət rəhbərliyi, iqtisadi və ictimai həyatı, din və mədəniyyətin əsaslarını izah etmişdir. İstər bu keyfiyyət, istərsə də kitabın sonundakı əlavələr

(Osmanlı şəcərəsi, Osmanlı tarixi xronologiyası (1261-1924), Osmanlı imperatorluğunda istifadə olunan lüğət) bu əsəri təkcə Osmanlı tarixi ilə maraqlananlar üçün deyil, ümumilikdə dünya tarixi ilə maraqlananlar üçün əvəzedilməz etmişdir. Bu ümumi sintez işi dörd dəfə ingilis dilində nəşr edilmiş, altı Balkan dilinə və ərəb dilinə tərcümə edilmişdir. Bu işlər sayəsində bu bölgələr Osmanlı dövrünün tarixini yenidən araşdırmaq imkanı əldə etdilər.

İnalcıkın bu kontekstdə başqa bir əsəri isə uzun müddət davam edən elmi layihənin bəhrəsi olan "Osmanlı imperatorluğunun iqtisadi və sosial tarixi" [10, s.24] əsəridir. İnalcık, xüsusilə, Osmanlı tarixinin ictimai, iqtisadi, demoqrafik quruluşu və ictimai həyatına dair nəhəng araşdırma hazırlamışdır. 1980-ci illərdə başlayan bu layihədə İnalcık 1300-1600-cü illər dönəmini, sonrakı dövrləri isə S.Faroqhi, B.McGowan, D.Quataert yazdı. Bu layihə nəticəsində 1994-cü ildə nəşr olunan "Osmanlı imperatorluğunun iqtisadi və sosial tarixi" adlı kitabda İnalcık bütövlükdə klassik dövr Osmanlı imperatorluğunun iqtisadi və sosial dinamikasını, əhali hərəkətləri və onların imperiyaya təsirlərini müzakirə etmişdir. Əsər böyük diqqət gördü və iki ildən sonra iki cilddə yenidən nəşr olundu. Ərəb və yunan dillərinə tərcümə edilmişdir.

Xəlil İnalcıkın əsərləri, məqalələri, layihələr, sənədlər topluları haqqında cildlərlə kitablar yazmaq mümkündür. Biz onun ən çox tanınmış əsərlərinin adını çəkməklə kifayətlənirik. Dünyada tanınmış əsərləri aşağıdakılardır: "Tanzimat ve Bulgar Meselesi"; "Hicri 835 Tarihli Suret-i Defter-i Sancak-ı Arvanid"; "Fatih Devri Üzerinde Tetkikler ve Vesikalar"; "Kanûnnâme-i Sultânî ber Mûceb-i Örf-i Osmanî: II. Mehmed ve II. Bayezid Devirlerine Ait Yasaknâme ve Kanûnnâmeler"; "The Ottoman Empire: the Classical Age, 1300-1600"; "Gazavât-ı Sultân Murâd b. Mehemmed Hân İzladi ve Varna Savaşları (1443-1444) Üzerinde Anonim Gazavâtnâme"; "Tursun Beg, The History of Mehmed the Conqueror"; "The Ottoman Empire: Conquest, Organization and Economy"; "Türkiye'nin Sosyal ve Ekonomik Tarihi / Social and Economic History of Turkey (1071-1920)"; "Studies in Ottoman Social and Economic History"; "Osmanlı İmparatorluğu Toplum ve Ekonomi Üzerinde Arşiv Çalışmaları, İncelemeler"; "The Middle East and the

Balkans underthe Ottoman Empire"; "The History of the Black Sea Trade: the Register of Customs of Caffa"; "Süleyman the Second and his Time"; "An Economic and Social History of the Ottoman Empire"; "From Empire to Republic: Essays on Ottoman and Turkish Social History"; "Essays in Ottoman History"; "Osmanlı, 12 Cilt"; "Osmanlı'-da Devlet, Hukuk, Adâlet"; "Şâir ve Patron, Patrimonyal Devlet ve Sanat Üzerinde Bir İnceleme"; "Osmanlı Uygarlığı"; "Doğu Batı"; "Tanzimat / Değişim Sürecinde Osmanlı İmparatorluğu"; "Atatürk ve Demokratik Türkiye"; "Türkiye Tekstil Tarihi Üzerine Araştırmalar"; "Devlet-i 'Aliyye: Osmanlı İmparatorluğu Üzerine Araştırmalar"; "Kuruluş Dönemi Osmanlı Sultanları, 1302-1481"; "Rönesans Avrupası Türkiye'nin Batı Medeniyetiyle Özdeşleşme Süresi"; "Osmanlı İdare ve Ekonomi Tarihi"; "Has-Bağçede 'Ayş u Tarab - Nedimler Şairler Mutribler"; "Osmanlılar, Fütühat, İmparatorluk, Avrupa ile İlişkiler"; "Kuruluş ve İmparatorluk Sürecinde Osmanlı"; "Osmanlı ve Modern Türkiye"; "The Survey of Istanbul 1455"; "Türklük Müslümanlık ve Osmanlı Mirası"; "Adalet Kitabı"; "Tarihe Düşülen Notlar"; "Akademik Ders Notları" [18, s.19].

***Nəticə.*** Xəlil İnalcıkın araşdırmaları Osmanlı tarixinin dünyada tanıdılmasında, aparıcı rola yüksəlməsində mühüm əhəmiyyət kəsb edir. Onun elmi işləri mənbə materiallarının ciddi tədqiqi ilə fərqlənir və yazıları, o cümlədən "Osmanlı İmperiyası: Klassik Çağ 1300-1600" əsəri dünya tarixçiləri üçün tənqidi mətnlərə çevrilmişdir. Bir çox dillərə çevrilən yüzlərlə əsərin müəllifidir. Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən adı dünyada sosial elmlər sahəsində öndə gedən 2000 alim arasında göstərilib. Həyat və fəaliyyətindən bəhs edən "Tarixçilərin qütbü Xəlil İnalcık" adlı kitab 2005-ci ildə çap olunub. İnalcık tarixşünaslığı Avropada "sənədə əsaslanan tarix" adı ilə tanınır. Onun arxivlərdən istifadəsi hədsizdir. O, təkcə Osmanlı arxivlərində deyil, müxtəlif ölkələrin digər milli arxivlərində də axtarışlar aparıb.

Məqaləmizi amerikalı sosioloq İmmanuel Vallersteynin (Wallerstein) Xəlil İnalçık haqqında dediyi aşağıdakı fikirlə razılaşdığımızı bildirərək yekunlaşdırmaq istərdik: "Bu gün dünya universitetlərində Xəlil İnalcık oxunur və oxudulur. Onu dar mənada "tarixçi" olaraq düşünmək

yetərsiz olardı. Tarix fənnini formalaşdıran, öz metodologiyasını və biliyini tarixçi peşəsinə qazandırmış Xəlil İnalcık elmi ictimaiyyətin görkəmli nümayəndəsidir. Aralıq dənizi, Osmanlı və Balkan tarixləri ilə bağlı bir çox səhvlərin düzəldilməsini yeni nəsil tarixçilər ona borcludurlar... Onun dünya elminə versiyi töhfələr danılmazdır" [18].

## ƏDƏBİYYAT

1. Abdullah Cinkara. Halil İnalcık, Kırım Hanlığı Tarihi Üzerine Araştırmalar 1441-1700, İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, 2017 // Ankara Anadolu ve Rumeli araştırmaları dergisi, Yıl: 2021, Ciltt: 2, Sayı: 4, s.535-547.
2. Arı Bülent, Selim Aslantaş. Tarih Öğretiminde Tek Kişilik Akademi: Halil İnalcık // Türk Yurdu, 175 (2002), s.56-60.
3. Halil İnalcik. An Economic and Social History of the Ottoman Empire. Cambridge University Press, 1994, 1066 p.
4. Halil İnalcik. The Ottoman Empire: The Classical Age, 1300-1600. London, Weidenfeld and Nicolson, 1973, 258 p.
5. Halil İnalcık. Capital Formation in the Ottoman Empire // Journal of Economic History, XXIX/1, 1969, p.97-100.
6. Halil İnalcık. Kanûnnâme-i Sultânî ber Mûceb-i Örf-i Osmanî: II. Mehmed ve II. Bayezid Devirlerine Ait Yasaknâme ve Kanûnnâmeler'dir. Ankara, TTK, 1956, 138 s.
7. Halil İnalcık. The Ottoman Economic Mind and Aspects of the Ottoman Economy // Studies in the Economic History of the Middle East, ed. M.A.Cook, London, 1970, p.207-218.
8. Halil İnalcık. Yeni Vesikalara Göre Kırım Hanlığı'nın Osmanlı Tâbiliğine Girmesi ve Ahidnâme Meselesi // Belleten, 30/1944, s.185-229.
9. Halil İnalcık. Suleiman the Lawgiver and Ottoman Law / Archivum Ottomanicum, I. Mounton,1969, p.105-138.
10. Halil İnalcık. Osmanlı İmparatorluğu'nun Ekonomik ve Sosyal Tarihi 1. Cambridge University Press, 652 p.
11. Halil İnalcık. Osmanlılarda Raiyyet Rüsumu // Belleten, 23/1959, s.575-610.

12. Hakan Aslanbenzer. Halil İnalcık. Documenting history / Daily Sabah, Jul 24, 2015. - https://www.dailysabah.com/portrait/2015/07/24/halil-inalcik-documenting-history [20.04.2023].
13. Halil İnalcık'tan “Kırım” açıklaması / TRT Haber, 07.03.2014. - https://www.trthaber.com/haber/gundem/halil-inalciktan-kirim-aciklamasi-120342.html [20.04.2023].
14. Xəlil İnalcık (1916-2016) / Azərbaycan Tarix Qurumu. - http://aztrq.com/yenilikler/dunya-sohr%c9%99tli-alim-x%c9%99lil-inalcigin-v%c9%99fati-il%c9%99-bagli-olaraq-az%c9%99rbaycan-tarix-qurumunun-bassagligi/ [20.04.2023].
15. Xəlil İnalcık: Həyatda insanı yaşadan bir hədəf, məqsəd olmalıdır / 525-ci qəzet, 04.10.15. - https://525.az/news/43114-xelil-inalcik-heyatda-insani-yasadan-bir-hedef-meqsed-olmalidir [20.04.2023].
16. Mahmut Şakiroğlu . Halil İnalcık Bibliyografyası. - “Tarihçilerin Kutbu” kitabında. İstanbul, Türkiye İş Bankası Kültür Yayınları, 2005, s.523-560.
17. Halil İnalçık. Osmanlı Tarihçiliğinin Doğuşu. Çev.: Fahri Unan. - “Söğüt’ten İstanbul’a” kitabında. Der.: Oktay Özel, Mehmet Öz. Ankara, İmge Kitapevi, 2000, s.93-117.
18. Selim Aslantaş. Prof. Halil inalcık’ın (1916-2016) akademik biyografisi. Halil İnalcık Armağanı I, (Haz.: T.Takış, S.Aksoy). Ankara, Doğu Batı Yayınları, 2009, s.11-39.

**ELSHAD GULİYEV**
*Baku State University, Master of History of the Turkic World*

# KHALIL INALCIK AND OTTOMAN HISTORICAL ISSUES

Studying the history of the Ottoman period has always been one of the most urgent problems for Turkey. Khalil Inalcik was the greatest scholar of Ottoman history. There are hundreds of his historical works dedicated to different periods of Ottoman history. The first scholar who comes to mind when the Ottoman history is mentioned in the modern world is Khalil Inalcik. His works directly referring to primary

sources, he introduces new approaches. For the first time, he studied the Ottoman socio-economic history in a new aspect and deeply investigated the features of the tax system. In the period before Khalil Inalcik's research, Ottoman history was mostly studied from the works of European historians, in these works the history of the Ottoman state was wrongly approaches existed, such that the role of Europe in the formation of the Ottoman state administration, socio-economic system, and culture was emphasized, but the opposite processes were quietly passed over. In the article, the education, works, methodology, classification of his works, innovations of X. Inalcik were studied.

*Keywords*: Khalil Inalcik, Ottoman history, historiography of history of Ottoman.

*Daxil olma tarixi*: 20.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 930.25** **GÖZƏL HƏBİBULLAYEVA**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin*
*"Arxiv işi, arxivşünaslıq" ixtisası üzrə II kurs magistrantı*
**hebibullayevagozel@icloud.com**

# MÜASİR DÖVRDƏ ABŞ-DA ARXİV SƏNƏDLƏRİNİN KOMPLEKTLƏŞDİRİLMƏSİ, DƏYƏRİNİN EKSPERTİZASI, MÜHAFİZƏSİ VƏ ƏLÇATANLIĞIN TƏŞKİLİ MƏSƏLƏLƏRİNƏ DAİR

*Elmi rəhbər:*
kulturologiya üzrə fəlsəfə doktoru İlhamə Səfərova

*Məlum olduğu kimi, Amerika Birləşmiş Ştatları (ABŞ) təkcə iqtisadi, sənaye, hərbi, elm və təhsil və d. cəhətlərdən deyil, həm də arxiv işi sahəsində dünyanın ən qabaqcıl dövlətlərdən biri və hətta birincisi sayılır, hər zaman dünyada öz innovativ yenilikləri ilə seçilir. Bu baxımdan, məhz ABŞ-ın arxiv işi təcrübəsini tədqiq etmək, onun faydalı cəhətlərini öyrənmək və onlardan yararlanmaq hər zaman böyük aktuallıq kəsb edir və dünya arxivşünas-tədqiqatçılarının diqqətini cəlb edir. Məqalə çağdaş dövrdə ABŞ-da arxiv sənədlərinin komplektləşdirilməsi, dəyərinin ekspertizası, mühafizəsi və əlçatanlığın təşkili məsələlərinin tədqiqinə həsr olunmuşdur.*

*Açar sözlər*: ABŞ, arxiv işi, komplektləşdirmə, arxiv sənədinin dəyərinin ekspertizası, arxiv sənədlərinin mühafizəsi, arxiv sənədlərinə əlçatanlıq.

***Giriş***. Arxiv sənədlərinin komplektləşdirilməsi ABŞ-da arxivlərin mühüm fəaliyyət istiqamətlərindən biridir. Həll olunması tələb edilən əsas məsələ məlumat seçimi məsələləri olaraq qalır:

– ictimaiyyət üçün hansı məlumatlar qorunub saxlanmalıdır?
– və hansı formada saxlanmalıdır?

Müasir dünyada dövriyyədə olan sənədlərin həcmi bütün sənədlərin qorunub saxlanılmasına imkan vermir. Belə ki, bunun üçün kifayət qədər maliyyə və maddi resurslar çatışmır. Bundan əlavə, təşkilat-

lar tərəfindən yaradılan sənədlər ictimaiyyətə lazım olanlarla müqayisədə, çoxlu əlavə məlumata malikdir. Məsələn, sənədlərin çoxlu sayda surətləri olur.

Məhz buna görə də, ABŞ-da 1980-ci ildə təşkilatlarda məcburi qorunmalı olan məlumatların həcmini azaltmağa yönəlmiş "Sənədlərlə işin ixtisar edilməsi haqqında" federal qanun qəbul edildi. Təsisatların məlumat toplamaq hüququ məhdudlaşdırıldı, bu vəzifə "məlumat mərkəzləri" idarələrinə həvalə edildi. Burada söhbət ilk növbədə dövlət təşkilatlarından gedir. Mərkəzlərdə yalnız zəruri məlumat olmadığı halda məlumatların birbaşa təşkilat tərəfindən toplanmasına icazə verilirdi [3, s.190].

Ənənəvi olaraq, ictimaiyyət üçün zəruri olan məlumatların qorunub saxlanması məsələsi sənədlərin özündə ehtiva etdiyi informativ məzmunu ilə əlaqələndirilir. Sənədlər məlumatla zəngin, yaxud az informativ ola bilər, hansı ki, özündə əsasən "informasiya səs-küyü" (yəni artıq məlumatlar) ehtiva edir. Buna görə də, arxivlərdə saxlanma üçün optimal miqdarda məlumat ehtiva edən sənədlərin seçilməsinə üstünlük verilir. Sənədin informativ əhəmiyyəti isə, ilk növbədə onun növündən asılıdır və saxlanılma məqsədilə sənədlərin seçilməsi bu müddəaya əsaslanır.

Amerika təşkilatları öz fəaliyyətləri zamanı yaradılan sənədlərin siyahılarını tərtib edir və sənədlərin saxlanma müddətlərini müəyyən edirlər. Milli Arxiv İdarəsi federal təşkilatların sənədlərinin siyahılarına baxır və rəy verir, razılaşdırılmış siyahılar əsasında təşkilatın sənədlərinin seçilməsi və ya məhv edilməsi həyata keçirilir. Məhv edilməli sənədlərin ayrılması haqqında qərar sənədlərdə olan məlumatların əhəmiyyətinin qiymətləndirilməsi üçün hazırlanmış meyarlar əsasında həyata keçirilən – "sənədin dəyərinin ekspertizası üzrə nəticələrə" əsaslanır. Məlumatların qiymətləndirilməsi sisteminin son dövrdə inkişafı bir sıra məsələlərin həllini nəzərdə tutur:

– seçim meyarlarının müəyyənləşdirilməsi;
– meyarların qarşılıqlı əlaqəsi;
– meyarların əhəmiyyətliliyi;
– institusional mühitin və qərar qəbuletmə formatının birliyi;

– texniki imkanların uyğunluğu.

Dəyərin ekspertizasının vəzifəsi – uzunmüddətli istifadə üçün yaradılan məlumatların tam həcmindən yüksək keyfiyyətli məlumatları ehtiva edən kompleks seçməkdir. Ekspertizaya yanaşma, meyarlar və metodların işlənib hazırlanması ümumi nəzəriyyənin yaradılmasına əsaslansa da, praktikada dəyərin ekspertizasına görə konkret vəzifəli şəxslər şəxsən məsuliyyət daşıyırlar.

Sənədlərin dəyərinin ekspertizası nəzəriyyəsi arxiv elmi tərəfindən kifayət qədər uzun müddət ərzində inkişaf yolu keçmiş və təkmilləşmişdir. Faktiki olaraq, bütün XX əsr ərzində təcrübədə əldə edilmiş empirik bilikləri ümumiləşdirməyə cəhdlər edilmiş, lakin bu proses tamamlanmamış və uzunmüddətli saxlanma üçün sənədlərin seçilməsi üzrə kamil bir meyarlar sistemi yaradılmamışdır. Buna baxmayaraq, son dövrdə, xüsusən də XX əsrin ikinci yarısı – XXI əsrin əvvəllərində ABŞ-ın arxiv nəzəriyyəsi tərəfindən işlənib hazırlanmış bir sıra nəzəri mövqelər bütün dünya arxivlərinin təcrübəsində geniş istifadə olunur [6, s.101-113].

ABŞ-da sənədlərin dəyərinin ekspertizası ilə bağlı müasir nəzəriyyəsinin əsasları 1960-1980-ci illərdə həmin dövrün bir sıra nəzəri işləmələrinin ümumiləşdirilməsi nəticəsində formalaşmışdır. İlk dəfə Filipp Bruks[1] öz əsərlərində sənəd məlumatının “daimi dəyəri” məsələsini qaldırmış və üç dəyər meyarı təklif etmişdir:

– Sənədin inzibati dəyəri;
– Sənədin mənsub olduğu təsisat və ya şəxs üçün dəyəri;
– Tarixi əhəmiyyətlilik dəyəri.

Başqa bir amerikalı arxivist Filipp Bauer məlumatın dəyəri (value of information) anlayışını sənədlərin dəyərinin ekspertizası üzrə meyarlar sisteminə daxil etmişdir. Ümumiyyətlə, F.Bauer sənədlərin məhv edilməsinə qarşı çıxaraq hesab edirdi ki, “adi” məlumat, dubletlər kimi anlayışlar sənədlərin məhv edilməsi üçün elmi əsaslandırılmış

---

[1] *Filipp Kulic Bruks (1906-1977) – amerikalı arxivist, uzun müddət Milli Arxiv və Sənədlər İdarəsində çalışmış, 1957-1971-ci illərdə Harri Trumen adına Prezident kitabxanasına rəhbərlik etmişdir.*

arqument deyil. Dəyərin ekspertizası yalnız sənədləri ətraflı öyrəndikdən, təhlil etdikdən və onların sonrakı saxlanma qiymətini müəyyən etdikdən sonra mümkündür. Sonradan saxlanma üçün seçilən sənədlər F.Bauerin fikrincə, onların sonrakı istifadəsi üçün əsas olan prioritet məlumatları ehtiva etməlidir, yəni dəyərin ekspertizası sənədlərdən istifadə məqsədindən irəli gəlməlidir. O, bu baxımdan sənədlərdən istifadənin dörd əsas istiqamətini müəyyən etmişdir:

– Dövlət orqanları üçün rəsmi məlumat kitabçalarının (referat sistemlərinin) hazırlanması;
– vətəndaş hüquqlarının müdafiəsi (təminatı);
– alimlərin tədqiqatları;
– genealoji (şəcərələrlə bağlı) tədqiqatlar.

Sənədləri əhəmiyyətinə görə sıralayarkən F.Bauer belə qənaətə gəlir ki, ilk iki istifadə istiqamətini təmin edən sənədlər son ikisindən daha çox əhəmiyyət kəsb edir.

F.Bauer sənədlərin potensial faydalılığını müəyyən edən üç meyar müəyyən etmişdir:

– sənədlərdə olan məlumatların miqdarı və xarakteri;
– yerləşməsinə görə əlverişliliyi;
– onlardakı mətnin konsentrasiya dərəcəsi.

F.Bauerin təklifləri amerikalı arxivçilərin və tarixçilərin əksəriyyəti arasında özünə dəstək tapmasa da, sənədlərin faydalılıq meyarları qəbul edildi.

Sənədlərdəki məlumatın ilkin və ikinci dərəcəli dəyəri nəzəriyyəsini işləyib hazırlayan görkəmli amerikan arxivisti Teodor Şellenberq[2] sənədlərin dəyər ekspertizası nəzəriyyəsinin inkişafında xüsusi rol oynamışdır. Sənədin ilkin dəyəri sənədlərin təyinatı, yəni onların yaradılma məqsədləri ilə müəyyən edilirdi. T.Şellenberq ilkin dəyərin müəyyən edilməsi üçün üç meyar müəyyən etmişdir: hüquqi, maliyyə və inzibati dəyər [2]. Sənədlərin ikinci dərəcəli dəyərini isə Şellenberq

---

[2] *Teodor Ruzvelt Şellenberq (1903-1970) – amerikalı arxivist və arxiv işi nəzəriyyəçisi. 1956-cı ildə "Müasir arxivlər: prinsiplər və texnikalar", 1965-ci ildə "Arxiv idarəetməsi" kimi fundamental əsərlər yazmışdır.*

şərti olaraq iki hissəyə ayırırdı: sübutedici (evidential) dəyər və informativ dəyər. Sübutedici (maddi dəlil kimi) dəyəri sənədi yaradan təşkilat və ya şəxslə bağlı idi. İnformativ dəyər isə, müxtəlif elm sahələrindəki geniş tədqiqatçı dairəsi üçün vacib olan çoxspektrli hadisələrin və faktların sənədləşdirilməsi (istinad etmə) ilə əlaqələndirilirdi.

T.Şellenberqin, F.Bruksun və F.Bauerin ideya və tədqiqatları federal hökumətin sənədləri ilə işin təşkili ilə bağlı idi və funksional yanaşma nöqteyi-nəzərindən ekspertiza problemini həll etmişdi. Lakin, bu meyarların qeyri-hökumət təşkilatlarına tətbiqi müsbət nəticə verə bilmədi. Buna baxmayaraq, 20 ilə yaxın müddətdə T.Şellenberqin ideyalarının arxivçilərə qeyd-şərtsiz təsiri olmuşdur.

1970-ci illərdə Maynord Briçford özünün "dəyər sistemini" işləyib hazırladı və saxlanmaq üçün sənədləri seçərkən aşağıdakıları nəzərə almağı təklif etdi:

– sənədlərin yaşı, həcmi, forması və funksional xüsusiyyətləri, məlumatlat kompleksinin informativ xüsusiyyətləri;

– T.Şellenberqin ilkin dəyər adlandırdığı inzibati dəyər (inzibati, maliyyə və hüquqi dəyər);

– tədqiqat dəyəri (unikallıq, sübutedici, məlumatın mövcudluğu, tədqiqatın tezliyi, istifadənin növü, keyfiyyəti, müddəti);

– arxiv dəyəri (arxiv sənədlərinin qaşılıqlı əlaqəsi, sənədlərin saxlanması xərcləri).

Cəmiyyətin "fəaliyyətlərinin" necə sənədləşdirilməsi, hansı sənədlərin qorunub saxlanması ilə bağlı ilk suallardan biri 1980-ci illərdə Cerald Hem tərəfindən qoyulmuşdu. Bu məsələnin həlli qeyri-dövlət, özəl təşkilatların sənədlərinin saxlanması üçün seçim xüsusiyyətlərini nəzərə alaraq arxivlərin əldə edilməsi üzrə yeni siyasətin işlənib hazırlanmasını nəzərdə tuturdu [3, s.15-55].

C.Hemin ideyaları bir sıra tarixi cəmiyyətlərin və universitetlərin arxivçiləri tərəfindən dəstəkləndi. Onlar sənədlərin seçiminə daha geniş yanaşmanı təklif etdilər, xüsusən də sənədin məlumatının qiymətləndirilməsinin zəruriliyindən danışdılar və sənədlərin seçimində ümumi yanaşmadan istifadə etməyi təklif etdilər. Onların ideyaları "sənədləşmə strategiyası" (*documentation strategy*) adlı konsepsiyada təcəssüm

olunurdu. Məsələn, Helen Samuels, Larri Hekman, Joan Varnou-Blevet hesab edirdilər ki, sənədlərin dəyərinin araşdırılması ilkin olaraq təsisatlararası planın işlənib hazırlanmasını, yəni müəyyən bir coğrafi ərazidəki bütün təsisatların fəaliyyət istiqaməti üzrə sənədlərinin adekvat qiymətləndirilməsini tələb edir. H.Samuels sənədlərin funksional xüsusiyyətləri və sənəd yaradıcılarının bir-biri ilə qarşılıqlı əlaqəsi kimi seçim meyarlarından istifadə etməyi təklif etmişdir [4, s.100-150]. Arxivçinin rəyi sənədlərin dəyərinin araşdırılması prosesində son arqument kimi qəbul edildi. Eyni zamanda, sənədləri seçərkən onların sonrakı saxlanması xərclərini nəzərə almaq zərurəti ideyası da rədd edilmədi.

F.Boles və Y.Yanq öz sələflərinin təklif və ideyalarının təhlili əsasında üç meyar əsasında seçim meyarları sistemini işləyib hazırladılar:

– informasiya dəyəri;
– saxlama dəyəri;
– ekspertiza üçün tövsiyələr məcmusu [8, s.27].

Elektron sənədlərin təşkilində arxiv işçilərinin işi həm də dəyərin ekspertizasını nəzərdə tutur. Mövcud müasir inkişaflar arasında dəyər ekspertizasını iki kateqoriyaya ayıran Harold Naqlerin təkliflərini qeyd etmək lazımdır:

– maşınla oxuna bilən sənədlərin məzmununun təhlili;
– sənədlərin texniki xüsusiyyətlərinin təhlili.

Birinci kateqoriya kağız əsaslı (paper-based) sənədlərin ekspertizası üçün ənənəvi meyar və prinsipləri tətbiq edir: sənəd məzmununun və ya formatının təkrarlanması; məlumat sıxlığı səviyyəsi; məlumatın əhəmiyyəti; informasiyanın emalı və elektron sənədlərə istiqamətlənmiş qarşılıqlı əlaqə potensialı. İkinci kateqoriya isə, mövcud avadanlıqlar və proqram təminatı, məlumatların adekvatlığı; dizayn, məlumatların oxunaqlılığı kimi meyarlardan istifadəni nəzərdə tutur.

Saxlanmaq üçün elektron sənədlərin seçilməsi üzrə meyarlar sisteminin işlənib hazırlanması məsələsi hələ də öz həllini tapmayıb və arxivçilər ilə informasiya texnologiyaları sahəsindəki mütəxəssislər arasında mübahisələrə səbəb olur. Bu baxımdan, Devid Berman arxivçilərin elektron sənədlərin dəyərinin ekspertizasına münasibətinin kö-

kündən dəyişilməsini zəruri hesab edir. Milli Arxiv və Sənədlər İdarəsinin tələblərinə əsasən, hər bir federal qurumun rəhbəri elektron sənədlərin idarə olunmasını təmin etməlidir. Bunun üçün aşağıdakılar lazımdır:

– elektron daşıyıcılarda yaradılan, qəbul edilən, istifadə olunan və ya saxlanılan bütün sənədlərin idarə edilməsi üçün daxili proqramın tətbiqi üçün məsul şəxs təyin edilməlidir;

– elektron sənədlərin idarəetmə sistemi qurumun digər sənədləri və informasiya ehtiyatları ilə inteqrasiya edilməlidir;

– sənəd dövriyyəsi sisteminin qanuni tələblərə uyğun olması təmin edilməlidir;

– istifadəçiləri maarifləndirmək, proqram sənədlərini yeniləmək, sənədlərin saxlanması üçün müəyyən edilmiş qaydalara riayət etmək və onların müvafiq standartlara uyğunluğunu təmin etmək lazımdır [8, s.28].

Beləliklə, ABŞ-da dəyərin eksperizası nəzəriyyəsi zaman keçdikcə inkişaf edir və təkmilləşməkdə davam edir. Dəyərin eksperizası üçün mövcud ümumi prinsiplərə və meyarlara baxmayaraq, praktikada hər bir arxiv idarəsi sənədlərin təşkili və saxlanması üçün öz proqramını yaradır və konkret vəziyyətdən asılı olaraq sənədlərin qiymətləndirilməsi meyarlarını tətbiq edir.

Ekspertiza konsepsiyasının əsasını, qeyd edildiyi kimi, sənədlərin ilkin və ikinci dərəcəli dəyəri ideyası təşkil edir. İlkin dəyər təsisatın fəaliyyətini dəstəkləmək üçün məlumatın dəyəri, yəni sənədin inzibati və ya operativ dəyəridir. İkinci dərəcəli dəyər - tədqiqat məqsədləri üçün məlumatın dəyəri, yəni sənədin elmi və tarixi dəyəridir. Sənədlərin qiymətləndirilməsində və onların saxlanma müddətlərinin müəyyən edilməsində əsas rolu təşkilatlar (təsisatlar) oynayır; arxivlər tövsiyələr verə bilər, lakin qərar təşkilatda qalmaqdadır [3, s.55-100].

Təşkilatlar (təsisatlar) uzunmüddətli saxlanmalı olan sənədləri qiymətləndirərkən "faydaların və maliyyə risklərinin təhlili konsepsiyası"na (*The Concept of Cost-Risk-Benefit Analysis*) əsaslanırlar. Konsepsiya layihənin dəyərinin, onun həyata keçirilməsi riskinin və

sənədlərin müxtəlif müddətlərdə saxlanmasının faydalarının hərtərəfli təhlilinə əsaslanır.

Konsepsiyanın müddəalarının praktikada həyata keçirilməsinin üç mərhələsini şərti olaraq qeyd etmək olar. Birinci mərhələnin vəzifəsi biznes üçün sənədlərin saxlanmalı olduğu maksimum müddəti müəyyən etməkdir. Əslində, bu mərhələdə sənədlərin praktik (ilkin) dəyəri müəyyən edilir. Arxivçi sənədlərdəki məlumatların əhəmiyyətini qiymətləndirərkən icraçıların, yəni sənədlərlə bilavasitə işləyən işçilərin rəyinə əsaslanmalıdır. Müzakirələr zamanı sənədləşdirilmiş məlumatların, o cümlədən əməliyyat, maliyyə, hüquqi və tədqiqat istifadələrinin potensial istifadəçilərini müəyyən etmək vacibdir. Sənədlərin müzakirəsi və birbaşa baxılması prosesində sənədlərin hər bir kateqoriyası üçün ilkin saxlama müddəti müəyyən edilir. İkinci mərhələdə təsisat tərəfindən vergi və maliyyə öhdəliklərinin, yəni qanunlar qarşısında öhdəliklərin yerinə yetirilməsini təsdiq edən sənədlərin saxlanma müddəti müəyyən edilir. Nəhayət, üçüncü mərhələdə təşkilatın (təsisatın) tarixini, yəni tarixi (ikinci dərəcəli) dəyərini əhatə edən sənədlər saxlanmaq üçün seçilir.

Metodik tövsiyələr sənədlərin sistematik şəkildə qiymətləndirilməsini təklif edir. Dəqiq tövsiyələr mövcud olmasa da, saxlanma müddətini və qaydasını müəyyən etmək üçün dörd əsas məqam mövcuddur:

– sənədlərin təşkilatdakı işlər üçün zəruri olduğu dövr;
– iş üçün praktiki (ilkin) əhəmiyyət kəsb edən sənədlərin aradan qaldırılması və onların müvəqqəti saxlanmaya verilməsi müddəti;
– bütün növ sənədlərin saxlanmalı olduğu müddət;
– sənədlərin daimi saxlanmağa verilməsi və dəyərini itirmiş sənədlərin məhv edilməsi üçün ayrılmış müddət.

“Faydalar və maliyyə risklərinin təhlili konsepsiyası”nın müddəalarının həyata keçirilməsi üzrə praktiki tədbirlər hər bir arxiv tərəfindən sənədlərin mühafizəsini təmin edən proqramın yaradılmasından ibarətdir ki, bu da sənədlərin dəyərinin ekspertizasını da əhatə edir. Bu və ya digər təşkilatın sənədlər toplusunu qiymətləndirmək üçün işlərin uçotunun aparılması üzrə sənədlər – “Record Inventory”

tərtib edilir. İnventarlaşdırmaya təşkilatın sənədlərinin tərkibi və məzmununun tam icmalı, təşkilatdakı bütün fəaliyyətlərin inventarlaşdırılması daxildir. Bu, fəaliyyətlərin siyahılarının və nomenklaturasının, habelə çox mühüm sənədlərin mühafizəsi proqramlarının və təşkilatın uçotunun aparılmasının təkmilləşdirilməsi sistemlərinin hazırlanması üçün işçi əsasdır. Təşkilatın sənədlərinin vəziyyətini və tərkibini təhlil etmək üçün inventar tərtib edilir. "İnventar" anlayışı geniş anlayış olub, fəaliyyətlərin təsvirini, sənəd kompleksinin icmalını, sənədlərin annotasiyalarını özündə ehtiva edir [8, s.30].

İnventar (*inventory*) məlumatlarını bir neçə hissəyə bölmək olar: təsviri tərtib edən struktur bölmə haqqında məlumat; təşkilatın (fondun) sənədlər kompleksi haqqında məlumat, o cümlədən sənədlər kompleksinin vəziyyətinin təsviri; komplekslə aparılan işlər haqqında məlumat. İnventarda adətən aşağıdakı bölmələr fərqləndirilir:

- departamentin adı,
- sənədlər seriyasının (qrupunun) və ya tematik qrupun adı,
- sənədlər seriyasının xülasəsi,
- sənədlərin tarixləri
- sənədlər seriyasının fut (1 fut təqribən 30,5 sm-dir) ilə həcmi (sənədlər seriyasının saxlanması üçün ayrılmış rəflərin uzunluğu)
- fiziki təsvir (kağız daşıyıcıda sənədlərin ölçüsü, rəngi, səs sənədləri üçün yazının və ya diskin həcmi)
- fayllara, seriyalara birləşdirilməsi prinsipi sənədlərin sistemləşdirilməsi: qovluqlar (folder), bağlı fayllar, onların səpələnməsi
- avadanlıqlarının qiymətinin hesablanması
- sənədlər kompleksinin arxivə daxil olma tezliyi, komplekslə aparılan işlərin növləri (mikrofilm çəkilişi, istifadə üçün fondun yaradılması və s.)
- sənədlərin qəbul edilməsi tarixi, məsul şəxsin və tərtibçinin adı.

Bundan əlavə, kompleksin sənədləri haqqında məlumat mənbələrinin təsviri (biblioqrafiya), seriyanın əsas və ikinci dərəcəli məqsədləri, dublikat və ya alternativ məlumat mənbələrinin yeri, praktik isti-

fadə və ya istifadəçi üçün tövsiyələr verilir. İnventarın tərtibi işinə sənədlərin seriyalarının (qruplarının) müəyyənləşdirilməsi daxildir. Seriya bütövlükdə istifadə olunan və qurumun işlərinin siyahısına və ya inventarına daxil edildikdə bütövlükdə qiymətləndirilən məntiqi və ya tematik cəhətdən əlaqəli sənədlər qrupudur. Məsələn, "yazışmalar" seriyasına yaradılan arxiv işlərinin sayından asılı olmayaraq təşkilatın bütün yazışmaları daxildir. Kompleks bütövlükdə qiymətləndirilir, buna görə də bu kompleksin uzunmüddətli saxlanması barədə qərar qəbul edildikdə, yazışmaları olan bütün fayllar saxlanmaq üçün qəbul edilir. Bu vəziyyətdə seriyanın təsviri belə görünəcək:

Nümunə 1.
Təşkilatın yazışmaları
A) Ümumi yazışmalar
Satışın təmin olunması ilə bağlı yazışmalar
Yeni texnologiyaların tətbiqi ilə bağlı yazışmalar
B) Cari yazışmalar
Təchizatların alınması ilə bağlı yazışmalar
İclasın təşkili ilə bağlı yazışmalar

Nümunə 2.
Hadisələrin qeydləri, o cümlədən səs yazıları, sözbəsöz qeydlər, şifahi protokollar, məruzələr və s.

A) Şuranın kütləvi tədbirlərinin (iclaslarının), istehsalat iclaslarının, tələbələrin və s. qeydləri.

B) İctimai olmayan tədbirlərin qeydləri (istehsal prosesləri) Dəyər ekspertizası aparılarkən, saxlama "A" qrupu (əsas yazışma) və "B" qrupu (cari yazışma) üçün saxlanma müddəti müəyyən edilir.

2-ci nümunədə təqdim olunan sənədlər oxşar şəkildə qiymətləndirilir, məsələn, "A" qrupuna daxil olan bütün işlər saxlanılmaya verilir. "B" qrupuna daxil olan işlər, "B" qrupunun sənədlərinin məlumatlarının bütövlükdə praktiki və tarixi əhəmiyyət kəsb etmədiyi halda məhv edilə bilər.

Seriya sənədlərin arxiv təsvirlərində də saxlanılır. Seriya fond və saxlama vahidi (iş) arasında əlavə struktur kimi qəbul edilə bilər. Bir sıra ölkələrin (məsələn, Rusiya və bir sıra postsovet ölkələri) arxivşünaslıq təcrübəsində "seriya" anlayışı yoxdur. Bir təşkilatda sənədlərin dəyərinin yoxlanılmasının yekun mərhələsi daimi saxlama müddətinin işlərinin siyahısının hazırlanmasıdır. Siyahıya fövqəladə hallardan, fəlakətlərdən və ya təşkilatın ləğvindən sonra qurumun fəaliyyətini bərpa etmək üçün zəruri olan məlumatları ehtiva edən sənədlər daxildir. Daimi saxlanılan faylların siyahısı Həyati əhəmiyyətli sənədlər proqramının (*Vital Record Program*) əsasını təşkil edir.

Saxlanma müddətləri göstərilməklə sənədlərin siyahısı (*Records Retention Schedule*) inventory bazasında yaradılır. İşlərin siyahısı sənədlərin qorunması və ya məhv edilməsi sahəsində qurumun rəsmi siyasətinin əsası kimi yerləşdirilir. İşlərin siyahısının məqsəd və vəzifələri aşağıdakılardır:

– biznes üçün zəruri olan sənədlərin müəyyən edilməsi və mühafizəsi, biznes üçün lazım olmayan sənədlərin sistemli şəkildə məhv edilməsi (hər bir yararsız sənəd məhv edilə bilər);

– ofislərdə yerin və etibarlı (aktiv) sənədlər üçün xüsusi bahalı avadanlıqların saxlanması;

– "qeyri-aktiv" (praktiki dəyərini itirmiş) sənədlərin sonradan məhv edilmək üçün daha az xərc tələb edən müvəqqəti saxlama yerlərinə (daha az xərc tələb edən saxlama yerlərinə) müntəzəm daşınmasının təmin edilməsi;

– tarixi və digər tədqiqat növləri üçün dəyərli sənədlərin daimi saxlanmasının təmin edilməsi.

Sənədlərin siyahısını tərtib etmək üçün 3 prinsip var:

1) siyahı hər bir departament, şöbə və ya digər struktur bölmələr üçün hazırlanır.

2) siyahı təşkilatın fəaliyyət istiqamətlərinə uyğun tərtib edilir. Hüquqi sənədlər, maliyyə sənədləri, şəxsi işlər və s. üzrə işlərin ayrıca siyahıları tərtib edilir.

3) siyahılar uçotda olan işlərin nömrələrinə uyğun tərtib edilir.

ABŞ-da arxivlərə əlçatanlıq ənənəvi olaraq üç ölçüyə bölünür: hüquqi, intellektual və fiziki. Bu üç aspektə uyğun olaraq, əlçatanlığın üç kateqoriyası nəzərdən keçirilir: hüquqi əlçatanlıq, fiziki əlçatanlıq və intellektual əlçatanlıq. Arxiv işçilərinin vəzifəsi arxiv sənədlərinə hər cür əlçatanlığı təmin etməkdir.

*Hüquqi əlçatanlıq* – arxiv məlumatlarından istifadə şərtlərini müəyyən edir və arxiv qanunvericiliyi ilə dəstəklənir. Ümumiyyətlə, hüquqi əlçatanlıq dövlətdə informasiyaya çıxışın ümumi siyasəti ilə müəyyən edilir ki, bu siyasət üç prinsipə əsaslanır: məlumat almaq hüququ, məxfi məlumatın qorunması və informasiya əldə etmək bərabərliyi. Sənədlərin saxlanmağa qəbul edildiyi andan arxiv işçiləri əlçatanlıq siyasətinin əsas elementlərini aydın başa düşməlidirlər: istifadəçilərin kateqoriyası, əlçatanlıq məhdudiyyətləri, ödənişli xidmətlər, istifadə şərtləri, müəlliflik hüququ, istifadəçilərin sorğularına cavabların təşkili, kreditlərin, fayllar və s. verilməsi. Məsələn, ABŞ federal qanunu bir neçə məhdud məlumat qrupunu müəyyən edir:

– şəxsi məlumatlar (tibbi sənədlər, müştərilər tərəfindən həkimə, hüquqşünasa, keşişə verilən məlumatlar);
– biznes məlumatları (dövlət orqanlarına təqdim olunan müqavilələr, özəl şirkətlərin əməliyyatları haqqında məlumat);
– dövlət qulluqçularının şəxsi işləri;
– araşdırmaların, o cümlədən rəsmi araşdırmaların aparılması haqqında məlumat;
– qanunvericilik aktları və ya hüquqi qüvvəyə malik digər sənədlərlə əldə edilməsinə məhdudiyyətlər qoyulmuş məlumatlar.

İnformasiyanın istifadəsinə məhdudiyyət sənədləri arxivə saxlamağa təhvil verərkən ianəçinin fonunda müəyyən edilə bilər; bu cür məhdudiyyətlər adətən ianə aktlarında, vəsiyyətnamələrdə və s. nəzərdə tutulur. Nəhayət, arxiv sənədlərinə əlçatanlığın bilavasitə qadağan edilməsi ilə yanaşı, sənədlərin dərcinə nəzarətin yaradılması və sənədlərin verilməsi üçün sorğuların əlaqələndirilməsi qaydası ilə əlçatanlıq məhdudiyyətləri tətbiq edilə bilər. Hər bir arxiv federal və regional arxiv qanunvericiliyinin ümumi müddəalarına əsaslanaraq məlumatdan istifadə qaydaları və şərtlərini müəyyən etmək hüququna malikdir.

*İntellektual əlçatanlıq* – informasiyanın axtarışını təmin edir, yəni intellektual əlçatanlıq arxivə daxil olan sənəd komplekslərinin təsnifatı və təsvirinə aiddir. Bir qayda olaraq, arxivdə arxiv məlumatlarının əldə edilməsi vasitəsi olan informasiya-axtarış sistemlərinin yaradılması önə çəkilir.

*Fiziki əlçatanlıq* – arxiv sənədləri ilə birbaşa (fiziki) əlaqə imkanını təmin edir. Fiziki əlçatanlığa sənədlərin təhlükəsizliyinin təmin edilməsi və istifadəçilərin oxu otaqlarında işləməsi, sənədlərin surətinin çıxarılması və s. aiddir [7, s.37].

ABŞ arxivlərinin məlumat axtarış sistemləri dedikdə bir-biri ilə əlaqəli bir sıra arxiv arayış kitabları başa düşülür: bələdçilər, işlərin inventarları, kataloqlar, indekslər, rəylər. ABŞ-da arxiv komplekslərinin təsnifat vahidləri bunlardır: fond - seriya (qrup) - alt seriya (alt qrup) - saxlama vahidi - sənəd. ABŞ arxivlərində sənədlərin təsviri arxiv fondu, seriya, qutu (saxlama vahidi) və sənəd səviyyəsində həyata keçirilir. Bələdçilər fondlar (kolleksiyalar) səviyyəsində təsvirləri, işlərin inventarlarını - fondlar, seriyalar və saxlama vahidləri səviyyəsində, kataloqlar və göstəricilər - saxlama vahidləri və sənədlər səviyyəsində təqdim edirlər. Rəylərdə arxiv fondları, iş və sənədlər haqqında məlumatlar var. Bələdçi kitabçalarında təqdim olunan arxiv fondları haqqında məlumatlar fondun (kolleksiyanın) sənədlərinin tərkibinin və məzmununun təsvirindən və təsisçi haqqında qısa məlumatdan ibarətdir; fond haqqında axtarış (arayış) məlumatları haqqında verilənlər (*data*) kitabçalarında göstərilmir.

ABŞ arxivləri üçün aktual problem elektron formada arxiv kataloqlarının yaradılması, yəni axtarış məlumat bazalarının (DB) yaradılmasıdır. Axtarış sistemlərini yaradarkən arxiv işçiləri həmişə iki növ istifadəçi olduğunu nəzərə alırlar:

– ona hansı məlumatın lazım olduğunu dəqiq bilən istifadəçi, ona görə də bütün materiallara baxmır, sorğu verir.

– sorğularında qərarsız olan istifadəçi, buna görə də, geniş çeşidli materiallara baxarkən lazımi məlumatları seçir.

Bu iki istifadəçi qrupu həm də arxivlərdə axtarış kataloqlarının iki əsas növünə uyğundur: kataloq (və/və ya indeks) və işlərin inventarıdır. İnformasiyanın təqdim olunma üsuluna əsasən verilənlər bazaları aşağıdakılara bölünür:

– materialların ümumilikdə mövcudluğunu və onların yerini göstərən məlumatları ehtiva edən biblioqrafik məlumat bazaları. Belə verilənlər bazaları kataloq və indeksə uyğun gəlir;

– sənədlərin məzmunu haqqında məlumatları özündə əks etdirən tam mətnli verilənlər bazaları, adətən işlər referat şəklində (qısa məlumat, annotasiyalar) olur. Bu cür məlumat bazaları təlimat kitabçasına və işlərin inventarına uyğundur.

ABŞ arxivlərinin təcrübəsində hər iki tip verilənlər bazasından istifadə olunur. Biblioqrafik iyerarxik verilənlər bazasının klassik nümunəsi MARC-AMC30-dur. Biblioqrafik verilənlər bazası indeks və kataloq kimi ənənəvi arxiv məlumat kitabçalarına ideal şəkildə uyğun gəlir.

SGML (Standard General Make-up Language) əsasında yaradılan verilənlər bazaları da strukturca iyerarxikdir, lakin məzmunca tam mətnlidir, çünki sənədlərin təsvirinin üç səviyyəsini (tarixi icmal, kataloq, saxlama vahidlərinin siyahısı) ehtiva edir. Məsələn, elektron formada yaradılmış səyahət bələdçisinə tam mətnli məlumat bazası kimi baxmaq olar.

Məlumatı istifadəçi üçün əlçatan olacaq verilənlər bazası yaratmaq üçün verilənlər bazasında məlumatların (informasiyaların) təsviri üçün vahid ictimai format hazırlamaq lazımdır. Hazırda arxiv təcrübəsində arxiv məlumatlarını təsvir etmək üçün iki standart istifadə olunur:

– AACR2 kitabxana standartı, kitabların təsviri üçün standartdır, arxiv sənədlərini təsvir etmək üçün AMC versiyası (biblioqrafik verilənlər bazasında arxiv təsviri) işlənib hazırlanmışdır; MARC formatında istifadə olunur.

– EAD (Encoded Archival Description) SGML standartı əsasında yaradılmış arxivlərin elmi arayış aparatının elektron təsviri üçün standartdır.

Arxiv təsviri üçün istifadə edilən müasir avtomatlaşdırılmış sistemlər, bir qayda olaraq, son məhsulun ("alınmış məhsul") növünün ənənəvi "kağız" formalarına uyğunluğunun saxlanmasına yönəldilmişdir. Proqram təminatı istənilən ola bilər, mübadilə protokolu eynidir (RLIN, EAD), lakin təsvir prinsipləri ümumi olaraq qalır. Məsələn, arxiv fondunun MARC-AMC formatında təsviri aşağıdakı struktura uyğun olaraq həyata keçirilir:

– Fond haqqında ümumi məlumat: təsisçinin adı, fondun adı, fondun həcmi, sənədlərin tərkibinin qısa təsviri, RLIN33-də giriş nömrəsi, giriş növü (açıq, məhdud, qapalı);

– Rəsmi məlumatlar: qəbul (sənədlərin qəbulu səbəbləri, daxil olma tarixi), fondun təsvirini aparan arxiv işçisi, saxlanma yeri (müəssisə) haqqında məlumat;

– Təsisçi haqqında məlumat: biblioqrafik və ya tarixi məlumat, təsisçi haqqında ümumi məlumat, biblioqrafiya;

– Mövcud sənədlərin annotasiyası: sənədlər seriyasının təsviri;

– İndekslər: nominal, təşkilatlar, mövzu, sənədlərin növləri, mövzu və s.;

– Sənədlərin siyahısı;

– Müxbirlər indeksi (ad göstəricisi): müxbir və məktubun yerləşdiyi yer (qutu və faylın nömrəsi), tarix göstərilməklə fond yaradanın yazışdığı təşkilatlar və şəxslər haqqında məlumat. RLIN-də məlumatı olan müxbirlər xüsusilə qeyd olunur.

1990-cı illərin sonundan etibarən Amerika arxivlərinin praktikasında EAD (Encoded Archival Description) sənəd təsviri standartından geniş istifadə olunur. EAD-da bir çox element MARC formatından köçürülmüşdür. EAD yalnız axtarış sistemlərinin strukturu üçün deyil, həm də onların məzmunu üçün standartdır və arxiv təsviri üçün beynəlxalq standartdan – ISAD (G) istifadə edərək tərtib edilmiş məlumatları ehtiva edə bilər. EAD-ı lider edən üç əsas məqam var:

– EAD arxivçilər tərəfindən, arxiv işçiləri üçün nəzərdə tutulub. Əslində, Amerika Arxivçilər Cəmiyyəti əlavə elementlərə olan ehtiyaca, elementlərin məhvinə, atributların dəyişdirilməsinə, yəni bütün dəyişikliklərə nəzarət edir, baxmayaraq ki, rəsmi olaraq Kitabxana

Araşdırma Qrupu (RLG Məsləhət Qrupu) nəzdindədir. (EAD icrasına nəzarət qrupu yaradılır.)

– EAD informasiyanın mövcud axtarış sistemlərindən çevrilməsinə (sistemə birbaşa daxil edilmədən) və sonra axtarış sistemlərinin İnternet vasitəsilə və ya CD-ROM-da istifadəçiyə "elektron çatdırılmasına" imkan verir.

– EAD, hər bir arxivə mövcud axtarış sistemlərini EAD-a çevirib-çevirmək barədə qərar verməyə imkan verir. Dönüşüm alətləri müstəqil olaraq istənilən təşkilatda yaradıla bilər. Lakin məhz bu vəziyyət EAD-ın tətbiqi probleminin sosial cəhətdən əsaslandırılmış həll yolu kimi həll edilməsi zərurətini qəbul etməyi zəruri edir: nə qədər çox iştirakçı olarsa (istifadəçilər, tədqiqatçılar, qəyyumlar, texniki dəstək mütəxəssisləri) bir o qədər yaxşıdır. EAD-da axtarış sistemləri iki hissədən ibarətdir: 1) axtarış sistemləri haqqında məlumatı saxlayan seqment (ad, tərkib, yaradılma tarixləri); 2) bir sıra arxiv sənədləri (kolleksiya, fond, qrup və ya seriya) haqqında məlumatı saxlayan seqment.

Arxivçilər axtarış sistemlərini iyerarxik, çoxsəviyyəli təsvir kimi düşünürlər. Belə təsvir arxiv inventarlarından və siyahılarından əldə edilir ki, onlar məlumatı demək olar ki, eyni şəkildə, təfərrüat fərqi ilə təsvir edir. EAD-da məlumat təsvirinin üç səviyyəsi var. Praktikada belə görünür:

<ead>
<eadheader> verilənlər bazasının təsviri
<frontmatter> səhifənin adı (qeyri-məcburi seqment)
<archdesc> arxiv təsviri
<did> ümumi element
<abstract> annotasiya
<ead> (continued)
<archdesc> (continued)
<bioghist> tarixi arayış
<controlaccess> əlçatanlığa nəzarət
<corpname> korporasiyanın adı
<famname>
<function> funksiya

<genreform>
<geogname>
<name>
<occupation> məşğuliyyət
<persname> şəxsi ad
<subject> mövzu
<title> sərlövhə

İnformasiyanın hansı formada daha yaxşı olması məsələsi mübahisəlidir. Biblioqrafik verilənlər bazası məlumatı təsvir etmək üçün daha obyektiv bir üsuldur, çünki o, "nə" və "harada" olduğunu göstərir. İnformasiyanı qiymətləndirməyə cəhd, yəni fondun məzmununu təsvir etmək təsvirin subyektivlik səviyyəsini artırır. İstifadəçinin nöqteyi-nəzərindən ideal yol sənədlərin tam mətnlərini təqdim etməkdir, lakin bu üsul utopikdir, çünki arxiv işçiləri heç vaxt bütün arxiv sənədlərini elektron formaya çevirə bilməyəcəklər; üstəlik, böyük miqdarda məlumat səbəbindən belə bir sistemdə axtarış mümkün olmayacaq. Eyni zamanda, arxiv axtarış sistemlərinin inkişafı məhz avtomatlaşdırılmış informasiya-axtarış sistemləri (elektron elmi arayış aparatı) ilə bağlıdır.

***Nəticə***. Hazırda arxivlərdə axtarış bazaları fəal şəkildə yaradılır. 1997-1999-cu illərdə ABŞ-da elektron elmi arayış aparatının (RSA) imkanları, verilənlər bazalarında arxiv məlumatlarının təsviri prinsipləri və ənənəvi arxiv məlumat kitabçalarının elektron formaya çevrilməsi üsullarının fəal müzakirəsi aparılmışdır. Xüsusilə, American Archivist jurnalının səhifələrində müzakirələr aparılıb. Müzakirə zamanı arxivlərdə informasiya-axtarış sistemlərinin (elektron RES) yaradılması ilə bağlı təklif və tövsiyələr hazırlanıb. ABŞ-da faktiki olaraq hər bir arxivdə elektron formada arxiv kataloqları var, kataloqlar əvvəlcə verilənlər bazası kimi təqdim olunur. ABŞ arxivlərinin aparıcı vəzifəsi elektron NSA-nı arxivlərin veb-saytlarında və portallarında təqdim etməkdir.

ƏDƏBİYYAT

1. Həbibullayeva G.B. XX əsrin sonları – XXI əsrin əvəllərində ABŞ-da arxiv işi // “Türk dünyası gənc tədqiqatçılar dərnəyinin araşdırmaları”, № 6, 2022, s.94-105.

2. Schellenberg T.R. Modern Archives: Principles and Techniques. Chicago: University of Chicago Press, 1975, 265 p.
3. Бржостовская Н.В. Архивы и архивное дело в зарубежных странах (история и современная организация) /под ред. Ю.Ф. Коннова. Москва, МГАИ, 1971, 216 с.
4. Вальберг Х. Электронные документы в архивах // Отечественные архивы, 2004, № 1, с.72–78.
5. Кабочкина Т.С., Акулиничева С.Д. Координация архивной деятельности в США в послевоенный период. Москва, «АГРАФ», 2011, 153 с.
6. Левченко Л.Л. О развитии теории экспертизы ценности документов в США (от профессиональной методологии к социальной эпистемологии) // Перспективы науки, 2014, № 2 (53), с.101-113.
7. Леонтьева О.Г. Архивы Соединенных Штатов Америки в XX–XXI вв. Тверь, «Тверской государственный университет», 2020, 84 с.
8. Рысков О. И. Основные направления деятельности Национального архива США (NARA) в области управления электронными документами федеральных учреждений // Секретарское дело, 2004, № 2, с.51–53.

**GOZAL HABIBULLAYEVA**
*2nd year master student of Azerbaijan State University of Culture and Arts in the speciality of "Archive work, archival studies"*

# ON THE ISSUES OF ACQUISITION, EXPERTISE OF VALUE, PRESERVATION AND ORGANIZATION OF ACCESSIBILITY OF ARCHIVAL DOCUMENTS IN THE UNITED STATES IN THE MODERN PERIOD

As it is known, the United States of America (USA) is not only a country which has developed economy, industry, army, science and education and other aspects, but also considered one of the most advanced countries in the world in the field of archival work. The USA

always stands out in the world for its innovative innovations. From this point of view, it was and is always important to study the experience of archival work of the USA, to learn its useful aspects and to take advantage of them, and it attracts the attention of archivists-researchers of the world. The article is devoted to the study of issues of acquisition, expertise of value, preservation and organization of accessibility of archival documents in the United States in the modern era.

*Keywords*: United States, archival work, acquisition, expertise of the value of archival documents, preservation of archival documents, accessibility to archival documents.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 94**

**HƏMİDƏ İSKƏNDƏROVA**
*Bakı Dövlət Universiteti I kurs magistrantı*
**İskenderovah0903@gmail.com**

# ÇİNİN YAXIN ŞƏRQ SİYASƏTİNDƏ SƏUDİYYƏ ƏRƏBİSTANI İSTİQAMƏTİ

*Elmi rəhbər:*
tarix elmləri doktoru Aidə Bağırova

*Çin Xalq Respublikasında 1978-ci il islahatları ilə başlanan transformasiya ölkədə sürətli iqtisadi inkişafa, urbanizasiyanın artmasına səbəb olmuşdur. Enerjiyə olan tələbatın davamlı artımı səbəbindən Çin 1993-cü ildən bəri klassik neft idxalçısına çevrilmişdir. Bu idxalın böyük bir hissəsi Yaxın Şərq regionu ölkələrindən, o cümlədən Səudiyyə Ərəbistanı, İraq və İrandan əldə edilmişdir. Məqalədə Çinin əsas neft idxalçılarından olan Səudiyyə Ərəbistanı ilə siyasi, iqtisadi, mədəni əlaqələrindən bəhs edilmiş, 2013 cü ildə prezident Si Tszinpinin elan etdiyi "Bir kəmər bir yol" təşəbbüsü ilə Səudiyyə Ərəbistanının "Vision 2030" strategiyasının perspektivləri haqqında məlumat verilmişdir.*

*Açar sözlər*: Çin, Səudiyyə Ərəbistanı, Yaxın Şərq, "Bir Kəmər Bir yol", "Vision 2030".

***Giriş***. Soyuq müharibənin başa çatması ilə formalaşan yeni beynəlxalq siyasi sistemdə Yaxın Şərq Çinin xarici siyasətinin mühüm hissəsinə çevrildi. Yeni siyasi kursu, əsasən, dörd amil şərtləndirirdi:

1) 1980-ci ildə başlayan İran-İraq müharibəsi zamanı formalaşan silah bazarının təsiri;

2) Çinin artan enerji tələbatına cavabı Yaxın Şərq regionunda tapması;

3) Şərqi Türküstanda gedən mübarizəyə xarici dəstək və yardımların qarşısını almaq istəyi;

4) ABŞ ilə qlobal qarşıdurmada Yaxın Şərqdə fəaliyyət göstərmək məqsədi [10, s.1].

1949-cu ildə Çin Xalq Respublikasının yaranmasından Mao Tszedunun 1976-cı ildə ölümünə qədər keçən müddətdə, ABŞ ilə münasibətlərin normallaşmasına qədər davam edən təcrid siyasəti və inqilabı qorumaq məqsədilə inkişaf etdirilən Üç Dünya Nəzəriyyəsi Çinin strategiyasını formalaşdırmışdır. 1978-ci ildə Den Syaopinin həyata keçirdiyi islahatlar ölkənin qlobal kapital, xidmət və istehsal zəncirinə sürətlə daxil edilməsinə imkan vermişdir.

Davamlı inkişafa, sabit ticarət əlaqələrinə, xarici investisiyalara önəm verərək qlobal sistemdə mühüm gücə çevrilən Çin üçün Yaxın Şərq ölkələri enerji təchizatı, ticarət əlaqələri, investisiya imkanları baxımından böyük əhəmiyyət kəsb edirdi. Bölgə həm də Çinin Qərbi Asiyada investisiya və ticarət tərəfdaşlığı üçün ciddi imkanlar təqdim edən bazardır. Si Tszinpinin rəhbərliyi altında son on ildə Çin böyük gücə çevrilməyi, təhlükəsizlik məsələləri də daxil olmaqla daha iddialı addımlarla dünya siyasətində aktiv olmağı və yeni çağrışlarla mübarizə aparmağı qarşısına məqsəd qoymuşdur. Bu kontekstdə Çinin Yaxın Şərqlə təhlükəsizlik sahəsində əməkdaşlığa verdiyi önəm, onun xarici siyasətini yalnız iqtisadi məsələlərlə məhdudlaşdırmır [9, s.42].

Yaxın Şərq əlverişli coğrafi mövqeyinə və müasir Çinin sürətlə inkişaf edən iqtisadiyyatının artan ehtiyaclarını ödəməyə qadir olan təsirli karbohidrogen ehtiyatlarına görə, onun xarici siyasətində müstəsna əhəmiyyətli rol oynayır. Eyni zamanda, bu region dünyanın ən qeyri-sabit regionu olaraq qalır ki, bu da Yaxın Şərq ölkələrinin beynəlxalq əməkdaşlıq sisteminə tam daxil olmasına mane olur. Subregion nəinki təbii ehtiyatlarla, eləcə də enerji ilə zəngindir və onlar əsasən dinamik inkişaf edən Çin iqtisadiyyatını təmin edir, həm də dünyanın əsas dəniz və quru yollarına, eləcə də Afrika və Avropa bazarlarına yol açır [13, s.180]. Bu baxımdan, ÇXR ilə Yaxın Şərq geosiyasi məkanının əsas oyunçuları, o cümlədən Səudiyyə Ərəbistanı Krallığı arasında əlaqələrin qurulması məsələsi siyasi və praktik aktuallıq kəsb edir.

Ərəb dövlətləri arasında 1939-cu ildə Çinlə diplomatik əlaqələr quran ilk ölkə Səudiyyə Ərəbistanı olmuş, lakin İkinci Dünya Müharibəsi əlaqələrin praktiki səviyyəyə tətbiqinə imkan verməmişdir. XX əsrə daxili ziddiyyətlərlə qədəm qoyan Çin, İkinci Dünya Müharibəsi

ərəfəsində Yaponiya işğalı, sonra isə daxildə vətəndaş müharibəsi ilə üzləşmişdir. 1946-cı il noyabrın 15-də Səudiyyə Ərəbistani ilə imzalanmış Dostluq Müqaviləsi Çində vətəndaş müharibəsinin başlaması səbəbindən davam etdirilməmişdir [1, s.3]. Soyuq müharibə dövründə ideologiyaları və xarici siyasət strategiyalarının fərqli xarakter daşıması Səudiyyə Ərəbistanı Krallığı və ÇXR-in yaxınlaşma yolunda ciddi maneə törədirdi [15].

Mao Tszedunun idarəçilikdə tətbiq etdiyi sabitlik, diplomatik münasibətlərdə təcrid siyasətini ilə 1970-ci illərin sonuna qədər iki ölkə arasında xarici əlaqələri minimum səviyyədə saxlamışdır. 1978-ci ildə Den Syaopinin rəhbərliyi ilə başlanan geniş islahatlar siyasəti kənd təsərrüfatı, sənaye və texnologiya kimi sahələrdə inkişafa səbəb olmuşdur. Dünya siyasətində artan nüfuzu və 1979-cu ildə ABŞ-la diplomatik münasibətlərin qurulması Çinin Yaxın Şərqə sürətlə irəliləməsinə şərait yaratmışdır [5, s.62].

İran-İraq müharibəsi (1980-1988) ilə əlaqədar Fars körfəzində hərbi-siyasi vəziyyətin pisləşməsi Səudiyyə Krallığının hərbi gücünün sürətlə artırılması prosesinə start verdi. ABŞ hərbi təchizatı artırmaqdan imtina etdikdən sonra Ər-Riyad Çin silahlarının alınmasına fokuslandı. Krallığın ÇXR ilə başlatdığı hərbi-texniki əməkdaşlıq da məntiqi olaraq Den Syaopinin islahatlar siyasətinə uyğun gəlirdi: hərbi ixrac ölkəyə neft idxalını ödəmək üçün lazım olan sabit valyuta axınını təmin edirdi. Ər-Riyadla iqtisadi əlaqələrin inkişafı Pekinə çox əhəmiyyətli siyasi dividentlər gətirdi, o cümlədən Tayvan ilə Səudiyyə Ərəbistanı arasında münasibətlərin soyumasına yardım etdi. Çinin beynəlxalq arenada artan nüfuzu və ikiqütblü dünya düzəninin dağılması fonunda iqtisadi potensialının sürətlə artması Çin-Səudiyyə münasibətlərində sıçrayışa səbəb oldu. Ticarət nümayəndəliklərinin mübadiləsi və 1988-ci ildə ikitərəfli Anlaşma Memorandumunun imzalanması qarşılıqlı tanınma prosesinin yekun mərhələsinə start verdi və 1990-cı il iyulun 21-də ÇXR ilə Səudiyyə Ərəbistanı Krallığı arasında diplomatik əlaqələri genişləndi [14, s.196]. 1990-2000-ci illərdə inkişaf edən ikitərəfli əlaqələr 2000-ci ildən sonra sürətlə siyasi və ticarət-iqtisadi sahəsində ön plana çıxmağa başlamışdır.

Qeyd edək ki, Ərəb ölkələri ilə Çin arasında ticarət-iqtisadi əlaqələr 2013-cü ildə Çin Sədri Si Tszinpin tərəfindən "Bir kəmər, bir yol" təşəbbüsünün irəli sürülməsindən sonra yeni impuls aldı. Məlumdur ki, Pekinin "İpək Yolu iqtisadi zolağı" və "XXI əsrin Dəniz İpək Yolu" layihələrini ehtiva edən "Bir kəmər, bir yol" təşəbbüsü hazırda beynəlxalq işgüzar əməkdaşlıq üçün dünyanın ən böyük platformasıdır [12, s.39].

Bu layihənin tətbiqindən sonra Çin kreditlərinin və investisiyalarının artdığı Yaxın Şərqin bir çox ölkəsi onun ən böyük xarici ticarət tərəfdaşı oldu. İqtisadi sahədə inkişaf edən əlaqələr tərəfləri diplomatiya sahəsində əməkdaşlığa sövq etdi və bir çox institusional təşkilatlar fəaliyyətə başladı. Tətbiqi Strateji Əməkdaşlıq Platforması bu təşkilatlar arasında önəmli mövqeyə malik olsa da, Çin bir çox region ölkələri ilə ikitərəfli münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə çatdırmışdır.

Ümumiyyətlə, Çin iyirmi ildir ki, Yaxın Şərq ölkələri ilə fəal əlaqələr qurur və nəzərəçarpacaq siyasi və iqtisadi uğurlar əldə edib. Bu, təkcə Çinin "ABŞ-ın Asiyaya qayıtması" ("Pivot to Asia") strategiyasına asimmetrik cavabı deyil. Yaxın Şərq regionuna maraq daha çox Çinin 2012-ci ildə XVIII qurultayda qəbul etdiyi 2049-cu ilə qədər ÇXR-də müasir güclü və sabit dövlətin qurulması planı ilə bağlıdır [1]. Bir çox sahədə əməkdaşlıq edən Çin və Yaxın Şərq ölkələri ən çox sabitlik, təhlükəsizlik və ümumi inkişaf kimi konkret anlayışlara əhəmiyyət verir [11, s.10].

Bu strategiyanın bir hissəsi olaraq Çin məqsədyönlü şəkildə aşağıdakı aktiv tədbirlər kompleksindən istifadə edir. Birincisi, müxtəlif növ azad ticarət müqavilələrinin imzalanması, iqtisadi layihələr üçün qarşılıqlı faydalı şərtlərlə faizsiz kreditlərin verilməsi, region ölkələrinin Çinə olan borclarının ödənilməsi və s. İkincisi, Krallığın humanitar və sülhməramlı missiyası və Yaxın Şərq dövlətlərinə diplomatik yardımlarının mediada daim işıqlandırılması, üçüncüsü, Ərəb ölkələrində Çin dilinin və mədəniyyətinin fəal və məqsədyönlü şəkildə təbliği, qarşıya qoyulan iqtisadi və siyasi problemlərin həlli üçün Çin diasporundan istifadə edilməsi. Üstəlik, qarşıya qoyulan vəzifələrin həllində

Çin Yaxın Şərq ölkələri ilə iqtisadi əməkdaşlığı sürətlə artırmaqla yanaşı, ABŞ və müttəfiqlərini region bazarlarından sıxışdırıb çıxarmaq üçün ciddi addımlar atır. Buna misal olaraq Ərəbistan yarımadasında Tayvan nəqliyyat və logistika mərkəzlərinin səyləri ilə yaradılmış xüsusi iqtisadi zonaları göstərmək olar. Tətbiq olunan "Yumşaq güc" strategiyası uzun müddətə (25-30 il) nəzərdə tutulub və Çin bu layihəyə hər il 8 milyard dollara qədər vəsait ayırır. Bu strategiya nəticəsində Çin regionda silahlı qarşıdurmalara müdaxilə etmədən minimum resurs xərcləyərək siyasi və iqtisadi uğurlar əldə edib. Etiraf etmək lazımdır ki, Çin Yaxın Şərq dövlətləri ilə münaqişə etməməyə çalışır və bütün Ərəb ölkələri ilə yaxşı münasibətlər saxlayır. "Səssiz" və "yumşaq güc" adlandırılan siyasət Çinin "Dözüm diplomatiyası"nın əsas prinsipləri olmaqla, digər dövlətlərin daxili işlərinə qarışmamaq və regionda təsir imkanlarına malik dövlətlərə maneə olmamaqdan ibarətdir [2, s.9].

Belə ki, ÇXR həm Ərəb monarxiyaları, həm də İran, İraq və Suriya ilə qarşılıqlı faydalı və uzunmüddətli iqtisadi və siyasi əlaqələrə malikdir. Bu, onun Yaxın Şərq ölkələri ilə ideoloji və siyasi ehkam tətbiq etmədən, bərabərlik, ədalət, qarşılıqlı hörmət və fayda prinsipləri əsasında münasibətlərin qurulması ilə bağlıdır. Qərbdən fərqli olaraq, Çinin xarici siyasətinin əsas üstünlüyü ondan ibarətdir ki, o, region ölkələrinin hər biri ilə onun milli xüsusiyyətlərini və prioritet əməkdaşlıq sahələrini nəzərə alaraq münasibətlər qurur [8, s.4].

Qeyd edək ki, Çin neft və qaz idxalının təxminən 70%-ini Yaxın Şərq ölkələrindən, əsasən Səudiyyə Ərəbistanı və İrandan təmin edir. Körfəz ölkələri ilə Çin arasında ticarətin həcmi 2000-ci ildəki 10 milyard dollardan 2016-cı ildə 117 milyard dollara yüksəlmişdir. Bu səbəblə Çin və Səudiyyə Ərəbistanı arasındakı siyasi əlaqələr, ziddiyyət yaradan problemlərdən qarşılıqlı şəkildə qaçmaqla həyata keçirilir. Bu incə balanslaşdırma siyasəti Çinə əhəmiyyətli uğur qazandırmış və bu, birtərəfli regional siyasət elan etməkdən, mübahisəli məsələlərdə aydın mövqe tutmaqdan və mübahisələrdə tərəfləri dəstəkləməkdən ardıcıl şəkildə yayınmasında öz əksini tapmışdır.

Körfəz ölkələrinin qənaətinə görə, onların coğrafi mövqeyi Çinin "Bir Kəmər və Yol" təşəbbüsünə asanlıqla inteqrasiya olmağa imkan verir və Çin, müəyyən iqtisadi üstünlüklərinə görə, onların öz iqtisadiyyatlarında tətbiq etmək istədikləri islahatlarda mərkəzi yer tuta bilər. Ər-Riyadın Çinlə əlaqələrinin sürətli inkişaf etməsi onun ABŞ-la münasibətlərdə müəyyən etibarsızlıq ilə əlaqələndirilir və getdikcə daha çox Çinin təhlükəsizlik prizmasından görməyə başlayır. Ər-Riyad anlayır ki, İranın təhlükəsinin dayandırmaq üçün ABŞ-ın Körfəzdə hərbi mövcudluğunu heç nə əvəz edə bilməz, lakin o, özünü ABŞ-dan tam asılı vəziyyətə salmaq istəmir. ABŞ üçün enerji mənbəyi kimi Krallığın əhəmiyyəti azalmaqdadır və bu, onu öz növbəsində Çinin iqtisadi açıqlıq və idarə olunan siyasət modelinə rəğbət bəsləməyə sövq edir. Üstəlik, Çin Səudiyyə Ərəbistanı üçün etibarlı tərəfdaş və genişlənmə üçün böyük potensiala malik bazardır. Ər-Riyadın nöqteyi-nəzərindən, Çinlə əlaqələrin inkişaf etdirilməsi ABŞ-la əlaqələri əvəz etmək deyil, əksinə, onları insan haqları və demokratikləşmə məsələlərində Qərbin narahatedici tənqidi olmadan iqtisadi və siyasi aspektlərdə tamamlamaq məqsədi daşıyır.

İqtisadiyyatını şaxələndirməyə və neft ixracından asılılığını azaltmağa çalışan Səudiyyə Ərəbistanı özünü Çin sərmayələri üçün əsas istiqamət kimi göstərməyə və bunun üçün "Bir Kəmər - Bir Yol" təşəbbüsünə inteqrasiya olmağa çalışır. Çin şirkətləri üçün Körfəz dövlətlərində, xüsusən də limanların və dəmir yollarının inkişafı və inşasında iştirakın artırılması iqtisadi baxımdan önəmlidir [4, s.111]. Səudiyyə Ərəbistanı, digər Körfəz ölkələri kimi Çində insan haqlarının vəziyyəti ilə bağlı bəyanatlardan yayınır və 2016-cı ildən bir milyona yaxın uyğurun düşərgələrə göndərildiyi vaxtdan bəri Çinin Sincan əyalətindəki uyğur müsəlman azlığına qarşı sərtləşən siyasətinin tənqid etməkdən çəkinir. Bundan əlavə, "İki Müqəddəs Məscidin Xadimi" olan Səudiyyə Ərəbistanı Yaxın Şərq də daxil olmaqla, dünyanın başqa yerlərindəki müsəlman azlıqlara qayğı göstərməsinə baxmayaraq, Vəliəhd şahzadə bin Salmanın 2019-cu ilin fevralında Pekinə səfəri zamanı Çinin uyğurlara qarşı hərəkətlərinə haqq qazandırıb və bəyan edib ki, "Çinin milli təhlükəsizliyi qorumaq üçün antiterror və

ekstremizmlə mübarizə tədbirləri görmək hüququ var". Bundan əlavə, 2019-cu ilin iyul ayında Səudiyyə Ərəbistanı BMT-də Çinə dəstək məktubu göndərmiş və onu "insan hüquqları sahəsində əlamətdar nailiyyətlərə" görə tərifləyən otuz yeddi ölkə arasında olmuşdur. Maraqlıdır ki, eyni vaxtda Cənub- Əməkdaşlığının Təşviqi Şurasından olan Çin nümayəndə heyəti Ər-Riyada olub və krallığa investisiyaların genişləndirilməsi variantlarını araşdırıb.

Çin və Səudiyyə Ərəbistanı arasında möhkəmlənmiş siyasi əlaqələr dövlət başçılarının getdikcə daha tez-tez həyata keçirilən qarşılıqlı səfərlərindən kənarda bir sıra sahələrdə özünü göstərir. 2016-cı ildə ölkələr arasında münasibətlər "hərtərəfli strateji tərəfdaşlıq" səviyyəsinə yüksəldildi. Siyasi və iqtisadi əməkdaşlıq ilə yanaşı, Çin mədəni varlığını artırmaq üçün də resurslara sərmayə qoyur. Məsələn, 2019-cu ilin iyun ayında Ər-Riyaddakı Kral Səud Universitetində Çin dili kursları təşkil edən Konfutsi İnstitutu açıldı.

Səudiyyə Ərəbistanının "Ər-Riyad" qəzetində dərc olunan Si Tszinpin "Min illik dostluğumuzu inkişaf etdirərək, birlikdə daha yaxşı gələcək yaradaq" başlıqlı məqaləsində iki ölkənin "Vision 2030" və "Kəmər-Yol" təşəbbüsü əsasında dünyanın rifahı üçün birgə fəaliyyət göstərdiyi vurğulanır. Bu arada Səudiyyə Ərəbistanının Rəsmi Mətbuat Agentliyi 4000 sözdən ibarət bəyanatında hər iki tərəf daxili işlərə qarışmamaq prinsipini, Səudiyyə Ərəbistanı isə "bir Çin" prinsipinə sadiqliyini bir daha təsdiqləmişdir [7].

2016-cı ilin avqustunda Hançjou G20 sammitindən əvvəl Səudiyyə Ərəbistanının dövlət televiziyasına müsahibə verən Çinin Krallıqdakı səfiri Li Huaxin Səudiyyə Ərəbistanının "Vision 2030" layihəsinin Çinin "Bir kəmər bir yol" siyasətilə uyğunlaşdığını vurğulamışdır. 2017-ci ilin mart ayında Sədr Xi Səudiyyə kralının səfəri zamanı Çinin 2030-cu ilə qədər Vizyonunu dəstəklədiyini rəsmən ifadə etmiş və bu daha sonra "Çin Xalq Respublikası və Səudiyyə Ərəbistanı Krallığı arasında Birgə Bəyanat"-a daxil edilmişdir. G20-nin Hançjou sammitindən sonra birgə komissiyanın nəzdində siyasət və diplomatiya, "Kəmər və Yol", əsas investisiya əməkdaşlığı proqramları, enerji, ticarət və investisiya, mədəniyyət, texnologiya və turizm üzrə məsul altı

alt komissiya yaradılmışdır [3, s.8]. Çinin xarici işlər naziri Vanq Yinin qeyd etdiyi kimi, Çin və Səudiyyə Ərəbistanı "Bir kəmər - bir yol" layihəsində təbii və ideal əməkdaşlıq tərəfdaşlarıdır. Səudiyyə Ərəbistanı Çin və Avrasiya arasında qarşılıqlı əlaqədə, eləcə də Çini geniş Afrika bazarı ilə birləşdirən mühüm mərkəzdir [6, s.374].

2017-ci il martın 16-da Kral Salman Səudiyyə-Çin İnvestisiya Forumunda iştirak edib və bu forum çərçivəsində 21 əməkdaşlıq memorandumu imzalanıb. Bu memorandumlar təkcə ənənəvi enerji layihələrini deyil, həm də günəş enerjisi və külək enerjisi kimi bərpa olunan enerji mənbələrini əhatə edir. Texnoloji və sənaye potensialının yaradılması Səudiyyə Ərəbistanının "ağıllı şəhərlər" proqramı və elektron ticarətin inkişafı da daxil olmaqla, ikitərəfli əməkdaşlığın ikinci ən böyük sahəsidir. Memorandumlara mədəni və hərtərəfli investisiya layihələri də daxildir. Çin və Səudiyyə Ərəbistanı ikitərəfli ticarəti və investisiyaları asanlaşdırmaq üçün öz milli maraqlarına əsaslanan Çin-Körfəz Əməkdaşlıq Şurası, Azad Ticarət Sazişi üzrə danışıqları təşviq etmək barədə razılığa gəliblər.

Səudiyyə Ərəbistanının Biznes və İnvestisiya nazirinin müavininin qeyd etdiyi kimi, ölkənin 2030-cu il üçün baxışı və 2020-ci il üçün milli keçid planı " Bir kəmər - bir yol" çərçivəsində sənaye imkanları yaradılması üzrə Çin təşəbbüsləri ilə ortaq məqsədlər daşıyır. Daha da əhəmiyyətlisi, Səudiyyə Ərəbistanının strateji yerləşməsi təbii olaraq Çin-Səudiyyə ticarət, investisiya, logistika və infrastruktur sahələrində əməkdaşlığı asanlaşdıracaq. İkincisi, Asiya, Avropa və Afrikanın mərkəzi kimi strateji mövqedə yerləşməsi sayəsində Səudiyyə Ərəbistanı Çinin " Bir kəmər - bir yol" layihəsində iştirak etməklə, Yaxın Şərqdə və bütövlükdə dünyada inteqrasiyanı təşviq edə, daxili və beynəlxalq bazarları daha da birləşdirə və öz məqsədinə nail ola bilər. Belə ki, Məkkə-Mədinə yüksək sürətli dəmir yolu, əsasən, Çin Dəmir Yolu Tikinti Korporasiyası tərəfindən tamamlanıb və istifadəyə verilib. Bu layihənin uğuru Səudiyyə Ərəbistanının qlobal müsəlman Həcc ziyarəti üçün daha yaxşı xidmət göstərməsinə töhfə verdi, həmçinin 2030-cu ilə qədər Vizyonda qeyd edildiyi kimi Səudiyyə

Ərəbistanının ərəb və İslam dünyasındakı rolunun gücləndirilməsi üçün önəmli zəmin yaratdı.

Güclü bir-birini tamamlayan üstünlüklərə malik olan Çin və Səudiyyə Ərəbistanı ticarət və investisiya sahəsində sıx əlaqələrə malikdir. 2016-cı ildə onların ikitərəfli ticarət həcmi 42,4 milyard dollara çatıb və 100-dən çox Çin müəssisəsi Səudiyyə Ərəbistanında neft-kimya, dəmir yolları, limanlar, elektrik stansiyaları və rabitə sahələrində investisiya layihələri həyata keçirib. Bu arada Səudiyyə Ərəbistanı Çinin neft-kimya layihələrinə qoyduğu sərmayədən artan iqtisadi faydalar əldə edib. Maraqlıdır ki, Çin-Səudiyyə ticarət əməkdaşlığında ən böyük pay neftin payına düşür. 2016-cı ildə Çin Səudiyyə Ərəbistanından təxminən 51 milyon ton (və ümumi neftin 13,4 faizi) xam neft idxal edib.

Nüvə energetikası sahəsində Çin Nüvə Mühəndisliyi və Tikinti Qrupu Korporasiyası ilə Səudiyyə Ərəbistanının dördüncü nəsil nüvə enerjisi texnologiyasına məxsus yüksək temperaturlu qazla soyudulan reaktorlar üzrə memorandumu imzalanıb.

Məlumdur ki, 2014 və 2015-ci illər "Çin-ərəb dostluğu illəri" elan edilmiş və bu illər ərzində müxtəlif tədbirlər keçirilmişdir. Sədr Xi bildirib ki, Çin mədəni mübadilələrin miqyasını genişləndirmək, daha çox gənc tələbəni mübadilə proqramlarında iştirak etməyə təşviq etmək və turizm, aviasiya, media və digər sahələrdə əməkdaşlığı gücləndirmək istəyir. Çin və Səudiyyə Ərəbistanı arasında strateji uyğunlaşmada sosial risklər də nəzərə alınmalıdır. Belə ki, səudiyyəlilərin İslamın qaydalarına ciddi şəkildə əməl edən müsəlmanlar olduğunu nəzərə alsaq, 2030-cu il üçün Vizyon Səudiyyə Ərəbistanında sosial və mədəni həyatın tam açılmasını təmin etməyəcək. Çin xalqı üçün Səudiyyə mədəniyyəti qeyri-adi və hətta sirli olaraq qalır. İki sivilizasiya arasındakı böyük fərqlərə görə, bir neçə Çin mediası Səudiyyə mədəniyyətinin hekayələrini işıqlandırır, hər gün çay içməyi sevən səudiyyəlilər Çinin "Çay milləti" olduğunu bilmirlər. Səudiyyə Ərəbistanının Çindəki səfirinin qeyd etdiyi kimi, Çin və Səudiyyə Ərəbistanı arasında qarşılıqlı anlaşmaya çox ehtiyac var. Beləliklə, Çin və Səudiyyə Ərəbistanı arasında artan iqtisadi əlaqələrlə yanaşı, mədəni

mübadilələr də inkişaf etdirilməlidir. Bu məqsədlə, CXR və Krallıq arasında idman, jurnalist, müsəlman din xadimləri və işgüzar dairələrin nümayəndələri səviyyəsində qeyri-rəsmi şəxsi əlaqələrin inkişafı təmin olunmuş, Pekin Məkkə və Mədinəyə Çinli müsəlmanların ziyarətlərini bərpa etmiş, ölkədə məscidlərin yenidən qurulması, Quran və hədislərin nəşrini maliyyələşdirməyə başlamışdır. Etiraf etmək lazımdır ki, dövlətlər arasında sağlam münasibətlərin açarı onların xalqları arasındakı yaxınlıqdadır. Çin və Səudiyyə Ərəbistanı ənənəvi dostluğu canlandırmaq üçün insanlar arasında daha çox mübadilə təşkil etməli və müxtəlif sivilizasiyalar arasında dialoqu gücləndirməlidir.

***Nəticə.*** ÇXR praqmatizmə, geosiyasi qarşıdurmanı rədd etməyə və ümumi maraqların tanınmasına əsaslanan öz beynəlxalq münasibətlər modelini tətbiq etməyə çalışır. Təsadüfi deyil ki, bir çox Qərb ekspertləri Səma İmperiyasının artan gücünü qlobal liderliyə iddia kimi qiymətləndirirlər. Bu baxımdan, ÇXR-in Yaxın Şərq ölkələri ilə bağlı xarici siyasət strategiyasının öyrənilməsi məsələləri xüsusilə aktuallaşır, çünki bu regionda üstün mövqeyə yiyələnmək Pekinə dünya enerji ehtiyatlarının əhəmiyyətli hissəsinə nəzarət etməyə, aparıcı dünya oyunçusu kimi özünü təsdiqləməyə imkan verir.

## ƏDƏBİYYAT

1. Al-Tamimi N. China – Saudi Arabian Relations. Economic Partnership or Strategic Alliance? // Discussion Paper. Durham University, Number 2: 27 June 2012, p.1-24.
2. Bağırova A. Çinin Yaxın Şərq siyasətində İraq istiqaməti // Azərbaycan Milli Elmlər Akademiyası, Sosial elmlər, №1 2021, s.9-17.
3. Chen D., Han W. Deepening Cooperation Between Saudi Arabia And China. - KAPSARC, Discussion Paper. 27 March 2019, 30 s.
4. Guzansky Y., Lavi G. Saudi Arabia-China Relations: A Brave Friendship or Useful Leverage? / Strategic Assessment, Volume 23, №2, April 2020, p.109-114.
5. Ismail N.B. The Political and Economic Relations of the People's Republic of China (PRC) and the Kingdom of Saudi Arabia (KSA), 1949–2010. PhD Thesis. University of Exeter, 2011, p.410.

6. Juan C., Meng S., Shaobiao W. Aligning China's Belt and Road Initiative with Saudi Arabia's 2030 Vision: Opportunities and Challenges // China Quarterly of İnternational Strategic Studies, Vol.4, No3, p.363-379.
7. Korkmaz H. Çok Kutuplu Dünya'da Riskten Kaçınmak: Suudi Arabistan'ın Çin Perspektifi / TASAM, Türk Asya Stratejik Araştırmalar Merkezi, 18 Aralık 2022. - https://tasam.org/tr-TR/Icerik/70229/cok_kutuplu_dunyada_riskten_kacinmak_suudi_arabistanin_cin_perspektifi [30.04.2023].
8. Глазунов О.Н., Савченко А.Л. Особенности и приоритеты внешней политики Китая в странах Ближнего Востока // Общество: политика, экономика, право, №3 2018, с.22-26.
9. Öterbülbül S. Xi Jinping Döneminde, Çin'in Ortadoğu'daki Güvenlik Stratejisi // The Turkish Yearbook of International Relations, Volume 53, 2022, p.41-70.
10. Özekmekçi M.İ. Türkiye'nin Doğu Sınırında Yeni Bir Güç Çin. Boğaziçi Üniversitesi-TÜSİAD Dış Politika Forumu. - https://docplayer.biz.tr/8772274-Turkiye-nin-dogu-sinirinda-yeni-bir-guc-cin-m-inanc-ozekmekci.html [30.04.2023].
11. Özev M.H., İstıkbal D. Ortadoğu'da Çin yatırımları / SETA Analiz, Kasım 2020, Sayı: 339, 24 s.
12. Руденко Л.Н. Торгово-экономическое сотрудничество Саудовской Аравии с Китаем (2010-е годы) // Российский внешнеэкономический вестник, №3 2022, с.38-49.
13. Савичева Е.М., Бребдани А.М., Рыжов И.В. Китай и страны Совета сотрудничества арабских государств Персидского Залива: от экономических сделок к стратегическому партнерству // Vestnik RUDN. International Relations, 2022, Vol.22, No.1, c.180-196.
14. Валиахметова Г.Н., Герман М.А. От идеологического противостояния к стратегическому партнерству: специфика эволюции китайско-саудовских отношений // Известия Уралского федерального университета, Серия 3, Общественные науки, 2018, Т.13, №3(179), с.192-203.

15. Wang T.Y. Competing for friendship: The two Chinas and Saudi Arabia / The Free Library, Arab Studies Quarterly, June 22 1993. - http://www.thefreelibrary.com/Competing+for+friendship%3A+the+two+Chinas+and+Saudi+Arabia.-a015016927 [30.04.2023].

**HAMIDA ISKANDEROVA**
*1st year graduate student of Baku State University*

## THE DIRECTION OF SAUDI ARABIA IN CHINA'S MIDDLE EAST POLICY

The transformation that began with the 1978 reforms in the People's Republic of China led to rapid economic development and increased urbanization in the country. China has become a classical oil importer since 1993 due to the continuous growth of energy demand. A large part of these imports came from countries in the Middle East region, including Saudi Arabia, Iraq and Iran. The article talks about China's political, economic and cultural relations with Saudi Arabia, one of the main oil importers, and provides information about the prospects of Saudi Arabia's "Vision 2030" strategy with the "One Belt One Road" initiative announced by President Xi Jinping in 2013.

*Keywords*: China, Saudi Arabia, Middle East, "One Belt One Road", "Vision 2030".

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 327**

**НИДЖАТ МАМЕДЗАДЕ**
*Магистрант I курса кафедры*
*«Дипломатии и современных интеграционных процессов»*
*Бакинского Государственного Университета*
**nijatmamedzade@gmail.com**

# ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД К ПРОБЛЕМАМ ЭТНИЧЕСКОГО СЕПАРАТИЗМА

*Научный руководитель*:
доктор философии по историческим наукам Эмин Гаджинский

*В данной статье исследуются понятие, причины возникновения и развития сепаратизма в государствах. Автор рассматривает двойственность сепаратизма в международно-правовой теории, где раскрывается угроза территориальной целостности государств и международной обстановке в целом. В статье показаны исторические корни сепаратизма, приведены исторические факты, мнения ученых.*

*Ключевые слова:* сепаратизм, территориальная целостность государства, право на самоопределение, этнические конфликты.

***Введение.*** Центростремительные и центробежные тенденции современного миропорядка, выражающиеся в общемировой интеграции и региональной локализации, придали в начале XXI века проблемам политического сепаратизма, автономии и сецессии новое звучание. Импульс к получению политической независимости через сецессию, распространяющийся по всему мировому геополитическому пространству, - яркий признак современных международных отношений. Неслучайно поэтому сепаратизм часто называется «чумой распада», а период современной истории трактуется как «эпоха сецессий».

Сецессия представляет собой форму политического сепаратизма и является политическим процессом, в ходе которого происходит отделение от государственного образования какой-либо

его части, в границах которой создаётся новое суверенное государство.

Неурегулированность сепаратистских конфликтов, являющихся в большинстве случаев ядром сецессии как политического процесса, привела к росту количества непризнанных или частично признанных государств, которые де-юре не считаются полноправными субъектами международных отношений (Приднестровская Молдавская Республика, Республика Косово, Сомалиленд, Республика Южная Осетия, Республика Абхазия и другие). Кроме этого, на волне роста националистических настроений активизируются сепаратистские движения, лидеры которых выступают за отделение от единого государства (например, Фронт освобождения Джамму и Кашмира в Индии, Фронт национального освобождения Кабинды в Анголе, Фламандское Движение в Бельгии, Фронт национального освобождения Корсики во Франции, движения за независимость Шотландии в Великобритании, Организация «ЭТА» в Испании, движения за суверенитет Квебека в Канаде и). Именно поэтому интерес к изучению сепаратизма огромен, и в политической науке существует настоятельная потребность в анализе этого явления.

Можно с уверенностью утверждать, что сецессия, как правило, предполагает острый, ожесточённый конфликт между сторонами, который ведёт не только к кардинальным институционально-политическим изменениям, но и серьёзным людским потерям. Именно поэтому подавляющее большинство действующих конституций не признаёт права на сецессию. Что же касается попыток сепаратистских групп отделить часть территории от государства, то они в большинстве случаев жестко подавляются.

Сепаратизм происходит от латинского слова separatus (отдельный) и в общем виде означает стремление к обособлению, а на практике под ним понимают политику, которая имеет своей целью отделение части территории от государства и создание на этой территории нового политически независимого государства.

Сложность изучения сепаратизма состоит и в том, что это

явление достаточно трудно поддается однозначной интерпретации. С одной стороны, сама вероятность сепаратизма может быть рассмотрена как угроза целостности государственного строя, дестабилизатор политических процессов в рамках целого региона. С другой стороны, сепаратизм рассматривается как способ реализации права народов на самоопределение, которое является демократической нормой. Получается, что противоречие принципа территориальной целостности государства и права народов на самоопределение - сложная дилемма, которая требует своего научного решения.

Современное международное право обеспечивает принцип равноправия и самоопределения народов. Он сформулирован в Декларации о принципах международного права, касающихся дружественных отношений и сотрудничества между государствами в соответствии с Уставом ООН от 24 октября 1970 г. Способы реализации данного права: «создание суверенного и независимого государства, свободное присоединение к независимому государству или объединение с ним или установление любого другого политического статуса» [6]. Позже этот принцип много раз подтверждался в международных правозащитных пактах.

Когда речь идёт о таком феномене как сепаратизм, мы в первую очередь подразумеваем борьбу этнической группы, не являющейся титульной в том государстве, на территории которого эта этническая группа проживает [11, с.386]. Это можно выделить как первую общую характеристику, определяющую сепаратизм.

Во-вторых, эта этническая группа практически всегда сконцентрирована на определённой территории. Ведь нелепым кажется, например, цыганский сепаратизм, ведь это кочевой народ, территории проживания которого не успевают оформиться в какую-либо историческую область их расселения.

Сущность такого феномена как сепаратизм можно понять, лишь начиная научные изыскания с периода формирования национальных государств в Европе нового времени, так как этот регион был первым в мире, где стали образовываться национальные

государства. Собственно, это предположение не противоречит определению сепаратизма, данному американским политологом Д.Горовицом, которое звучит следующим образом: «сепаратизм как выход группы и ее территории из-под юрисдикции более крупного государства, частью которого она является» [5, с.39].

Начать же нужно с того, чтобы рассмотреть вопрос о том, какую же всё-таки роль во всё этом играет суверенитет того, или иного государства. Российский политолог С.В.Бирюков так пишет о значении суверенитета: «Как политико-правовое явление сепаратизм тесно связан с понятием "суверенитет" - ибо в эволюции представлений о смысле и содержании последнего отразилась вся противоречивость подходов к проблемам национально-государственного строительства» [2].

Интерес представляет также то, что само национальное государство принципиально исключает любой сепаратизм, если исходить из теоретической основы концепции национального государства. Концепция суверенитета Жана Жака Руссо исключает возможность сепаратизма в сегодняшнем понимании этого слова. Концепция Руссо не допускает влияния малых обществ на большое, а наиболее эффективным механизмом осуществления воли объединенного народа объявляет единую и нераздельную республику. Таким образом, формально концепция Руссо отрицает сепаратизм как таковой» [10, с.298].

А.Я.Йонгман и А.П. Шмид разделяют самоопределение на внешнее, самостоятельное определение международно-правового статус и внутреннее [12, с.65]. По мнению многих исследователей, внешнее самоопределение может быть рекомендовано только народам, терпящим колониальную зависимость или иностранную оккупацию. В иных случаях сецессия оправданна только там, где власти допускают массовые нарушения прав человека и постоянно угнетают некое сообщество. Гораздо более продуктивным считается «внутреннее» самоопределение, предполагающее создание демократических институтов и механизмов группового

представительства в рамках единого государства. Таковы федерация, так называемое регионалистское государство, различные формы автономии.

Политические события в XXI веке в Испании, Великобритании, Украине, а также время от времени возникающие очаги сепаратизма в России в очередной раз подтверждают актуальность исследуемой проблематики в научном и практическом аспектах. Ученые однозначно видят в сепаратизме угрозу безопасности государств [13, с.209].

Источником же суверенитета является именно объединённый народ. Так что никаких малых обществ и не могло быть, следуя этой концепции суверенитета. Ведь, в конечном счёте, национальные государства - это государства, построенные на единой нации.

Принцип самоопределения народов предполагает различные способы политико-территориальной организации общности во внутригосударственных отношениях: создание субъекта федерации, организацию местного самоуправления, экстерриториальные формы национально-культурной автономии и т.п. И только высшую форму самоопределения составляет право образовать государство. Если все же территориальное сообщество настаивает на сецессии, должны соблюдаться четкие правовые условия: конституционные нормы о праве сецессии, законы о порядке выхода из состава государства. В них должны определяться гарантии и механизмы защиты граждан, автономных территорий, субъектов федерации и всего государства, а также устанавливаться переходный период, во время которого решаются все вопросы защиты прав и интересов сторон. Согласно международному праву, решение об отделении принимается на референдуме в условиях мира и демократии, обеспечиваемых легитимными властями. Самоопределение должно происходить только на основе полного равноправия всех граждан, приоритета прав человека без преимуществ для коренных (титульных) этносов, без малейшей дискриминации населения другой этничности [14, с.178]. На

практике сецессия в большинстве случаев разрушительна и убыточна, влечёт за собой массовые нарушения прав человека. Так Бьюкенен А., полагает что к сецессии можно прибегать только на конституционных основаниях и только в том случае, если все другие способы решения противоречий исчерпаны [3, с.42].

Таким образом, декларируемая идейная основа сепаратизма - право на самоопределение: 1) имеет правовые ограничения; 2) выражается во множестве форм, в т.ч. не соответствующих сепаратизму; 3) противоречиво истолковывается в различных науках. Сепаратизм как тип территориального движения - высший предел вектора дезинтеграции общества.

В таком случае встаёт вопрос: откуда же всё-таки взялся сепаратизм, если различные этнические группы в конце XVIII века сосуществовали в качестве единого, объединённого одной нацией народа? Сегодняшний сепаратизм нацелен на отделение этнической группы от какого-либо государства. Здесь нация понимается как этническая группа. Это ключевая характеристика сепаратизма. И стремление субнациональной этнической группы стать суверенной нацией и есть движение к сепаратизму [9, с.149].

Почему так произошло - вопрос сложный. В конце XIX века идея национального суверенитета был дополнена новым принципом - равноправия и самоопределения народов» [4, с.301]. Домыслив приведённую выше цитату, можно дать объяснение. Во-первых, нужно сказать о том, что такой антропологический фактор как общее прошлое является одним из самых основ факторов национальной, идентичности. И если это общее прошлое сужается для какой-либо одной этнической группы, то эта этническая группа перестанет идентифицировать себя с согражданами «другой национальности».

Во-вторых, манипуляция чувствами этнической идентичности удобна для консолидации масс. Источники, которые мы используем для анализа, различны. Это могут быть программные

документы, сводки СМИ. Но ведь зачастую нас удивляют наиболее радикальные методы, используемые сепаратистами. Например, террористические акты. Следуя современным тенденциям, можно утверждать, что терроризм не имеет национальности. Например, нелепо утверждать, что методы ЭТА в Испании характерны для политической культуры испанцев [15, с.57].

Изучение межнациональных конфликтов в определённой степени помогает нам в изучении сепаратизма. Сепаратизм требует знания и межнациональных конфликтов. Говоря о факторе идентичности в сепаратизме, подразумеваются идентичности по следующим принципам:

1. *Религия*. Это один из самых характерных принципов идентичности в традиционных и других обществах;
2. *Культура*. Большую актуальность принимают формы проявления культуры;
3. *Социальные особенности*;
4. *Экономика*. Этот критерий идентичности во многом характерен для современных европейских реалий. Здесь примером может служить сепаратизм в Испании, главной консолидирующей идеей которого служит экономическое превосходство северных одних регионов над другими;
5. *Принадлежность к той или иной языковой группе*.
6. *Принадлежность к определённой этнической группе* [7, с.39].

То, что мы видим сейчас и называем сепаратизмом, явление современное, и обусловлено оно рядом факторов. Но все эти факторы формируют ту или иную идентичность. В случае же сепаратизма идентичность может являться довольно-таки мощным в умелых руках политическим оружием, способным мобилизовать массы, решить ту, или иную политической цель.

Постиндустриальный мир привнёс массу новых проблем. В частности процессы глобализации, которые отразились на проблеме сепаратизма. Здесь, можно выделить две тенденции. Первая

тенденция заключается в разрушении национального государства. Здесь примером может служить всё усиливающаяся интеграция Европейского Союза [7, с.56].

Вторая тенденция заключается в усилении политико-экономических позиций во взглядах сепаратистов выход этих организаций на международный уровень, а так же становление их как полноценных антисистемных движений, преследующих цели не только национального освобождения, но и изменения мирового порядка. Эта тенденция оказывает влияние на качественную характеристику сепаратистских движений.

Сепаратизм в Европе существует со времён зарождения современных европейских государств. Так же, как и во всём остальном мире, европейский сепаратизм явление неоднородное. Сепаратисты так же используют различные методы политической борьбы и легальные, как создание политических партий, нацеленных на представительство во властных структурах, и нелегальные, движения, которые, например, исповедуют принцип прямого действия, террора и тому подобного.

Основная же особенность сепаратизма в Европе кроется в том, что европейский регион один из наиболее развитых регионов Земли. Здесь сосредоточена крупная часть мирового капитала, здесь особо развито гражданское общество [8, с.94].

Уровень социального и экономического развития этих стран отличен от уровня ведущих стран Евросоюза. Различия в политической культуре, принадлежность просто к другому региону мира, исторические особенности этих государств выступают дестабилизирующим фактором в стратегической политике Европейского Союза.

Причины и условия возникновения сепаратизма весьма разнообразны [1, с.330] - своим появлением сепаратизм может быть обязан различным обстоятельствам: диспропорциям регионального развитая, национальной дискриминации и нетерпимости, невозможности пробиться к власти в государстве политической

элите региона, демографическим изменениям, социально-экономическим проблемам, а также исторической памяти об утраченной независимости. Необходимыми условиями для возникновения сепаратизма являются существование государства и его составных частей, экспансионистская политика государства, централизованный характер управления в государстве, отсутствие или недостаточность местного самоуправления, политический и социально-экономический кризис в государстве, недовольство различных слоев населения.

В настоящее время сепаратизм характерен для различных стран с разными политическими системами и режимами. О многообразии очагов сепаратизма свидетельствует то, что они видны и в самом факте распада СССР, Чехословакии, Югославии, в образовавшихся новых независимых государствах (России, Украины, Грузии, и др.), в постколониальных странах (в Шри-Ланке, Мьянме, Индии), в странах, западной демократии (Ольстер в Великобритании, Квебек в Канаде, Баски, Каталонии в Испании) [16, с.62].

***Выводы.*** Сепаратизм появился в политической жизни почти тогда же, когда возникло государство. В современную эпоху повсеместной тотальной взаимозависимости происходящих в мире политических процессов, проблемы, связанные с наличием на планете очагов сепаратизма, вызывают глобальное усиление политической и экономической напряженность.

## ЛИТЕРАТУРА

1. Абрамова О.А. Региональный сепаратизм в Европе: политико-правовые аспекты // Образование и право, №5 2020, с.329-334.
2. Бирюков С.В. Сепаратизм: идейные истоки, современное состояние, пути преодоления / Дневник Алтайской школы политических исследований № 32. Современная Россия и мир: альтернативы развития (Сепаратизм и его роль в мировом политичес-

ком процессе): сборник научных статей / под ред. Ю.Г. Чернышова. Барнаул: Изд-во Алт. ун-та, 2016, с.28-33.
3. Бьюкенен А. Сецессия: Право на отделение, права человека и территориальная целостность государства. М.: Рудомино, 2001, 474 с.
4. Ван дер Берге П.Л. Этнический феномен. Нью-Йорк, 1981, 301 с.
5. Горовиц Д. Разрушенные основания права сецессии / Пер. с англ. // Власть, №11 2013, с.34-67.
6. Декларация о принципах международного права, касающихся дружественных отношений и сотрудничества между государствами в соответствии с Уставом Организации Объединенных Наций. *Принята резолюцией 2625(XXV) Генеральной Ассамблеи ООН от 24 октября 1970 года.* - https://www.un.org/ru/documents/decl_conv/declarations/intlaw_principles.shtml
7. Емелин В.А. Кризис постмодернизма // Национальный психологический журнал, №2(26) 2017, с.45-62.
8. Емельянов В.П. Терроризм и преступления с признаками терроризирования: Уголовно-правовое исследование - СПб., Юрид. Центр Пресс, 2002, 296 с.
9. Зарубежное законодательство в борьбе с терроризмом / отв. ред. И.С.Власов. М., Городец-издат, 2002, 489 с.
10. Зонова Т.В. От Европы государств к Европе регионов? М., 2012, 489 с.
11. Известные теракты / под ред. Д.В. Нестеровой. М., Вече, 2003, 383 с.
12. Йонгман А. Я., Шмид А. П. Этнос и политика. Хрестоматия под ред. А.Празаускаса. М., изд-во УРАО, 2004, 125 с.
13. Клачков П.В., Подъяпольский С.А. Эффективное противодействие сепаратизму в современных условиях // Современные проблемы науки и образования, № 6 2013, с.920.
14. Конюхова И.А. Право народов на самоопределение как принцип федерализма // Политическая наука, 2003 № 3, с.167-186.

15. Оффе К. Этнополитика в восточноевропейском переходном процессе // Полис, 1996, №2, с.56-69.
16. Празаускас А.А. Этнос и политика. Хрестоматия. М., изд-во УРАО, 2011, 398 с.

**NIJAT MAMMADZADE**
*Master student of the Department of Diplomacy and modern integration processes" of Baku State University*

## THEORETICAL APPROACH TO THE PROBLEMS OF ETHNIC SEPARATISM

This article explores the concept, causes of the emergence and development of separatism in states. The author considers the duality of separatism in the international legal theory, where the threat to the territorial integrity of states and the international situation as a whole is revealed. The article shows the historical roots of separatism, provides historical facts, opinions of scientists.

*Keywords:* separatism, territorial integrity of the state, the right to self-determination, ethnic conflicts.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

№2(8) 2023

**UOT 94**

**NURLANA MƏMMƏDOVA**
*Bakı Dövlət Universiteti,*
*Tarix fakültəsi SABAH qrupları IV kurs tələbəsi*
**mmmdovanurlana468@gmail.com**

# ŞƏRQİ AVROPADA YAŞAYAN TÜRK TAYFA BİRLƏŞMƏLƏRİ. QIPÇAQLAR

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Sənubər İsmayılova

*Türk xalqları tarixində ən aktual problemlərdən biri Şərqi Avropada yaşayan türk tayfa birləşmələri idi. Bunlardan biri də Qıpçaqlar olmuşdur. Məqalədə Cənub-Şərqi Avropada hakim etnosa çevrilmiş Qıpçaqların tarixi işıqlandırılmışdır. Qıpçaq toplumu bir etnos kimi müxtəlif ölkələrin tədqiqatçıları tərəfindən öyrənilmişdir. Lakin mənşəyi məsələsi haqqında dolaşıq konsepsiyaların olması belə bir fikir irəli sürür ki, onlar soykök baxımından əvvəlcə Hind-Avropa mənşəli etnos olmuş, sonra isə türkləşmişlər. Məqalədə qıpçaqların etnik mənşəyi, onların müxtəlif xalqların etnogenezi prosesində və, xüsusən də, Azərbaycan türklərinin etnos kimi formalaşmasında iştirak dərəcəsindən bəhs edilmişdir. Məqalədə həmçinin, qıpçaqların üç adının məlum olduğu haqqında (Polovtsy, Qıpçaqlar və Komanlar) da məlumat verilmişdir.*

*Açar sözlər:* Polovestlər, Dəşti-Qıpçaq, Sıma syanın qeydləri, Toquz oğuzlar, Xaçın knyazlığı, Qarqarlar.

***Giriş.*** Qıpçaqların mənşəyi, etnik və siyasi tarixi müxtəlif qaynaqlarda bu və ya digər dərəcədə öz əksini tapmışdır. Bu qaynaqlar: 1) Türkdilli qaynaqlar, 2) Qədim Çin qaynaqları, 3) Orta əsr qaynaqları və 4) Rus və Qərbi Avropa dilllərində olan qaynaqlardır. Qeyd etmək lazımdır ki, xronoloji baxımdan bu qaynaqlar antik dövrdən son orta əsrlərədək geniş bir dövrü əhatə edir. Bütün qaynaqların əksəriyyətində müxtəlif siyasi hadisələrə və ya ayrı-ayrı tarixi-coğrafi vilayətlərin, tayfa və xalqların təsviri ilə bağlı qıpçaqlar haqqında ötəri

olaraq məlumatlar verilmişdir. Qıpçaqların soykökü məsələsinin mübahisəli olması ilk növbədə bununla bağlıdır. XIX əsrdən başlayaraq dünya tarixşünaslığında qıpçaqlarla bağlı onlarla tədqiqat əsərləri yazılmışdır. Əslində qıpçaqlar haqqında mövcud olan bütün ədəbiyyatları analiz etmək kimi məqsəd olmamışdır, ancaq qıpçaqların mənşəyi, etnik tarixi ilə bağlı konsepsiyaların mahiyyətini göstərmək, daha sonra qıpçaqların xalqımızın etnogenezi prosesində iştirakı məsələsinə öz tədqiqatlarında toxunmuş tarixçiləri qeyd etmək olar.

Çin tarixçisi Sıma Syan "Tarixi qeydlər" əsərində ilk dəfə Qıpçaq adını çəkmişdir və bu əsərində, hun hökmdarı Mode-şanyuyun işğalları haqqında danışılan bölümdə hunlar tərəfindən fəth edilən "syuyşe, dinlin, qequn" xalqlarının adı çəkilir (11, s.69). N.Y.Biçurin "syuyşe" etnonimini "küyeşe", S.A.Pletnyova isə "sin-ça" kimi yenidən adlandırmışdır (14 , s.3). Heroqliflərin oxunuşlarda bəzi fərqlərə baxmayaraq tədqiqatçılar demək olar ki, bu etnonimi qıpçaqlarla eyniləşdirmişlər. Bu fikir ilk dəfə N.Y.Biçurin tərəfindən səsləndirilmişdir (13, s.183). Bu fikirdən sonra A.N.Bemştam L.P.Potapov A.N.Qumilyov va başqaları onunla razılaşmışlar. "Qıpçaq" sözünün "Qədim türk lüğətində": 1) boş, 2) boş ağac, 3) acıqlı mənaları vardır (12, s.36). Eramızdan əvvəl II əsrdə Cənubi Rusiya çöllərində Qıpçaq və yaxud da Kıfçak - Hıfçak adları ilə tanıdığımız bu tayfalar birləşmiş icma olaraq meydana gəlmişdir. Məhz bu səbəbdən də bölgənin keçmiş adı dəyişikliyə məruz qalaraq Deşt-i Xəzər "Xəzər çölləri", Deşti-i Qıpçaq "Qıpçaq çölləri" olaraq adlandırılmışdır. Eramızın II minilliyinin əvvəllərində Şərq müsəlman tarixşünaslığının və Qədim Rusiyanın salnaməçilərinin orta əsr yazılı mənbələrində qeyd edilir ki, Şərqi Altay dağlarından Karpatların meşəlik yamaclarına qədər, Avrasiya çöllərinin geniş ərazilərində yeni tayfa meydana gəldi. Dəşt-i Qıpçaqlar qərb əraziləri boyunca yayılan tayfalar idi, bu tayfaların adı mənbələrdə "Polovtsian sahəsi" adından yaranması haqqında məlumat var. Dəşt-i-Qıpçaq farsca "qıpçaqların çölü" mənasını verirdi, Xarəzmin şimal-şərq sərhədlərinə bitişik çölləri XI əsrin farsdilli müəllifi Nasir-i Xosrovun "Divan"ında belə adlanmışdır. Eramızın I minilliyinin əvvəllərinə aid adları keçən bu tayfa adları eyni xalqın adı ilə bağlı idi. Bizans

və Rusiya kimi dövrünün böyük dövlətləri XI-XII əsrlərdə, yəni 1300 il sonra qıpçaqlarla qarşılaşmışdılar. Bu uzun müddət ərzində Qıpçaq xalqları yüksəliş və eniş dövrlərini yaşayırdılar, bütün ölkələrin və xalqların səlnaməçilərinin və səyyahlarının qeydlərində bu məlumata toxunulmuşdur (16, s.12). Ərəb coğrafiyaçılarının verdiyi məlumata əsasən Kiməklər - Kimaklar, İrtışdan Volqaya qədər olan geniş ərazilərdə yaşayırdılar. Qıpçaq adı Qara dənizin Şimalında artıq XI əsrin ortalarından başlayarak işlədilməmişdir. Bu ad Ruslar tərəfindən Polovets olaraq dəyişdirilmişdir (6, s.2). Polovets adının mənası rus qaynaqlarında "ova sakini" kimi bilinir. Rusların, öz düşmən və müttəfiq qonşuları olan Qıpçaqların əsil adlarının Rusca qarşılığında Polovetslər olaraq adlandırdıqları məlumdur. Bu, isə öz növbəsində Rusların Türk ləhcələrini qədimdən yaxşı bildiklərinin sübutudur (16, s.11). Hər halda, bu, tayfaların həmişə hökmranlıq etməsi ilə bağlıdır (6, s.2). Qeyd etdiyimiz kimi, bizim dövrə qədər olan tarixşünaslıqda "qıpçaq" adı VIII əsrin ortasına gedib çıxır (1, s.40). Adı çəkilən etnonim daş sütun üzərinə vurulmuş yazıda qeyd edilmişdir, mənbələrdə qeyd olunana əsasən türklərin və onların müəyyən müddət tabeliyində olan toquz oğuzların ölkəsində hakim tayfa qrupu türklər va qıpçaqlar olmuşdur (1, s.41). 1096-cı ildə Qıpçaq – Polovets adı Lavreniev səlnaməsində ilk dəfə çəkilərək əvvəllər rus dilində Polovsi tayfasının adı ilə əlaqəli işlənmişdir. Ruslar polovestləri türk tayfası kimi tanıyırdı. J.Nemeth, A.İ.Ponomarev, A.Zajaczkowski və K.H.Menges kimi məşhur Türkoloqların araşdırmalarında da belə məlumatlara rast gəlinir. Ancaq bu araşdırmalar tam aparılmadığı üçün bu tayfaların adının etimologiyası kifayət qədər aydın deyildir (6, s.2). XII yüzilliyin ortalarında Plovests ölkəsi kimi bilinən Dəşti-Qıpçaq qurumu Ağ və Qara Qıpçaqlara ayrılmışdır. Ağ və ya qərb Qıpçaqlar Dinenpr və Dinestr sahilllərində yaşamışlar. Qara Qıpçaqlar şimalı Donetsdə məskunlaşmışdılar. Qıpçaq və kumuk xalqlarının adları kub kökündən yaranmışdır. Bir uşağın ağacın kovuşağında dünyaya gəlməsindən bəhs edən dastandan yol alaraq Rəşidüd tərəfindən yazılan və Ebu'l-gazi tərəfindən təkrarlanan xalq etimologiyasına görə Qıpçaqların adları kabu-kabuk-kavuk şəklində formalaşmışdır (6, s.6).

***Qıpçaqların mənşəyi.*** Qıpçaqların mənşəyi haqqında məsələ hər zaman problemli məsələ olaraq qalmışdır. N.A.Aristov, V.V.Bartold, V.F.Minorskinin əsərlərinin sayəsində XIX əsrin sonu XX əsrin əvvəllərində qıpçaqların türk mənşəli olması sübut olunmuşdur (1, s.44). O.Pritsak «Ötən illərin dastanına istinad edərək "Половцы" etnonimini "pole"- "çöl" sözü kimi izah edir. Ona görə, poloves sözünün mənası çöldən gələn deməkdir. Q.E.Qrumun-Qrjimaylo və L.N.Qumilyov qıpçaqların mənşəyinin e.ə I minilliyin əvvəllərində Cənubi Sibir çöllərində yaşamış dinlinlərlə bağlayır və çin səlnaməçiləri dinlinlər sarışın hesab edirlər. Bu məlumata əsaslanaraq onların etnik mənşə və dil baxımından Hind-Avropalı olması fikri irəli sürülmüşdür. Bir çox tarixi ədəbiyyatlarda türk tayfaları yalnız monqoloid irqinə mənsub olduğu, onlarda avropoid əlamətlərin sonradan Hind-Avropa mənşəli tayfalarla qarışma nəticəsində yaranmış olduğu bildirilir (1, s.42). S.Q. Klyastornıyanın fikrinə görə iki etnonimin unitar formada yazılması və eyniləşdirilməsi halına rastlanmamışdır (7 , s.153). Əlavə olaraq ardıcıl deyilmiş etnonimlərin runi mətnləri üçün adi olan oxunuşunu müstəqil ad kimi oxumaq lazımdır, yəni «türklər və qıpçaqlar olaraq (1, s.42). A.N.Bernştam ilk dəfə olaraq Çin səlnamə məlumatına – Sinm Çyanın tarixi Şitszi (tarixi qeydlər)- diqqət yetirmişdir və burada şimalda qırğızlar, dinlin və sinlilərlə birlikdə tszyueşhe xalqını fəth edən hun Şanyuya Modenin işğalçı yürüşləri haqqında bəhs edilir. A.N.Bernştama görə, tsyuyşe-kyuyşe etnoniminin bu heroqliflərin qədim Çin tələffüzündə kiyçak kimi tələffüz edilməli və qıpçaq etnoniminin ən qədim adını ifadə etməliydi (3, s.154). N.A.Aristov hesab edirdi ki, kyuyşa etnonimi altında kuçuk tayfasını nəzərdə tutmaq lazımdır (1, s.40). S.Q.Klyaştornıy qeyd edir ki, Sima Tsyan tərəfindən qeyd edilən (e.ə II əsr) Tsyuyşe tayfasını kirçak kimi ifadə etmək cəhdi fonetik cəhətdən öz təsdiqini tapmır (3, s.162). Uzun İllər Q.Ramstedtin təklif etdiyi versiyanın doğru olduğunun aydınlaşdırılması ilə məşğul olmuş S.Q.Klyastomıy belə nəticəyə gəlmişdir ki, "birinci sözün türk kimi oxunması, şübhəsiz, doğrudur, lakin işarələrə görə sıraların eroziyaya uğramış hissəsində saxlanmış rekonstruksiya tamamilə əsaslandırılmışdır" (7, s.154). "Türk-qıpçaqlar hökmranlıq edirdilər"

deyilən yazının mətninə nəzər yetirsək, güman etmək olar ki, bu halda iki etnik ad sinonim kimi çıxış edir. Qədim türklər olan Qıpçaqlar və onların mənşəyi haqqında problem türklərin etnogenezinin – tyuqu aydınlaşmasına əsaslanır (1, s.42). S.Q.Klyastomıy bununla bağlı yazır: VIII-IX əsrlərdən erkən Qıpçaqlar haqqında hər hansı qeydlərin olmaması şübhəli görünür və belə bir fikir formalaşdırır ki, bu informasiyanı bizim üçün şifrəli formada artıq məlum mənbələr saxlayır və bu şübhəli fikrin həll edilməsində əsaslandırılmış yol təklif edir (7, s.153). Türk va qıpçaqların qüdrətli ittifaqı həm qədim türk, həm də Çin abidələrinin yazılı ənənəsində öz əksini tapmışdır. Bu ittifaq təxminən 726-cı ildə Tonyukuk yazısında türk və sir adı ilə həkk olunmuşdur. yazıda Bilge xaqanın şərəfinə 735-ci ildən altı sir tayfasının adı türklərdən dərhal sonra, lakin oğuzlardan əvvəl gəlir. Belə bir nəticə yaranır ki, müəyyən dərəcədə türklərlə hakimiyyət bölüşmüş eyni tayfa ittifaqının adlandırılması zamanı türk abidələri sir etnonimi, uyğur abidələri isə qıpçaq etnonimindən istifadə edir. Nəticə olaraq, hər iki etnonim eynidir (7, s.153).

Çin mənbələrində seyanto adlanan tayfa tonyukuk yazısında sir adlandırılmışdır. Eranın I minilliyinin ortasında Seyanto mərkəzi Asiyanın şərq hissəsində mövcud olmuş iki iri türkdilli köçəri tayfa ittifaqlarından birinə - türk və tele, məhz teleya aid idi, həmçinin “Tan şu”da deyilir ki, Tele nəsilləri arasında seyanto ən güclüsü idi, başqa mənbələrə əsasən, seyanto “telenin xüsusi nəslidir” (1, s.44). Türk və tele dövlətlərinin qurulması Mərkəzi və Orta Asiyada etnik qruplaşmaları cəlb etdirdi. VI-VIII əsrlər ərzində fasiləli uğurla qarşılıqlı qələbə və məğlubiyyətlər nə vaxtsa hunların tərkibinə daxil olmuş qohum tayfa birliklərinə təsir göstərirdi (7, s.155). VI əsrin sonunda mənbələrin verdiyi məlumata görə, bizə məlumdur ki, seyanto iki ittifaq, lakin say baxımından qeyri-bərabər qurum şəklində Mərkəzi Asiyanın şərq hissəsində iki yerdə yaşayırdı. Seyantonun ən kiçik qrupu Xanqayda idi. Seyantonun başqa daha güclü qrupu isə öz köçləri ilə Şərqi Tyan-Şanın va Altayın cənub-qərb enişləri arasındakı ərazilərdə yerləşirdilər və əvvəlcə I Türk Xaqanlığının tabeliyində, sonra isə o dağıldıqdan

sonra Qərbi Türk dövlətinin hakimlərinin tabeliyində yer aldılar (1, s.45).

Türk-tele qarşılıqlı münasibətlərinin yarandığı vaxtdan etibarən Seyanto tayfası türk xaqanlıqlarının hakimləri tərəfindən həmişə diqqət mərkəzində olmuşdur. 605-ci ildə Tuçzyuelərin xaqanı tərəfindən Çulo Tyelenin bütün nəslini dağıldı və onlardan gələn vergiləri artırıldı. Məhz bu səbəbdən də Tyele üsyan qaldırdı və Çuloya qarşı çıxdı (4, s.339). İllər ərzində onlar arasında fasiləli mübarizə uğurla davam etdi. Bəzi vaxtlarda qısa müddətli tele Seyanto ətrafında qruplaşaraq hətta öz birliklərini yarada bildilər və bu qonşu ölkələri narahat edirdi (4, s.339). Qərbi türk xaqanları nəhayət üstünlük əldə etdilər. Tele tayfalarının birləşməsi ilə bir neçə uğurlu toqquşmadan sonra onlardan ən böyüyü olan Seyantonu köçməyə məcbur etdilər. Onlar Tola çayından cənuba doğru köçdülər va burada şərqi türk tabeliyinə düşdülər (7, s.157).

***Azərbaycan tarixində Qıpçaqlar.*** Qıpçaqların etnogenik inkişafı müxtəlif fəzalarda Azərbaycanla bağlı olmuşdur. Məşhur tarixçi M.F.Kırzıoğlu ilk qıpçaqlar və son qıpçaqlar terminləri ilə Qıpçaqları iki qismə ayırmışdır. E.ə. VIII – b.e. VI ərslərdə əsas rol oynayan qıpçaqlar skif anlayışı altında qaynaqlarda qeyd olunan toplumların məcmusuna daxil olmuşdur. Eradan əvvəl III əsrdən hunların tərkibinə keçmişdir. Qıpçaqların bir qismi kifsak tayfalarının, digır bir qismi isə hun tayfalarıının tərkibində Azərbaycana nüfuz etmişdir. Skif dövründə və daha sonrakı qaynaqlarda qıpçaq etnonimi haqqında məlumata bilavasitə rast gəlinmir. Amma antik müəlliflərin əsərlərində və orta çağ erməni-gürcü qaynaqlarında qıpçaq toplumu ilə bağlı etnik terminlərin vasitəsilə onların skif-sak, sonra hunların tərkibində Cənubi Qafqaza , o cümlədən Azərbaycana axınlarından məlumat vardır (15, s.218). Qıpçaqların Azərbaycanla bağlılığını göstərən mötəbər qaynaq Kitabi-Dədə-Qorqud dastanıdır. Bu abidə oğuz abidəsi olsada burada qıpçaq toplumlarının çoxlu izinə rast gəlinir. Dastanda adı keçən Qazan xan, yəni Qalın Oğuz elinin hökmdarı İlaş oğlu olduğu göstərilir. Rus qaynaqlarında isə qıpçaq toplumlarından birinin adını İlaşeviçləri qeyd edir. Ulaş etnonimi həm qıpçaq, həm də oğuz toplumları ilə bağlı

işlədilir, bunu bir neçə üsulla izah etmək mümkündür, ulaş toplumu qıpçaq birliyinə daxil olan oğuz tayfasıdır, əks halda, yəni qıpçaq mənşəli toplumun oğuz birliyinə daxil olmasına güman etsək, onda Ulaş oğlu Qazan xanı qıpçaq hesab etməliyik. Bu əlbəttə ki, qeyri-mümkündür. Nə rus səlnamələri, nədə oğuz eposu bir fikir söyləməyə imkan vermir (10, s.134). Azərbaycanda məskunlaşan qıpçaq toplumlarını araşdırarkən qarqar etnonimi diqqəti cəlb edir. V.V.Bartold tərəfindən XVI əsrə aid edilən Axzikəndinin "Məcmuə ət-təvarix" əsərində qarqar-qıpçaqlarının adı çəkilir. Bu qaynaqdan aydın olurki məşhur qırğız eposu "Manas"ın baş qəhrəmanı qarqar qıpçaqlardır. Qarqarlar Orta Asiyada qədim dövrlərdən yaşamışlar. Orta Asiyada qədimdən məlum olan qarqar qıpçaq toplumu Albaniyadada məskunlaşmışdır. K.V.Treverin verdiyi məlumata görə, qarqarlar e.ə. III əsrdə Qafqaz dağlarında məskunlaşmışlar, sonra dağlardan Qarabağ düzünə yayıldığını göstərir. M.Xorenatsiyə görə, qarqarlar Qarqar düzündə yaşamışlar. Bu məlumata əsaslanan S.E.Yeremyan Treverdən fərqli olaraq, Qarqar düzünü Mil düzü kimi lakolizə etmiş qarqarları burada yerləşdirmişdir. Həm tarixi, həmdə müasir toponimika qarqarlar haqqında yazılı qaynaqların məlumatlarını təsdiq edir. Belə ki, Köndələnçaydan şimalda Qərqər kəndi yerləşir. Gədəbəy Dzeqamçayın başlanğıcında Qərqər adlı ərazi vardır.

Qarqar etnonimi ilə bağlı coğrafi adların geniş ərazidə yayılması belə bir fikir irəli sürməyə imkan verirki, qarqarlar nəinki Şimal-şərqi Qafqazın düzən və dağlıq ərazilərində, Cənub- şərqi Qafqazda geniş ərazilərdə o cümlədən Qarqarçay hövzəsində yayılmışdılar. Qarqar etnoniminin Şimalı Azərbaycanla yanaşı, Cənubi Azərbaycanda da yayılması diqqəti cəlb edir. Belə ki, Zeynəddin Qəzvinin "Zeyle tarixi qozide" əsərində Mərəndlə Naxçıvan arasında yerləşən Qarqar qalası bir neçə dəfə xatırlanmışdır. Göründüyü kimi, qıpçaq toplumu olan qarqarlar Azərbaycanın həm şimal, həm də cənub hissələrində geniş yayılmışdır. Həm Orta Asiya, həm də Azarbaycanda qarqarların qədim dövrlərdən yaşaması məlumdur, qarqar etnotoponimi qıpçaq və onlara yaxın olan kimakların yayıldığı ərazidə qeydə alınmışdır. Digər tərəfdən, II əsrdən Orta Asiyada məlum olan qarqarların qafqazdilli

olmasını güman etmək mümkün deyil, çünki Orta Asiya ərazisində qafqazdilli tayfalar qeyda alınmamışdır. Qarqarların irandilli olması haqqında fikir söyləməyə bir əsas yoxdur (16, s.20). Qarabağın alban-qıpçaq tarixidə dərin köklərə dayanır. Bu əlaqələr XII əsrdən etibarən Xaçın knyazlığının fonunda daha sıx xarakter almışdır. Xüsusilə də, Alban-Xaçın knyazlarının onlara soykök baxımından yaxın olaraq tanınmış Qıpçaq nəsillərindən qız almaları bu əlaqələri daha da möhkəmləndirmişdir. Maraqlıdır ki, xristian qıpçaq xatunlar Qarabağa gəlin gəldikdən sonra da türklüklərini simvolizə edən xatun titulunu qoruyub saxlamışdılar (2 , s.12). Yaxud da alban tayfalarının soykökü ilə bağlı bir məqam mütləq diqqətə alınmalıdır. Qarabağda qıpçaq izlərinə alban irsi olaraq günümüzə qədər gəlib çatan kilsələrdə də rast gəlmək mümkündür. Kəlbəcər rayonunda Xaçınçayın sol sahilində yerləşən Gəncəsər monastrı üzərindəki kitabədən də məlum olduğu kimi, Alban-Xaçın hökmdarı Həsən Cəlal və anası Hurişah Xatun (Xorişə) tərəfindən 1216-1238-ci illərdə inşa edilmişdir. Belə ki, bugün Qazaxıstanda böyük juzun nəsillərindən biri albanlardır.

***Dəşt-i Qıpçaq və Monqollar.*** Dəşt-i Qıpçaqlar Monqol çöllərinin qərb hissəsində yaşayırdılar. Böyük kütlələr və tayfalar şəklində birləşmiş Dəşt-i Qıpçaqlar xitanların təzyiqi ilə Monqol çöllərindən köç etmək məcburiyyətində qaldılar. Sonra qərbə doğru uzun bir səyahətə başladılar. Onlar ilk növbədə Qərbi Sibirə, Şimali Dungarıstana və şimal-şərq Yedisu bölgəsinə köç etmişlər. Dəşt-i Qıpçaqlar burada digər türk tayfaları ilə və müxtəlif xalqlarla görüşmüşlər. Bu xalqların qatqıları ilə gücləndilər və birlikdə Tanrı dağlarının şimalına doğru irəlilədilər (5, s.243). Onlar Tobol və İşim çayları arasındakı çöllərdə yaşayırdılar. Dəşt-i Qıpçaqlar beləliklə kimək tayfası konfederasiyasında yer aldılar. Müxtəlif dövrlərdə bölgəyə gələn kimeklər Türküstan xalqlarının birləşməsindən yaranan bir tayfa olmuşdur. Kimek qrupunu təşkil edən yeddi tayfadan biri Dəşt-i Qıpçaqlar idi (9, s.15). Mustafa Kafalı, Dəşt-i Qıpçaq tarixini monqolların gəlişindən əvvəlki dövr və monqollardan sonrakı dövr olmaqla iki hissəyə bölmüşdür. Cuciyə həvalə edilən Dəşt-i Qıpçaqın sərhədləri Xarəzmdən Dərbəndə, oradan Bulgar xanlığına qədər uzanaraq geniş ərazini əhatə edirdi. 1230-cu illərdə

Monqol dövləti Dəşt-i Qıpçaqda yaradılmışdır. Monqolustanın qərbində və bu torpaqların özəyində yerləşən Dəşt-i Qıpçağı Cuci öz nəzarətinə götürdü (8, s.7). 1218-ci il Otrar fəlakətindən sonra Çingiz xan 20 minlik qoşun ilə Cəbə və Subutayı Xarəzmşah Məhəmmədi izləməyə göndərdi. Onun minlərlə əsgərdən ibarət olan ordusu bir çox şəhərləri qarət etdi, daha sonra Şimali Qafqaza keçdi. Lakin mənbələrdən əldə edilən məlumatlar göstərir ki, bu yürüş təkcə Xarəzmşahın arxasınca getmək məqsədi daşımırdı. Sərhədlərini bütün Dəşt-i Qıpçaq daxil olmaqla Dərbəndə qədər uzatmağı düşünən monqollar Xarəzm sərhədlərindən İrana, oradan da Azərbaycana daxil oldular. Nəticədə, Monqollar həm alanları məhv etdilər, həm də qıpçaqları məğlub edərək onlara verdikləri hədiyyələri əlindən aldılar. Məğlub olan qıpçaqlar Avropanın cənub-şərqində - İdil (Volqa) və Ozi (Dnepr) çayları arasında yaşayan qıpçaqların yanına qaçmışdılar (8, s.7).

Alman şərqşünası J.Marquart 1914-cü ildə “Qıpçaqlar haqqında” kitabında qıpçaqların monqolların bir qolu olduğunu və zamanla türkləşdiyi qeyd edir. Buna görə də, bu prosesi üç mərhələyə bölünür. Birinci mərhələdə, kimekləri qıpçaqların əcdadı kimi göstərməklə, onların İrtışdan gəldiyi və VII əsrdə tatarlar tərəfindən fəth edildiyi göstərilmişdir. İkinci mərhələdə, Kimek adı X əsrdən tamamilə yox oldu. Üçüncü mərhələdə isə, 1120-ci ildə Yuan-Şidə adı keçən Tutukun (qıpçaq əsilli ordu generalı) doğum tarixindən Ural dağlarına gəlmə qıpçaqların peyvənd dövrü kimi göstərmişdir. Dəşt-i Qıpçaq istiladan əlavə Qıpçaqlarla monqolların qarşılıqlı əlaqəsini təmin edirdi. Əvvəlki tarixdə qıpçaqların monqollaşması hadisələrinin düzgün olmadığı qeyd edilmişdir. Digər tərəfdən də, qıpçaqların köçünü şərtləndirən səbəblərdən birinin də bu olduğu göstərilmişdir. Burada qarşılaşdığımız digər problem isə bu tayfalar arasında birliyin olmaması idi (8, s. 6). Monqolların işğalına baxmayaraq, qıpçaqlar müxtəlif xalqlarda öz varlıqlarını qorumuş və adlarını saxlamışdılar. Qızıl Ordu dağıldıqdan sonra qıpçaqlar Kırım, Qazax, Özbək, Qazax xanlıqlarının tərkibində mövcud olmağa davam etmişlər (8, s.6). Kimek konfederasiyasının və

Oğuz Yabqu Dövlətinin dağılması ilə Dəşt-i Qıpçaqlar bölgədəki hökmranlıqlarını möhkəmləndirərək İrtışdan İdilə qədər nəhəng bir ərazini öz nəzarətlərinə götürmüşdülər (9, s.16).

***Nəticə.*** Qıpçaqlar (çöldən gələn , boş , boş ağac , acıqlı) Tyan-Şan dağlarından Dunay çayınadək geniş ərazini əhatə edən "Dəşt-i Qıpçaqın sahibləri idilər. Qıpçaq etnonimi ilk dəfə "sinça", "küyeşe" şəklində e.ə.III əsrdə Çin xronikasında işlənmişdir. Tədqiqatlar göstərir ki, türk mənşəli etnoslar sırf monqoloid olmamış, onlarda tarixin daha dərin qatlarında avropoid irqi əlamətləri üstünlük təşkil etmişdir. Qıpçaqlar Azərbaycanla ta qədimdən əlaqədə olmuş, onların Azərbaycana axınları bir neçə mərhələdən keçmişdir. Birinci mərhələ Skif-sak tayfaları, ikincisi Hun tayfa birliyi, XI-XII əsrlərdən başlayaraq axın edənlərsə, son qıpçaqlar idi. Bu dövrdə formalaşması başa çatmış Azərbaycan etno-siyasi sistemi tərəfindən qıpçaqlar assimilyasiya edilirdi. Təsadüfi deyil ki, XI əsrdə Azərbaycana axın etmiş oğuzalardan fərqli olaraq qıpçaqlar özlərindən sonra heç bir etnoqrafik qrup qoymamışlar. Qıpçaq etnosunun tarix səhnəsindən getməsinin mühüm səbəblərindən biri, monqol istilasıdır. Monqolların birinci və ikinci yürüşlərindən sonra onların çoxu monqolların təqibindən xilas olmaq üçün qərbə - Türkiyə, Macarıstan, Bolqarıstan və s. kimi ölkələrə köçüblər. Qıpçaqların bu qrupların həmin ölkələrin əhalisi ilə qaynayıb qarışaraq yalnız liqnvistik, toponomik və s. izlər qoymuşlar.

## ƏDƏBİYYAT

1. Ахинжанов С.М. Кыпчаки в истории средневекового Казахстана. Алма-Ата, "Наука" Казахской ССР. 1989. 291 s.
2. Ramin Əlizadə, Elnur Nəciyev. Qarabağın Alban-Qıpçaq tarixinə dair // Akademik Tarih ve Düşünce dergisi, Cilh:7, Sayı:4, Aralık 2020, s.2578-2593. - https://dergipark.org.tr/tr/download/article-file/1528781 [30.04.2023].
3. Бернштам А.Н. Социально-экономический строй орхоно-енисейских порок. Москва. Изд-во АН СССР, 1946, 207 s.

4. Бичурин Н.Я. Собрание сведений о народах обитавших в Средней Азии в древние времена. Москва, Изд-во АН СССР. 1950. 382 s.
5. Бартольд ВВ. Туркестан в эпоху монгольского нашествия. Санкт-Петербург: Тип. Имп. Акад. наук, 1900, 763 с.
6. Andrey N. Kononov. Kıpçak, Kuman, Kumuk kavim adlarının etimolojisi üzerine // Türk Dünyası Dil və Edebiyat Dergisi, Sayı 10, 2000, s.518-526. - https://dergipark.org.tr/en/download/article-file/136143 [30.04.2023].
7. Кляшторный С.Г. Кыпчаки в рунических памятниках // Türcologica. К восьмидесятилетию академика А.Н. Кононова. Л., 1986, s.153-164.
8. Nasiba Mirzayeva. Kıpçak – Moğol etnik bağlantısı hakkında // Journal of "History of Science", Cild 2, Say 1, Sıra 3, 2021, s.9-8. - https://www.elibrary.az/docs/jurnal/jrn2021_39.pdf [30.04.2023].
9. Asım Korkmaz. Kuman – Kıpçaklar: Orta Çağ Doğu Avrupası'nın Güçlü Cengaverleri. - Paperback, Ötüken Neşriyat, Januaru 1, 2019, 204 p. - https://www.otuken.com.tr/u/otuken/docs/k/u/kuman-kipcaklar-1581944826.pdf [30.04.2023].
10. Мурад Аджы. Европа, Тюрки. Великая Степь. Москва, «Издательство АСТ», 2008. 476 с.
11. Сыма Цянь. Исторические записки («Ши цзи»). Перевод с китайского и комментарии Р.В. Вяткина и В.С.Таскина. Москва, «Наука», 1972, 438 с.
12. Рашидаддин Ф. Огузнаме (Перевод Р.М. Шукюровой). Баку, Елм, 1987, 128 s.
13. Алиев И.Г. История Мидии. Баку. наук АзССР. Ин-т истории. 1960, 361 с.
14. Геродот. История. Москва, «Наука», 1971, 600 с.
15. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Prof. S.S. Əliyarlının redaktəsi ilə. Bakı, Azərbaycan nəşriyyatı, 1996, 872 s.
16. Eliyarov S.S. Kitab-i Dedem Gorgud: tarihi-filoloji araşdırma tecrübesi. Türk Dili Araşdırmaları Yıllığı. Ankara, Türk Tarih Kurumu Basımevi, 1994, 22 s.

**NURLANA MAMMADOVA**
*Baku State University*
*4th year student of the Faculty of History*

# TURKISH TRIBAL ASSOCIATIONS LIVING IN EASTERN EUROPE. KIPCHAKS

One of the most urgent problems in the history of the Turkic peoples was the Turkic tribes living in Eastern Europe. One of them was the Kipchaks. The article highlights the history of the Kipchaks, who became the ruling ethnic group in South-Eastern Europe. The Kipchak community has been studied as an ethnos by researchers from different countries. However, the presence of confused concepts about the issue of origin suggests that they were first an ethnos of Indo-European origin, and then became Turkic. In the article, the ethnic origin of Kipchaks, their degree of participation in the process of ethnogenesis of various peoples and, in particular, the formation of Azerbaijani Turks as an ethnos, are mentioned. In history, they are known by three names - Polovtsy, Kipchaks and Komans. For the first time, the term "Dasht-i Qipchaq" was used by the Persian author Nasir Khosrov in the 11th century.

*Keywords:* Polovests, Dashti-Kipchak, records of Sima Syan, Nine Oghuzs, Principality of Khachin, Gargars.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 94(479.24)**

**SAMİRƏ RZAYEVA**
*Azərbaycan Universiteti*
*"Azərbaycanın qədim və orta əsrlər tarixi"*
*ixtisaslaşması üzrə II kurs magistrantı*
**themademoisel@mail.ru**

# "KİTABİ-DƏDƏ QORQUD" DASTANININ GÜNBƏT NÜSXƏSİNDƏ MÖVCUD OLAN MİFOLOJİ ÜNSÜRLƏR

*Elmi rəhbər*:
tarix elmləri doktoru Kərim Şükürov

*Məqalədə, yazılı mədəniyyətin digər türk boyları ilə müqayisədə nisbətən gec formalaşdığı Oğuz türklərinin ən mühüm yazılı mənbələrindən olan "Kitabi-Dədə Qorqud" eposundan bəhs edilir. Bildirilir ki, bir nüsxəsi Drezdendə, digər nüsxəsi Vatikanda saxlanılan eposun 2018-ci ildə üçüncüsü – Günbət nüsxəsi - Vəli Məhəmməd Xoca tərəfindən tapılmış və elm dünyasına tanıdılmışdır. Günbət nüsxəsinin digər nüsxələrdən fərqli və oxşar cəhətləri haqqında məlumat verilir.*

*Açar sözlər*: "Kitabi-Dədə Qorqud", Günbət nüsxəsi, Mif, Mifologiya.

***Giriş***. Türklər ümumi olaraq – Qarluqlar, Qıpçaqlar və Oğuzlar kimi üç böyük qrupa bölünürlər. Digər türk boylarına nisbətən daha gec bir müddətdə oturaq həyata keçmiş Oğuz türklərində yazılı mədəniyyət də gec formalaşmışdır. Oğuz türklərinin ən mühüm yazılı qaynağı isə "Kitabi-Dədə Qorqud" eposu hesab edilir. Bir nüsxəsi Drezdendə, digər nüsxəsi Vatikanda olan eposun üçüncü nüsxəsi olan - Günbət nüsxəsi isə Vəli Məhəmməd Xoca tərəfindən 2018-ci ildə tapılmış və elm dünyasına tanıdılmışdır. Günbət nüsxəsi 2018-ci ilin dekabrında Vəli Məhəmməd Xoca tərəfindən Tehrandakı Hünər kitab evindən alınmışdır. Nüsxəni Vəli Məhəmmədə satmış satıcı özünün Qacarlar sülaləsinin soyundan gəldiyini və yazılı mənbənin Ağa Məhəmməd xan Qacarın kitabxanasından götürüldüyünü qeyd etmişdir. Həmin nüsxənin ilk səhifəsi yoxdur, belə ki, həmin nüsxənin (əsərin)

adı müəyyənləşdirilə bilinməyib. 60 səhifədən ibarət olan bu nüsxə digər nüsxələrə nisbətən daha qısadır.

"Kitabi-Dədə Qorqud" eposu İslam dininə keçid ərəfəsində yazıldığına görə, İslam dininə aid ünsürlərlə yanaşı, dastanda qədim türk mifologiyasına aid ünsürlər də öz yerini almaqdadır [2, 346-347].

Mifologiya ilə bağlı ünsürlərə hekayələr, dastanlar, əfsanələr, atalar sözləri, arxeoloji materiallar, səyahətnamələr və b. şifahi və yazılı qaynaqlarda rast gəlmək mümkündür. Günbət nüsxəsində də Drezden və Vatikan nüsxələrində olduğu kimi mifoloji xüsusiyyətlərə rast gəlmək mümkündür [8].

Tarixi inkişaf prosesinə nəzər yetirildiyi zaman mifologiyanın insanların həyatında xüsusi və əhəmiyyətli bir rola malik olduğunu qeyd etmək mümkündür. Müasir günümüzdə hələ də varlığını qoruyub saxlamaqda olan bir çox inanc və ritualların kökü mif və mifologiya ilə əlaqəlidir [4; 9-10].

Aşağıda qeyd olunan ünsürlər "Kitabi-Dədə Qorqud" eposunun Günbət nüsxəsində rast gəlinən bəzi mifoloji xüsusiyyətlər sırasına daxildirlər və xüsusilə maraq doğurmaqdadırlar:

1. *Qartal* – Türklərin milli simvollarından biri olan qartal Şamanizm ilə əlaqəli olaraq çox geniş şəkildə istifadə olunmuşdur. Bir Yakut əfsanəsində şamanın qartaldan törəməsi bildirilməkdədir. Göytürk və Uyğur dövlətlərində də qartal və digər yırtıcı quşlar hökmdarın, ya da bəylərin timsalını, qoruyucu ruhunu və ədalətinin simvolunu ifadə etmişdir. Türk mifologiyasına görə, həyat ağacının təpəsində daima iki başlı qartal, ya da iki ayrı qartal təsəvvür edilir və həmin qartalın göyün beşinci qatında yaşadığına inanılır. Günbət nüsxəsində də qara bürküt və qara quş olaraq xatırlanan qartal dövlətin başına gələcək kağanın (xaqanın) və əsgərlərin ona oxşaması üçün dilənilir [5; 46-47].

2. *Qurd* – Bozqurd mifi, köçəri türklərin kosmik doğum ilə əlaqəli ən önəmli mifidir. Bozqurd mifi, həmçinin, türklərin törəyiş miflərinin əsasında dayanmaqdadır. Anadolu türkmənləri qurdun insan soyundan olduğuna inanırlar. Günbət nüsxəsində də qurdun lider xüsusiyyəti diqqəti cəlb etməkdədir. Metaforik mənada Türkləri ifadə

edən qurdun ululaşdırılaraq Türklərin milli simvolu xüsusiyyətinə sahib olması dastanda xüsusi bir şəkildə də vurğulanmaqdadır [6].

3. *Əjdaha* – Türk dastanları, əfsanələri, hekayələrində və rəvayətlərində çox tez-tez rast gəlinən əjdaha əfsanəvi bir varlıq olmaqla fərqli türk cəmiyyətlərində fərqli şəkillərdə təsvir edilmişdir. Əgər Uzaq Şərq mifologiyasında əjdaha bərəkətin, bolluğun və xeyirin simvolu olaraq xatırlanılırsa, Şərqdən Qərbə doğru istiqamətlənildiyində əjdaha mifi pis bir fəlakətin xəbərçisi olaraq təsəvvür edilməkdədir. Türklərin erkən çağlarında yaxşı niyyətləri ifadə edən simvol kimi rast gəlinən əjdaha mifinin Ön Asiya mədəniyyəti ilə tanış olduqdan sonra türklərdə pisliyin simvolu rolunu oynadığını görürük. Günbət nüsxəsində də bu vəziyyət XIII boyda Salur Qazanın yeddi başlı bir əjdaha ilə mübarizəsi və onu məğlub etməsi ilə ifadə olunmuşdur. Kainat anlayışı, əjdahanın böyük bir ilan olaraq görülməsi və yeddi başlı əjdahalar Anadolu hekayələrində və Dədə Qorqud nüsxələrində olduğu kimi Günbət nüsxəsində də öz əksini tapmışdır [1, 28].

4. *Ağac və Meşə kultu* – "Həyat Ağacı" və ya Kosmik Ağac ifadələri türk mifologiyasında ən əhəmiyyətli simvollardan biridir. Türk düşüncəsinə görə, şamanlar ağac vasitəsilə göyün ən yüksək qatlarına çıxa bilirlər. Digər bir türk düşüncəsinə görə isə ilk insan yaradıldığı zaman doqquz budaqlı bir ağacın altında yaradılmışdır, yəni Tanrının insanla ilk əlaqədə olduğu yer doqquz budaqlı bir ağacın altıdır. Bu kulta Günbət nüsxəsində də geniş bir şəkildə yer verilmişdir və həmin nüsxədə meşələr mifoloji zamanlardakı düşüncə tərzinə uyğun olaraq yeraltı dünyası ilə orta dünya arasındakı keçid məkanı olaraq bildirilməkdədir [3, 52-54].

5. *Dağ kultu* – qədim zamanlarda insanlar təbiətdən qorxduğu üçün onu müqəddəsləşdirmişdirlər və təbiətdəki hər bir şeyin bir ruha sahib olması nəticəsinə gəlmişdirlər. Dağlar da türk boylarının diqqətini cəlb etmiş kult olaraq inanclar arasında öz yerini almışdır. Ayinlərin dağ başlarında yerinə yetirilməsi və əhəmiyyətli şəxslərin dağ başlarında dəfn edilməsi xüsusiyyətləri sübut edir ki, Türklər dağların Tanrının məbədi rolu oynamasına inanmışdırlar. Günbət nüsxəsində

dağlar Türklər üçün rəngli otların yetişdiyi, təmiz suların mövcud olduğu və maldarlıqla məşğul olunan, xüsusilə sosial həyatın mərkəzində önəmli bir yer tutan məkanlar olaraq ifadə edilir. Həmin nüsxədə bildirilir ki, əgər dağda ot bitmirsə artıq o dağın dəyəri və müqəddəsliyi yoxdur və həmin dağın yox olması daha yaxşı bir şey kimi düşünülür [4, 11].

6. *Yer* – Eyni anda yaradılan iki kosmik mövcudiyyətdən (yer və göy) biri olan Yer, böyük və ən yüksək Tanrı olan Göy ilə birlikdə insanlara əmir verə bilər, ancaq yenə də Göydən daha kiçik bir mərtəbədə yer almaqdadır. Yer-Göy əlaqəsindən başqa, Yer-su əlaqəsindən də bəhs edən Türklər susuz torpağın müqəddəs sayılmadığı qənaətindədirlər. Anadoluda Qara yer və Qara torpaq məzar mənasını ifadə edirdi. Düşməni qara yerə salmaq, qara yerə pərçim etmək (mənası "yerə yapışdırmaq", yəni öldürüb məzara qoymaq – S.R) kimi ifadələr də Anadoludakı həmin mənalara yaxın olmaqla Günbət nüsxəsində qeyd olunmaqdadır [5, 48].

7. *Günəş və Ay* – Bəzi əfsanələrə görə ilk insan günəşin isitdiyi gildən yaradılan Ay Atadır. Buna görə də, ayı doğuran, ona işığını yollayan günəşdir. Türk inancları Ay və Günəşi bəzən sevgili, bəzən ər-arvad, bəzən qardaş-bacı olaraq göstərir. Qədim Türklərə görə Ay və Günəş xoşbəxtlik gətirən və onları qoruyan iki müqəddəs varlıqdır. Günbət nüsxəsində Günəşin günü aydınladan və Ayın gecəni aydınladan varlıqlar olaraq qiymətləndirilməsi faktına da rast gəlinməkdədir [7].

8. *Xızır və Ağ saqqallı xocalar* – Xızır – Musəvi, Xristian və Müsəlman adət-ənənələrində ortaq olan mifoloji bir şəxsiyyətdir. Hətta qədim türk inanclarında peyğəmbər olaraq da ifadə edilməkdədir. Həyat suyundan (dirilik suyu) içdiyi üçün ölümsüz olan Xızır Günbət nüsxəsində dar vəziyyətdə qalanların köməyinə çatmasında ifadə olunur. Ağ saqqallı xocalar İslam dininin qəbulundan əvvəlki dövrdə mövcud olmuş və öz xüsusiyyətləri ilə Xızırdan fərqlənməmişdirlər. Sonradan adı dəyişdirilərək Xızır formasına düşmüş Ağ saqqallı xocalar da eyni mifoloji xüsusiyyətlərə uyğun olaraq Günbət nüsxəsində öz yerini tutmaqdadır [4, 13-15].

***Nəticə.*** Beləliklə, göründüyü kimi, "Kitabi-Dədə Qorqud" eposunun digər nüsxələrində olduğu kimi Günbət nüsxəsində də türk dini inancları öz əksini mifoloji ünsürlər formasında tapmışdır. Qeyd olunmalıdır ki, bu mifoloji ünsür və xüsusiyyətlər şamanizmin təsirində formalaşmış inanc sistemi formasında sezilməkdədir.

Millətlərin dünyagörüşündə hələ də varlığını saxlayan mifoloji xüsusiyyətlər milli kimliyin inkişafında böyük bir əhəmiyyətə sahibdirlər. Oğuz Türklərinin milli kimlik məsələsində "Kitabi-Dədə Qorqud" eposunun Vatikan və Drezden nüsxələri kimi, Günbət nüsxəsi də daha geniş formada tədqiq edilməli olan bir mənbə olaraq tərəfimizdən qiymətləndirilir.

## ƏDƏBİYYAT

1. Abdulla B. "Kitabi-Dədə Qorqud" və islam dini. Bakı, Ozan, 1997, 40 s.
2. Azərbaycan tarixi. S. Əliyarlının redaktorluğu ilə. Bakı, Azərbaycan nəşriyyatı, 1996, 872 s.
3. Bilgin Sinem. Dede Korkut nüshalarının karşılaştırılması ve felsefi çerçevede değerlendirilmesi. Yüksek Lisans Tezi. Kastamonu Üniversitesi, SBE, Felsefe Anabilim Dalı. Kastamonu, 2022, 138 s.
4. Günay Nihal. Kitab-i Dede Korkutun Günbet nüshasında yer alan mitolojik unsurlar. Bilim Armonisi, cilt 4, sayı 1, 2021, s.8-19.
5. Muharrem Ergin. Dede Korkut kitabı. Ankara, 1958, 76 s.
6. Abdurrahman Deveci. Türkmen Kültüründe Dede Korkut // Meriç Uluslararası Sosyal ve Stratejik Araştırmalar Dergisi, Yıl: 2019, Cilt: 3, Sayı: 8, s.211-230. - https://dergipark.org.tr/tr/pub/meric/issue/51352/640323 [30.04.2023].
7. Tofiq Hacıyev. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı, Yeni Nəşrlər Evi, "Elm" nəşriyyatı, 1999, 212 s. - http://ek.anl.az/lib/item?id=chamo:704503&theme=e-kataloq [30.04.2023].

8. Evrim Aksoy. Dede Korkut Kitabı'ndaki tipler üzerine bir inceleme. YLT. Ege Üniversitesi SBE. İzmir, 2012, 171 s. - https://tez.yok.gov.tr/UlusalTezMerkezi/tezDetay.jsp?id=o11Zm6ukO0T2g1IMQnR9Tw&no=DQn9s16uB8fEi5U3Ul92qw [30.04.2023].

**SAMIRA RZAYEVA**
*Second year master's student of Azerbaijan University majoring in "Ancient and Medieval History of Azerbaijan"*

## MYTHOLOGICAL ELEMENTS PRESENT IN THE GUNBAT VERSION OF THE EPIC "KITABI-DADE GORGUD"

Turks are generally divided into three major groups - Qarlugs, Kipchaks and Oghuzs. Compared to other Turkic tribes, the written culture of the Oghuz Turks, who had a sedentary lifestyle, was formed later. The most important written source of the Oghuz Turks is the "Kitabi-Dada Gorgud" epic. One copy is in Dresden and the other is in the Vatican, the third copy of the epic - the Gunbat copy was found by Vali Muhammad Khoja in 2018 and introduced to the world of science. A copy of Gunbat was purchased by Vali Mohammad Khoja from Hunar Bookstore in Tehran in December 2018. The seller who sold the copy to Wali Muhammad stated that he was descended from the Qajar dynasty and that the written source was taken from the library of Agha Muhammad Khan Qajar. The first page of that copy is missing, so the name of that copy (work) could not be determined. At 60 pages, this copy is shorter than the other copies.

*Keywords*: The book of Dede Korkut, Gonbat manuscript, Myth, Mythology.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 94(479.24); UOT 94**

**SƏRİYYƏ SADİQOVA**
*Azərbaycan Universitetinin*
*Azərbaycanın yeni və ən yeni tarixi ixtisası üzrə II kurs magistrantı*
**Sariyya.Sadigova@student.au.edu.az**

# XIX ƏSRDƏ AZƏRBAYCANDA RUSİYANIN TƏCAVÜZKAR SİYASƏTİNƏ QARŞI OSMANLI İMPERİYASININ MÜBARİZƏSİ

*Elmi rəhbər:*
tarix elmləri doktoru Anar İsgəndərov

*Təqdim edilən məqalədə XIX əsrin ilk yarısında çar Rusiyasının Azərbaycan torpaqlarına basqınları, Azərbaycan xanlıqlarını özünə tabe etməyə çalışması və Osmanlı imperiyasının Azərbaycan torpaqlarını çar Rusiyasının təcavüzkar siyasətindən qorumağa çalışması bəhs olunmuşdur. Osmanlı imperiyası Cənubi Qafqazda Rusiyanın möhkəmlənməsinə mane olmağa çalışırdı. Osmanlı imperiyası çar Rusiyasının Azərbaycanda möhkəmlənməsinə mane olaraq həm də Rusiyanın Avropadakı gücünü sarsıtmaq istəyirdi.*

*Açar sözlər:* Osmanlının siyasəti, Rusiyanın maraqları, XIX əsr beynəlxalq əlaqələr.

***Giriş.*** İran Qacarlar dövləti və çar Rusiyası arasında imzalanan Gülüstan müqaviləsi ilkin dövrdə Azərbaycanın əzəli torpaqlarını iki hissəyə bölməklə yanaşı, Azərbaycan xalqını da bölmüşdür. Bu dövrdən etibarən Azərbaycan xalqı İran azərbaycanlıları və ya Güney azərbaycanlıları olaraq adlanmağa başlamışdır. 1804-1813-cü illər Rusiya və Qacarlar dövləti arasında müharibə Gülüstan müqaviləsi ilə yekunlaşdıqdan sonra İran Qacarlar dövləti daxilində dövlətə qarşı bir sıra xalq çıxışları baş verdi. Bu xalq çıxışlarının əsas səbəblərindən biri də Qacar dövlətinin çar Rusiyası ilə müharibədə məğlub olub, əhalinin var yoxdan çıxması idi. Qacarlara qarşı üsyan başladan başçılar Cənubi Azərbaycana məxsus tayfa başçıları idi. Bu tayfa başçıları Qacar dövlətinin üsyanı yatırtması ilə Osmanlı imperiyası ərazisinə qaçmış

və Osmanlı sultanı da həmin üsyançılara sığınma hüququ vermişdi. Həmin dövrdə Ərzurum paşası Qacar dövlətindən qaçan xüsusi bir qəbiləyə sığınacaq vermiş və qacar şahının geri qaytarılması tələbinə baxmayaraq qaçqınlara köməklik etmişdi. Qacarlar Rusiya ilə müharibədə itirmiş olduğu əraziləri Osmanlı imperiyasının əraziləri hesabına doldurmaq istəyir və buna görədə Osmanlıya ərazi iddiaları edirdi. Qacar dəstələri Osmanlı imperiyası ilə sərhədlərə hücum edir, sərhəd pozuntularının yaranmasına zəmin yaradırdı. İngiltərə və Fransa hökuməti 1804-1813-cü illərdə baş verən rus-qacar və 1806-1812-ci illər rus-osmanlı müharibəsi zamanı Osmanlı və Qacarlar dövlətinin çar Rusiyasına qarşı birlikdə ittifaq yaratmasına xüsusi səy göstərmişdi. İngiltərə hökuməti 1810-cu ildə Osmanlı imperiyası və Qacar dövlətinin çar Rusiyasına qarşı ittifaqına nail olsada, bu ittifaq uzun müddətli olmadı. Əksinə olaraqdan Osmanlı imperiyası və Qacar dövləti arasında sərhəd məsələləri sonrakı illərdə dahada pisləşdi. Məkkə, Kərbəla və Nəcəf kimi müqəddəs ibadətgahlara gedən zəvvarların şikayətləri artmışdı. Münasibətlərin daha da pisləşməsinə səbəb olan hadisə isə Fətəli şahın Məkkəyə ibadət üçün gedən hərəmlərindən birinin xüsusi karvanında Osmanlı dəstələri tərəfindən axtarışların aparılması idi. 1814-cü ildə Qacarlar İngiltərə hökümməti ilə müqavilə imzaladıqdan sonra, hərbi qüvvələrini yenidən yığmışdı və yeni hərbi qüvvələri yoxlamaq üçün müəyyən vaxt gözləyirdi. Osmanlı imperiyasının daxilində vəziyyət pisləşmiş, yunan tayfalarının başlatdığı üsyanlar və eyni zamanda Valaxiyada baş verən üsyanlar İran Qacarlar dövləti üçün əlverişli şəraitin yaranmasına yardıçmı olmuşdu [2, s.28].

Qafqazda Rusiyanın apardığı işğallara qarşı azadlıq müharibəsi gedirdi və Osmanlı imperiyası ilə çar Rusiyası arasında gərginlik hələ də qalırdı. Şimali Qafqaz xalqlarının başçıları özlərinin Osmanlı imperiyasına bağlı olduqlarını elan etmələri və Osmanlı imperiyasından yardım tələb etmələri Rusiyanın nifrətinə səbəb oldu. 1817-ci ildə Osmanlı dövləti çar Rusiyasının təziqlərinə tab gətirməyərəkdən, Dağıstanın Rusiyanın hakimiyyətində olmasını təsdiqlədi. Çeçen xalqlarına isə artıq ruslarla sülh şəraitində yaşamalarını tənbeh etdi [1, s.36].

1820-ci ildə isə artıq Qacar ordusu Osmanlıya qarşı hücuma başladı və Muşa qədər gəlib çıxdı. Lakin, Muşun müdafiəsinə qalxan Səlim Paşa Qacar ordusuna əks hücum gösdərərək, onları dəf etdi. Qacarların bu basqınları ilə barışmayan Osmanlı imperiyası Qacarlardan yağmaladıqları malları geri istədi. Buna baxmayaq, heç bir razılıq əldə edilmədi. Osmanlı imperiyası və Qacarlar arasında müharibənin başlamasının qarşısını almaq üçün görülən bütün tədbirlər uğursuz oldu. Osmanlı imperiyası və Qacarların Ərzurumda baş tutan danışıqlarından heç bir müsbət nəticə əldə edilmədi. Buna görədə Fətəli şah Osmanlı imperiyası ilə bütün beynəlxalq əlaqələrin kəsilməsini tələb etdi. Bütün bunların nəticəsində 1821-ci ildə Osmanlı sultanı II Mahmud (1808-1839) İran Qacarlar dövlətinə qarşı müharibə elan etdi. Beləliklə, Osmanlı imperiyası və Qacarlar arasında 1821-1823- cü illəri əhatə edən müharibə başladı.

Qacar qoşunları isə Bağdad və Şəhrizor bölgələri istiqamətində hücuma keçdilər. Bu zaman Osmanlı imperiyasına qarşı olan Şərqi Anadoluda yaşayan xalqlar olan Boğdan və Mora xristianları Osmanlı imperiyasına qarşı üsyana başladı. Osmanlı imperiyasına qarşı başlayan bu üsyan Qacar dövlətinin xeyrinə oldu. Müharibənin ilk dövrlərində Qacarlar üstünlüyü ələ aldı. Osmanlı dövlətinin Cənubi Azərbaycanla bitişik əraziləri o cümlədən, Sultaniyyə Qacar hərbi birləşmələri tərəfindən işğal edildi. 1822-ci ildə isə bir-birinin ardınca Kərkük mahalı, Mosul və başqa şəhərlərdə Qacarlar tərəfindən işğal uğradı. Şahzadə Abbas Mirzənin başçılıq etdiyi Qacar qoşunları iki istiqamətdə hücuma keçdi. Qacar qoşunları Ərzurum və Diyarbəkirə doğru yürüşə keçdi. Osmanlı imperiyası 1822-ci ildə xristian tayfaların qaldırdığı üsyanı yatırdıqdan sonra müharibədə üstünlüyü ələ aldı. Bu üsyanlar nəticəsində Yunanistan müstəqillik əldə etdi. Osmanlı imperiyası və Qacar dövlətinin bir-birləri ilə müharibə aparması İngiltərə dövlətinin xarici siyasətinə uyğun gəlmirdi. Osmanlı və Qacar dövləti bir-birləri ilə vuruşub zəifləyib, çar Rusiyasına qarşı güclərini itirirdi. Qacar ordusunun çox hissəsi vəba xəstəliyinə yoluxdu. Ordunun ağır təlafat verməsi nəticəsində Qacar şahı Fətəli şah Osmanlı sultanı II Mahmuddan sülh tələb etdi [4, s.71].

Qacar şahının sülh tələb etməsi ilə ağır vəziyyətdə olan Osmanlı çıxış yolu əldə etdi və sülh təklifinə razılıq verdi. 1823-cü ildə Ərzurumda Qacarlar ilə Osmanlı arasında sülh müqaviləsi imzalandı. Müqaviləni Qacar şahı Fətəli şah və vəliəhdi Abbas Mirzə adından Mirzə Məhəmməd Əli və Osmanlı sultanı II Mahmud adından isə Ərzurum qubernatoru və Osmanlının şərq vilayətlərinin valisi olan Rauf paşa imzaladı. Ərzurum sülhünə görə hər iki dövlət arası sərhədlər müharibədən əvvəlki vəziyyətinə qayıtmalı idi. Qacarlar işğal etdiyi Osmanlı torpaqlarını müqavilə təsdiqləndikdən sonra iki ay içərisində geri qaytarmalı və hərbi qoşunlarını Osmanlı ərazisindən çıxarmalı idi. Bununla yanaşı, Osmanlı Qacar dövlətindən gələn hər bir vətəndaşa Osmanlı dövləti daxilində olan İslam dininin müqəddəs ziyarətgahlarına, Məkkə, Mədinə və Nəcəfə sərbəst giriş etmək haqqı verdi. Osmanlı ilə Qacarlar arasında müqavilə imzalandıqdan sonra İngiltərə dövləti Cənubi Qafqazda hər iki dövlətə Rusiyaya qarşı geniş casusluq və təxribat işləri qurmaqda köməklik etdi.

Osmanlı imperiyası və Qacar dövləti arasında olan müharibə, hər iki dövlətin Qafqaz cəbhəsində bir-birinə qarşı rəqabət aparması, din məsələsinə görə düşmənçiliyin yayılması çar Rusiyasının Qafqazdakı mövqeyinə uyğun gəlirdi. Əslində isə Rusiyanın Qafqazdakı hərbi əməliyyatlarının uğurlu olmasının təməlində Osmanlı və Qacarlar arasında olan düşmənçilik dururdu. Rusiya Osmanlı və Qacarlar arasındakı əlaqələrin pozulmasında əsas rol oynayırdı. Hər yola əl ataraq Rusiya dövləti iki müsəlman dövlət arasında əlaqələrin pozulmasına səy göstərirdi [1, s.81-82].

1826-cı il mart ayının 17-də Rusiya çarı I Nikolay Osmanlı sultanı II Mahmuda ultimatum göndərərək Rusiya ilə münasibətlərin altı həftə içində yaxşılaşdırılmasına və Buxarest sülhünün şərtlərinə tam əməl edilməsini tələb edirdi. Akkermanda baş verən Rusiya və Osmanlı imperiyası arasındakı danışıqlar Rusiya ilə Qacarlar arasında müharibə başlanan vaxta düşdü. Sultan II Mahmud Qacarlarla müharibəyə başı qarışan çar I Nikolayın Osmanlı ilə danışıqlarla güzəştə gedəcəyini düşünsə də, çar I Nikolay yeni bir ultimatum göndərərək danışıqlarda razılıq əldə edilməzsə danışıqların yarımçıq qalacağını

bildirdi. II Mahmud sülh bağlamağa razı oldu və 1826-cı il oktyabr ayının 7-də Akkerman müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə, Buxarest sülhünün şərtləri Rusiyanın xeyrinə dəyişdi. 1826-cı ildə Qacar dövlətinin Rusiyaya qarşı müharibəyə başlaması Osmanlı və Rusiya arasında müharibəni bir müddət təxirə saldı.

1826-1828-ci illərdə ikinci dəfə yenidən qarşı-qarşıya gələn Rusiya və İran Qacarlar dövləti arasındakı müharibə yalnız İngiltərə üçün deyil, Osmanlı dövləti üçündə müəyyən narazıçılıqlar doğurdu. 1804-1813-cü illərdə baş verən birinci Rusiya və İran Qacarlar dövləti arasındakı müharibədə Azərbaycan xanlıqlarına kömək etmiş Osmanlı sonradan 1806-1812-ci illərdə Rusiya ilə müharibəyə qoşulmuş və bu müharibə Buxarest sülh müqaviləsi imzalanaraq başa çatmışdır. Buxarest sülh müqaviləsinin şərtləri Osmanlı dövləti üçün ağır olmuşdur. Çar Rusiyası Qacarlarla müharibəni uzatmadan 1828-ci il fevral ayının 10-da Türkmənçay müqaviləsini imzaladı. Rusiya ilə olan mübarizə 1828-ci ilin aprel ayında müharibənin başlamasına gətirib çıxardı. Çar Rusiyası Osmanlıya qarşı müharibə elan etdi. Rusiya və Osmanlı arasındakı müharibədə Qafqazdakı hərbi əməliyyatlar rus qoşunlarının Qars üzərinə hücum etməsi ilə başladı. Ruslar Qars şəhərini işğal etdilər. Qarsın işğalından sonra rus ordusunun yeni hücum hədəfi Ahalsıx oldu. Ahalsıx üzərinə hücuma başlamazdan öncə isə Ahalkələki və Xertsisi ruslar işğal etdi. Çar Rusiyasının bu uğuru müsəlman xalqının səylərinə gölgə düşürdü. 1828-ci il avqust ayının sonlarına qədər artıq rus ordusu Bəyazid qalası, Torpaqqala və Diadil sədlərini və bununla birlikdə isə Bəyazid padşahlığını tamamilə işğal etmişdilər. Balkanlarda baş verən hərbi əməliyyatlar zamanı isə rus ordusu Balkan dağlarından keçərək Ədirnəyə doğru irəlilədi. Ədirnənidə ələ keçirən çar ordusu İstanbula doğru yaxınlaşdı. Osmanlı sultanı II Mahmud rus hərbi dəstələrinin ölkənin içərilərinə doğru irəliləməsindən ehtiyat edərək Rusiya ilə sülh müqaviləsi imzalamağı təklif etdi. Bu müharibədə Osmanlıya qarşı Qafqaz cəbhəsində rus qoşunlarının tərkibində Azərbaycanlılardan ibarət olan dörd süvari alayıda iştirak edirdi. Azərbaycanlılardan ibarət həmin süvari alayları əsasən, Rusiya çarına can-la-başla qulluq edib əvəzində isə çardan vəzifə və xəzinədən torpaq

sahəsi almağa çalışan bəylərdən, onların şəxsi mülkiyyətində olan nökərlərdən, maaflardan tərtib edilmişdi. 1829-cu il sentiyabr ayının 2-də çar Rusiyası ilə Osmanlı arasında Ədirnə şəhərində sülh müqaviləsi imzalandı. Osmanlı dövləti şimalda Anapadan başlayaraq, cənubda Müqəddəs Nikolay limanına kimi Qara dənizin bütün şərq sahillərini və Ahalsıx padşahlığının ərazisinin müəyyən bir hissəsini çar Rusiyasına güzəştə getdi. Bosfor və Dardanel boğazları isə rus gəmiləri ilə yanaşı Qərbi Avropa ticarət gəmiləri üçün açıq saxlanılmalı idi. Moldoviya və Valaxiyada çar ordusu tərəfindən müəyyən bir müddətliyinə işğal edildi. Müqaviləyə görə, Osmanlı imperiyası çar Rusiyasının Cənubi Qafqazı işğal etməsini tanıdı. Beləliklə, Azərbaycan çar Rusiyasının əsas xammal mənbəyi və sənaye bazasına, rus tacirlərinin əsas satış bazarına çevrilmiş oldu. Azərbaycanda iqtisadiyyat isə müstəmləkə xarakteri daşımağa başladı. Bu isə o demək oldu ki, bu ərazilərdə yalnız Rusiya sənayesi üçün xammal istehsal edilə bilərdi. Nəhayət, ən başlıcası o oldu ki, Şimali Azərbaycan çar Rusiyasının əsas müstəmləkələrindən birinə çevrilmiş oldu.

Ədirnə sülhü Rusiyanın Şimali Azərbaycanı, bütün Cənubi Qafqazı və bir sıra Osmanlı torpaqlarını işğal etməsini sübut edirdi. Ədirnə sülhündən sonra çar Rusiyasının orta Şərqdə və Balkanlarda mövqeləri daha da möhkəmləndi. Qara dəniz sahillərində ticarətin daha da inkişafı üçün şərait yarandı [3, s.49].

Beləliklə, Azərbaycanın şimal ərazilərinin Rusiya tərəfindən işğal edilməsi ilə Azərbaycan xalqı öz müstəqilliyini itirmiş oldu. Azərbaycan xalqının tarixində iki dövlət arası müharibə nəticəsində ərazisi zorla bölünməsi hadisəsi baş verdi. Bu tarixi ədalətsiz müqavilə nəticəsində vahid xalq zorla bölündü, xalqın zorla bölünməsi nəticəsində hər iki tərəf bir-birindən fərqli sosial-iqtisadi, siyasi və mədəni inkişaf yolu keçirməli oldular.

***Nəticə.*** 1804-1813-cü illər, eləcə də 1826-1828-ci illərdə baş verən Rusiya və Qacar dövləti arasındakı müharibələr yekunlaşdıqda sülhün şərtlərinə görə erməni əhalinin yalnız Azərbaycan ərazisinə deyil, eyni zamanda Osmanlının da bir sıra ərazilərinə köçürülməsi gələcəkdə yalnız Azərbaycan xalqı üçün deyil, Osmanlı dövləti üçün də

böyük təhlükələr doğurdu. Ermənilər gələcək illərdə yalnız Azərbaycan ərazisində deyil, Türkiyə ərazisində də soyqırımlar törədilməsinə səbəb oldular.

## ƏDƏBİYYAT

1. Besim Özcan. 1828-1829 Osmanlı - Rus Harbi'nde Erzurum Eyaleti'nden Rusya'ya Göçürülen Ermenilerin Geri Dönüşlerini Sağlama Faaliyetleri // Atartürk Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Dergisi, Yıl: 2011, Sayı: 46, s.195-204.
2. MahmudovYaqub, Şükürov Kərim. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi: dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. I cild: (1639-1828). Bakı, AMEA Tİ, 2009, 512 s.
3. Mustafazadə Tofiq. XVIII-XIX əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri: tarixi oçerklər. Bakı, Avropa nəşriyyatı, 2021, s.
4. Tüfekçi Coşkun. Osmanlı-İran İlişkileri (1795-1896) Casusluk Faaliyetleri Çerçevesinde. Kırıkkale Üniversitesi Sosyal Bilimler Enstitüsü Tarih ABD. Yayınlanmamış YLT. Kırıkkale, 2012, 71 s.

**SARİYYA SADIGOVA**
*A second-year master's student of Azerbaijan University*
*Majoring in the new and newest history of Azerbaijan*

## IN ADDITION TO THE STRUGGLE OF THE OTTOMAN EMPIRE AGAINST THE AGGRESSIVE POLICY OF RUSSIA IN AZERBAIJAN IN THE XIX CENTURY

The article also tells about the raids of tsarist Russia on the lands of Azerbaijan in the first half of the XIX century, attempts to subjugate the Azerbaijani khanates, and the attempts of the Ottoman Empire to protect the lands of Azerbaijan from the aggressive policy of Russia.

The Ottoman Empire, hindering the strengthening of Russia in the South Caucasus, also wanted to undermine Russia's power in Europe.

*Keywords:* policy of the Ottoman Empire, interests of Russia, international relations of the XIX century.

*Daxil olma tarixi*: 30.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 94**

**ŞƏHLA MƏHYƏDDİNLİ**
*Bakı Dövlət Universiteti*
*Tarix fakültəsinin IV kurs tələbəsi*
**mahyaddinlishahla@gmail.com**

# TÜRKİYƏ: İMPERİYADAN CÜMHURİYYƏTƏ APARAN YOL

*Elmi rəhbərlər:*
tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən,
Elmar Axundov

*Bir dövlətin yaranması dövlət, xalq və suverenlik prinsiplərinin eyni anda, bir arada olması ilə şərtləndirilir. Türkiyə Cümhuriyyəti Osmanlı imperiyası ilə müqayisədə yeni dövlət forması olsa da, yoxdan var olmayıb. Osmanlı imperiyasının xələfi hesab edilən Türkiyə Cümhuriyyətinin yaranmasında, dövlətin qurucuları imperiyanın sosial və iqtisadi irsi və qalıqları üzərində yeni və modern bir dövlət inşa etmək qayəsi ilə siyasi rejim, mədəniyyət və s. müxtəlif sahələrdə geniş miqyaslı və köklü dəyişikliklər etmişlər. "Radikal" olaraq dəyərləndirilən bu dəyişikliklərin, Osmanlı imperiyasının son dövrlərində başlayan yeniləşmə və modernləşmə səylərinin cümhuriyyət yarandıqdan sonra daha da artmış olduğunun şahidi oluruq. Bu səbəbdən irsin xüsusiyyətlərinin aşkara çıxarılması təkcə cümhuriyyət dövründə baş verən prosesləri dərk etmək baxımından deyil, həm də bu gün qarşıya çıxan bir çox problemlərin həlli baxımından faydalıdır. Müasir dövlətin qurulması üçün ictimai quruluşun dəyişməsi zərurətə çevrilmişdi. Milli Mübarizə dövründə "Cümhuriyyət" ideya və ideal kimi yaşamış, Cümhuriyyətə üz tutmaq əsas məqsəd olmuşdur. Türkiyə Böyük Millət Məclisi 1920-ci il aprelin 23-də toplansa da, Cümhuriyyətin elanı Milli Qurtuluş savaşından sonraya qalmışdır. 1923-cü il oktyabrın 29-da elan edilən Türkiyə Cümhuriyyəti, tədricən məzmunca demokratik keyfiyyət qazanmışdır. **Türkiyə Cümhuriyyətinin** yaranmasının **100 illiyinə həsr olunmuş bu məqalədə** XIX əsrin sonlarından etibarən Osmanlı imperiyasında cərəyan edən proseslər, onun Birinci Dünya müharibəsində iştirakı, Milli Qurtuluş Savaşı və nəhayətində Türk dünyasının öndərlərindən olan Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Türkiyə*

*Cümhuriyyətinin yaranması mərhələsi və qəbul edilən ilkin qərarlar qısa və aydın şəkildə əks etdirilmişdir.*

*Açar sözlər:* Osmanlı imperiyası, Türkiyə Cümhuriyyəti, Mustafa Kamal Atatürk, Milli Qurtuluş Savaşı, islahatlar layihəsi.

***Giriş.*** Osmanlı İmperiyası Anadolu, Balkanlar, Şimali Afrika və Yaxın Şərqi əhatə edən; əhali sayına görə yunan, erməni, yəhudi, alban, bolqar, macar, xorvat, ərəb və s. kimi müxtəlif irqlərə, dinlərə və dillərə mənsub xalqların bir yerdə yaşadığı bir dövlət idi. XIX əsrin sonlarından etibarən böyük dövlətlərin iqtisadi və siyasi təzyiqi altında olan Osmanlı İmperiyası üçün tam müstəqillik prinsipi həllini tələb edən mühüm problem idi. XX əsrin əvvəllərində Osmanlı İmperiyası parçalanma prosesinə daxil olması ilə bu xalqlar bir-bir imperiyadan ayrıldılar. 1830-cu ildə müstəqil Yunanıstanın qurulması ilə başlayan bu proses ilk olaraq Balkan xalqlarının, daha sonra Şimali Afrika və Yaxın Şərqdəki müsəlman xalqlarının parçalanması ilə nəticələnmiş, Birinci Dünya Müharibəsi başa çatdıqda, Türkiyə Cümhuriyyəti də daxil olmaqla 16 müstəqil dövlət yaranmışdı. Bu parçalanma prosesi imperiyanın qurucuları olan türklərin sahib olduqları torpaqları xilas etmək uğrunda mübarizə aparmaları ilə müşaiyət olunurdu: Trablus (1911-1912) və Balkan müharibələri (1912-1913), Birinci Dünya müharibəsi (1914-1918) və, nəhayət, Milli Qurtuluş Savaşı (1919-1923) bu mübarizənin mərhələləri idi və məlum olduğu kimi, yalnız sonuncunun nəticəsində uğur əldə edildi. Bu hərəkatın yaranmasının səbəblərindən birini XX əsrin əvvəllərində müəyyən formaları meydana çıxan dünyada yeni status-kvonun qurulması prosesi təşkil edir. Bu status-kvonun nəticəsi olaraq İngiltərə, Rusiya, Fransa və İtaliya, hətta Osmanlı İmperiyasının müttəfiqi kimi çıxış edən Almaniya da Osmanlı İmperiyasının torpaqları üzərində qazanc əldə etməyi və bacardıqları təqdirdə torpaqlarını işğal etməyi planlaşdırırdılar. Bu prosesdə Trablus və Yaxın Şərq torpaqlarının itirilməsi Osmanlı İmperiyasının tamamilə dağılmasına zəmin hazırlamışdı. Sülh dövründə azlıqların və qaliblərin təzyiqləri nəticəsində tam müstəqillik ideyası gündəmə gəl-

di. Tam müstəqillik siyasət, maliyyə, iqtisadiyyat, hüquq, hərbi və mədəniyyətin bütün sahələrində tam müstəqillik və tam azadlıq demək idi. Bunların hər hansı birində istiqlaldan məhrum etmək millətin və ölkənin müstəqilliyindən hərfi mənada məhrum olmaq demək idi.

***Osmanlı imperiyasını dirçəltmək yolunda atılan addımlar.*** XIX əsrdə Osmanlı İmperatorluğu öz vəziyyətini yaxşılaşdırmaq və Avropadakı dəyişiklik prosesinə ayaq uydurmaq üçün müxtəlif islahatlar həyata keçirmişdir. Yeni türk dövlətinin yaranması islahat hərəkatları ilə başladı. Bu yenilik hərəkatında həm xarici ekspertlər, həm də Gənc türklər avropalı olmaq və Osmanlı ictimaiyyətini Avropadakı düşüncə cərəyanları haqqında məlumatlandırmaq üçün mühüm işlər görmüşlər. İlk islahatlar daha yaxşı ordular hazırlamaq və təchiz etmək üçün çalışan sultanların işi idi. Azadlıq, vətənpərvərlik və hətta inqilabi ideyalar Avropanı tanımağa gedən türk mülki və hərbi tələbələrinə, diplomatlarına və hərbi attaşelərinə sirayət etmişdi. Bu düşüncələr Türkiyədə müvafiq olaraq 1876 və 1908-ci il məşrutə hərəkatlarına səbəb oldu. Təxminən 10 il davam edən İttihad və Tərəqqi firqəsi idarəsi altında inkişaf edən II Konstitusiya dövrü ölkənin inzibati, sosial və iqtisadi problemlərinin müasir yanaşma ilə həll yollarının axtarılması prosesi kimi davam etdi. Milli Suverenlik anlayışı, müstəqil iqtisadiyyat və müstəqil ölkə idarəsi qura bilmək İttihad və Tərəqqi idarəçilərinin arzuları idi. Ancaq Trablus müharibəsi, Balkan müharibələri və ən əsası dünyanı yenidən formalaşdıracaq Birinci dünya müharibəsi İttihadçı idarəçilərin həsrətini çəkdiyi ölkə quruculuğu ideyasını nəticəsiz qoydu. Bütün bu mənfiliklərə baxmayaraq, bu dövrdəki inkişaf və düşüncə cərəyanları yeni bir yanaşma ortaya qoydu: *milli iqtisadiyyat və milli dövlət*. Döyüşlərin yaratdığı məyusluqlar Osmanlı dövlətinin idarəçiləri və mütəfəkkirlərində "millətçilik" ideyasını gündəmə gətirdi. Türk milləti tarixinin ən pis dövrlərindən birini yaşayırdı. Dağılma indi özünü açıq şəkildə büruzə verirdi. Bununla belə, idarəçilər bu davam edən çökmə prosesini aydın şəkildə görmək iqtidarında deyildilər. İkinci Konstitusiya dövrü ilə möhkəmlənən konstitusiya idarəçiliyi anlayışı müharibələr və siyasi qarşıdurmalar səbəbindən inkişaf edə

bilmədi və Osmanlı İmperatorluğunun dağılması Birinci dünya müharibəsinə qədər davam etdi. Bu müharibə ilə dövlətin süqutu tamamlandı və Avropa dövlətlərinin həyata keçirdikləri Yaxın Şərq və Balkan planı uğurlu oldu.

***Birinci Dünya Müharibəsinin Osmanlı imperiyasına təsiri.*** 1918-ci il 30 oktyabrda imzalanan Mudros barışıq müqaviləsi Osmanlı İmperiyasının müharibədən sonrakı ən böyük təslim sənədi idi. Bu mətndəki maddələrin həyata keçirilməsi ölkəni açıq-aşkar əsir vəziyyətinə salmış olacaqdı. Müharibənin son aylarında bu vəziyyəti görən İttihad və Tərəqqi liderləri Osmanlı İmperatorluğunun bölüşdürülməsi ilə bağlı Müttəfiq dövlətlər arasında bağlanan gizli razılaşmalardan xəbərdar olmuş və bu vəziyyətə qarşı bəzi tədbirləri düşünməyə başlamışdılar. Bu tədbirlərdən biri də təslim olmamaqla Anadoluda yeni bir mübarizə mühiti yaratmaq idi. Bu fikirlər həyata keçməmişdən əvvəl İngilis və Fransız işğalçıları Anadoluya daxil olmağa başladı. İşğalçıların ən mühüm çıxış nöqtələrindən biri də ölkənin son on illik siyasi tarixində alçaldıldığını bildirdikləri qeyri-müsəlman ünsürlərə, yunanlara və ermənilərə dəstək vermək idi. Görünürdü ki, onların əsas məqsədlərindən biri də bu elementlər əsasında Anadolunu yenidən formalaşdırmaqdır. Ölkədə bu şərtlər altında müqavimət təşkil etmək istəyən İttihad və Tərəqqi liderləri mərkəzi icraiyyə komitəsinin qərarı ilə gizli şəkildə ölkəni tərk etməli oldular. İngilis və Fransız orduları onları və türk millətini hesaba çəkməyə gəlirdilər. Bu mübarizə Mudrosla başladı. Osmanlı İmperiyası Birinci dünya müharibəsinə girərkən 1.700.000 kv.km ərazisinin 1.000.000 kv.km-ni itirmiş, 22 milyonluq əhalisi isə 10 milyona qədər azalmışdı. İngiltərənin keçmiş baş naziri Qladston illər əvvəl dünyaya bəyan etmişdi ki, “İslam və türklər dünyanın üz qarasıdır. Onların şərini aradan qaldırmağın bircə yolu var, o da varlığını yox etməkdir”. Eyni şəkildə İngiltərənin xarici işlər naziri Lord Kerzon Amerika prezidenti V.Vilsonun öz müqəddəratını təyinetmə prinsipindən danışarkən belə, “Türklər əsrlər boyu hər kəsi narahat edən intriqa və fitnə mənbəyidir” deyərək, ilk növbədə, türkləri tamamilə Avropadan çıxarıb Anadoluya yerləşdirmək fikrində idi. Avropalılar bu ideyaları həyata keçirməyə gələrkən 4 iyul 1917-ci ildə

İstanbulda taxta çıxan Sultan Vahdettin İttihad və Tərəqqi Komitəsinin buraxdığı siyasi boşluğu doldurmaq, idarəni ələ keçirmək və Osmanlı sultanlığını davam etdirmək istəyirdi. Son on ildə İttihadçılar tərəfindən əzilən Azadlıq və Antanta Partiyasının tərəfdarları da özlərindəki bu siyasi boşluğu dəyərləndirərək işğalçılarla birlikdə İttihadçılardan qisas almaq fikri ilə hərəkətə keçdilər. Bu partiyanın dəstəyi ilə qurulan hökumətlər atəşkəs müddəalarının həyata keçirilməsinə biganə görünür və qalib dövlətlərin Osmanlı İmperiyası ilə bağlı qərarlarını qəbul etməyə hazır idilər. Silahlı mübarizənin dövləti açıq şəkildə məhv edəcəyini, ingilislərlə işləməkdən başqa yol olmadığını deyirdilər. Bu hiss onların Sevr müqaviləsini qəbul etməsinə səbəb olardı. 1920-ci il 10 avqustda imzalanan Sevr müqaviləsi ilə Şərqi Anadoluda böyük bir Ermənistan və Kürdüstan qurulması, Qərbi Anadolunun yunanlar tərəfindən işğal edilməsi, Sultanın idarəçiliyində qalan Osmanlı İmperiyasının isə hər cəhətdən müstəmləkə dövlətinə çevrilməsi nəzərdə tutulurdu. Anlaşma xalqda böyük etiraz doğurdu, Mustafa Kamal türk xalqının heç vaxt bu təslimçilik aktına razı olmayacağını bildirdi. Mustafa Kamalın başçılıq etdiyi Qurtuluş savaşı daha da genişləndi. 1921-ci ilin yanvarından başlayaraq qələbələr əldə edən türk ordusu həmin ilin avqustunda Sakarya savaşından zəfərlə çıxdı. 1922-ci ilin avqustunda Mustafa Kamalın komandanlığı altında həyata keçirilən “Böyük Taarruz” (“Böyük Hücum”) əməliyyatı ilə Türkiyənin yunan ordusunun işğalı altında olan cənub-qərbi azad edildi.

İstanbulda idarəçilərin işğallara, azlıqların işinə biganə qaldığını görən Türk Milləti bu çaxnaşma anını ataraq ilk reaksiyasını etiraz və mitinqlərlə göstərdi. Bundan əlavə, qurulan Müdafiə-i Hüquq Cəmiyyətləri regional qurtuluş çarələri axtarmağa başladılar. Ordunun tərxis olunması bir çox sahələrdə müdafiə aparatını sıradan çıxarmışdı. Hüquq Müdafiə Cəmiyyətləri milli müdafiə üçün olduqları bölgə xalqını bir araya gətirməyə çalışarkən, digər tərəfdən silahlı təşkilatlar qurmağa hazırlaşırdılar. Bu vəziyyəti İstanbuldan 1919-cu ilin may ayına qədər izləyən və Birinci dünya müharibəsi illərində müxtəlif cəbhələrdə uğur qazanan Mustafa Kamal Paşa bu vəziyyətdən ancaq silahlı müba-

rizə yolu ilə, öz dövləti ilə danışıqlar aparmaqla xilas ola biləcəyi qənaətinə gəldi. Mustafa Kamal Paşanın sonradan daxili və xarici cəbhə ilə bağlı dedikləri indiki vəziyyətə uyğun idi: "Əsas məsələ daxili cəbhədir. Bu cəbhə bütün ölkənin, bütün xalqın meydana gətirdiyi cəbhədir. Görünən cəbhə birbaşa ordunun düşmənə qarşı silahlı cəbhəsidir. Bu cəbhəni məhv etmək, dəyişdirmək, məğlub etmək olar. Amma bu vəziyyət heç vaxt ölkəni məhv etməyəcək. Önəmli olan ölkəni yarandığı gündən dağıdan, milləti əsarətə salan daxili cəbhənin susmasıdır. Ölkəmizdəki düşmənləri silah gücü ilə çıxara bilməyincə, onları çıxarmaq üçün milli gücümüzü və qüdrətimizi faktiki sübut edə bilmədikcə, diplomatiya sahəsində ümid bəsləmək doğru deyil". Mustafa Kamal Paşa bu prinsiplərə sadiq qalaraq Anadolunun hər yerində ayağa qalxmış Türk Millətini bir araya gətirərək işə başladı. Çünki bu birlik olmadan ölkəni düşmən işğalından xilas etmək mümkün deyildi.

***Müasir Türkiyə Cümhuriyyətinin qurulması prosesi***. Bu proses 1919-cu il mayın 19-da Mustafa Kamal Paşanın Samsuna enişi ilə başladı. Özünün dediyi kimi, Samsuna gedəndə onun beynində müasir dövlət qurmaq fikri var idi. O, bu ideyanı mərhələ-mərhələ həyata keçirib, "milli sirr" kimi saxlayıb. Bu baxımdan Türkiyə Cümhuriyyətinin qurulması iki mərhələdə baş verdi. Birincisi, işğal olunmuş torpaqların azad edilməsi və müstəqilliyi təmin edəcək müqavilənin imzalanması, ikincisi isə köhnə dövlət quruluşunun ləğvi və yeni və müasir dövlətin qurulması idi. Bu ideyanın memarı və icraçısı olan Mustafa Kamal Paşadır. Müasir dövlət qurmaq ideyası Mustafa Kamalda hələ gənclik illərindən formalaşıb. Mustafa Kamal tarixi bir dönüş nöqtəsində dünyaya gəlib. Həmin dövrü iki böyük hadisə müəyyənləşdirdi. Biri Fransa inqilabı, digəri Osmanlı İmperatorluğunun parçalanması və süqutunun sürətlənməsidir. Bundan əlavə, o, gənc bir zabit kimi müxtəlif bölgələrdə və şəraitdə üzərinə götürdüyü vəzifələr sayəsində bütöv bir imperiyanın necə dağıldığını öz gözləri ilə görüb. Bu tarixi dönüş Mustafa Kamalı süquta uğrayan Osmanlı İmperatorluğu əvəzinə yeni bir Türkiyə qurmaq haqqında düşünməyə vadar etdi və onun düşüncəsinin mayasını yaratdı. Bu ideyanı həyata keçirən hadisələr

eyni zamanda Avropada da özünü göstərir və Mustafa Kamalı ruhlandırırdı. Birinci dünya müharibəsi ilə Rusiya çarlığı, Almaniya imperiyası, Avstriya Macarıstan imperiyaları dağıldı, yeni respublikalar yarandı. Dəyişən Avropa inzibati sistemində Osmanlı İmperatorluğunun gələcəyi ən çox vurğulanan məsələlərdən biri idi. Təbii ki, türk ziyalıları da bu məsələnin üzərində dayanır, müxtəlif həll yolları axtarırdılar. Halbuki onların hamısı çarəni Osmanlı sultanlığı ətrafında axtarırdılar. Bundan başqa heç kim yeni dövlət strukturunun yaradılmasını açıq şəkildə ifadə edə bilmədi. *Milli Mübarizə*nin ilk günlərində də Amasiya Tamimi "Millətin istiqlaliyyətini yenə millətin əzm və qərarı xilas edəcək" deyərək, millətin iradəsini mübarizənin əsası və başlanğıc nöqtəsi kimi qəbul edirdi. Ərzurum və Sivas konqresləri "milli iradənin hakim olmasına" qərar verdi. Beləliklə, ümmət "millət"in yerini tutmağa başladı və sultanın mübahisəsiz qüdrəti "milli suverenlik"lə əvəz olunmağa başladı. Yeni qurulacaq dövlət anlayışında bu şəkildə formalaşan xalqçılıq ideyasının üç əsas elementi var idi: *xalq idarəçiliyi, bərabərlik və sinfi mübarizənin rədd edilməsi* (14, s.59). Mustafa Kamal Paşa Xalq Partiyasının yaranması və fəaliyyətinə görə bəhs etdiyi çıxışında türk millətinə güvəndiyini və milli suverenlik anlayışının quracağı yeni dövlətdə mühüm bir ünsür olacağını bildirib: "Biz millətin maddi-mənəvi sahədə yeniləşməsi, inkişafı yolunda sözə və nəzəriyyəyə, əməyə və əmələ önəm verməyə üstünlük vermişik. Bununla yanaşı, hakimiyyət millətindir. Türkiyə Böyük Millət Məclisindən başqa heç bir hakimiyyət milli müqəddərata hakim ola bilməz. Bütün qanunların tənzimlənməsində, hər cür təşkilatlarda idarənin bütün təfərrüatlarında, xalq maarifində, iqtisadi məsələlərdə milli hökmranlıq prinsipləri çərçivəsində fəaliyyət göstərəcəkdir" (8, s.719). Yaradılacaq yeni sistemin birinci məqsədi müasirləşmək, ikinci məqsəd inkişaf etdirmək, bununla da müasir sivilizasiya səviyyəsinə çatmaqdır. Bunlar həyata keçirilərkən milli birlik təmin olunacaq, dövlət hakimiyyəti bərqərar olacaq, xalq arasında bərabərlik təmin olunacaqdır (11, s.113-114).

1922-ci il 30 avqust Zəfəri ilə yeni dövlətin quruluşunun da təməli qoyuldu. Türkiyə Sevr anlaşmasının ləğv edilməsi üçün Lozannada yeni beynəlxalq konfransın çağırılmasına nail oldu. 1923-cü ilin iyulunda Lozanna konfransının yekun sənədi Sevr müqaviləsini ləğv etdi və Türkiyənin ərazisini indiki sərhədlər çərçivəsində təsbitlədi. 1923-cü il oktyabrın 2-də türk ordusu sonuncu işğalçı qoşunları – ingilis hərbi gəmilərini İstanbul ətrafından vurub çıxardı.

1923-cü il oktyabrın 29-da Mustafa Kamal TBMM-də çıxış edərək Türkiyə Cümhuriyyətinin yarandığını elan etdi. Parlament Mustafa Kamalı ölkənin ilk prezidenti seçdi, ilk hökumətin qurulması isə ordu komandanlarından İsmət İnönüyə tapşırıldı.

***Türk inqilabının əldə etmək istədiyi məqsəd nə idi?*** Bu suala verilən cavab aparılacaq müharibənin məqsədini və inkişafını müəyyən edirdi. Türkiyə Cümhuriyyəti ilk növbədə çox çətin məsələləri əhatə etməklə, qurulduğu bölgəyə bir sülh gətirdi. O, bəlkə də dünyada tək olaraq bir partiyadan çoxpartiyalı demokratik rejimə keçidi təmin etdi. O, öz siyasi institutlarını qərb mənasında qurdu və tənzimləməyə çalışdı. Bunlar edilərkən Türk Millətinin şüarına ən uyğun idarə formasının cümhuriyyət (4, s.106-107) olduğu, yeni qurulan dövlətin isə xalq dövləti olduğu tez-tez vurğulanırdı (3, s.338). Atatürk Cümhuriyyəti çağdaş, modern bir dövlətin yaradıla bilməsi üçün ən uyğun rejim olaraq görməklə, demokratik, parlamentar, çağdaş, suveren bir rejimin Türkiyədə var olması ilə Cümhuriyyət rejimini bərabər tutmuşdur (6, s.143). Mustafa Kamal Atatürk Cümhuriyyəti, Türk millətinin təbiət və şüuruna ən uyğun idarəetmə sistemi olaraq görürdü. Atatürkün Cümhuriyyətlə bağlı düşüncələrini ən yaxşı öz sözləri ilə ifadə etmək olar: “Demokratiyanın tam və ən bariz hökümət forması Cümhuriyyətdir” (2, s.398).

Mustafa Kamal Paşanın ən çox işlətdiyi söz “mədəniyyət” idi. Sivilizasiya, sivil olmaq onun başlanğıc nöqtəsidir. 1924-cü ildə o, sivilizasiyanın gerçəkliyini bu sözlərlə ortaya qoyur: “Mədəniyyət, Cümhuriyyəti yüksəldəcək. Türk inqilabı sivilizasiya dünyasında layiq olduğumuz mövqeyi təmin edəcək”. Onun sözlərinə görə, əziyyət

çəkməyimizin əsas səbəbi dünyanın axarına yad olmağımızdır. Bu səbəbdən milləti tez bir zamanda sivilizasiya nemətlərinə çatdırmaq lazım idi. Türk inqilabının sivilizasiyası quruluş dəyişikliyidir. Konstitusiya monarxiyasının bütün tərəddüdlərini və qərarsızlıqlarını bir kənara atıb yeni üfüqlərə doğru yönəlməkdir. “Son əsrlərdə türk millətini geridə qoyan qurum və müəssisələri yıxıb onların yerinə millətin ən yüksək sivil tələblərə uyğun tərəqqisini təmin edəcək yeni qurumlar qurmaq...” ifadəsi Atatürkə görə, inqilabı ifadə edir (5, s.398).

Müasir geyimin qəbulu (2 sentyabr 1925), dərviş lojalarının ləğvi (2 sentyabr 1925), beynəlxalq saat və təqvim (26 dekabr 1925), ölçü və çəki sistemi (1 aprel: 1931), soyad qanununun qəbulu (1934) və həftə tətilinin cümə günündən, şənbə-bazar gününə keçirilməsi (1935), Osmanlı xilafətinin Türkiyə Böyük Millət Məclisinin 3 mart 1924-cü il tarixli fərmanı ilə ləğv edilməsi və s. qəbul edilən qərarların sadəcə bir qismidir.

Milli dövlətin siyasi-ictimai reallıqlarını əhatə etdiyi, kökünü Türk inqilabının ən dərin yerlərindən götürdüyü üçün mühüm və mənalı bir mərhələdir. Cümhuriyyətçilik, milliyyətçilik, dövlətçilik, dünyəvilik, xalqçılıq və inqilabçılıq prinsipləri işığında aparılan islahatlar Türk millətinin tamamilə yeni bir quruluşa çatmasını təmin etmişdir. Cümhuriyyət dövründə ilk konstitusiya 1921-ci ildə qəbul edildi. Dövrün qeyri-adi şərtlərində hazırlanan bu konstitusiya yeni türk dövlətinin ilk konstitusiyası idi və orijinal adı “Təşkilat-i Əsasiyə” qanunu idi. Fövqəladə şərtlərə görə "qüvvələr birliyi"nin qəbul edildiyi bu konstitusiya 1924-cü ilə qədər qüvvədə qalmış və həmin tarixdə edilən dəyişiklik və əlavələrlə yeni konstitusiya hazırlanmışdır. 1924-cü ilin aprelində Cümhuriyyətin ilk Konstitusiyası – Anayasa qəbul olundu, Osmanlı dönəminə rəsmən nöqtə (Sultan Vəhidəddin ailəsi ilə ölkəni 1922-ci ildə tərk etmişdi) qoyuldu. Cümhuriyyətin ilk dövrlərində konstitusiyaya tez-tez edilən dəyişiklikləri nəzərə alaraq (1928, 1934, 1937-ci illərə təsadüf edir) dünyəviliyə zidd olan maddələrin konstitusiyadan çıxarıldığı və getdikcə daha sivilləşdiyi müşahidə olunur.

***Türkiyə Cümhuriyyətinin qurucu məntiqini*** üç mühüm sənəddə görmək mümkündür: Bunlardan birincisi, mətni Mustafa Kamal

Paşa və dostları tərəfindən hazırlanmış, 28 yanvar 1920-ci il çərşənbə günü Son Osmanlı Parlamentində qəbul edilmiş və 17 fevral 1920-ci ildə qəzet və agentliklər vasitəsilə bütün dünyaya elan edilmiş ***Misak-i Milli*** adı ilə tanınan "Əhd-i Milli Bəyannaməsi"dir. Bu mətndə Türk Milli Mübarizəsinin əsas proqramı və Türkiyənin milli və etnik sərhədləri, Mudros müqaviləsinin sərhədləri içində tam müstəqillik təmin edilincəyə qədər mübarizəni davam etdirməyi nəzərdə tuturdu. Əhd-i Milli Bəyannamənin (Misak-ı Milli) əsas müddəaları Ərzurum konqresində (22 iyul - 7 avqust 1919) və Sivas konqresində (4-11 sentyabr 1919) formalaşdı (9). Maddələri belədir:

*Maddə 1.* Osmanlı imperiyasının sırf əksəriyyət ərəb əhalisinin yaşadığı və 1918-ci il oktyabrın 30-da atəşkəs zamanı düşmən ordularının işğalı altında olan ərazilərinin taleyi yerli əhalinin azad iradəsinə uyğun olaraq müəyyən edilməlidir.

*Maddə 2.* Üç sancağın: Qars, Ərdəhan və Batumun taleyinə gəlincə - əhalisi azad olunduqları gündən təntənəli səsvermə ilə vətənlərinin qoynuna qayıtmaq iradəsini təsdiq ediblər. Zərurət yaranarsa, ikinci, sərbəst keçirilən plebisit başlanacaq.

*Maddə 3.* Türk dünyasının bir hissəsi olan Qərbi Trakyanın hüquqi statutu əhalinin sərbəst şəkildə ifadə etdiyi iradəyə əsaslanmalıdır.

*Maddə 4.* İmperiyanın paytaxtı və xilafətin və Osmanlı hökumətinin taxtı olan İstanbulun təhlükəsizliyi, eləcə də Mərmərə dənizinin təhlükəsizliyi təmin edilərək hər cür təcavüzdən qorunmalıdır. Bu prinsip qurulub həyata keçirildikdən sonra imzalayanlar bir tərəfdən Osmanlı hökuməti ilə digər tərəfdən maraqlı dövlətlər arasında qarşılıqlı razılaşma əsasında qəbul ediləcək istənilən qərara qoşulmağa, dünya ticarətinə və beynəlxalq rabitəyə boğazların açılmasını təmin etməyə hazırdırlar.

*Maddə 5.* Azlıqların hüquqları Antanta dövlətləri, onların əleyhdarları və onlarla müttəfiq olan bəzi dövlətlər arasında bağlanmış xüsusi konvensiyalarla digər ölkələrdə azlıqların xeyrinə müəyyən edilmiş əsaslarla bizim tərəfimizdən təsdiq olunacaqdır. Digər tərəfdən, biz qəti şəkildə inanırıq ki, qonşu ölkələrdəki müsəlman azlıqlar da öz hüquqları ilə bağlı eyni təminatlardan istifadə edəcəklər.

*Maddə 6.* Milli və iqtisadi inkişafımızı təmin etmək və ölkəni daha müasir, düzgün fəaliyyət göstərən idarəetmə ilə təmin etmək məqsədi ilə imzalayanlar... qeyri-məhdud müstəqillik və tam fəaliyyət azadlığından istifadə imkanını milli varlığın zəruri şərti hesab edirlər.

Nəticədə, biz milli inkişafımıza mane ola biləcək hər hansı hüquqi və ya maliyyə məhdudiyyətinə qarşıyıq. Üzərimizə qoyulacaq öhdəliklərin həlli şərtləri bu prinsiplərə zidd olmamalıdır (10, s.89-90).

İkinci mətn təhsil məsələlərini ehtiva edən **Misak-ı Maarifdir**. Müasir və çağdaş dövlət olmağın ən mühüm tələblərindən biri şübhəsiz ki, təhsil sahəsində mühüm addımlar ataraq çağdaş sivilizasiya səviyyəsinə çatmaqdır.

Tənzimat dövründə ilk dəfə olaraq, təhsilin siyasi və ictimai funksiyalarının olduğunun fərqinə varılmış, dövləti fəlakətə sürükləyən yoldan qurtaracaq qüvvə olaraq dəyərləndirilmişdir (12, s.137). Aparılan islahatlar tərəqqiyə mane olan maneələri aradan qaldırmaq cəhdindən başqa bir şey deyildi. Mustafa Kamal Paşa Qurtuluş Savaşının ən ağır günlərində Sakarya döyüşündən əvvəl 15 iyul 1921-ci ildə Ankarada təhsil konqresi çağırmışdı. O, burada etdiyi çıxışında "Türkiyənin milli təhsil qurmasını" istəyib, millətin geridə qalmasında o vaxta qədər tətbiq olunan təhsil üsullarının rolunu dilə gətirərək, xurafatdan uzaq, türk millətinin milli kimliyinə uyğun bir təhsil sisteminə keçilməsinin zəruriliyini ifadə etmişdir.180-ə yaxın nümayəndənin qatıldığı bu konqresin açılış nitqində Mustafa Kamal dedi: "Hesab edirəm ki, indiyə qədər izlənilən təhsil və tərbiyə metodları tariximizin ən mühüm amilidir. Milli təhsil proqramı dedikdə, mən köhnə dövrün bütün xurafatlarından uzaq, şərqdən, qərbdən gələn yad təsirlərdən uzaq, milliyyətimizə uyğun mədəniyyəti nəzərdə tuturam. Dahi şəxsiyyətimizin inkişafı ancaq belə bir mədəniyyətlə mümkündür. Bizim yaradacağımız mədəniyyət hər bir millətin zamininə uyğun olmalıdır və o zəmin də millətin xarakterinə uyğun olmalıdır. Uşaqlarımızı, gənclərimizi tərbiyə edərkən unutmayaq ki, birliyimizə zərbə vuran hər bir qüvvəyə qarşı müdafiə qabiliyyətinə malik nəsil yetişdirməliyik. Bu bacarığı yeni nəslin ruhuna buraxmaq lazımdır".

Dil və əlifba mövzusunda hələ XIX əsrin birinci yarısında ziyalılar arasında ciddi müzakirələr gedirdi. Tənzimatla yanaşı, Qərb tipli məktəblərin açılması ilə Türkcənin elm dili kimi işlədilməsi, ərəb və fars sözlərinin saflaşdırılması məsələsi gündəmə gəldi. 1876-cı ildə Kanun-i Esasi, "Osmanlı dövlətinin rəsmi dilinin türk dili olduğunu və dövlət xidmətinə girəcəklər üçün bu dilin bilinməsi lazım olduğunu vurğulayırdı. Ziyalılar belə qənaətə gəldilər ki, əsas problem türkcəyə uyğun olmayan ərəb əlifbasının işlədilməsidir və buna görə də əlifba dəyişdirilməlidir. Bu arada latın əlifbasının qəbulu məsələsi gündəmə gəldi (7, s.319). Türkcənin elm dili olması istiqamətində səylər qismən uğurlu olsa da, əlifba baxımından bu uğur əldə oluna bilmədi. Cümhuriyyətə keçən bu məsələ 1928-ci il noyabrın 1-də Latın əlifbasının qəbulu ilə öz həllini tapmış, daha sonra türk dilinin sadələşdirilməsi istiqamətində fəaliyyətə başlamışdır. Atatürkün inkişaf etdirdiyi Günəş-Dil Nəzəriyyəsi və Türk Dil Qurumunun (1932) qurulması da bu fəaliyyətlərdəndir.

O, müəllimləri "gələcəkdəki xilasımızın hörmətli qabaqcılları" kimi təsvir etmişdir. Böyük Zəfərdən dərhal sonra Bursaya onu ziyarətə gələn müəllimlərə "Bu gün gəldiyimiz nöqtə əsl qurtuluş deyil" demiş və "millətimizin siyasi, sosial və mədəni həyatında öncəliyimiz elm və təhsil olacaqdır" demişdir. Bu sahədəki fəaliyyətlər arasında Lozanna konfransının son günlərində Ankarada toplanan və ölkənin bütün təhsil problemlərini müzakirə edildiyi "Birinci Heyet-I İlmiye"yi də saymaq yerinə düşərdi. Bu inkişaflardan başa düşülür ki, istər Qurtuluş Savaşı dövründə, istərsə də qələbədən sonra Türkiyənin milli təhsil problemi həmişə prioritet məsələlər sırasında olub. Cümhuriyyət elan olunmamışdan əvvəl və xüsusən də sonra bu istiqamətdə daha konkret addımlar atıldı. Cümhuriyyət elan edilməzdən əvvəl o vaxtkı Təhsil Naziri İsmail Səfanın (Özlər) imzası ilə milli təhsil sirkulyarı nəşr olundu. Bu sirkulyar Misak-ı Maarif kimi də tanınır. 1923-cü il martın 8-də nəşr olunan sirkulyar Maarif Nazirliyinin 1925-ci ildə nəşr olunmağa başlayacaq ilk nömrəsində də tam mətn kimi dərc edilmişdir. "Maarif Misak"ın ən mühüm müddəalarını belə ümumiləşdirmək

olar: Cahilliyi aradan qaldıraraq, milli və müasir təhsili ölkənin ən ucqar guşələrinə çatdırmaq, gələcəyin ehtiyaclarına uyğun yeni nəsillər yetişdirmək, gəncləri cəhalətdən uzaqlaşdırmaq, güclü intellektual xarakterli, elm və əxlaq baxımından sarsılmaz, onları əsarət altında qoymayacaq zehinlər hazırlamaq, bunun üçün gəncləri iş və istehsal vasitələri ilə təchiz etmək, millətçi, xalqçı, inqilabçı və dünyəvi cümhuriyyət vətəndaşı yetişdirmək, həyat məktəbi olan ümumtəhsil məktəblərindən çıxanların həyata inamla baxa bilməsini, hər yerdə güclü və qətiyyətli olmasını təmin etmək və öz hüquqlarını qorumağı bilən güclü, məsuliyyətli, özünəinamlı vətəndaşlar yetişdirmək (13). Təhsil siyasətinin müasir səviyyəyə çatdırılması Türkiyə Cümhuriyyəti üçün ən vacib məsələ idi. Yeni qurulan respublikanın məntiqini gənc nəsillərə dərk etdirmək o zaman mümkün idi ki, təhsil sistemi də eyni baxışlara uyğun yaradılsın. Təhsil həm də gənc respublikanın yaşaması üçün zəruri element idi.

Yeni qurulan dövlətin xarakterini göstərən üçüncü sənəd 17 fevral - 4 mart 1923-cü il tarixləri arasında keçirilən İzmir İqtisadiyyat Konqresində 1135 nümayəndə tərəfindən qəbul edilən və 12 maddədən ibarət olan ***Misak-ı İktisadi*** qərarlarıdır. Bütün Türkiyənin əkinçilik, sənaye, ticarət və işçi qruplarından seçilən 1135 nümayəndənin iştirakı ilə İzmirdə toplanan ilk Türk İqtisadiyyatı Konqresinin əsasları olan Misak-ı İqtisadiyyatı, hər cür toplum insan iradəsinin hər cür əsasını təşkil edən sosial, iqtisadi, siyasi və hüquqi formasiyasıdır. Atatürk bəyan etdi ki, türk millətinin həqiqi və qəti nicat tapması üçün iki ümidə arxalanmaq lazımdır. Bunlardan birincisi olan Misakımilli, millətin tam müstəqilliyini təmin edən və buna görə də onun iqtisadiyyatında inkişaf etməsinə mane olan bütün səbəbləri aradan qaldıran bir prinsipdir. İkincisi, Teşkilat-ı Esasiye Qanunu, bu yeni dövlətin həyatında belə suverenliyin millətin əlində qalacağını bildirən qanundur. Tam müstəqillik əsasında “Milli suverenlik” və “iqtisadi suverenlik” arasında mütləq əlaqə qurur və “Həkimiyyət-i Milliyə Hakimiyyət-i İqtisadiyyatla tərsinə çevrilməlidir” deyir.

Mustafa Kamal Paşa qurultayın açılış nitqində "Bizim daxil olduğumuz xalq dövrünün, milli dövrün milli tarixini yazmaq üçün qələmlər, sapanlar olacaq. Məncə, xalq dövrü iqtisadi dövr anlayışında ifadə olunur. Elə bir iqtisadi dövrdür ki, ölkəmiz çiçəklənəcək, millətimiz firavan və zəngin olacaq. Elə iqtisadi dövrdür ki, millətimiz insanca yaşaya bilir... İqtisadiyyat hər şey deməkdir. Yaşamaq, xoşbəxt olmaq üçün lazım olan hər şey deməkdir, kənd təsərrüfatı, ticarət, biznes, hər şey deməkdir. Yeni hökumətimizin bütün prinsipləri, proqramları iqtisadiyyat proqramından çıxmalıdır. Çünki orada hər şey gizlidir". deyərək, "iqtisadi dövr" təkcə cəmiyyətin iqtisadi nizamını ifadə etmək üçün deyil, həm də cəmiyyətin siyasi, hüquqi və s. əsas sıralarını ifadə etmək üçün istifadə olunur. Mahmut Esat Bozkurt, "Milli suverenliyi iqtisadi suverenlik kimi başa düşürəm. Belə olmasa, millətin suverenliyi ilğım olar" demişdir. İzmir İqtisadiyyat Konqresinin protokollarında inadla "milli istehsalı təmin etmək", "öz milli istehsalı üçün mədənləri işlətmək", "uşaqları iqtisadi razılaşma əsasında böyütmək", "yerli və milli sənayenin inkişafı", "hüququmuzu tam təsdiqləmək" kabotajda müstəqillik", "aşar vergisinin ləğvi", "tütün rejiminin monopoliyasının aradan qaldırılması" və "Türkiyədə yaşayan bütün insanları əhatə edən vergi" anlayışlarının yer aldığı görünür. Deməli, bu o deməkdir ki, Lozanna Sülh Konfransının toplantısına təsadüf edən İzmir İqtisadiyyat Konqresində dövlətin əsas iqtisadi nizamının milli iqtisadiyyat nizamı olacağına qərar verilib və bu, bütün dünyaya bəyan edilib. 12 maddədən ibarət olan və dövrün müxalif mətbuatı tərəfindən çox sadə olaraq tənqid edilən, lakin keçən dövr ərzində önəmini hər keçən gün daha da artıran Misak-I İktisadi mətni belədir:

*Maddə 1.* Türkiyə, öz milli sərhədləri daxilində ləkəsiz müstəqilliyi ilə dünyada sülh və inkişafın ünsürlərindən biridir.

*Maddə 2.* Türkiyə xalqı öz milli suverenliyini öz qanı və canı bahasına əldə etdiyinə görə heç nəyi fəda edə bilməz və milli suverenliyə əsaslanan parlament və hökumət qarşısında cavabdehdir.

*Maddə 3.* Türkiyə xalqı məhv etməz; inşa edər. Onun bütün səyləri ölkəni iqtisadi cəhətdən yüksəltməyə yönəlib.

*Maddə 4.* Türkiyə xalqı mümkün qədər istehlak etdikləri malları yetişdirir. Çox çalışır, vaxt, pul və idxal israfından qaçır. Milli istehsal üçün gecə-gündüz çalışır.

*Maddə 5.* Türkiyə xalqı qızıl xəzinəsi üzərində yaşadıqlarının fərqindədir. Meşələrini övladları kimi sevir, bunun üçün ağac şənlikləri edir; yenidən meşələr yetişdirir. Mədənləri öz milli istehsalı üçün işlədir və onların sərvətlərini hər kəsdən daha çox tanımağa çalışır.

*Maddə 6.* Oğurluq, yalan, ikiüzlülük və tənbəllik ən pis düşmənlərimizdir; Fundamentalizmdən uzaq dini anlayış bizim hər yerdə prinsipimizdir. Biz həmişə faydalı yenilikləri alqışlayırıq. Türkiyə xalqı öz müqəddəsliyinə, torpaqlarına, şəxsiyyətinə və malına qarşı aparılan düşmənçilik təbliğatına nifrət edir və onlara qarşı mübarizə aparmağı öz vəzifəsi hesab edir.

*Maddə 7.* Türklər hikmət və istedad sevərlər. Türk hər yerdə həyatını qazana biləcək şəkildə yetişir; amma hər şeydən əvvəl ölkəsinin mülküdür. Təhsilə verdiyi əzəmətə görə Mövlud-i Şərif Qəndil günü də kitab bayramı kimi qeyd olunur.

*Maddə 8.* Əsas məqsədimiz bir çox müharibələr və ehtiyaclar səbəbiylə azalan əhalimizin artması ilə sağlamlığımızı və həyatımızı qorumaqdır. Türk mikroblardan, çirkli havadan, epidemiyadan və çirkabdan qorxur, bol təmiz havanı, bol günəşi və təmizliyi sevir. O, ata-baba irsi olan at sürmə, atıcılıq, ovçuluq, yelkənçilik kimi bədən tərbiyəsini yaymağa çalışır. Heyvanlarına da eyni diqqət və qayğını göstərməklə yanaşı, onların cinslərini düzəldir, sayını artırır.

*Maddə 9.* Türk dininə, millətinə, torpağına, həyatına və varlığına düşmən olmayan millətlərə həmişə dostdur; Xarici kapitala qarşı deyil. Ancaq öz ölkəsinə, dilinə, qanunlarına uyğun gəlməyən qurum və təşkilatlarla münasibəti yoxdur. Türk elm və sənət yeniliklərini harada olur-olsun birbaşa qəbul edir və heç bir münasibətdə çoxlu vasitəçi istəmir.

*Maddə 10.* Türk alnı açıq sərbəst işləməyi sevir; O, monopoliya istəmir.

*Maddə 11.* Türklər hansı təbəqədən və hansı peşədən olursa olsunlar bir-birlərini çox sevirlər. Peşə və qrupla əl-ələ verərək, həmkarlar ittifaqları ölkələrini və bir-birlərini tanımaq və anlaşmaq üçün səyahət edir və birləşirlər.

*Maddə 12.* Türk qadınları və onların ərləri iqtisadi misak əsasında uşaq böyüdürlər (1). "Misak-ı İktisadi Təmelləri"nin 12-ci maddəsində "Türk qadınları və onların ərləri uşaqları iqtisadi misaka uyğun böyüdür" deyərkən, hər bir ictimai məsələdə əsas prinsipin milli suverenlik prinsipi olduğuna diqqət yetirilmişdir. Misak-ı İqtisadi Prinsipləri, "Milli sərhədlər çərçivəsində" müstəqilliyi, sülhü və inkişafı milli dəyər hesab etmişdir. Türk xalqının "milli suverenliyə əsaslanaraq hər zaman parlamentə və hökumətə yardımçı olması", "meşələrini öz övladları kimi sevməsi" və s. milli dəyərlər kimi Paktın İqtisadi Prinsiplərində öz ifadəsini tapmışdır.

***Nəticə.*** Cəmiyyəti və onu hərəkətə gətirən şəraiti məharətlə hesablayan, cəmiyyətin dinamikasını uğurla istiqamətləndirə bilən lider Mustafa Kamal Atatürk ictimai-siyasi sahədə ümumi şüurun arzularını formalaşdıra bilmişdir. O, keçmişlə gələcək arasında, dəyişdirilməli olanlarla fərqli nizam arasındakı keçidi sülhlə təmsil edə bildi. O, Türkiyə tarixində qurucu dövlət xadimi kimi yer alıb. Mustafa Kamal Paşa özündən iki yüz il əvvəl başlayan təşəbbüsləri, səpələnmiş ideyaları və enerjiləri gözdən keçirdi və dəyişikliyin tam əldə olunmasını təmin edəcək yeni bir sistemi ortaya qoydu. Mustafa Kamalın 22 sentyabr 1923-cü ildə "Wiener Neue Freie Presse" müxbirinə etdiyi çıxışda ilk dəfə "Cümhuriyyət" sözündən istifadə etməsi həm ölkə daxilində, həm də xaricdə böyük əks-səda doğurdu. 1923-cü il oktyabrın 28-də Mustafa Kamal dostlarına "sabah cümhuriyyət elan edəcəyik" deyərək, 20 yanvar 1921-ci il Konstitusiyasına dəyişiklik layihəsini hökumət böhranına çarə tapa bilməyən Xalq Partiyasına təqdim edir. Fırkanın aldığı qərar da 29 oktyabr axşamı Türkiyə Böyük Millət Məclisinə təqdim edilib və qanun layihəsi yekdilliklə "Yaşasın Cümhuriyyət" səsləri ilə qəbul edilərkən, Mustafa Kamal 158 üzvün yekdil səsi ilə Prezidentliyə seçildi. Cümhuriyyətin elan edilməsi tarixi inkişafın və milli suverenlik prinsipinin həyata keçirilməsinin nəticəsi idi və

tədricən bütün vətəndaşların faydalandığı və iştirak etdiyi demokratik siyasi rejimə çevrildi.

Mustafa Kamal Paşa yeni yaranan və bitən dövr arasında çox mühüm bir tarixi vəzifəni uğurla yerinə yetirmiş, mərhələ-mərhələ izlədiyi bir qurtuluş proqramını, ana xəttində zərrə qədər də güzəştə getmədən həyata keçirmişdir. Bu düşüncələrlə qurulan Türkiyə Cümhuriyyəti öz coğrafiyasında əhəmiyyətini günü-gündən artıran demokratik hüquqi dövlət olaraq milli müstəqilliyinə xələl gətirmədən varlığını davam etdirmək üçün mübarizə aparır.

## ƏDƏBİYYAT

1. A.Afet İnan, İzmir İktisat Kongresi (17 Şubat-4 Mart 1923), Ankara, TTK Basımevi, 1989, 120 s.
2. A.Afet İnan, Medeni Bilgiler ve Mustafa Kemal Atatürk'ün El yazıları, Ankara, TTK, 1988, 398 s.
3. Atatürk'ün Söylev ve Demeçleri, I, Ankara, Atatürk Araştırma Merkezi Yayınları, 1997, 435 s.
4. Atatürk'ün Söylev ve Demeçleri, III, Ankara, Atatürk Araştırma Merkezi Yayınları, 1997, 145 s.
5. Atatürk'ün Söylev ve Demeçleri, V, Ankara, Atatürk Araştırma Merkezi Yayınları, 1997, 398 s.
6. Emre Kongar, İmparatorluktan Günümüze Türkiye'nin Toplumsal Yapısı, Cilt I, İstanbul, Remzi Kitabevi, 1985, 143 s.
7. Enver Ziya Karal, "Dil ve Dil Tartışmaları" / Tanzimat'tan Cumhuriyet'e Türkiye Ansiklopedisi, Cilt 2, İstanbul, İletişim Yayınları, 1985, s.314-332.
8. Nutuk, M. Kemal Atatürk, II, İstanbul, Zeus Kitabevi, 1996, 719 s.
9.Misak-ı Milli ve Türk Dış Politikasında Musul, Kerkük ve Erbil Meselesi Sempozyumu Bildirileri, Ankara, Atatürk Araştırma Merkezi, 1998, 256 s.
10. Şerafettin Turan, Türk Devrim Tarihi, 2. Kitap, Ankara, Bilgi Yayınevi, 1992, 334 s.

11. Suna Kili, Atatürk Devrimi Bir Çağdaşlaşma Modeli, İstanbul, Türkiye İş Bankası, 1981, 388 s.
12. Yahya Akyüz, Türk Eğitim Tarihi (Başlangıçtan 1993'e), İstanbul, Kültür Koleji, 1994, 428 s.
13. Yahya Akyüz, Türk Eğitim Tarihi, İstanbul, ALFA, 1999, 435 S.
14. Yücel Özkaya, “Atatürk ve Halkçılık”, Atatürkçü Düşünce El Kitabı, Ankara, Atatürk Araştırma Merkezi Yayınları, 1992, 459 s.

**SHAHLA MAHYADDINLI**
*Baku State University*
*4th year student of the Faculty of History*

# TURKEY: THE ROAD FROM EMPIRE TO REPUBLIC

The creation of a state is determined by the simultaneous presence of the principles of state, people and sovereignty. Although the Republic of Turkey is a new form of state compared to the Ottoman Empire, it did not emerge from nothing. In the establishment of the Republic of Turkey, which is considered the successor of the Ottoman Empire, the founders of the state made large-scale and radical changes in various fields such as political regime and culture with the aim of building a new and modern state on the social and economic heritage and remains of the empire. We are witnessing that these changes, which are valued as "radical", and the renewal and modernization efforts that began in the last days of the Ottoman Empire, have increased even more after the establishment of the Republic. For this reason, revealing the characteristics of heritage is useful not only in terms of understanding the processes that took place during the republic, but also in terms of solving many problems faced today. Changing the social structure became a necessity for the establishment of a modern state. During the period of the National Struggle, "Republic" lived as an idea and an ideal, and turning to the Republic was the main goal. Although the Grand National Assembly of Turkey convened on April

23, 1920, the announcement of the Republic was made after the National Liberation War. The Republic of Turkey, which was announced on October 29, 1923, has gradually acquired a democratic quality. In this article, dedicated to the 100th anniversary of the establishment of the Republic of Turkey, the processes taking place in the Ottoman Empire since the end of the 19th century, its participation in the First World War, the War of National Liberation and finally the stage of the establishment of the Republic of Turkey under the leadership of Mustafa Kemal Atatürk, one of the leaders of the Turkic World, and the initial decisions made are briefly and clearly reflected.

*Key words:* Ottoman Empire, Republic of Turkey, Mustafa Kemal Atatürk, National Liberation War, Republic of Turkey, reform project.

*Daxil olma tarixi*: 28.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 94; UOT 94(479.24)**

**TURAL QAFFAROV**
*Bakı Dövlət Universiteti*
*Tarix fakültəsinin tarix ixtisası üzrə III kurs tələbəsi*
**qaffarovtural75@gmail. com**

# HİNDİSTANDA QARAQOYUNLU DÖVLƏTÇİLİYİ - QÜTBŞAHLAR

*Elmi rəhbər*:
tarix üzrə fəlsəfə doktoru Bəymirzə Şabiyev

*Məqalədə Qütbşahlar dövlətinin yaranması, qüdrətli dövrlərini yaşaması, tənəzzülünün daxili və xarici amilləri araşdırılmışdır. Qütbşahlar dövlətinin Azərbaycan tarixindəki rolu şərh edilmişdir. Həmçinin məqalədə Qütbşahlar dövlətinin Azərbaycan Səfəvi və Böyük Moğol imperiyaları arasındakı diplomatik əlaqələri təhlil edilmişdir. Qütbşahlar dövlətinin tarixini öyrənmək üçün əsas tarixi mənbə olan "Tarixi-Ferişta" əsərinin quruluşu və tərkib hissələri aydınlaşdırılmışdır. Bununla yanaşı, Qütbşahlar dövlətinin hakimiyyəti dövründə hökmdarların elm və mədəniyyəti himayə etməsi problemi tədqiqata cəlb edilmişdir.*

*Açar sözlər:* Dekan yaylası, Sultanqulu Qütbülmülk, Baharlı tayfası, "Ferişta tarixi", Qolkəndə, Böyük Moğol imperiyası.

***Giriş***. XV yüzilliyin son rübündə Azərbaycan Ağqoyunlu dövlətinin ərazilərindən Hindistanın cənubuna - Dekan yaylasına doğru baş vermiş köç Dekan yarımadasında yerləşən dövlətlərin siyasi və iqtisadi həyatına önəmli təsir etdi. Hindistana köçənlər ya burda tacir kimi ticarətlə məşğul olur, ya da mərkəzi hakimiyyətin təzyiqlərindən qurtarmaq üçün burda sığınacaq tapırdılar. Qütbşahlar sülaləsinin banisi Qütbülmülk də yuxarıda sadaladığımız səbəblərə görə, Hindistana köç etmişdi. Qütbülmülk Həmədan bölgəsində yaşayan və Qaraqoyunluların Baharlı tayfasına mənsub olan Əli Şəkər bəyin nəslindən idi (6, s.142). Yeri gəlmişkən, Səfəvilər dövlətinin tərkibində yerləşən Həmədan bəylərbəyliyi "Qələmruyi-Əli Şəkər bəylərbəyliyi" də adlanırdı ki, bu da Əli Şəkər bəyin adından götürülmüşdür.

***Qütbşahlar dövlətindən bəhs edilən tarixi mənbələr.*** Adilşah hökmdarı II İbrahim Məhəmməd Qasım Hinduşah Feriştadan Hindistan tarixinə dair əsər yazmasını istəmişdi. Məhəmməd Qasım Frişta isə 1609-1610-cu illərdə yazdığı "Tarixi-Ferişta" əsərini Adilşah hökmdarı II İbrahimə həsr etmişdi. Əsər giriş, on iki bölmə və nəticədən ibarətdir. Üçüncü bölmədə Dekan yaylasındakı dövlətlərin - Bəhmənilərin, Adilşahların, Nizamşahların, Qütbşahların, İmadşahların və Beridşahların tarixindən bəhs olunur (8, s.455-456). Feriştaya görə, Sultanqulu Baharlı tayfasından olan Əli Şəkər bəyin nəslindəndir. Ancaq tarixçi sonradan qeyd edir ki, bu xanədan mənsubları həm də özlərini Qaraqoyunluların sonuncu hökmdarı Mirzə Cahanşahın nəslindən olduqlarını da iddia edirlər (1, s.435-436).

Digər tarixi mənbə isə, Məhəmməd Zühur ibn Zühurinin 1654-cü ildə tamamladığı "Məhəmmədnamə" əsəridir. Əsərdə daha çox Məhəmməd Adişahın hakimiyyət dövündən (1626-1656) bəhs olunur. 10 bölmədən ibarət olan əsərin ikinci bölməsində Qütbşahlar dövlətinin tarixinə toxunulur. Bölmədə Adilşahların moğolların təcavüzkar siyasətinə qarşı Qütbşah Abdulla ilə qurulan müttəfiqlik münasibətlərindən bəhs olunur. Bölmənin sonrakı hissələrində Qütbşah Abdullanın Adilşah hökmdarının bacısı ilə evliliyindən, Qütbşahların moğollara qarşı Nizamşahlar dövlətinə hərbi və diplomatik yardım etməsindən, sonradan isə ikibaşlı siyasət yürüdərək, Nizamşahların torpaqlarına hücumlar etməsindən bəhs olunur (8, s.458). Qeyd etmək lazımdır ki, Səfəvi tarixçiləri İsgəndər bəy Münşi "Tarix-i alamarayi Abbasi", Məhəmməd Tahir Vahid isə "Abbasnamə" əsərində Səfəvi imperiyası və Hindistanda yerləşən bir sıra dövlətlər arasında baş vermiş elçilik mübadiləsindən və diplomatik əlaqələrdən bəhs etmişdir.

***Qütbşahlar dövlətinin yaranması.*** 1467-ci ildə Uzun Həsən Çəpəkcür döyüşündə Qaraqoyunlu hökmdarı Cahanşahı, 1468-ci ildə isə oğlu Həsən Əlini məğlub edərək Qaraqoyunlu dövlətinin varlığına son qoydu. Beləliklə, 1468-ci ildə Uzun Həsən paytaxtı Təbriz olan Ağqoyunlular dövlətinin əsasını qoymuş oldu. Təbii ki, Ağqoyunluların hakimiyyətini qəbul etməyən və Əli Şəkər bəy Baharlının varisləri olan tayfa əmirləri çıxış yolunu Hindistanın cənubuna - Dekan yaylasına

köçməkdə gördülər. Köç edənlər içində Qütbşahlar dövlətinin banisi Sultanqulu da vardı. Sultanqulu və əmisi Allahqulu Həmədanı tərk edərək Bidara gəlmiş, Bəhməni sultanının xidmətinə qəbul olunmuşdular. Hadisələrin sonrakı gedişatı zamanı, yəni 1490-cu ildə Ağqoyunlu hökmdarı Sultan Yaqubun vəfatından sonra Allahqulu Həmədana qayıtmaq qərarına gəlsə də, 20 yaşına çatmış Sultanqulu Hindistanda qalıb, burda mübarizə aparmaq istəyirdi (6, s.142-143).

Bəhməni hökmdarı Mahmud şah Sultanqulunu əvvəlcə Xavas xan titulu ilə, sonra isə 1496-cı ildə Qütbülmülk titulu ilə mükafatlandırmışdır. Dövrün tarixçisi Məhəmməd Qasım Ferişta "Tarixi-Ferişta" əsərində Sultanqulunun xidmətlərindən ağız dolusu bəhs eləyir. Müəllif yazır ki, Bəhməni hökmdarı Mahmud şah bir gecə saraydakıları bayram süfrəsinə toplayaraq ziyafət keçirən zaman sui-qəsdçilərin hücumuna məruz qaldı. Xoşbəxtlikdən saray mühafizəçiləri arasında Sultaqulu və ona tabe olan dəstə də vardı. Sultanaqulunun dəstəsindəki on nəfərdən beşi öldürülür, qalan beşi isə son nəfəsinədək kimi sui-qəsdçilərə qarşı döyüşmüşdülər. Müəllif əsərində Mahmud şahın Sultanqulunu Qütbülmülk titulu ilə mükafatlandırmaqla yanaşı, onu ikinci nazir vəzifəsinə də təyin etmişdi (6, s.144-145).

Bu xidmətlərinə görə, Sultanqulu Qütbülmülk Mahmud şah tərəfindən Qərbi Tilangana vilayətinə vali təyin edilir. Artıq sultana sədaqətini layiqincə isbatlayan Sultanquluya Hindistanın ən məhşur şəhərlərindən biri olan Qolkəndə şəhərinin idarə edilməsi tapşırılır. O, əvvəlcə mərkəzi hakimiyyətə qarşı qiyam qaldırmış Orissa və Karnata əyalətlərinin racələrinin qüvvələrini məğlubiyyətə uğratdı, sonra isə Şərqi Tilagana əyalətinin valisi Kıvamülkü hakimiyyətdən uzaqlaşdırdı. 1496-cı ildən başlayaraq qətiyyətlə dövlət qurmaq əzmində olan Sultanqulu nəhayət 1512-ci ildə mərkəzi Qolkəndə olan Qütbşahlar dövlətinin əsasını qoydu (6, s.145).

***Qütbşahlar dövlətinin Azərbaycan Səfəvi və Böyük Moğol imperiyası ilə əlaqələri***. 1512-ci ildə Sultanqulu Qütbşahlar dövlətinin əsasını qoyub, öz adına ilk dəfə xütbə oxutduranda, Səfəvi hökmdarı Şah İsmayılın adını öz adından əvvəl qoyaraq, Səfəvi dövlətindən vassal asılılığını qəbul etmiş oldu. Lakin, 1526-cı ildə Panipat döyüşündə

qələbə qazanan Babur Böyük Moğol imperiyasının əsasını qoyması ilə, Qütbşahlar regionda balanslı siyasət yürütməyə məcbur oldular. İlk öncə, Sultanqulu Panipat zəfəri ilə əlaqədar olaraq, Moğol imperatoru Babura elçi göndərib, onu təbrik etdi. Baburun varisi Hümayunun Qucarat əyalətinə hücum etdiyinə görə, Qütbşahlılar dövləti də daxil olmaqla, bir sıra Cənubi Hindistan dövlətləri moğollardan sərhədlərinin mühafizəsinə görə təminat verməsini rica etmişdilər. Sultanqulu Qütbşah zahirən sünniliyi qəbul edib, sünni toplumunun əhatəsində yaşasa da, əslində şiə idi. Məhz məhzəbi yaxınlıqdan istifadə edən Sultanqulu Cümə xütbələrində, Səfəvi şahının adını xütbəyə əlavə edərək, onun könlünü almağa çalışırdı. Onun əsas məqsədi isə bundan ibarət idi ki, Moğollar Qolkəndəyə hücum edib, dövlətin müstəqilliyinə son qoymaq istəyərlərsə, Səfəvi şahı Qütbşahlıları müdafiə etsin (7, s.10).

Səfəvi imperiyası və Qütbşahlar dövləti arasındakı əlaqələr Sultanqulu Qütbşahın varislərinin dövründə də davam etdirilmişdi. Qütbşah Cəmşid və İbrahimqulunun hakimiyyəti dövründə Səfəvilərlə əlaqələr haqqında məlumatlarımız az olsa da, aydındır ki, Qütbşahların Moğol imperatorluğuna yox, Səfəvi şahına önəm verib, ona hörmət və bağlılığını bildirməsi Əkbər şahı (1556-1605) qəzəbləndirirdi. Digər tərəfdən, Qəndəhar uğrunda Səfəvi və Moğol imperiyaları arasında ciddi rəqabət vardı və Əkbər şahın zorla şəhəri ələ keçirməsi Moğol imperiyası və Qütbşahlar arasındakı münasibətləri daha da gərginləşdirdi (7, s.10-11).

Sultanquludan sonra ən qüdrətli Qütbşah hökmdarı Heydərabad şəhərini quran və paytaxtı Qolkəndədən Heydərabad şəhərinə köçürən Məhəmmədquludur (1580-1612). Məhəmmədqulu Qütbşahın dövründə Qolkəndədə şiəliyin yayılmasında və möhkəmlənməsində Mir Mömin Astrabadinin rolu böyükdür. O, Məhəmmədqulu Qütbşaha yeni paytaxt Heydərabad şəhərinin salınmasında və şiəliyi sürətlə qəbul etməsində mühüm rol oynamışdı. Dövrün görkəmli Səfəvi tarixçisi İsgəndər bəy Münşi “Tarixe-aləmaraye-Abbasi” əsərində Mir Mömin Astrabadinin İsfahan şəhristanın böyük seyidlərindən Mirzə Rza Səd-

rin əmisi olduğunu, "Mircümlə" ləqəbi ilə tanındığını, Hindistana gedib Qütbşah hökmdarına dini işlərdə yardım etdiyini bildirmişdir (7, s.11).

1604-cü ildə Səfəvi hökmdarı Şah I Abbas Qütbşahlar sülaləsi ilə əlaqələri gücləndirmək üçün Məhəmmədqulu Qütbşahın qızı Həyat Bəxşi Bəyimi oğullarından biri ilə evləndirmək qərarına gəldi. Bunun üçün şahzadə Oğuzlu Sultanı elçi olaraq Heydərabada göndərdi. Oğuzlu Sultan 1609-cu ilə qədər Hindistanda yaşadı və sonra geri döndü. Ancaq gözlənilməz bir hadisə baş vermişdi. 1607-ci ildə Həyat Bəxşi Bəyim başqa bir qohumu Sultan Məhəmmədlə evləndirildi (7, s.11).

Səfəvi elçisi Oğuzlu Sultanın uğursuz olmağına baxmayaraq, tərəflər arasındakı münasibətlər yüksələn xətlə davam edirdi. Çünki, Moğol imperatoru Cahangir (1605-1627) Əkbər şahın Dekan sultanlıqlarına qarşı qəskbkar siyasətini davam etdirirdi. Hətta o, Əbdürrəhman Xonan Xana Qolkəndəyə yürüş etməsi üçün qoşun toplamağı da tapşırır. Bundan qorxuya düşən Məhəmmədqulu Şah I Abbasa dəyərli hədiyyələrlə birgə elçisini göndərdi və yardım etməsini istədi. Şah I Abbas isə dərhal imperator Cahangirə elçilərini göndərdi. Qeyd etmək lazımdır ki, o dövrdə Qütbşahların Səfəvi ailəsinin irsi müridləri olması haqqında iddialar da səsləndirilirdi. Şah I Abbas nəinki bu iddiaları dilə gətirir, həm də Qütbşahların Səfəvilərlə xüsusi qohumluq əlaqələrinə malik olduğunu da vurğulayaraq, Moğol imperatorundan Qolkəndəyə hücum etməməsini xahiş etmişdi. Doğrudur, Şah I Abbasın moğollara qarşı diplomatik və siyasi təzyiqləri Qütbşahlar dövlətinin müstəqilliyini qoruyub-saxlamasında həyati əhəmiyyət daşıyırdı, lakin moğollar bölgəyə olan iddialarından əl çəkmək niyyətində deyildilər (7, s.12).

Sultan Məhəmmədqulu Qütbşahın 1612-ci ildə vəfat etməsi xəbəri Səfəvi sarayına gəlib çatanda Şah I Abbas buna çox kədərləndi və dərhal yeni sultan Məhəmməd Qütbşahı (1612-1627) taxta çıxmasına görə təbrik etmək, keçmiş dostluq əlaqələrini qorumaq və davam etdirmək məqsədi ilə, elçisi Hüseyn Keçəçi Təbrizi bəyi paytaxt Heydərabad şəhərinə göndərdi. 1614-cü ilin 6 avqust tarixində Hüseyn Keçəçi

bəy Çabutara qalasında qəbul edildi. Elçi Səfəvi dövlətinə qayıdan zaman Şeyx Məhəmməd Xatunda İsfahana getmişdi. Qeyd etmək lazımdır ki, Şeyx Məhəmməd Xatun Qütbşahlar dövlətinin məşhur əyanlarından olub, dövlətin gələcək vəzirlərindən biri olacaqdı (7, s.12-13).

1620-cı ildə Şah I Abbas Qütbşah elçisi Şeyx Məhəmməd Xatun və digər Dekan dövlətlərinin elçilərinin vətənlərinə dönməsinə icazə verdi. Bu zaman Şah I Abbas daha bir elçisi Qasım Bürhan bəyi Hindistana göndərdi. Bu dəfə Qasım Bürhan bəyin qarşısına ciddi vəzifə qoyulmuşdu. O, Heydərabad şəhərinə getməzdən əvvəl, Moğol sarayına vacib məktub aparmalı idi. Məktubda qeyd edilirdi ki, Səfəvi dövlətinin şahı I Abbas Moğol imperatoru Cahangirlə Dekan yaylasındakı dövlətlərin hökmdarları ilə danışıqlarda vasitəçilik etmək istəyir (5, s.168-169).

1621-ci ilin may ayında Qasım Bürhan bəy Aqra şəhərində Moğol sarayında olur. Qasım bəylə birlikdə, Qütbşahlar dövləti də daxil olmaqla, Dekan yaylasındakı bir sıra dövlətlərin elçilərinin Moğol sarayında qəbul edilib-edilməməsi haqqında dəqiq məlumat yoxdur. Maraqlıdır ki, 1909-cu ildə A.Rocers və H.Beveridge tərəfindən tərcümə olunmuş və Moğol imperatoru Cahagirin xatirələrindən bəhs edən “Memoris of Cahangir” adlı monoqrafiyada göstərilir ki, Cahangir yalnız Moğol sarayına gəlmiş Səfəvi elçisi haqqında məlumat verir. Həmçinin Cahangir Səfəvi şahı I Abbasın ona göndərdiyi “səmimi və dostluq” haqqında məktubunu və şahın ona göndərdiyi hədiyyələri də geniş təsvir edir. Lakin Cahangir Qütbşahlar da daxil olmaqla, bir sıra Dekan hakimlərinin elçilərinin saraya gəlişini təsvir etmir. Bundan belə bir nəticəyə gəlmək olar ki, Səfəvilərin Moğollar və Dekan hakimləri arasındakı danışıqlarda vasitəçi olmaq istəməsi Moğol imperatoru tərəfindən bəyənilməmiş və Moğol imperatoru yalnız Səfəvi elçisi və onun gətirdiyi məktubun haqqında məlumat verməklə kifayətlənmişdir (5, s.169).

1627-ci ildə Sultan Məhəmməd Qütbşah vəfat edir və hakimiyyətə Abdulla Qütbşah (1627-1672) gəlir. Elə eyni ildə Böyük Moğol imperatoru Cahangir vəfat eləyir və hakimiyyətə böyük oğlu Şah Ca-

han gəlir. Şah Cahan isə Dekan hakimliklərinə qarşı daha da təcavüzkar siyasət yürütməyə başlayır. Çətin vəziyyətdə qalan Abdulla Qütbşah dərhal Səfəvi şahı I Abbasın yanına elçilər göndərib, Şah Cahanın hücumunun qarşısnı almaq istəyirdi (5, s.169).

Elçiliyə Qütbşahlar dövlətinin görkəmli əyanlarından olan Xeyrat xan başçılıq edirdi. Ancaq Xeyrat xan Səfəvi sarayına gəlib çatanda Şah I Abbas artıq vəfat etmişdi. Şah I Abbasın varisi Şah I Səfi isə (1629-1642) Qütbşah elçisini böyük təntənə ilə qarşılayır. Qütbşah elçisi 5 il müddətində Səfəvi sarayında qalır və 1634-cü ildə Xeyrat xan Şah I Səfinin Qütbşahlar sarayına göndərəcəyi yeni səfiri-İmamqulu bəylə birlikdə Səfəvi sarayını tərk edir. Beləliklə, Səfəvi sarayında hakimiyyət dəyişikliyinə baxmayaraq, Qütbşahlar da daxil olmaqla, Dekan yaylasındakı dövlətlərlə diplomatik münasibətlər davam etdirilirdi (5, s.169).

Lakin Şah I Səfi sələfi Şah I Abbas kimi xarici siyasət məsələlərinə ciddi diqqət yetirmirdi. Bu isə, Səfəvi dövlətinin Dekan yaylasındakı dövlətləri üzərindəki nüfuzunu və himayəçiliyini zəiflətmiş olurdu. Bundan isə əlbəttə ki, moğollar yararlanmağa çalışırdılar. Digər tərəfdən, Dekan yaylasındakı dövlətlərinin daxili ara çəkişmələri və hakimiyyət uğrunda mübarizəyə görə, müqavimət qabiliyyəti zəifləmişdi. Bütün bunların fonunda, Dekan yaylasındakı Moğol təcavüzünə qarşı müqavimətin əsas dayağı və təşkilatçısı, Nizamşahlar dövlətinin görkəmli sərkərdəsi Məlik Əmbərin vəfatı moğollar üçün Dekan yaylasını işğal etmək üçün fürsət vermişdi. 1633-cü ildə Şah Cahan Nizamşahlar dövlətinin varlığına son qoyması ilə digər Dekan dövlətləri-Qütbşah və Adilşahların da müstəqilliyi üçün təhlükə yarandı (5, s.169).

1636-ci ildə Böyük Moğol imperatoru Şah Cahan Məhəmməd Adilşah və Qütbşah Abdullaya ultimatum xarakterli fərman göndərir. Şah Cahan hər iki dövlətin Moğol dövlətinin vassal asılılığını qəbul edərək, xərac verməsini tələb edir. Şah Cahan yarnmış əlverişli fürsətdən istifadə eləyib, Səfəvilərin regiondakı nüfuzuna da zərbə vurmaq qərarına gəlir. Şah Cahan Qütbşah hökmdarından tələb edir ki, xütbəni şiə qaydasında deyil, sünni qaydasında oxunsun. Həmçinin xütbədə

Səfəvi şahlarının yox, Moğol imperatorlarının adı çəkilsin. Həm Qütbşahlar, həm də Adilşahlar dövləti müqavimət göstərmək qabiliyyətində olmadıqlarına görə, Böyük Moğol imperiyasından vassal asılılığını qəbul etməyə məcbur oldular (5, s169). Hətta 1636-cı ilin 3 noyabrında İsfahana daxil olan Moğol elçisinin gətirdiyi məktubda Şah Cahan öz qələbələrindən bəhs edərkən,Hindistanın Maharaşta əyalətində yerləşən Dövlətabdad qalasını fəth etməsi ilə yanaşı, Nizamşahlar dövlətini süquta uğratdığını, Adilşahlar və Qütbşahlar dövlətini vassal asılılığına saldığını da qeyd etmişdir. Bu məktub bir daha onu göstərir ki, Dekan yaylası Səfəvi və Moğol dövlətləri üçün düyün nöqtəsinə çevrilmişdi (2, s.106). Lakin onu da qeyd etmək lazımdır ki, bu hadisələrin baş verməsinə baxmayaraq, Şah Cahan Qütbşahlarla Səfəvilər arasındakı əlaqələri kəsməyi bacarmadı və tərəflər arasında gizli şəkildə elçi mübadiləsi davam etdirilirdi.

XVII əsrin 30-cu illərinin sonlarında artıq müstəqilliyini qismən itirmiş Qütbşahlar dövləti Böyük Moğol imperiyasına qarşısında dura biləcək yeganə siyasi qüvvə - Azərbaycan Səfəvi imperatorluğu ilə əlaqələrini genişləndirməyə çalışırdı. Şah I Səfinin də Moğol dövləti münasibətləri gərginləşdiyinə görə, Dekan yaylasındakı dövlətləri öz tərəfinə çəkməkdə xeyli maraqlı idi. Bunun üçün, XVII əsrin 40-cı illərinin əvvəllərindən başlayaraq, Səfəvi şahı qiymətli daşların alınması bəhanəsi ilə, tacirlərini Qütbşah və Adilşahlar dövlətinin ərazisinə göndərirdi. Bu tacirlər həm də, Səfəvi şahının gizli məktubunu onlara çatdırmalı idi. Vəziyyəti başa düşən Şah Cahan Səfəvilərin Qütbşahlarla diplomatik əlaqələrinin aktivləşməsindən narahat olduğu üçün etirazını Qütbşah Abdullaya bildirdi. Buna görə də, Səfəvi sarayına göndərilmiş Qütbşah elçisi geriyə dönə bilmədi (5, s.170).

XVII əsrin ortalarında Qütbşahlar dövlətinin daxilində mərkəzi hakimiyyət daha da zəifləməyə başladı və əyanların seperatçılıq meylləri gücləndi. Belə ki, Qütbşah Abdullanın baş vəziri Mir Məhəmməd Emin öz "istedadı" hesabına böyük sərvət və mövqe sahibi olmuş, Dekan yaylasının cənub-şərqindəki almaz yataqları ilə zəngin olan Karnatik bölgəsini tamamilə ələ keçirmişdir. İqtisadi cəhətdən qüvvətlə-

nən Mir Məhəmməd Emin artıq mərkəzi hakimiyyətə tabe olmağa ehtiyac duymurdu və üstəlik Şah Cahanın oğlu, Dekan valisi Övrəngzəblə əlaqələr də qurmağa başlamışdı. 1655-ci ildə Abdulla Qütbşah baş vəzirin sarayda olan oğlu və digər ailə üzvlərini nəzarət altına alması Övrəgzəbin Heydərabada hücum etməsinə şərait yaratdı. 1656-cı ilin sonunda Heydərabad Moğol qoşunları tərəfindən işğal olundu (7, s.15-16).

Lakin 1656-cı ildə Şah Cahan xəstələndi və şahzadələr arasında taxt-tac uğrunda mübarizə başladı. Doğrudur, bu hadisə nəticəsində Moğol qoşunları Heydərabadı müvəqqəti olaraq tərk etmişdilər. Digər tərəfdən Səfəvi hökmdarı Şah II Abbas (1642-1666) əlverişli vəziyyətdən istifadə edib, moğollara sarsıdıcı zərbə vurmaq qərarına gəldi. Buna görə də, Şah II Abbas Dekan dövlətlərinə - Qütbşah və Bicapur dövlətlərinə məktub yazıb göndərdi. Məktubda Şah II Abbas böyük qoşunla Kabili tutmaq üçün gələndə Dekan dövlətlərinin ona hərbi qüvvə ilə yardım etməsini bildirmişdi. Lakin Övrəngzəbin ardı-ardına qazandığı zəfərlər Şah II Abbasın planlarını pozdu və Övrəgzəb Moğol taxtına çıxmağı bacardı. Bu hadisə xüsusilə, Bicapur və Qütbşah dövlətlərini narahat edirdi (7, s.16).

1657-ci ildə onlar Şah II Abbasa elçi göndərərək, onları Övrəgzəbin hücumlarından qorumalarını xahiş etdilər. Şah II Abbas isə 1660-cı ildə elçisi Budaq bəyi Moğol imperatoru Övrəgzəbin yanına göndərdi. Şah şifahi deyil, həm də məktubla Qütbşah və Bicapur dövlətlərinin müstəqiliyinin qalmasına təminat verilməsini bəyan etmişdi. Övrəngzəb Səfəvi şahının Dekan sultanlıqlarının qəyyumu kimi çıxış etməsinə qarşı çıxdı və Dekan sultanlıqlarına qarşı ardı-arası kəsilməyən yürüşlər etməyə başladı (7, s.16).

1666-cı ildə Şah II Abbasın ölümü və Azərbaycan Səfəvi dövlətinə zəif iradəli hökmdar Şah Süleymanın (1666-1694) hakimiyyətə gəlməsindən sonra Övrəngzəbin Qütbşahlara təzyiqi daha da artdı. Buna görə də, 1683-cü ildə Əbülhəsən Qütbşah (1672-1687) Şah Süleymana gizli şəkildə siyasi məzmunlu məktub göndərdi. Məktubda, Əbülhəsən Qütbşah Şah Süleymanı şiə məzhəbinin böyük himayədarı olduğunu qeyd etmişdir. Daha sonra məktubda Qütbşahlar nəslinin ulu

əcdadlarının Səfəvilər sülaləsi ilə dini və siyasi əlaqələr saxladığı vurğulanırdı. Əbülhəsən Qütbşah dövlət daxilindəki vəziyyəti şərh etməzdən əvvəl, düşmənlərdən qorxduğunu qeyd edərək, nəzakətlə üzr istəyirdi. O, moğolların hədlərini aşmasından, paytaxt Heydərabad şəhərində əmin-amanlığın pozulmasından şikayətlənirdi (6, s.256-257).

Əbülhəsən Qütbşah məktubun sonrakı hissələrində Moğolların Qütbşah və Bicapur dövlətləri ilə bağladığı barışığa əməl etmədiyini də açıqlayır. Məktubda Qütbşah hökmdarı təxminən 6 il əvvəl, daha doğrusu 1677-ci ildə Moğol sərkərdələri Dilər xanın və Bəhlul xanın yürüşündən bəhs eləyir. Qütbşah hökmdarı qeyd eləyir ki, hücuma məruz qalan Qolkəndə şəhərini nüfuzlu şiə liderlərinin rəhbərliyi altında müdafiə olunmuşdur. Digər tərəfdən, Əbülhəsən Səfəvilərin dəstəyini almaq üçün iddia eləyirdi ki, guya Moğol imperatoru Övrəngzəb Dekan yaylasındakı dövlətləri işğal etdikdən sonra, Səfəvi ölkəsini də fəth etmək fikrinə düşəcək (6, s.257-258).

Tarixi mənbələrdə, Şah Süleymanın Qütbşah dövlətinə elçi göndərməsi və ya Qütbşah hökmdarına cavab məktubu yazması haqqında məlumat yoxdur. Ancaq həqiqət olan odur ki, 21 sentyabr 1687-ci ildə Qütbşahlar sultanlığı Moğol ordusu tərəfindən zəbt olunur, Əbülhəsən Qütbşah isə əsir alınır və Moğol imperiyası bu dövlətin müstəqilliyinə birdəfəlik son qoyur (6, s.259).

***Qütbşahlar dövlətinin hakimiyyəti dövründə mədəniyyət.*** Qütbşahlar İslam və Hindu mədəniyyətlərini sintez edərək yeni bir üslub meydana çıxarmışdılar. Vicayanaqarda yeddi il müddətində yaşayan İbrahim Qütbşah İslami hökmdarlıq əlamətləri ilə yanaşı, hind hakimiyyət simvollarından da istifadə etmişdir. İki fərqli mədəniyyətin birləşməsi nəticəsində, Dekan yaylasında yeni bir dil Dahni və ya Dakhni adlı yeni bir dil meydana gəldi. Sultan Məhəmmədqulu bu dilin ən önəmli və ən məşhur yazarlarından idi. Qeyd etmək lazımdır ki, Qütbşahlar dövlətinin ərazisi zəngin almaz yataqları ilə zəngin idi. Buna görə də, zərgərlik istehsalı dövlətin əsas gəlir qaynaqlarından biri idi. Qolkəndə almazı region ölkərində məşhur idi (4, s.500).

Dekan sultanları Hindistandakı digər hökmdarlar kimi şair, ədib və tarixçiləri himayə etmiş, elm və mədəniyyətin inkşaf etməsinə çalışmışdılar. Məhəmmədqulu Qütbşah (1580-1612) bölgənin yerli dillərindən olan teluqu, dakhini urducası və farsca şeirlər yazmışdır. O, Allah və peyğəmbəri tərif edən şeirlərlə yanaşı, təbiət sevgisi, dünyəvi eşq və dövrünün sosial həyatından da bəhs edən şeirlər yazmışdır (3, s.355).

İbrahimqulu Qütbşah (1550-1580) teluqu dilində şeirlər yazmış və bu dilin inkşafını təşviq etmişdir. Heydərabad şəhərinin qurucusu, 15 yaşında taxta keçən və 30 il hakimiyyətdə olan Məhəmmədqulu Qütbşah dövrünün "poliqlot" hökmdarı idi. Çünki ərəbcə, farsca, dakhinicə və teluquca dillərini bilmişdir və daha çox urduca və farsca şeirlər yazmışdır. Hökmdar-şair şeirlərini "Külliyatı-Qulu-Qütbşah" başlıqlı divanında toplamışdır. Dünya tarixində Məhəmmədqulu Qütbşah urdu dilində ilk divanın müəllifidir. Maraq üçün qeyd edək ki, həmin divan 1922-ci ildə Heydərabad şəhərində Əbdül Haq tərəfindən tapılmışdır (3, s.357).

Qeyd etmək lazımdır ki, Qütbşahlar dövlətində elmin müxtəlif sahələri inkşaf etmişdi. Qütbşah hökmdarı İbrahimqulu oğullarının təlim-tərbiyəsi ilə şəxsən özü məşğul olmuşdu. Buna görə də, hökmdarın oğullarından Əbdül Qadir bacarıqlı bir xəttat, Mir Hüseyn məntiq və fəlsəfə alimi, Əbul-Fəth isə Qurani-Kərimi uğurlu şəkildə şərh edə bilən müfəssir idi. Şahın üçüncü oğlu Məhəmmədqulu isə yuxarıda qeyd etdiyimiz kimi, bir şair kimi yetişmişdi (3, s.358).

***Nəticə.*** 1468-ci ildə Qaraqoyunlular dövlətinin süqutundan sonra, bu dövlətin formalaşmasında və inkşafında iştirak etmiş tayfaların bir qismi Ağqoyunlular dövlətinə tabe olsalar da, digər bir qismi Ağqoyunlulara tabe olmaq istəməmiş və Hindistana-Dekan yaylasına getmişdilər. Həmin tayfalar Hindistanda dövlət qurmuş və mövcud olduqları 175 il ərzində regionda mühüm rol oynamışdılar. Qeyd etmək lazımdır ki, yeni yaranmış Qütbşahlar dövləti tarixi Azərbaycan torpaqlarında qurulmuş Səfəvi dövləti ilə əlaqələr yaratmış və Böyük Moğol imperiyasının təcavüzünə qarşı etibarlı müttəfiq qazanmışdı.

Qütbşahlar dövləti Hindistanın mədəni həyatında da mühüm rol oynamışdı. Dünya tarixində ilk urdu dilində divanın müəllifi Qütbşah hökmdarı Məhəmmədqulu Qütbşah idi. Ədəbiyyat sahəsində Qütbşah hökmdarları Kərbəla şəhidlərinin xatirəsinə mərsiyələr yazsalar da, qəsidə, rübai və məsnəvi janrlarında da öz məharətlərini göstərmişdilər. Qütbşahlar dövlətinin tarixini tədqiqata cəlb edərkən, aydın olur ki,dövrün mənbəşünaslıq bazasını "Tarixi-Ferişta", "Tüzuk-i Ratu'l Mülk" və "Tarix-i Kutbiya" kimi hind müəlliflərinin qələmindən çıxmış əsərlər təşkil etmişdir. Mövzumuzun tarixşünaslıq bazasına toxunarkən qeyd etmək vacibdir ki, Qütbşahlar dövlətinin tarixi haqqında H.K.Sherwani, J.N.Sarkar, A.M.Siddiqui kimi çox az akademik əsərlər yazmışdır. Həmin əsərlərdə isə daha çox, Qütbşahlar dövlətinin siyasi tarixi araşdırılmışdır.

## ƏDƏBİYYAT

1. Bayur Yusuf Hikmet. Hindistan tarihi, İlk çağlardan Gurkanlı devletinin kuruluşuna kadar (1526). I cilt, 2.Baskı. Ankara, Türk Tarih Kurumu Basımevi, 1987, 2105 s. - https://turuz.com/book/title/Hindistan+Tarihi+3Cild+Yusuf+Hikmet+Bayur [09.04.2023].
2. İsmailoğlu Ergün. Şah Safi döneminde Safevi devleti (1629-1642). Türkiye Cumhuriyyeti, Mimar Sinan Güzel Sanatlar Üniversitesi Mimar Sinan Güzel Sanatlar Üniversitesi, Sosyal Bilimler Enstitüsü, İstanbul, 2022, 133 s. - https://www.avetruthbooks.com/2023/03/ergun-ismailoglu-sah-safi-doneminde-safevi-devleti-1629-1642-yuksek-lisans-tezi-2022.httml [09.04.2023].
3. Karagözoğlu Berna. Kutub Şahi Hanedanlığı'nın Başkenti Golkonda'da Fars Dili ve Edebiyatı // Akademik Tarih ve Düşünce Dergisi, 2018, 5(16), s.348-361. - https://dergipark.org.tr/tr/download/article-file/543736 [09.04.2023].
4. Konukçu Enver. Kutubşahiler / İslam Ansiklopedisi, 26 cild, Türkiye Diyanat Vakfı, 2002, s.500. - https://islamansiklopedisi.org.tr/kutubsahiler [09.04.2023].

5. Məmmədova Y.E. Dekən knyazlıqları ilə Səfəvi dövləti arasında qarşılıqlı əlaqələr və həmin əlaqələrin Moğol-Səfəvi münasibətlərinə təsirinə dair // Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, 2009, №, s.166-172.
6. Nəcəfli Tofiq. Azərbaycan Səfəvi dövlətinin Hindistanın türk-müsəlman sultanlıqları ilə əlaqələri. Azərbaycan Milli Elmlər Akademiyası.A.A.Bakıxanov adına Tarix İnstitutu. Bakı: "Turxan" NPB, 2020, s.400. - https:// www.academia.edu/resource/work/45579196 [09.04.2023].
7. Necefli Tofiq. Safevi Devleti'nin Hindistan' daki Müslüman Türk Sultanlıkları ile ilişkileri // Uluslararası Türk Dünyası Bilimsel Araştırmalar Dergisi. 2022, 3(1), s:1-31. - https://dergipark.org.tr/tr/pub/turkuaz/issue/70810/1125767 [09.04.2023].
8. Oruç Cihan. Adilşahlar sultanlığı üzerine yazılan farsça yerli vakayinameler // Türk Dünyası Araştırmaları.Kasım-Aralık 2020, Cilt 126, Sayı 249, s.449-468. - https://www.academia/edu/resource/work/44691937 [09.04.2023].

**TURAL GAFFAROV**
*3rd year student of the Faculty of History*
*of Baku State University*

# KARAGOYUNLU STATEHOOD IN INDİA - QUTB SHAHİ

In the article, the creation of the state of the Qutb Shahi, its powerful periods, internal and external factors of its decline have been investigated. The role of the Qutb Shahi state in the history of Azerbaijan has been explained. Also, the diplomatic relations of the Qutb Shahi state between the Safavid and Great Mogol empires have been analyzed in the article. The structure and components of the work "Tarihi-Ferishta", which is the main historical source for studying the history of the Qutb Shahi state, have been clarified. In addition to the,

during the rule of the state of Qutb Shahi, the problem of patronage of science and culture by the rulers has been involved in the research.

*Keywords:* Deccan Plateau, Sultangulu Qutbulmulk, Baharlı tribe, “Tarikh-i Ferishta”, Golconda, The Great Mughal Empire.

*Daxil olma tarixi*: 09.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

№2(8) 2023

**UOT 327**

**ULFAR MAMMADLİ**
*Second year graduate student of Baku State University majoring in "History of the Turkic World"*
**ulfermemmed@gmail.com**

# THE POLICY OF USING THE DOUBLE-STANDARDS APPROACH OF MAJOR POWERS (AS AN EXAMPLE OF ARMENIA'S AGGRESSION AGAINST AZERBAIJAN)

*Scientific supervisor*:
PhD in history Sevinj Ruintan

*As a result of unjust wars waged by imperialist forces for the sake of geostrategic interests, many countries and some regions have become the scene of bloody conflicts in modern times. Because of the large nations' use of a double standard, international law is breached, and Armenian terrorism in the Caucasus persists even after the Second Karabakh War. Ultimately, the study examines how superpowers use double standards and ignore international law. In addition, the article also mentions the double-standard approach of the world's states to the Ukraine-Russia and Azerbaijan-Armenia conflicts.*

*Keywords:* double standards, great powers, international law, Karabakh.

***Introduction.*** The Caucasus has historically been a place where the desires of strong powers have clashed. From a geopolitical standpoint, the South Caucasus is Anatolia's door to Central Asia and Central Asia's gateway to the West. The Caucasus, located at the crossroads of the north-south and west-east highways, had a significant impact on the development and flow of history. As a result, the Caucasus has historically retained its significance throughout history. Because of its diverse cultures, strategic confluence of two continents, and abundant energy resources, the Caucasus region has historically been a competitive arena for world powers. After World War I, this region, which became the focus of several republics at different periods, came under the influence of the Soviet Union. Following the fall of the USSR, the

independent governments that emerged in this region caught the attention of major world powers. Rather, the number of foreign interventions in the region increased. Numerous issues have arisen in the area as a result of the expansion of these interventions. One of the important problems in the Caucasus region is Armenia's aggression against Azerbaijan and the Karabakh problem. Unresolved conflicts in the region benefit superpowers (the US and Russia) fighting for influence. Because in this instance, it offers the other country a chance to show that it controls the region and has influence there [8, p.224]. In general, this is the beginning of the double standard approach of the countries of the world.

***What is the "double standard" in international relations?*** The word double standard is one of the most frequently used terms in international politics. A double standard is the application of a policy or principle to similar things in different ways without proper justification. In other words, he has a different attitude toward nations and states. The bias of large states against small states is the most discussed aspect of double standards [1, s.31].

The double standard approach to time, environment, and conditions is the behavior of big powers for their own national interests. Actions perceived as double standards by small states have historically existed in the foreign policies of large states. For this reason, the big countries show double standards as the required policy of the time. The national interests of these states are calculated not to lose influence in different regions.

It should be noted that the application of decisions made by international organizations and the international powers' application of a double standard to international law provide favorable conditions for the expansion of aggressive and separatist activities by an invading and terrorist state like Armenia.

The "double standards" approach that currently dominates the system of international relations really makes it impossible to apply legislation based on international legal norms firmly and morally. In

general, it is necessary to ask here whether international legal norms are protected in the world at present.

***International law, or the law of the strong.*** The Nagorno-Karabakh conflict has been a topic of discussion in international institutions and organizations for more than thirty years, and most crucially, the general public is aware that the issue exists even though they are unaware of its true nature.

Four resolutions [3] passed by the UN Security Council discussing the conflict and requesting the complete and immediate departure of Armenian forces from the occupied territory were not carried out; The OSCE Minsk Group held numerous sessions and negotiations, but it was unable to complete its duty; The rule of international law has been disregarded; The UNESCO fact-finding team didn't visit the occupied territories even once to give the international community accurate information about the destruction and crimes committed by Armenians there; Everyone attempted to maintain the status quo and pressure the Azerbaijani side to accept the occupation; Everyone urged Azerbaijan to continue pointless and ineffective negotiations for peace and insisted that "there is no option to resolve the conflict by military means".

Armenia's occupying policy has been strengthened as a result of the mediators' actions supporting the occupying state. Also noteworthy is the fact that the co-chairs of the OSCE Minsk Group - Russia, France, and the United States - were what brought them together in this situation. Although these nations' interests may conflict in various geographic locations, the Armenian problem and Turkish animosity serve as the major ties that bind them. Thus, the state that invaded the territory of another state in violation of international law was not subject to any pressure or influence. No sanctions were imposed against the invader. Instead, it was suggested that the parties "come to terms with the existing reality".

The current situation once again reflects the reality of “powerful states” and the “big policies” they are pursuing. Throughout history, the powerful states have continuously prioritized their geopolitical

interests and big policies in an effort to divide the world between them [5, p.3].

If the UN's four resolutions affirming the inviolability of our nation's territorial integrity are disregarded at a time when the Azerbaijan-Armenia conflict is at its worst, "international legal norms" are nothing more than empty rhetoric.

In other words, the primary geopolitical actors' power potential, not international laws and institutions, determines the global order. International institutions and organizations are made up, fictitious entities designed to serve their interests and hide their wrongdoings. What sort of justice and international law can we talk about if the incidents and deaths in places where geopolitical interests collide are covered up by international organizations? In many nations around the world, hostilities and wars never cease. The South Caucasus is home to similar circumstances.

***Armenian terrorism against Azerbaijan and double standards.*** The Armenians' claims on Azerbaijani territory, including Nagorno-Karabakh, are a component of their long-term strategies to establish "Greater Armenia". As a result, Armenians are loyal to their "traditions" and fight to have this plan implemented whenever the chance arises.

We lost 20% of our lands in the late 1980s and early 1990s as a result of Western nations backing Armenia's aggressive policies and displaying a double standa toward our nation; we also experienced this attitude during the 30-year occupation. Based on its strength and legal position, our independent state freed its territories from occupation during the 44-day Second Karabakh War.

After winning the Second Karabakh War, Azerbaijan is now being accused harshly, hypocritically, and unjustly by several countries that support Armenia. The Western nations' use of a double standard and refusal to accept Azerbaijan's success stand in the way of the creation of regional peace and stability.

Thus, numerous conferences were conducted to normalize relations between Azerbaijan and Armenia. Finally, on May 14, an approach to the peace process was observed in the meetings held in Brussels on the initiative of the President of the Council of the European Union, Charles Michel [7]. Even Armenia has recognized the territorial integrity of Azerbaijan[12]. However, some pro-Armenian powers, such as France and Iran, who refuse to recognize Azerbaijan's realities in the South Caucasus region, divert the enemy country's attention away from signing a peace deal.

For 30 years, France, which has a dual attitude toward our country, has not taken any successful steps toward the freedom of Azerbaijani regions. On the contrary, it has prolonged the dispute. Despite the fact that the II Karabak war has been over two years, the French administration is still unable to accept that Azerbaijan annihilated the Armenian usurpers during this war. Emmanuel Macron made nasty and malicious statements in an interview with the "France 2" TV channel, declaring that Azerbaijan conducted a horrific war in reaction to the provocation provided by Armenia in September 2022 [10]. So, for the sake of Armenian interests, France attacks collaboration with Azerbaijan.

By backing the Armenian occupation and terrorism, the Islamic Republic of Iran undermines the bilateral and strong neighborly relations established with Azerbaijan many years ago. The fact that Iran conducts military exercises near Azerbaijan's border and regards Azerbaijan as a friend but treats it as an enemy in practice is indicative of double standards.

Armenians robbed villages and cities and attempted to destroy our historical and cultural legacy during the occupation of Karabakh. Libraries, museums, and cemeteries were all destroyed during the occupation, and precious manuscripts were burned. Mosques, which are regarded as the most essential values in the Islamic world, have been torched and insulted by Armenian vandals and have been utilized as stables at best. Armenian archaeologists undertook illicit excavations in the Shahbulag castle of Aghdam a few years ago, which was under

occupation at the time. Towers uncovered during excavations, as well as a number of Azerbaijani architectural masterpieces, were taken to Armenia [4].

The resolution adopted by the European Parliament on March 10, 2022, about the destruction of Armenian cultural heritage in Karabakh exemplifies the dishonest and double-standard policies of international and regional institutions that serve as tools in the hands of the Armenian lobby. As a result of the Armenian invaders' arbitrariness, no international pressure was applied to Armenia over the destruction and purposeful harm to our historical and cultural sites. This, however, is in conflict with the 1954 Hague Convention "On the Protection of Cultural Property in the Event of Armed Conflict," the 1992 European Convention "On the Protection of Archaeological Heritage," and the 1972 UNESCO Convention "On the Protection of the World Cultural and Natural Heritage" [6]. This is another clear manifestation of the international community's double standards.

As it is known, from December 2022 to April 28, eco-friendly activists and representatives of non-governmental organizations (NGOs) protested the illegal exploitation of the Kyzylbulag gold and Demirli copper-molybdenum deposits in our areas, where Russian peacekeepers are temporarily stationed. It has been temporarily suspended since April 28. They expressed their great joy at the establishment of a border control mechanism by our border guards at the beginning of the Lachin-Khankendi road. This will ensure transparency and safety on the road. However, eco-friendly activists noted that the action did not fully reach the goal [9].

This action was a socio-political movement reflecting the ownership of the land and natural resources of the Azerbaijani people as a result of our victory in the 44-day Patriotic War. However, PACE's unfair assessment of this and calling it a "blockade" is clearly one of the decisions made in favor of Armenia [11].

***Analysis of different approaches to the Russia-Ukraine and Azerbaijan-Armenia conflicts***. First, let's look at the *sanctions against aggression*. Unprecedented sanctions were imposed against Russia

after it launched a full-scale war against Ukraine. After Armenia occupied the territories of Azerbaijan, no sanctions were accepted against it. But the double standards of the West do not end there. Throughout the years of occupation, we have heard from EU officials that "there is no military solution to the conflict in Karabakh." Nowadays, the EU's High Representative for Foreign Affairs and Security Policy, Joseph Borrell, said the war in Ukraine "must be won on the battlefield" [13]. *Bayraktars* is a separate issue. Indeed, during the second Karabakh War, we all remember that many Western countries expressed negative opinions about Azerbaijan's use of UAVs, condemned Turkey, and stopped the supply of parts necessary for the production of Bayraktars. Today, after the Russia-Ukraine war, their position has changed dramatically. Because in this war, Ukraine utilizes Bayraktar. *Military Trophy Park:* When Azerbaijan held a victory parade and opened Military Trophy Park, politicians in the West reacted by suggesting that it was "inhumane". As for Ukraine, Biden himself visited the "Trophy" park, which is included in the protocol of the visit in Kiev. Besides, the letter from the Council of Europe's Commissioner for Human Rights, Dunya Mijatovich, to the President of Azerbaijan reveals that Brussels remains loyal to the traditions of double standards and a selective approach. The commissioner expressed concern about "scenes incompatible with humanism", "communities" in and around Nagorno-Karabakh, "disturbing and humiliating images", and the opening of the Military Spoils Park in Baku [2, p.552]. An example of a true double standard. Regarding the issue of *citizenship,* the Azerbaijani president said that Armenians can continue to live in Karabakh as citizens of Azerbaijan; if they do not agree, they can leave. This is a sign of ethnic cleansing for West. President Zelensky said that after the return of Crimea, all citizens of the Russian Federation should leave the peninsula. but this is considered normal. *Status conflict.* Since 2014, Russia has been demanding a special status for Donbas; the West is against it. In the case of Karabakh Armenians, they demand "status" from Azerbaijan under the name of "discussing the rights and security of Karabakh Armenians with international participation". It is

clear that Western countries want to continue the chaos in the Caucasus region. They are committed to the "separate, divide, and rule" policy they have been implementing for years. Because there is an opinion in the West that if, for example, the status quo changes in the South Caucasus and this change does not meet their interests, then it is necessary to play a double game.

***Conclusion.*** The course taken by the Great Powers in the Nagorno-Karabakh issue, as in the Armenian genocide charges, might be described as self-interested. The experience of the last 30 years has clearly shown that international legal norms do not work today. Great powers implement decisions that benefit them, and do not implement decisions that do not benefit them. Most importantly, they call what they want legal and what they don't want illegal.

The resolution of the Karabakh conflict was handled by the world's greatest international organization, the United Nations, and its Security Council. The old continent created the Minsk Group of the OSCE. The European Union, the Council of Europe, and other institutions have repeatedly adopted various decisions. For many years, numerous meetings and talks have been held in order to resolve this problem; various suggestions and criteria have been put forward; and "solution packages" have been developed. But it didn't help. Azerbaijan was compelled to fight for its just cause on the battlefield. During the 44-day war, however, the UN, the Council of Europe, the European Union, and the co-chairs of the OSCE Minsk Group did not condemn Armenia, which used ballistic missiles against civilians and killed a large number of people. Instead, there have been pronouncements of a cessation of hostilities and the immediate commencement of negotiations. If international organizations and states were truly concerned about the war, if they were pained by this situation that resulted in human death, and if they wanted justice to be established, they should have enforced Armenia's, the occupying party's, prompt exit from the seized regions. but they didn't. Even after the 44-day war, Armenian terrorist attacks continue to this day, with no action taken to prevent them.

Those who defend the occupiers, those who turn a blind eye to terrorism and the bloody acts of the aggressor, should know that the impunity of one crime is the basis for the next crime. The world should not forget that no country is immune from terrorism, just as a terrorist has no homeland.

REFERENCES

1. Aygün Abdullayeva. AB-nin Türkiyəyə münasibətdə "İkili standartlar" yanaşması / Mustafa Kamal Atatürk-135, Türkiyə Cümhuriyyəti azərbaycanlı gənc tədqiqatçıların araşdırmalarında, Bakı, 2016, s.31-33.
2. Aygün Əliyeva. 44 Günlük Vətən Müharibəsi Ərzində və Sonrasında Azərbaycan Avropa İttifaqı Münasibətləri // Akademik Tarih ve Düşünce dergisi, Cilt 9 (2), 2022, s.536-560. - https://dergipark.org.tr/en/download/article-file/2643015 [18.04.23]
3. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə Qətnamələri / Qarabağ. Beynəlxalq sənədlər. - http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/bmt.pdf [18.04.23].
4. Coşqun Məmmədov. Erməni vandalizmi: Tarixi-mədəni irsimizə qəsd / Azərbaycan Milli Elmlər Akademiyası, 06.10.2020. - https://science.gov.az/az/news/open/14471 [18.04.23].
5. Emin Arif Şihaliyev, Büyük Satranç Tahtasi'nda Güney Kafkasya: Ermenistan Azerbaycan Savaşi, Devletlerin tutumu ve Jeopolitik hamleler // Orta Doğu Ve Orta Asya-Kafkaslar Araştırma Ve Uygulama Merkezi Dergisi, 1 (1), 2021, s.1-17.
6. Əli. İşğalçılar daşınması ümkün olan maddi mədəniyyət abidələrini Ermənistana aparıblar / Xalq Cəbhəsi, 2015 20 fevral, s.13. - http://www.anl.az/down/meqale/xalqcebhesi/2015/fevral/422012.htm [18.04.23].
7. İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri ilə görüşü olub / AR Prezidentinin rəsmi səhifəsi, 14 may 2023. -https://president.az/az/articles/view/59759 [18.04.23]

8. Kəmalə Ruintən. Ermənistanm Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı: Adiloğlu nəşriyyatı, 2008, 260 s.
9. Laçın-Xankəndi yolunda ekoloji aksiya 138 gündən sonra dayandırılıb / Mədəniyyət, AR MN nəşri, 29-04-2023. - https://medeniyyet.az/page/news/67555/.html?lang=az [18.04.23]
10. Makron hamını qəzəbləndirib: Azərbaycan və Britaniya da narazıdır / BBC News Azərbaycanca, 14 oktyabr 2022. - https://www.bbc.com/azeri/region-63261462 [18.04.23]
11. Musa Bağirli, İkili standartlar beynəlxalq qurumları nüfuzdan salır / Respublika qəzeti, 2023-01-31. - https://respublika-news.az/news/ikili-standartlar-beynelxalq-qurumlari-nufuzda n-salir [18.04.23]
12. Paşinyan: "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdı" / APA.tv, 17 may 2023. - https://apa.az/az/apa-tv/xeber/xeberler/pasinyan-ermenistan-azerbaycanin-erazi-butovluyunu-tanidi-80224 [18.04.23]
13. Taleh Ağaverdiyev. Dünyanın humanist və qərəzli standartları. Ölüm silahı, yoxsa qoruyucu mələk? / Yeni Azərbaycan, 14.04.2022. -https://www.yeniazerbaycan.com/Siyaset_e68031_az.html [18.04.23]

**ÜLFƏR MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*"Türk dünyası tarixi" ixtisası üzrə II kurs magistrantı*

# BÖYÜK DÖVLƏTLƏRİN İKİLİ STANDARTLAR YANAŞMASINDAN İSTİFADƏ SİYASƏTİ (ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ NÜMUNƏSİNDƏ)

İmperialist qüvvələrin geostrateji maraqlar naminə apardıqları haqsız müharibələr nəticəsində müasir dövrdə bir çox ölkələr və bəzi regionlar qanlı toqquşmaların meydanına çevrilib. Böyük dövlətlərin ikili standartdan istifadə etməsi nəticəsində beynəlxalq hüquq pozulur və Qafqazda erməni terrorizmi İkinci Qarabağ müharibəsindən sonra

da davam edir. Buna görə də, tədqiqat supergüclərin ikili standartlardan necə istifadə etdiyini və beynəlxalq hüquqa məhəl qoymadığını araşdırır. Bundan əlavə, məqalədə dünya dövlətlərinin Ukrayna-Rusiya və Azərbaycan-Ermənistan münaqişələrinə ikili standart yanaşması da qeyd olunur.

*Açar sözlər:* İkili standartlar, böyük dövlətlər, beynəlxalq hüquq, Qarabağ.

*Daxil olma tarixi*: 18.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

**UOT 94; UOT 94(479.24)**

**ZEYNƏB ALIŞOVA**
*Azərbaycan Universiteti "Azərbaycanın qədim və orta əsrlər tarixi" ixtisaslaşması üzrə II kurs magistrantı*
**zeynebalis56@gmail.com**

# BAYANDURLU-MƏMLÜK VƏ BAYANDURLU-OSMANLI MÜNASİBƏTLƏRİNDƏ SARA XATUNUN ROLU

*Elmi rəhbər*:
akademik Yaqub Mahmudov

*Türk dövlətlərinin idarəçilik sistemində tez-tez rast gəlindiyi kimi Baharlı və Bayandurlu dövlətlərində də qadınlar cəmiyyət, diplomatiya və dövlət idarəçiliyində çox mühüm rol oynamışdır. Xüsusilə, hökmdar arvadları və anaları olan xatunlar dövlətin daxili və xarici əlaqələrində müxtəlif və önəmli missiyaları həyata keçirərək dövlət siyasətinə və diplomatik münasibətlərə olduqca təsiredici bir istiqamət vermişdirlər. Həmin qadın şəxsiyyətlərinə Baharlı dövlətindən Xatun Can Bəyimi və Bayandurlu dövlətindən Sara Xatunu misal göstərə bilərik.*

*Açar sözlər:* Bayandurlular, Sara Xatun, Qadın, Diplomatiya, Dövlət idarəçiliyi.

***Giriş.*** Qaynaqlarda Uzun Həsənin anası olaraq bildirilmiş Sara Xatunun kimliyi haqqında çox məlumata rast gəlinməmişdir. Sara Xatun, Bayandurlu Qutlu bəyin oğullarından Pir Əli bəyin qızı və Bayandurlu bəyliyinin qurucusu Qara Yuluq Osman bəyin qardaşı qızıdır. Osman bəyin ən böyük oğlu olan Əli bəy ilə evləndirilən Sara Xatunun bu nigahdan 7 oğlu (Uzun Həsən, Cahangir, Hüseyin, Cahanşah, İsgəndər, İbrahim və Üveys) və 1 qızı (Xədicə bəyim; hansı ki, Səfəvi şeyxi Cüneyd ilə evləndirilmişdir – Z.A) dünyaya gəlmişdir. Doğum ili dəqiq olaraq bilinməsə də, Sara Xatunun ölüm tarixi mənbələrdə 1465-ci il olaraq qeyd olunmaqdadır. Adı fərqli qaynaqlarda Sarə Xatun, Sara Xatun, Såra Xatun kimi keçsə də, Faruq Sümər türkmənlərdə

qadınlara Sara adının qoyulmasından yola çıxmış və bu adın Sara Xatun olduğunu qeyd etmişdir [2, 289].

Tədbirli dövlət siyasəti ilə Bayandurlu daxili və xarici münasibətlərinin tənzimlənməsində xüsusi rol oynamış Sara Xatun daxili çəkişmələrdə oğulları arasındakı münasibətləri tənzimləmiş, xarici əlaqələrdə isə qonşu dövlətlərlə diplomatik danışıqlar aparmış, sülh mövqeyindən çıxış etmiş, müqavilələr imzalamışdır. Qəffarinin "Tarix-i Cihan-əra" əsərində də qeyd olunduğu kimi Sara Xatun türk dövlətləri tarixinin əhəmiyyətli diplomat qadınları sırasına öz adını müvəffəqiyyətlə yazdırmışdır. Həmin əsərdə Sara xatunun ədalətli, adil, anlayışlı, siyasi zəkaya sahib və iradəsi qüvvətli bir şəxsiyyət kimi təsvir edilməsi Bayandurlu dövlətinin tarixində onun əhəmiyyətli rol oynaması barədə söylənilən fikirləri təsdiq etməkdədir [6].

Məmlüklər, Baharlılar və Osmanlılar kimi qüdrətli dövlətlərlə əlaqələr yaratmış Sara Xatun həmin dövlətlərlə əhəmiyyətli və beynəlxalq münasibətlərdə mühüm rola malik müqavilələr imzalamışdır. Məsələn, oğlu Cahangirə kömək etmək üçün Məmlük hökmdarı Zahir Seyfəddin Çaxmağın yanına elçi olaraq getmiş, Cahanşahın əmirlərinin Mardini ələ keçirməsi prosesinə mane olmaq üçün Məmlük dövlətindən dəstək istəmişdir. Lakin, Cahangirin Amid və Məmlük sərhədlərinə çəkilməsinə baxmayaraq Məmlük dövləti Cahangirin öz dövlətinə sığınmasına imkan verməmişdir. Sara Xatun bu hadisədən sonra yola çıxaraq Qahirəyə getmiş və orada yaxşı qarşılanmışdır. Hətta Məmlüklər bu hadisədən sonra Bayandurlulara dəstək verməyə başlamışdır. Beləliklə, 1451-ci ildə Cahangirin oğlu Qahirəyə gələrək atasının təşəkkür və bağlılığını bildirən məktubu Məmlük sultanına təqdim etmişdir. Sara Xatunun Məmlüklər dövlətinə sonrakı səfəri Xarput qalasının açarını Məmlük sultanı Xoşqədəmə tədqim edilməsi məqsədi ilə həyata keçirilmişdir [4, 353].

Sara Xatun, Uzun Həsən və Fateh Sultan Mehmed arasında baş vermiş Trabzon məsələsində də öz diplomatik bacarığını xüsusilə göstərmiş və bu məsələdə əhəmiyyətli rol oynamışdır. Trabzon imperatoru David Komninin Osmanlı imperiyasına qarşı Uzun Həsənə müraciəti ilə David Komnin və Uzun Həsən arasında ittifaqın yaradılması

ilə nəticələnmişdir. Bayandurlulara qarşı hərbi səfər hazırlıqlarına başlamaq ərəfəsində olan Fateh Mehmedin yanına göndərilmiş elçi heyətinə Sara Xatun və Çəmişgəzək bəy Kürd Həsən daxil idi. Sara Xatun və Osmanlı vəziri Mahmud paşanın təsiri ilə Osmanlılar və Bayandurlular arasında müqavilə imzalanmışdır ki, həmin müqavilənin şərtləri aşağıdakılardır:

- Bayandurlular Osmanlı torpaqlarına və onların himayələri altında olan ərazilərə hücum etməyəcəklər;
- Trabzon-Rum İmperiyasına dəstək verməyəcəklər [2, 291-292].

Müqavilədən qısa bir müddət sonra Fateh Sultan Mehmedin Trabzona yürüş etməsi Bayandurlu sarayında tədirginlik yaratmış, Uzun Həsən qohumluq əlaqələri yaratdığı Trabzonu müdafiə etmək məsələsində özünü Osmanlı dövləti qarşısında gücsüz hiss etdiyinə görə, Sara Xatunu yenidən II Mehmedin düşərgəsinə göndərmişdir. Beləliklə, II Mehmet Trabzona yürüş etdiyi zaman Sara Xatunu özü ilə aparmış, Trabzon məsələsində Uzun Həsənin əl-qolunu bağlamışdır. Həsən bəy Rumlunun "Əhsən-ət Təvarix" əsərində yazıldığı kimi Sara Xatunun Trabzonun alınmasından sonra geri göndəriləcəyini bildirən II Mehmed imperiyanı ələ keçirdikdən sonra varislik məsələsi ucbatından xəzinin bir hissəsini Sara Xatunla bölüşmüşdür [1, 149].

Sara Xatun dövlət idarəçiliyindəki rolunu təkcə, Məmlüklər və Osmanlılarla beynəlxalq münasibətlərin tənzimlənməsində deyil, həmçinin daxili idarəçilikdə də Xarputun idarə edilməsi zamanı bölgənin zaviyələrinin, məscidlərinin inşa olunması və bundan başqa bütün memarlıq işlərinin qaydaya salınmasında öz əhəmiyyətini ortaya qoymuşdur. Bundan başqa, Sara Xatuna aid Keltitdə (müasir Türkiyə ərazisi – Z.A) üzərində "Sara Xatun valide-i Uzun Həsən" yazılan bir zaviyə də mövcuddur [2, s.298].

***Nəticə.*** Sara Xatun yalnız Şərqdə deyil, Avropada da məşhurlaşmış tarixi şəxsiyyətlərdən biri kimi hesab olunmuşdur və olunmaqdadır. Məsələn, 1473-cü ildə Bayandurlu Uzun Həsənin sarayına gön-

dərilmiş Venesiya səfirinə Venesiya doju tərəfindən verilmiş məktubda da Sara Xatunun daxili və xarici siyasətdəki rolunun qiymətləndirilməsi buna ən bariz nümunədir [3, 97-98].

Hökmdarların taxta keçməsində təsirli rol oynayan, diplomatik məsələlərdə mühüm missiyaları üstələyən, ən azı hökmdar qədər sözü keçən Baharlı və Bayandurlu sülalələrinə mənsub qadınlar daxili siyasətdə hökmdarın yanında "ikinci idarəçi" roluna sahib əhəmiyyətli şəxsiyyətlər olmuşdurlar. Sara Xatunun diplomatik siyasəti məhz tarixşünaslığımızda bu cür dəyərləndirildiyi üçün, onun "Azərbaycanın ilk diplomatik qadını" adlandırılması da əbəs yerə olmamışdır.

## ƏDƏBİYYAT

1. Mahmudov Yaqub. Azərbaycan diplomatiyası (Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). Bakı, Təhsil, 2006, 416 s.
2. Arayancan Atıcı Ayşe. Akkoyunlu ve Karakoyunluda kadının devlet yönetimi ve diplomasideki önemine iki örnek: Hatun Can Begüm ve Sara Hatun // Türkiyat Araştırmaları Dergisi, Sayı 29, 2011, s.285-301. - https://dergipark.org.tr/tr/pub/sutad/issue/26255/276587 [20.04.2023].
3. Kılıç Remzi. Fatih Devri (1451-1481) Osmanlı-Akkoyunlu İlişkileri // Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt 1, Sayı 14, 2003, s. 95-118. - https://dergipark.org.tr/tr/pub/erusosbilder/issue/23747/252988 [20.04.2023].
4. Şemşek Vesile. Türk İslam Tarihinin ilk diplomat hanımı Sara Hatunun siyasi faaliyetleri üzerine bazı mülahazalar // The Journal of Social Science, cilt 4, sayı 7, 2020, s. 349-358. - https://www.acarindex.com/the-journal-of-social-science/turk-islam-tarihinin-ilk-diplomat-hanimi-sara-hatunun-siyasi-faaliyetleri-uzerine-bazi-mulahazalar-1123691 [20.04.2023].

**ZEYNAB ALISHOVA**
*Second year master's student of Azerbaijan University majoring in "Ancient and Medieval History of Azerbaijan".*

# THE ROLE OF SARA KHATU IN BAYANDURLU-MAMLUK AND BAYANDURLU-OTTOMAN RELATIONS

Women played a very important role in society, diplomacy and state administration in Baharli and Bayandurlu states, as is often found in the administration system of Turkish states. In particular, women who were wives and mothers of rulers performed various and important missions in the internal and external relations of the state and gave a very impressive direction to the state policy and diplomatic relations. We can give examples of those female personalities, Khatun Jan Beyimi from Baharli state and Sara Khatunu from Bayandurlu state.

*Keywords*: Bayandurlu, Sara Hatun, Woman, Diplomacy, Goverments.

*Daxil olma tarixi*: 20.04.2023-cü il.
*Çapa imzalanma tarixi*: 10.05.2023-cü il.

***Çapa hazırlayan:*** **Lamiyə Ruintən**

Çapa imzalanmışdır: 10.05.2023.
Kağız formatı: 60x84 1/16 Həcmi:  ç.v. Sayı: 100

"Elm və təhsil nəşriyyatı"nın mətbəəsində hazır pozitivlərdən çap olunmuşdur